# “Kooperasiya” elmi-praktiki jurnal

# Научно-практический журнал “Кооперация”

# Scientific-practical journal “Cooperation”

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 3 (70)-2023

**TƏSİSÇİ: AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ**

---

**Redaksiya heyəti:**

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof., Əməkdar elm xadimi, Bəyalı ATAŞOV **(baş redaktorun müavini)**
i.e.n., dos. Samirə MƏMMƏDOVA **(məsul redaktor)**
i.e.d., prof. AMEA-nın həqiqi üzvü Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. Vüsal QASIMLI
i.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Aygün QULİYEVA
i.e.d., prof. İslam İBRAHİMOV
i.e.d., prof. Şəfa ƏLİYEV
i.e.d., dos. Rəsmiyyə ABDULLAYEVA
i.e.d., dos. Möhübbət HÜSEYNOV
i.e.n., dos. Tahir ŞÜKÜROV

---

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı”na daxil edilmişdir.*

*Redaksiyanın ünvanı:*
AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 93.
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: aku1964@mail.ru
info@aku.edu.az
web: www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

***Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU***
***Kompüter və dizayn: Hacı İSMAYILOV***

# MÜNDƏRİCAT

## I BÖLMƏ.
## AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI PROBLEMLƏRİ

*Azər Ağazeynal oğlu QURBANZADƏ*
Dövlətin aqrar siyasətinin ərzaq təminatının yaxşılaşdırılmasında rolu........................................4

*Afiq Cavanşir oğlu NƏSİBOV*
Aqrar-sənaye kompleksində biznesin davamlı inkişafının təmin edilməsinin rəqabət amili..........11

*Famil Vəli oğlu RÜSTƏMOV*
Azərbaycanda kənd yerlərinin inkişafında aqrar turizmin rolu və əhəmiyyəti...............................21

*Əkrəm Niyazi oğlu HƏSƏNZADƏ*
Aqrar sahədə innovativ texnologiyaların tətbiqi mərhələləri........................................................28

*Qurban Rauf oğlu MİRZƏYEV*
Aqrar sahədə lizinq əməliyyatlarının auditi, onun müasir metod və metodoloji əsasları................35

*Xanım Ehtibar qızı HƏSƏNOVA, Fərid Şakir oğlu VƏLİYEV*
Kənd təsərrüfatı məhsullarının keyfiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri.....45

## II BÖLMƏ.
## MALİYYƏ MƏSƏLƏLƏRİ VƏ ANTİİNFLYASİYA SİYASƏTİ

*Rahib Nadir oğlu KAZIMOV, Fariz Qasım oğlu ƏMRAHOV*
Təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının təhlili metodikasının təkmilləşdirilməsi...........51

*Rauf Mirzağa oğlu ALLAHYAROV*
Müəssisələrin maliyyə uçotunun tərtibi sistemində kapitalın saxlanması və mənfəətin tanınması istiqamətləri..........................................................................................................58

*Pərvin Hüseyn oğlu İDRİSLİ*
Kredit resursları maliyyə təminatının və sabitliyinin əsas vasitələrindən biri kimi......................68

*Səbuhi Mübariz oğlu ABBASOV*
İnkişaf etmiş ölkələrdə aparılan antiinflyasiya siyasətinin əsas istiqamətləri..............................75

*Həsən Vüqar oğlu QƏNBƏROV*
Azərbaycanda bank sektorunun inkişaf göstəriciləri...................................................................83

*Rauf Qədir oglu MUSTAFAYEV, Əsgər İmaməli oğlu ƏLİYEV*
Beynəlxalq qiymətləndirmə standartları.........................................................................................89

## III BÖLMƏ.
## ÜMUMİ İQTİSADİ PROBLEMLƏR

*Nadir Bəyməmməd oğlu ƏKBƏROV*
İqtisadi artımın mahiyyəti və nəzəri-metodoloji əsaslarına baxış.......................................101

*Eldost Şahmirzə oğlu SƏFƏRLİ*
Milli iqtisadiyyatın formalaşmasında dağ-mədən sənayesinin rolu, mövcud vəziyyəti və perspektivləri.......................................110

*Rza Tofiq oğlu MİRZƏYEV, Şəms Teyyub qızı ƏLİYEVA*
Dövlətin iqtisadi təhlükəsizliyinin reallaşdırılması mexanizmi.......................................121

## IV BÖLMƏ.
## SOSİAL MÜNASİBƏTLƏR, İNSAN KAPİTALI VƏ ƏMƏK POTENSİALININ FORMALAŞDIRILMASI

*Müslüm Hətəm oğlu NƏZƏROV*
Sosial tərəfdaşlıq və sosial münasibətlərin formalaşmasının fəlsəfi əsasları.......................................130

*Fərhad Nəcəf oğlu NƏSİBOV, Əkimə Əmir qızı ƏHMƏDOVA*
Müasir dövrdə insan kapitalının yaranmasının mahiyyəti və xüsusiyyətləri.......................................142

*Elvin Nofəl oğlu MƏHƏRRƏMOV, Əkimə Əmir qızı ƏHMƏDOVA*
İnsan kapitalı və onun qiymətləndirilməsi.......................................149

*Gültac Dilqəm qızı BAYRAMLI, Zaur Rauf oğlu ƏSƏDOV*
Əmək potensialının formalaşdırılmasının əsasları.......................................156

## V BÖLMƏ.
## KLASTERLƏRİN VƏ SAHİBKARLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİ

*Nərgiz Fikrət qızı HÜSEYNOVA*
Klasterlərin emal sənayesi sahələrinin inkişafında rolu.......................................163

*Günel Mirzə qızı MƏMMƏDZADƏ*
Azərbaycanda kiçik və orta sahibkarlıq fəaliyyətinin sistemli təhlili.......................................171

*Məleykə Eldəniz qızı XƏLƏFOVA, Rövşən Ağahüseyn oğlu HƏSƏNOV*
Sahibkarlıq subyektlərinin fəaliyyətində risklərin hesablanması metodları və idarə edilməsi istiqamətləri.......................................178

# I BÖLMƏ.
# AQRAR-ƏRZAQ KOMPLEKSİNİN İNKİŞAFI PROBLEMLƏRİ

UOT 338.43

*Azər Ağazeynal oğlu QURBANZADƏ*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Kooperasiya Universiteti*
*"Kommersiya" kafedrası*
*azercooperation@hotmail.com*

## DÖVLƏTİN AQRAR SİYASƏTİNİN ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINDA ROLU

*Xülasə*

**Tədqiq olunan mövzunun aktuallığı**. Qloballaşma şəraitində ölkənin ərzaq təminatının yaxşılaşdırılması mühüm strateji əhəmiyyət kəsb edir. Bu strateji əhəmiyyət, ilk növbədə, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, iqtisadi və sosial əlçatanlığın qorunub saxlanılması, kənd təsərrüfatı və ərzaq məhsullarının çatdırılması baxımından infrastruktur sisteminin inkişaf etdirilməsini və eləcə də, kənd təsərrüfatı və əmtəə istehsalçılarının iqtisadi vasitələrlə dəstəklənməsi ilə müşayiət edilir. Ərzaq təminatının yaxşılaşdırılmasında dövlətin aqrar siyasəti prioritet rola malikdir. Bu prioritetlik ilk növbədə,ölkənin iqtisadi maraqlarının qorunması ilə sıx bağlıdır. Dövlət tərəfindən həyata keçirilən aqrar siyasət, əslində, iqtisadiyyatın dövlət tənzimlənməsinin mühüm tərkib hissəsini təşkil etməklə, strateji baxımdan ərzaq təminatının yaxşılaşdırılmasına, aqrar-əmtəə istehsalçılarının gəlirlərinin artırılmasına, əhalinin bütün təbəqələrinin ərzaq bazarından parter əsaslarla istifadə etmələrinə istiqamətlənir.

**Tədqiqatın metodları**. Tədqiqatın metodları baxımından qeyd etmək olar ki, məqalənin hazırlanmasında iqtisad elmində geniş istifadə olunan bir qrup metodlardan istifadə edilmişdir ki, bu metodlar içərisində təhlil və ümumiləşdirmə metodlarına daha çox üstünlük verilmişdir.

**Problemin öyrənilməsi**. Problemin öyrənilməsi baxımından müxtəlif tədqiqatlar diqqəti çəkir və dövlətin aqrar siyasətinin kənd təsərrüfatında ərzaqla təminatı haqqında problemlərin aktual olduğunu nəzərə alaraq, bu sahəyə ayrı-ayrı iqtisadçı alimlərin münasibəti sərgilənmişdir.

**Tədqiqatın hipotezi**. Qloballaşma şəraitində ərzaq təminatının yaxşılaşdırılmasının mühüm strateji əhəmiyyət kəsb etdiyi vurğulanır. Qeyd edilir ki, dövlətin aqrar siyasəti əsas etibarı ilə strateji hədəflərin qorunub saxlanılmasına istiqamətləndiyindən ərzaq təminatı da bu hədəflər içərisində önəmli rol oynayır və prinsip etibarı ilə aqrar siyasət ərzaq təminatının yaxşılaşdırılmasında başlıca hərəkətverici qüvvə kimi çıxış edə bilər.

**Tədqiqatın məqsədi**. Tədqiqatın məqsədi, dövlətin aqrar siyasətinin, kənd təsərrüfatının ərzaq təminatının yaxşılaşdırılmasında rolunu müəyyənləşdirməkdən, ərzaq təminatının iqtisadi və sosial əlçatanlığının qorunub saxlanılmasına əlverişli şərait yaradılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış fikirlər irəli sürməkdən ibarətdir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqatın elmi yeniliyini aqrar siyasətin elementlərinin ərzaq təhlükəsizliyinə təsir aspektlərini qiymətləndirməkdən,aqrar siyasətin prioritet istiqamətləri baxımından Covid-19 pandemiyasından sonrakı dövrdə iqtisadi aktivliyin təmin edilməsinin, ərzaq təminatının yaxşılaşdırılmasına təsiri ilə bağlı mexanizmləri ön plana çəkməkdən ibarətdir.

***Açar sözlər: dövlətin aqrar siyasəti, proteksionist fəaliyyət, ərzaq təminatı, ərzaq təhlükəsizliyi, iqtisadi fəallıq, investisiya fəallığı, iqtisadi əlçatanlıq, sosial əlçatanlıq.***

### *Giriş*

Cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, dövlətin iqtisadi siyasətində də zəruri dəyişikliklər baş verir. Xüsusilə, qloballaşma prosesinin sürətlə irəliləməsi və demək olar ki, dünya iqtisadiyyatının sahə və ərazi kəsimlərinə əhəmiyyətli dərəcədə nüfuz etməsi, mahiyyət etibarilə, dövlətin iqtisadi siyasətində, o cümlədən, bu siyasətin mühüm tərkib hissəsini təşkil edən aqrar siyasətdə də əhəmiyyətli struktur dəyişikliklərinin baş verməsinə gətirib çıxarır. Müasir şəraitdə dövlətin aqrar siyasəti, ilk növbədə, kənd təsərrüfatının və onunla qarşılıqlı əlaqəyə malik olan sahələrin, xüsusilə, emal sənayesinin rəqabət qabiliyyətinin artırılmasına, kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılmasına hesablanır. Lakin bütün bunlara baxmayaraq, dövlətin aqrar siyasətinin əsas məqsədini ərzaq təminatının yaxşılaşdırılması və ən başlıcası, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi təşkil edir. Ərzaq təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlər iqtisadi və sosial əlçatanlığı özündə birləşdirdiyindən, dövlət tərəfindən həyata keçirilən aqrar siyasət, məhz qloballaşma şəraitində, qlobal rəqabət mühitində baş verən destruktiv tendensiyaların, bütövlükdə aqrar ərzaq kompleksinə və o cümlədən, kəndin sosial-iqtisadi həyatına və milli ərzaq bazarlarına təsirinin neytrallaşdırılmasına istiqamətlənir. Beləliklə, dövlətin aqrar siyasəti, qloballaşma şəraitində dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla iqtisadi, hüquqi, sosial, ekoloji, texnoloji və digər sahələrdə zəruri tənzimləmə tədbirlərinin məcmusunu özündə əks etdirir.

**Qloballaşma və kənd təsərrüfatı**. Dünya iqtisadiyyatında qloballaşma prosesi uzunmüddətli tarixi dövrləri özündə əks etdirmişdir. Ümumiyyətlə, XX əsrin sonlarında, əslində, dünya təsərrüfatçılıq sistemində qloballaşma prosesinin yeni dalğası müşahidə edilməyə başlamışdır. Bu dalğa, ilk növbədə, dağılmalar və dağıtmalar fonunda vahid iqtisadi gücün yaranmasını və həmin iqtisadi gücün, bütövlükdə, dünya təsərrüfat sisteminə və eləcə də, dünya bazarına hökm etməsi ilə səciyyələnmişdir. Əslində, qloballaşma prosesinin başlıca məqsədi də sürətlə yayılma deməkdir. Qloballaşma prosesi, ümumiyyətlə, əmtəələrin, texnologiyaların, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətini özündə əks etdirir və təbii ki, bu cür yayılmada müqayisəli üstünlüklərin qorunub saxlanılması və rəqabət üstünlüklərinin hakim mövqe tutması ön plana çəkilir. Daha doğrusu, istehsal edilən əmtəə kifayət qədər rəqabət qabiliyyətlidirsə,onun istehsalçıları öz məhsullarını dünyanın müxtəlif bazarlarına daşıya biləcək və bu daşınma nəticəsində əhəmiyyətli mənfəət əldə etmək imkanları təmin ediləcək. Beləliklə, əslində iqtisadi vasitələrlə, daha doğrusu, mülayim güc hesabına inkişaf etmiş dünya nəhənglərinin, demək olar ki, dünyanın ayrı-ayrı bazarlarına çıxması imkanları artır və bu da mahiyyət etibarilə, dünyanın digər zəif, daha doğrusu, inkişaf etməkdə olan ölkələrini mülayim gücün təsiri altında saxlamaq meyillərini özündə ehtiva edir.

Qloballaşmanın kifayət qədər uzunmüddətli tədqiqatçılarından olan A.Q.Dugin, V.O.İnozemçev, V.S.Pankov, O.A.Tarasova və başqaları hesab edirlər ki, müasir şəraitdə davam edən qloballaşma, əslində, ABŞ-ın maraqları çərçivəsində davam edir. Bu cür maraqların gerçəkləşdirilməsi fonunda reallaşan qloballaşma prosesinin başlıca məqsədi isə,əslində ABŞ dollarının öz fəaliyyət zonasını maksimum genişləndirməsi ilə bağlıdır [1, s. 169]. İnozemçev isə hesab edir ki, qloballaşma prosesi, əslində, Avropa kapitalizminin daha hakim mövqe tutmasına istiqamətlənmiş davamlı prosesi özündə əks etdirir [2, s. 42].

Qloballaşma, ümumiyyətlə, iqtisadiyyatın strukturuna, sahə və ərazi kəsimlərinə əhəmiyyətli dərəcədə nüfuz edir. Əslində, iqtisadiyyatın beynəlmiləlləşməsi və qloballaşma prosesinin təhlili göstərir ki, qlobal və rəqabətli dünyanın inkişafının tarixi prosesində, qloballaşmanın özündən belə qaçmaq mümkün deyil. Məhz bütün bunları əsas götürərək belə qənaətə gəlmək olar ki, qloballaşma iqtisadiyyatın bütün sektorundan, eləcə də, əhalinin məişət həyatından və ən başlıcası, kənddən və kənd təsərrüfatından da yan keçməyəcəkdir. Bu, iqtisadi münasibətlərin mahiyyətindən irəli gəlir. Modelləşmə və transformasiya inteqrasiya münasibətlərinin dərinləşməsi, bu gün kənd təsərrüfatının siyasi və iqtisadi şəraitini də nəzərəçarpacaq dərəcədə dəyişir [3, s.17-19]. Doğrudur, qloballaşmanın yuxarıda qeyd etdiyimiz cəhətləri, daha doğrusu, kənd təsərrüfatı və kənddə əhəmiyyətli texnoloji və struktur dəyişikliklərini səciyyələndirməsi mövcud reallıqları özündə əks

etdirir. Lakin bütün bunlarla belə, etiraf etmək lazımdır ki, əslində, qloballaşma prosesinin dərinləşməsi mahiyyət etibarilə, kifayət qədər fərqli təzahürləri də doğurur. Bu təzahürlər, xüsusilə, inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatının qərbləşməsinə, kənd həyatının qərbləşməsinə gətirib çıxarır və bu qərbləşmə tendensiyaları təbiidir ki, öz bərabərində də kifayət qədər destruktiv tendensiyalar doğurur. Bu tendensiyalar ilk növbədə, dempinq təzahürləri hesabına ayrı-ayrı dünya nəhənglərinin inkişaf etməkdə olan ölkələrin milli ərzaq bazarlarına daha ucuz qiymətə məhsul göndərməsini özündə birləşdirir ki, bu da maya dəyərindən aşağı qiymətlərlə ilkin dövrlərdə ərzaq bazarında stimullaşdırma meyillərini yaradır və sonrakı dövrlərdə isə bütövlükdə ərzaq bazarını öz təsir dairəsinə çevirir, sonradan isə yerli kənd təsərrüfatı əmtəə istehsalçılarının, əslində, fəaliyyəti tam mənası ilə staqflyasiyaya məruz qalır.

Qloballaşma aqrar sahənin texnoloji cəhətdən təchiz edilməsi imkanlarını genişləndirsə də, kənddə aqrar sənaye inteqrasiyası və sosial dəyişikliklər prosesini gücləndirsə də, lakin bütün bunlara baxmayaraq, dərinləşməkdə olan qloballaşma münasibətləri bir sıra hallarda dövlətüstü bir prosesə çevrilir. Daha doğrusu,inhisar strukturları, təbii torpaq, əmək və digər kənd təsərrüfatı və kənd sərvətlərindən istifadə edilməsi prosesi daha sürətlə irəliləyir. Belə bir şəraitdə,mövcud daxili kənd və regional münasibətlər sistemi deqradasiyaya uğrayır və kənd təsərrüfatı sosial-iqtisadi sistem kimi tam mənası ilə dünya bazarındakı inhisarçı mövqe tutan transmilli korporasiyaların sərəncamına, inhisarçılığına keçir [4, s. 161].

**Qloballaşma şəraitində dövlətin aqrar siyasətinin zəruriliyi.** Dövlətin aqrar siyasəti qloballaşma şəraitində adı çəkilən prosesin zərərli təsirlərinin neytrallaşdırılmasına istiqamətlənir və aşağıdakı arqumentlərlə şərtlənir:

- dünya təsərrüfatçılıq sisteminə inteqrasiya şəraitində liberal iqtisadi münasibətlərin mövcudluğu nəticəsində, kənd təsərrüfatına və eləcə də, emal sənayesinə xarici bazarın destruktiv təzahürlərinin artması;
- aqrar və ərzaq bazarlarında baş verən kanitur dalğalanmaları;
- kənd təsərrüfatının risklərdən asılı olması səbəbindən təbii iqlim şəraitinin kənd təsərrüfatına mənfi təsirləri;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin iqtisadiyyatın digər sahəsində fəaliyyət göstərən əmtəə istehsalçılarının gəlirləri ilə müqayisədə aşağı olması;
- kənd təsərrüfatı məhsullarının tez xarab olması və daşınma proseslərinə adekvat reaksiya göstərə bilməməsi;
- kəndin sosial-iqtisadi inkişafının yerli əmtəə istehsalçılarının imkanları daxilində həyata keçirilə bilməməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyətinin sığorta proseslərinə ehtiyaclı olması və bu prosesin dövlətin iştirakı ilə yerinə yetirilməsi;
- kənd təsərrüfatı və ərzaq məhsulları bazarının xarici rəqabətin əlverişsiz təzahürlərindən müdafiəsi (daxili bazarın qorunması);
- yerli kənd təsərrüfatı əmtəə istehsalçılarının fəaliyyətinin iqtisadi vasitələrlə stimullaşdırılması;
- qlobal rəqabət mühitində fəaliyyət göstərən transmilli korporasiyaların bu və ya digər ölkələrin, daha doğrusu, inkişaf etməkdə olan ölkələrin kənd təsərrüfatı və ərzaq məhsulları bazarına dempinq təzahürlərinin artması (bazarı ələ keçirmək məqsədi ilə).

Aparılan araşdırmalar göstərir ki, dünyanın bütün ölkələrində aqrar əmtəə istehsalçılarının maraqlarının qorunması məqsədi ilə dövlət tərəfindən aqrar siyasət reallaşdırılır. Lakin bütün bunlara baxmayaraq, iqtisadi sistemin tipindən və xarakterindən asılı olaraq inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkələrdə dövlətin aqrar siyasətinin məqsədləri və yönü fərqli xarakter daşıyır. Bu ilk növbədə inkişaf etmiş ölkələrin maraqlarının qorunması,inkişaf etmiş ölkələrin daha çox bazarlar əldə etməsi ilə sıx bağlıdır. İnkişaf etməkdə olan ölkələrdə isə dövlətin aqrar siyasəti əsas etibarilə müdafiə yönündə formalaşır və bazarların müdafiəsinə istiqamətlənir. İnkişaf etmiş ölkələrdə isə dövlətin aqrar siyasəti yeni bazarlar ələ keçirmək, yeni bazarlarda möhkəmlənmək siya-

sətinin davamlı xarakter almasına xidmət edir.

Kənd təsərrüfatına, yerli istehsalçılara dövlət dəstəyinin əsas istiqamətlərindən biri aqrar proteksionizmdir. Dünya bazarı elə bir mühitdə fəaliyyət göstərir ki, dünya qiymətləri ixracatçı ölkələrin istehsalı üçün ən yaxşı şərtlərlə müəyyən edilir. Eyni zamanda ən yaxşı istehsal şəraiti dedikdə, təbii şərait (torpaq və iqlim), təsərrüfat mexanizmi və maddi texniki baza,eləcə də, inkişaf etmiş infrastruktur sistemləri başa düşülür. Bütün digər ölkələr bu ixracatçı ölkələrlə, ilk növbədə ABŞ ilə birbaşa rəqabət apara bilmirlər. Beləliklə, əksər ölkələrdə yerli istehsalçıları rüsumlar, kompensasiya ödənişləri, subsidiyalar və s. sistemlər vasitəsi ilə qorumaq üçün proteksionist siyasət həyata keçirilir. Tipik nümunə, Avropa Birliyi və Yaponiya ola bilər. Avropa İttifaqı və Yaponiyanın proteksionizmi ləğv etmək qərarına gəlməsini təsəvvür etmək mümkün deyildir. Burada, əslində, onun müəyyən qədər yumşaldılmasından və ona böyük elastiklik verilməsindən bəhs etmək olar. Şübhəsiz ki, proteksionizm yerli istehsalçıların dəstəklənməsinin vacib elementi kimi mövcud olmağa davam edəcəkdir və aqrar siyasətin ən mühüm istiqaməti kimi xarakterizə olunacaqdır [5, s. 24]. Müəllifin fikirləri ilə razılaşmaqla yanaşı əlavə etmək olar ki, aqrar proteksionizm qloballaşma şəraitində, bütövlükdə, aqrar bazarların müdafiə edilməsinin, yəni dövlətin strateji maraqlarının qorunmasının mühüm tərkib hissəsi kimi çıxış edir və aqrar siyasətin mühüm istiqamətlərindən biridir. Ümumiyyətlə, dünya ölkələrində aqrar siyasət təkcə aqrar proteksionizm vasitəsilə gerçəkləşdirilmir. Burada istehsalçıların stimullaşdırılması, iqtisadi vasitələrdən istifadə edilməsi və digər bu kimi vasitələr, o cümlədən, sığorta sistemləri və yaxud da fərqli iqtisadi proqramların gerçəkləşdirilməsi hesabına kənd təsərrüfatı əmtəə istehsalçılarının xarici rəqabətin əlverişsiz təzahürlərindən qorunması kimi vasitələrdən istifadə edilir.

**Dövlətin aqrar siyasət mexanizmlərinin ərzaq təminatına təsiri**. Dövlətin aqrar siyasətinin əsas hədəflərindən biri, ərzaq təhlükəsizliyinin təmin edilməsinə əlverişli şərait yaratmaqdan ibarətdir. Ərzaq təhlükəsizliyi ilk növbədə siyasi asılılığın qarşısının alınması istiqamətində mühüm addım hesab edilir. Ərzaq təminatı isə əhalinin ərzaq məhsulları ilə etibarlı və fasiləsiz şəkildə təchiz edilməsi proseslərində sosial və iqtisadi əlçatanlığın reallaşdırılmasına xidmət edir.Bu baxımdan dövlətin aqrar siyasəti vasitəsilə ərzaq təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlər gerçəkləşdirilir. Ümumiyyətlə, dünya praktikasında dövlətin aqrar siyasəti məhz ərzaq təminatının və ərzaq təhlükəsizliyinin qorunmasında əhəmiyyətli rol oynayır. XXI əsrin əvvəllərindən etibarən qloballaşma prosesinin yeni keyfiyyətdə və yeni dalğada sürətlənməsi məhz dövlətin aqrar siyasətinə yeni impulslar və yeni vektorlar da verir. Bu yeni vektorlar isə ərzaq təminatının gerçəkləşdirilməsi və qlobal çağırışların daha adekvat şəkildə qarşılanmasına xidmət edir.

İ.L.Maçenoviç və A.M.Xodaçek hesab edirlər ki, dövlətin aqrar siyasəti və bütövlükdə ərzaq məhsullarının istehsalının dövlət tənzimlənməsinə istiqamətlənmiş tədbirlər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə aşağıdakı istiqamətləri özündə birləşdirir:

1. İstehsalçıların gəlirlərinin dəstəklənməsi. Bu proses bir qayda olaraq, birbaşa dövlət yardımları və büdcə ödəmələri vasitəsi ilə həyata keçirilir və əsas etibarilə aşağıdakı istiqamətlərdə gerçəkləşdirilir:

- kompensasiya ödənişləri;
- təbii fəlakət nəticəsində yaranan itkilərin qarşısının alınması ilə bağlı ödəmələr;
- istehsalın yenidən təşkili ilə əlaqədar yarana bilən itkilərin kompensasiya edilməsi.

2. Qiymət müdaxilələri:kənd təsərrüfatı məhsullarına daxili qiymətlərin dəstəklənməsi:

- kvota və tariflərin müəyyənləşdirilməsi;
- ərzaq məhsullarının idxalı və ixracına vergilərin müəyyənləşdirilməsi.

3. İstehsal vasitələrinin istehlakı ilə əlaqədar xərclərin kompensasiyası:

- gübrə,yem və digər kimyəvi mühafizə vasitələrinin əldə edilməsinə güzəştli vergi sisteminin tətbiqi və ya onların əldə edilməsinin subsidiyalaşdırılması;
- kreditlərə görə faizlərin ödənişlərinin subsidiyalaşdırılması;
- sığorta əmlakı üzrə ödənişlərin subsidiyalaşdırılması.

4. Ərzaq bazarlarının inkişafı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər:

- bazar proqramlarının həyata keçirilməsi;
- məhsulların əldə edilməsi və saxlanılması ilə bağlı subsidiyalar;
- kənd təsərrüfatı məhsullarının daşınması ilə bağlı nəqliyyat proseslərinin həyata keçirilməsinə subsidiyalar.

5. Dövlət büdcəsindən maliyyələşmə də daxil olmaqla, istehsal infrastrukturunun inkişafına zəruri müdaxilələr:

- təsərrüfat obyektlərinin tikintisi;
- irriqasiya layihələrinin həyata keçirilməsi;
- torpaqların rekonstruksiyası;
- fermer birliklərinin yaradılması.

6. İstehsalın inkişafı ilə bağlı regional proqramların işlənib hazırlanması. Adı çəkilən istiqamət, bir qayda olaraq, proqram xarakteri daşıyır və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu proqram xarakterli tədbirlərin dövlət büdcəsindən maliyyələşdirilməsinə geniş önəm verilir.

7. Makroiqtisadi siyasət. Adı çəkilən siyasət aqrar sənaye kompleksinin dövlət tərəfindən tənzimlənməsinin metod və vasitələrini özündə birləşdirir və kənd təsərrüfatı istehsalının iqtisadi cəhətdən səmərəlili fəaliyyət göstərməsinə istiqamətlənir və aşağıdakı prosesləri özündə əks etdirir:

- güzəştli vergiqoyma siyasətinin tətbiq edilməsi;
- milli valyutanın dəstəklənməsi;
- xarici ticarət fəaliyyətinin tənzimlənməsi [6, s. 59-60]. Müəllifin fikirlərindəki qeyd edilən prioritetlər daha çox iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə dövlətin aqrar siyasətinin, ərzaq təminatının yaxşılaşdırılması baxımından istifadə etdiyi vasitələri özündə birləşdirir. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrin dövlət büdcəsi kifayət qədər iri həcmlidir və həmin büdcə vəsaitləri hesabına aqrar sahənin dəstəklənməsinə istiqamətlənmiş geniş miqyaslı tədbirlər də gerçəkləşdirilir. Lakin inkişaf etməkdə olan ölkələrdə dövlətin aqrar siyasətinin yuxarda qeyd edilən istiqamətlərdə geniş spektrlərdə formalaşdırılması dövlət büdcəsinin imkanları baxımından yetərli hesab olunmur. Lakin bütün bunlara baxmayaraq dövlətin aqrar siyasəti əsas etibarilə daha çox ərzaq təminatının yaxşılaşdırılmasına istiqamətlənməli, əhalinin ərzaq məhsulları ilə davamlı və etibarlı təminatının yaxşılaşdırılmasına yönəldilməlidir.

## *Nəticə*

Fikrimizcə, qloballaşma şəraitində dövlətin aqrar siyasəti ərzaq təminatının yaxşılaşdırılmasına yönəldilməli, xüsusilə, aztəminatlı əhali kateqoriyalarının ərzaq yardımları ilə təmin olunması ön plana çəkilməlidir. Məsələ burasındadır ki,aztəminatlı əhali kateqoriyalarının dövlət tərəfindən zəruri ərzaq yardımları ilə dəstəklənməsi onların fiziki mövcudluğuna əhəmiyyətli təsir göstərir və əsas etibarilə həm onların ərzaq bazarından parter əsaslarla istifadə imkanlarını genişləndirir,həm də bütövlükdə sahənin iqtisadi maraqlarının gerçəkləşdirilməsində önəmli rol oynayır.

## ƏDƏBİYYAT


1. Тарасова, О.А. Глабализация как экономический процесс: понятие,этапы // Вестник ЯрГУ.Серия “Гуманитарные науки”. – 2013. – N 1 (23), s. 169
2. Иноземцев, В. О призраках й реальности // Свободная мысль. – 2003. – N4,s. 42.
3. Томчак, Ф. Село и сельские территории и современные вызовы гловализации / Ф.Томцак // Труды вольного экономического общества России. – 2008. – Т. 99. –С.14-47, s. 17-19
4. Никифоров,Л.В. Состояние и развитие российского села в условнях вызовов глобалнзацни // Л.В.Никифоров // Труды вольного экономического общества России. – 2010. – Т.99. – С 161-173, s. 161.
5. Аграрная Европа в XXI Веке. Под общей редакцией академика РАН Э.Н. Крылатых, Москва 2015, s. 24.
6. İ.L.Maçenoviç, A.M.Xodaçek “Продовольственная безопасность и продовольственная политика” Sankt-Peterburq 2004, s.136, s. 59-60.

***Азер Агазейнал оглы Гурбанзаде***
***доктор философии по экономике, доцент***
***Азербайджанский Университет Кооперации***
***кафедра “Коммерции”***
***azercooperation@hotmail.com***

**Роль аграрной политики государства в улучшении продовольственного обеспечения.**

***Резюме***

**Актуальность исследуемой темы.** Улучшение продовольственного обеспечения страны в условиях глобализации имеет стратегическое значение Это стратегическое значение, прежде всего, заключается в обеспечении продовольственной безопасности населения, сохранении и поддержании экономического и социального доступности, развитие системы инфраструктуры в части доставки сельскохозяйственной и продовольственной продукции, а также сопровождается поддержкой сельскохозяйственных и товаропроизводителей экономическими средствами. Приоритетная роль аграрной политики государства в улучшении продовольственного обеспечения.

**Методы исследования.** В части методов исследования можно отметить, что при подготовке статьи использовалась группа широко используемых в экономической науке методов, среди которых предпочтение отдавалось методам анализа и обобщения.

**Изучение проблемы.** В плане изучения проблемы заслуживают внимания различные исследования, а с учетом актуальности проблем обеспечения продовольствием в сельском хозяйстве аграрной политики государства показано отношение отдельных экономистов к этой области.

**Гипотеза исследования.** Подчеркнуто, что улучшение продовольственного обеспечения в условиях глобализации имеет стратегическое значение. Отмечено, что поскольку аграрная политика государства в основном направлена на сохранение стратегических целей, продовольственное обеспечение также играет важную роль роль в этих целях, и в принципе аграрная политика является основной движущей силой в улучшении продовольственного обеспечения.

**Цель исследования.** Целью исследования является определение роли государственной аграрной политики в улучшении продовольственного обеспечения сельского хозяйства, а также выдвижение научно обоснованных представлений о создании благоприятных условий для сохранения и поддержания экономической и социальная доступность продовольствия.

**Научная новизна исследования**. Научная новизна исследования заключается в оценке аспектов влияния элементов аграрной политики на продовольственную безопасность, а с точки зрения приоритетных направлений аграрной политики в постковидный период. В период пандемии на первый план выдвигаются механизмы, связанные с воздействием обеспечения экономической активности и улучшения продовольственного обеспечения.

***Ключевые слова: государственная аграрная политика, протекционистская деятельность, продовольственное обеспечение, продовольственная безопасность, экономическая деятельность, инвестиционная деятельность, экономическая доступность, социальная доступность.***

*Azer Agazeynal Gurbanzade*
*Doctor of philosophy in economics, associate professor*
*Azerbaijan Cooperation University*
*Dep. “Commercy”*
*azercooperation@hotmail.com*

**The role of the state's agrarian policy in improving food supply**

***Summary***

**The relevance of the researched topic.** Improving the food supply of the country in the conditions of globalization is of strategic importance. This strategic importance, first of all, is the provision of food security of the population, the preservation and maintenance of economic and social accessibility, the development of the infrastructure system in terms of the delivery of agricultural and food products, and as well as, it is accompanied by supporting agricultural and commodity producers with economic means. The state's agrarian policy has a priority role in improving food supply.

**Research methods.** In terms of research methods, it can be noted that a group of widely used methods in economic science were used in the preparation of the article, and among these methods, analysis and generalization methods were more preferred.

**Study of the problem.** In terms of the study of the problem, various studies are noteworthy, and taking into account the relevance of the problems of food supply in agriculture of the state's agrarian policy, the attitude of individual economists to this field has been exhibited.

**The hypothesis of the research.** It is emphasized that the improvement of food supply in the conditions of globalization is of strategic importance. It is noted that since the state's agrarian policy is mainly directed to the preservation of strategic goals, food supply also plays an important role in these goals, and in principle, agrarian policy is the main driving force in improving food supply. can act as a force.

**The purpose of the research.** The purpose of the research is to determine the role of the state's agrarian policy in improving the food supply of agriculture, and to put forward scientifically based ideas about the creation of favorable conditions for the preservation and maintenance of the economic and social availability of food supply.

**The scientific novelty of the research.** The scientific novelty of the research consists in assessing the aspects of the impact of the elements of the agricultural policy on food security, and in terms of the priority directions of the agrarian policy, in the post-Covid-19 pandemic period, the mechanisms related to the impact of ensuring economic activity and improving the food supply are brought to the fore.

***Key words: state agrarian policy, protectionist activity, food supply, food security, economic activity, investment activity, economic accessibility, social accessibility.***

UOT 338.43

*Afiq Cavanşir oğlu NƏSİBOV*
*AKU-nun baş müəllimi, i.f.d.*
*E-mail: afig.nesibov84@mail.ru*

# AQRAR-SƏNAYE KOMPLEKSİNDƏ BİZNESİN DAVAMLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNİN RƏQABƏT AMİLİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Azərbaycanın aqrar-sənaye müəssisələrində rəqabətqabiliyyətliliyin təmin olunması problemlərini tədqiq edərək onun təkmilləşdirilməsi üzrə nəzəri-praktiki tövsiyələr hazırlamaqdır.

**Tədqiqatın metodologiyası** – sistemli yanaşma, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, səbəb-nəticə metodları istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** aqrar sahə müəssisələrinin investisiya, innovativ inkişaf, mülkiyyət münasibətlərinin transformasiyası, kreditləşmə, kiçik və orta sahibkarlığın inkişafı, kooperativ və inteqrasiya əlaqələrinin inkişafı və s. məsələlərin həllində vasitə kimi istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – aqrar sahənin rəqabətqabiliyyətliliyini müəyyən edən amillər üzə çıxarılaraq konseptual-nəzəri baxımdan şərh edilmiş, ölkə iqtisadiyyatının aqrar sektorunda biznesin inkişafının əsas istiqamətləri hazırlanmış və praktiki həyata keçirilməsi tövsiyə edilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – aqrar sektorun rəqabət qabiliyyətini müəyyən edən əsas amillər müəyyən edilərək təhlil olunmuş, ölkə iqtisadiyyatının aqrar sektorunda biznesin inkişafının əsas istiqamətləri ilə bağlı elmi cəhətdən əsaslandırılmış müvafiq təkliflər verilmişdir.

***Açar sözlər: aqrar-sənaye kompleksi, rəqabət qabiliyyəti, biznesin davamlı inkişafı, kiçik və orta müəssisələr.***

## *Giriş*

Aqrar-sənaye kompleksi müəssisələrinin rəqabətqabiliyyətliliyi rəqabətli bazarda mənfəətlə idarə etmək qabiliyyətidir. Əsas fondların planlı şəkildə yenilənməsi və dövriyyə vəsaitlərinin doldurulması üçün o, lazım olan qədər gəlirlidir.

Reallıq ondan ibarətdir ki, kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyəti son dərəcə qeyri-sabitdir, büdcə vəsaitləri və bank sektorunun imkanları məhduddur. Bu şəraitdə yalnız uğurlu emal müəssisələri investisiya resurslarını formalaşdıra bilər. Ona görə də bu gün sahənin rəqabət qabiliyyəti bütün texnoloji zəncirin - kənd təsərrüfatı xammalının istehsalından tutmuş keyfiyyətli məhsulun satışına qədərki işi ilə qiymətləndirilməlidir.

Hətta ən inkişaf etmiş ölkələr belə potensial olaraq istehsal edə bildikləri bütün məhsul çeşidləri üzrə effektiv rəqabətə nail olmaq məqsədi güdmürlər. Prioritet yalnız iqtisadiyyatın dünya bazarında rəqabət üstünlükləri əldə etmək üçün real şəraitə malik sektorlarına verilir. Sahənin rəqabət qabiliyyətinin idarə edilməsi sahəsində optimal qərarların qəbul edilməsi onun artırılması üçün amillərin müəyyən edilməsini və onların optimal birləşməsinin müəyyən edilməsini nəzərdə tutur. Kənd təsərrüfatının rəqabətqabiliyyətlilik amillərinin təhlili sahəsində tədqiqatların praktiki əhəmiyyəti onun dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rolu, aqrar-sənaye kompleksinin vəziyyətinə, kənd yerlərinin inkişafına mühüm təsiri və ölkədəki sosial vəziyyət ilə bağlıdır.

**Aqrar sahədə rəqabətqabiliyyətlilik amillərinin formalaşmasının elmi-konseptual əsasları**

Müəyyən edilmişdir ki, müasir iqtisadi ədəbiyyatda kənd təsərrüfatının rəqabətqabiliyyətlilik amillərinin təsnifatına vahid yanaşma mövcud deyildir ki, bu da onların sektorların rəqabətqabiliyyətliliyinə təsirinin müxtəlif, dəyişən gücü və nisbəti ilə bağlıdır və onların inkişafı və sahə xüsusiyyətlərinə görə rəqabət üstünlüklərinin prioritetinin dəyişməsi ilə əlaqədar olan sahədən asılıdır.

Müasir dövrdə müəssisələrdə, o cümlədən aqrar-ərzaq və emal sənayesi müəssisələrində rəqabət qabiliyyətinin müxtəlif aspektləri yerli alimlərdən İ.Alıyevin [1], B.X.Ataşovun [2], E.A.Quliyevin [4, 5] və N.C. Qafarovun [3] monoqrafiyalarında xüsusi olaraq araşdırılmışdır.

V.D.Qonçarov və A.İ.Noviçenko mezol səviyyəsində formalaşan aşağıdakı amilləri fərqləndirir: istehsal olunan məhsulların xüsusiyyətləri, texnoloji prosesin xüsusiyyətləri, ərzaq qiymətlərinin formalaşmasının sənaye xüsusiyyətləri [6, s. 20-28].

T.İ. Lenskaya aqrar sektorun rəqabət qabiliyyətini şərtləndirən altı əsas amil qrupunu müəyyən edir: kənd təsərrüfatı strategiyası və siyasəti; ümummilli iqtisadi tədbirlər; aqrar-sənaye kompleksinin hüquqi şərtləri və qanunvericiliklə tənzimlənməsi; kənd təsərrüfatı müəssisələrinin öz tədbirləri; istehsal və marketinq fəaliyyətinin səmərəliliyini təmin edən amilləri; artan rəqabət qabiliyyətini təmin edən idarəetmənin sosial-iqtisadi nəticələri [7, s. 87].

Regional kənd təsərrüfatının rəqabət qabiliyyətini nəzərə alan K.R.Saubanov onun artırılmasının əlverişli torpaq-iqlim şəraiti, yüksək ixtisaslı kadrların və kifayət qədər əmək resurslarının olması, əldə edilən heyvandarlıq və bitkiçilik məhsullarının kənd təsərrüfatı təşkilatlarında emal dərinliyi, investisiyalar kimi amillərə innovativ texnologiyaların cəlb edilməsi və maddi-texniki bazanın müasirləşdirilməsi, yüksək mexanizasiya səviyyəsi və sosial-istehsalat infrastrukturu, habelə resursa qənaət edən texnologiyaların tətbiqinə xüsusi diqqət yetirir. [8, s. 38-53].

**Azərbaycanın kənd təsərrüfatı sektorunda rəqabət qabiliyyətini müəyyən edən ən mühüm amillərin tədqiqi**

Rəqabət üstünlüklərinin müəyyən edilməsi və Azərbaycan kənd təsərrüfatının mövcud resurs potensialının müqayisəsi üçün fundamental əsas kimi M.Porter tərəfindən “milli romb” konsepsiyasına əsaslanaraq, biz bu sahənin rəqabət qabiliyyətini müəyyən edən ən mühüm amilləri müəyyən etdik. [9, s. 205-254].

*İstehsal amilləri.* Kənd təsərrüfatında torpaq, təbii mənşəli istehsal vasitələri, təbii-iqlim şəraiti, su, istilik və s. kimi amillər digər sahələrə nisbətən daha vacibdir. Bu əsas amillərin (istehsalçıdan kənar) bir-biri ilə əlaqəli sahələr qrupu tərəfindən yaradılan yeni texnologiyaların tətbiqinə (yəni onların inkişafına istehsalçılar birbaşa təsir göstərə bilər) təsiri getdikcə azalır. Elmi-texniki tərəqqini istehsal amillərinin mövcudluğunun dəyişməsi hesab edən bəzi tədqiqatçılar milli texnoloji bazanı istehsal amillərinə aid edirlər.

Bununla belə, biz texnologiyanı rəqabət üstünlüyünün müstəqil müəyyənedicisi kimi fərqləndirməyə imkan verən aşağıdakı fərqli xüsusiyyətlərini müəyyən etdik:

- o, istifadə olunan resurslar, istehsal prosesi və məhsulların buraxılışı arasında əlaqəni müəyyən edir. Eyni zamanda, tətbiq olunan amillərin məcmusu nəinki müxtəlif sənaye sahələrində, həm də eyni məhsulların istehsalında əhəmiyyətli dərəcədə fərqlənir;
- müxtəlif resursların fokusuna və qiymət proporsiyalarına uyğun olaraq milli əsasda inkişaf edir, verilmiş milli iqtisadiyyat və hətta verilmiş coğrafi ərazi üçün ən səmərəli faktor proporsiyalarını formalaşdırmağa çalışır.

Texnologiyanın seçimi müəyyən amillərin dəyərini dəyişə bilər; istehsal olunan məhsulun keyfiyyət xüsusiyyətlərini müəyyən edir və nəticədə qiymət parametrlərinə və tələbin strukturuna təsir göstərir. Keyfiyyət və rəqabət qabiliyyətinin, demək olar ki, 80%-i istehsal sferasında, yəni məhsulun xassələrinin texnoloji formalaşdırılması prosesində yaranır və nəticədə o, istehlak dəyəri əldə edir. Kənd təsərrüfatı məhsullarının yekunlaşdırılması, qablaşdırılması, saxlanması və s. prosesində keyfiyyətin yalnız 20%-dən bir qədər çoxu yaradılır;

- o, iqtisadi inkişaf səviyyəsi aşağı olan ölkələrə köçməyə meyillidir.

*Tələb parametrləri.* Onlar istehlakçıların kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının keyfiyyətinə olan tələbkarlığından, tələbatın elastikliyindən, milli istehlak ənənələrindən və tələbi, ölçüsünü və dinamikasını xarakterizə edən digər parametrlərdən asılıdır. Kifayət qədər tutumlu milli bazarın olması kənd təsərrüfatı istehsalçıları üçün əhəmiyyətli rəqabət üstünlüyüdür. Bununla belə, başqa bir fikir də var ki, ona görə daxili bazarda məhdud tələbat istehsalçıları mümkün qədər tez qlobal inkişaf strategiyasına keçməyə, məhsullarını ixrac etməyə məcbur edir. Kənd təsərrüfatı

bazarında tələbin səviyyəsinə dövlət əhəmiyyətli təsir göstərir: dövlət tərəfindən müəyyən edilmiş qiymətə əvvəlcədən müəyyən edilmiş məhsul həcmlərinə tələb istehsalçıları dəstəkləmək yollarından biridir.

*Strategiya, struktur və rəqabət.* Rəqabət strategiyası müəssisələrin ən yaxşı və dayanıqlı uzunmüddətli maliyyə vəziyyətini təmin edən rəqabət üstünlüklərinin əldə edilməsinə, habelə bazarda güclü mövqe qazanmasına yönəldilməlidir. Eyni zamanda, N.V.Kireenkonun fikrincə, kənd təsərrüfatı və ərzaq məhsullarının xarici bazarlara effektiv təbliği üçün marketinq siyasətinin strateji istiqamətlərinin işlənib hazırlanması və həyata keçirilməsində kompleks yanaşmadan istifadə etməklə yerli istehsalçıların rəqabətqabiliyyətli mövqeyini gücləndirmək lazımdır [10, s. 31].

Əgər tədarükçülərin və istehlakçıların inhisarçı və oliqopolist rəqabətini nəzərə almadan kənd təsərrüfatının bazar strukturunu mücərrəd şəkildə nəzərdən keçirsək, onda ayrı-ayrı təsərrüfat subyektinin istehsal həcmləri sənayenin istehsal həcmləri ilə müqayisədə əhəmiyyətsizdir. Müasir iqtisadi şəraitdə inkişaf etmiş ölkələrin aqrar sektorunda konsolidasiya tendensiyası müşahidə olunur: iri müəssisələrin payı artır, kiçik və kiçik təsərrüfatların payı və ümumi sayı isə azalır. İstehsalın həcmi, torpaq sahələrinin cəlb edilməsi, işçilərin sayı, ümumi satış gəlirləri, mənfəət normaları da iri istehsal vahidlərinin xeyrinə dəyişir. İri kənd təsərrüfatı birləşmələri maddi, əmək və maliyyə resurslarının geniş miqyasda cəmləşməsi səbəbindən idarəetmənin bazar şərtlərinə daha yaxşı uyğunlaşır. Onlar kənd təsərrüfatı məhsullarının lazımi çeşidini və yüksək rəqabət qabiliyyətini təmin etməyə, respublikaya hazır ərzaq məhsullarının idxalına davamlı müqavimət göstərməyə qadirdirlər. Beləliklə, kənd təsərrüfatı sistemi vasitəsilə kiçik istehsaldan orta və iri istehsala tədricən keçid kənd təsərrüfatı məhsullarının və bütövlükdə sənayenin rəqabət qabiliyyətinin artmasına kömək edir.

Sahədə səmərəli rəqabət mühiti və rəqabət məhsullarının keyfiyyətinin yüksəldilməsi və maya dəyərinin aşağı salınması, istehsalda yeniliklərin tətbiqi və bazara yeni məhsulların çıxarılması üçün stimuldur. Əgər ölkədə rəqabət mühiti yoxdursa və strategiyalar rəqabətli mühitdə fəaliyyətə yönəlməyibsə, rəqabət üstünlüyünün yaranmasına ümid etmək mümkün deyil [5].

*Əlaqədar və dəstəkləyici sahələr.* Bu və ya digər sənayedə uğur əldə etmək daha asandır, ölkədə təchizat sənayesi nə qədər rəqabətədavamlıdırsa, onların təmərküzləşməsi bir o qədər aşağıdır. Bu, təchizatçılar tərəfindən qiymət təzyiqinin dərəcəsini azaldır, alıcı sənayesində yaranan tələblərə uyğun olaraq materialların, komponentlərin və s.-nin keyfiyyət xüsusiyyətlərinin inkişafı üçün stimul mexanizmi yaradır. Milli istehsalçıların xarici ticarətdə aparıcı mövqeləri, D. Yu.Xamçukova görə, bu, eyni sahənin bir hissəsi olan texnoloji cəhətdən əlaqəli müəssisələrin bütöv bir qrupunun inkişafının nəticəsidir [11]. Əlaqədar sahə qruplarını müəyyən etmək üçün M.Porter "klaster" anlayışını təqdim edir [3]. Klasterlərin formalaşması prosesində sənayelər rəqabət üstünlüklərini qorumaq və gücləndirmək imkanı əldə edirlər.

Kənd təsərrüfatında rəqabətqabiliyyətlilik səviyyəsinə əlaqəli sahələrdən aşağıdakı məhsul növləri əsas təsir göstərir: yeni məhsuldar bitki sortları, yüksək məhsuldar və etibarlı maşınların səmərəli sistemləri, adaptiv gübrə və bitki mühafizəsi sistemləri, heyvanların və quşların yeni cinsləri, baytarlıq dərmanları, kənd təsərrüfatı elminin nailiyyətləri və s.

Müəyyən etdik ki, sahənin rəqabətqabiliyyətliliyinin müəyyənedici amilləri kənd təsərrüfatında istehsal olunan məhsulların keyfiyyəti və rəqabətqabiliyyətliliyidir ki, bu da onun xüsusi təbiəti ilə bağlıdır və aşağıdakılarda özünü göstərir:

- böyük konteynerlər və saxlama yerləri tələb edən və nəticədə artan xərclərə səbəb olan böyük həcmə malikdir;
- bioloji mənşəlidir, bu, zəif qorunmanı əvvəlcədən müəyyənləşdirir və təcili yükləmə, çatdırılma, boşaltma və emal tələb edir və tez-tez artan xərclərlə əlaqəli olan xüsusi soyuducu avadanlıqların mövcudluğunu nəzərdə tutur. Keyfiyyətə nəzarət və sahə standartlarına uyğun saxlanılması da baha başa gəlir;
- keyfiyyət hava şəraitindən asılı olaraq illər və fəsillər üzrə dəyişir; kənd təsərrüfatı istehsalçıları bazara təklif olunan məhsulların həcminə və keyfiyyətinə tam nəzarət edə və idarə edə bilmir-

lər: ən pis təbii-iqlim şəraitində məhsulun gözlənilən miqdarı azalır, keyfiyyəti və bazarda rəqabət qabiliyyəti aşağı düşür, daha yaxşı şəraitdə rəqabət üstünlükləri yaranır [12, s. 36-42; 9].

V.G.Qusakovun araşdırmasına görə, yüksək keyfiyyətli məhsullar ilkin olaraq istehlak xassələrinin artan qiymətləndirilməsindən ibarət əlavə dəyər ehtiva edir; istehlakçının məhsullara inamını yaradır və üstünlüklü seçim və prioritet satışı təmin edir; istehsal xərclərini tez bir zamanda qaytarmağa və tələb olunan mənfəəti əldə etməyə imkan verir; sürətlə xarici bazarlara çıxır, sərt rəqabətə tab gətirərək sabit istehlak və satış işlərini tutur [14].

Ümumi amillər sisteminə M.Porter “şans” və “hökumət”i də daxil etdi ki, onların təsiri sənayenin rəqabət qabiliyyətini gücləndirə və ya zəiflədə bilər.

*Təsadüfi hadisələr.* Kənd təsərrüfatı iqtisadiyyatın gözlənilməz dəyişikliklərə ən çox məruz qalan sahəsidir. Bu baxımdan, kənd təsərrüfatı sənayesinin inkişafındakı mövcud tendensiya bütün növ riskləri minimuma endirmək istəyidir ki, bu da bitkiçilik və heyvandarlıq istehsalı üçün müasir texnologiyaların tətbiqi ilə mümkündür və bu, sənayenin asılılığını azaltmağa imkan verir. təbii və iqlim şəraiti üzrə; məhsul çatışmazlığı və bitkilərin və heyvanların tələf olması risklərinin sığortası, istehsal olunan məhsullar üzrə forvard və fyuçers müqavilələri və s.

*Hökumət siyasəti.* Bazar iqtisadiyyatında kommersiya müəssisəsinin rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə azalması ilə onun məhv olması, iflas etməsi və ya yeni texnologiyalara və investisiyalara əsaslanan əhəmiyyətli transformasiyası qaçılmazdır. Eyni zamanda, aqrar-sənaye kompleksinin rəqabət qabiliyyətinin aşağı düşməsi, demək olar ki, həmişə milli istehsalçıların dəstəklənməsi və inkişafı üçün dövlət müdaxiləsinin artmasına səbəb olur. V.G.Qusakov qeyd edir ki, əsas səbəb ərzaq təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə müəyyən edilən kənd təsərrüfatı sektorunun xüsusiyyətlərində yatır [15].

Dövlət dəstəyi tədbirləri kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının rəqabət qabiliyyətinə aşağıdakılar vasitəsilə təsir göstərir:

- istehsal xərclərinin bir hissəsinin ödənilməsi (vergi və faiz dərəcələrinin diferensiallaşdırılması yolu ilə istehsal xərclərinin kompensasiyası, vergi və kredit güzəştlərinin tətbiqi, istehsalın və ixracın subsidiyalaşdırılması);
- malların keyfiyyətinin yüksəldilməsi (standartlar və spesifikasiyalar, beynəlxalq standartlar əsasında keyfiyyətin idarə edilməsi);
- qiymətlərin və gəlirlərin tənzimlənməsi (istehsal vasitələri və kənd təsərrüfatı məhsulları üçün indikativ, ipoteka, məqsədli, zəmanətli, həddi qiymətlərin formalaşması mexanizmi);
- istehsal olunan məhsullara tələbatın genişləndirilməsi proqramları (ixraca dövlət subsidiyaları və inzibati yardım, ölkə daxilində ərzaq yardımı proqramları, “Sülh üçün ərzaq” və s.);
- gömrük-tarif siyasətinin, kvotanın və ixrac-idxal əməliyyatlarının lisenziyalaşdırılmasının tənzimlənməsi [16].

**Azərbaycan Respublikası iqtisadiyyatının aqrar sektorunda biznesin inkişafının əsas istiqamətləri**

Kənd təsərrüfatı aqrar-sənaye kompleksinin əsas həlqəsidir.

Son 10-15 ildə Azərbaycan Respublikasının aqrar sənayesinin, xüsusən də kənd təsərrüfatı istehsalının inkişafına sərmayə kifayət qədər fəal şəkildə həyata keçirilmişdir ki, bu da sahənin istehsal-texniki potensialının yenilənməsinə, vəziyyətinin yaxşılaşdırılmasına kömək etmişdir. Bu, digər amillərlə birlikdə kənd təsərrüfatının inkişafının əsas istehsal göstəricilərinin (kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və ümumi məhsuldarlığının artması, heyvandarlıq və heyvandarlıq məhsuldarlığının artması, adambaşına taxıl, ət və süd istehsalı) artımını təmin etmişdir. Bunun nəticəsidir ki, öz istehsalı hesabına nəinki əhalinin əsas ərzaq məhsullarına olan tələbatı tam ödənilir, həm də aqro-ərzaq məhsulları böyük həcmdə xaricə ixrac edilir və bunun hesabına ölkənin qızıl-valyuta ehtiyatları doldurulur. Lakin adambaşına ət, süd və kartof kimi məhsulların istehsalına görə Azərbaycan dünya liderlərindən birinə çevrilməli olduğu halda, bu istiqamətdə problemlər yaşanmaqda davam edir.

Bununla yanaşı, bütün əsas növ bitkiçilik və heyvandarlıq məhsullarının, habelə sənaye emalı

nəticəsində əldə edilən hazır ərzaq məhsullarının istehsalı və satışının səmərəliliyi aşağı səviyyədə qalmaqda davam edir. Odur ki, aqro-ərzaq məhsulları istehsalının rəqabət qabiliyyətini artırmaq məqsədilə iri aqrobiznes subyektləri üçün effektiv biznes modelləri formalaşdırmaq, xarici təcrübəyə əsaslansaq, bu sahədə daxili kənd təsərrüfatının gələcək tərəqqisinin təmin edilməsində mühüm rol oynaya bilən kiçik və orta müəssisələrin inkişafı zəruridir.

Bu məqsədlə Azərbaycan Respublikası iqtisadiyyatının aqrar sektorunda biznesin inkişafının aşağıdakı əsas istiqamətləri hazırlanmış və praktiki həyata keçirilməsi tövsiyə edilmişdir.

*Dövlət dəstəyi sahəsində:*

- kənd təsərrüfatının dövlət tənzimlənməsinin bütün sistemini təkmilləşdirmək üçün kənd təsərrüfatı istehsalçılarına hər hektar üçün ödənişlərdən istifadəni nəzərdə tutan “əlaqəsiz” dəstəyin göstərilməsi;
- əhalinin sosial müdafiəsiz və aztəminatlı təbəqələrinə daxili ərzaq yardımının tətbiqi;
- kənd təsərrüfatı sığortası və gəlirlərin təhlükəsizliyi proqramlarının hazırlanması;
- ən pis təbii və iqlim şəraitində olan əmtəə istehsalçılarına birbaşa ödənişlər.

*Aqrar-sənaye kompleksinin kreditləşdirilməsi sahəsində:*

- məhsulun maya dəyərinin tədricən aşağı salınması, aqrar-sənaye kompleksinin bütün sahələrinin səmərəliliyinin artırılması;
- güzəştli kreditləşmə təcrübəsinin davam etdirilməsi. Eyni zamanda, güzəştli kredit resursları ilk növbədə aqrar-sənaye istehsalının inkişafı üzrə dövlət məqsədli proqramlarının həyata keçirilməsinə, kənd təsərrüfatı məhsullarının istehsalı üçün maddi-texniki resursların əldə edilməsinə, investisiya və innovasiya fəaliyyətinə, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Hökumətin qərarlarına uyğun olaraq aqrar-sənaye kompleksinin digər sahələrinə yönəldilməlidir;
- maddi və enerji resurslarının qiymətinin daim artması nəticəsində aqrar-sənaye kompleksində yaranan kredit öhdəliklərinin qismən silinməsi (ən problemli olanlardan) və ya 5-10 il müddətinə möhlət verilməsi, sonra isə onların hissə-hissə ödənilməsi;
- aqrar-sənaye kompleksinin müxtəlif sahələrinin inkişaf proqramlarının maliyyələşdirilməsi üçün hüquqi və fiziki şəxslərdən resursların cəlb edilməsinə kömək edən əlavə maliyyə forma və üsullarından (bankın borc öhdəliklərinin (veksellərin və istiqrazların) buraxılması) istifadə edilməsi;
- əhalidən vəsaitlərin cəlb edilməsi və onların orta və uzunmüddətli resurslara çevrilməsi, o cümlədən kredit kooperativləri və ittifaqları vasitəsilə;
- iri kənd təsərrüfatı texnikası istehsalçılarının iştirakı ilə bankın törəmə müəssisələri kimi ixtisaslaşmış lizinq şirkətlərinin yaradılması;
- kəndin aqrar-sənaye istehsalı və sosial infrastrukturu subyektlərinə ipoteka kreditləşməsi üzrə ixtisaslaşdırılmış bölmələrin təşkili.

*İnvestisiya sahəsində:*

- iqtisadi və / və ya qeyri-iqtisadi fayda əldə etmək üçün konkret layihələrin hərtərəfli qiymətləndirilməsindən sonra kənd təsərrüfatı istehsalına məqsədli investisiyanın həyata keçirilməsi;
- dövlət və biznesin resurslarını birləşdirərək investisiya fəaliyyətindən əldə olunan risklərin və gəlirlərin bölüşdürülməsini təmin edən investisiyaların idarə edilməsi vasitəsi kimi dünya təcrübəsində özünü doğrultmuş dövlət-özəl sektor tərəfdaşlığının inkişafı;
- dolayı (iqtisadi) metodların birbaşa (inzibati) üzərində üstünlüyü, yəni amortizasiya, vergi və digər siyasət üsullarından aktiv istifadə.

*İnnovativ inkişaf sahəsində:*

- ayrı-ayrı regionlarda yerli büdcələrin formalaşdırılması potensialı nəzərə alınmaqla aqrar-sənaye kompleksinin innovativ inkişafına dövlət dəstəyinin respublika büdcəsindən fərqləndirilməsi;
- layihənin uğurla həyata keçirilməsindən sonra sahibkarlıq subyektinə sonradan maliyyə imtiyazlarının verilməsi ilə rəqabət əsasında ən potensial effektiv yeniliklərin dövlət tərəfindən maliyyələşdirilməsi;

- aqrar-sənaye kompleksinin innovativ inkişafı məqsədilə yığılma və təşkilatın investisiya resurslarına çevrilməsi mexanizminin təkmilləşdirilməsi;

- aqrar-sənaye kompleksinin innovativ inkişafı üzrə regional mərkəzin, proqram təminatı və universitet kompleksinin, aqrotexnoparkın, elmi, maliyyə və aqrar-sənaye qruplarının, bankın qaytarılmasının təminatçısı qismində zəmanət (sığorta) fondunun yaradılması; kənd təsərrüfatı təşkilatlarına iri investisiya layihələri üçün verilən kreditlər.

*Mülkiyyət münasibətlərinin transformasiyası sahəsində:*

- mülkiyyət sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və onun sonrakı sabitliyi;

- özəlləşdirmə prosedurlarının şəffaflığı və hər mərhələdə dövlətin tam nəzarəti;

- bazar korporativ strukturlarının (holdinqlər, aqrokombinatlar) formalaşdırılması;

- 2030-cu ilə qədər olan dövr üçün dövlət əmlakının idarə edilməsi konsepsiyasının qəbul edilməsi, bu konsepsiyada dövlət əmlakının sərəncamına verilməsi və özəlləşdirilməsi məsələlərinin həlli prinsiplərini və yanaşmalarını müəyyən edir;

- özəlləşdirməyə çıxarılan likvid müəssisələrin siyahısı əsasında onun şərtləri, əmlakın satışı şərtləri, yeni mülkiyyətçi və dövlət tərəfindən üzərinə götürdüyü öhdəliklər, obyektlərin bazar qiyməti məcburi göstərilməklə sistemli özəlləşdirmə;

- qlobal fond bazarında Azərbaycanun ayrı-ayrı kənd təsərrüfatı müəssisələrinin pilot IPO layihələrinin həyata keçirilməsi, bu məsələdə lazımi təcrübənin inkişafı;

- uğurlu səmərəli işin nəticələrinə görə ən azı 25% + 1 məbləğində dövlət səhm paketinin ən fəal və uğurlu yerli menecerlərin mülkiyyətinə verilməsi;

- özəlləşdirmə və dövlət əmlakının idarə edilməsi məsələlərində bu məsələlər üzrə səmərəli texniki yardım almaq məqsədilə beynəlxalq maliyyə və iqtisadi təşkilatlarla qarşılıqlı fəaliyyət.

*Torpaq münasibətləri sahəsində:*

- torpaq vergisinin formalaşdırılması üçün metodoloji əsas kimi münbitliyin, texnoloji xassələrin, yerləşmənin, habelə müvafiq torpaqdan istifadənin torpaq rentasının ayrılmaz göstəriciləri əsasında kadastr dəyərindən istifadə edir;

- kommersiya kənd təsərrüfatı istehsalı üçün 100 hektaradək olan torpaq sahələrinə hüquqi şəxsin xüsusi mülkiyyətinin yaradılmasını qanunla nəzərdə tutsun;

- kənd təsərrüfatı təyinatlı torpaqların dövriyyədən çıxarılması üçün qoruyucu qiymətlərin tətbiqini, sənaye müəssisələrinin səmərəsiz istifadə etdiyi sahələrə görə vergilərin artırılmasını təmin etsinlər.

*Kiçik və orta sahibkarlığın (bundan sonra KOM) inkişafı sahəsində:*

- cəmiyyətin, biznesin və dövlətin maraqlarını nəzərə almaqla KOS sektorunun hüquqi tənzimlənməsinin daha da təkmilləşdirilməsi;

- KOM-lar və iri biznes arasında tərəfdaşlığın və əməkdaşlığın inkişafı;

- KOS sahəsində münasibətləri tənzimləyən qanunvericiliyin, o cümlədən əmək qanunvericiliyinin müəyyənlik dərəcəsinin artırılması, mübahisəli məsələlərin vahid şərhinin təmin edilməsi;

- KOM-ların inkişafı üçün digər yaxın ölkələr ilə uyğunlaşdırılmış mühitin formalaşdırılması;

- dövlət orqanlarının fəaliyyətində diqqətin yoxlamalardan monitorinq və məsləhətə keçirilməsi, inzibati vergi prosedurlarının sadələşdirilməsi;

- maliyyə resurslarının əlçatanlığının artırılması, dövlət əmlakının icarəyə verilməsi və satışı yolu ilə KOS-ların kredit-maliyyə mexanizmlərinin və əmlak dəstəyi tədbirlərinin işlənib hazırlanması;

- respublikanın regionlarında kiçik və orta sahibkarlığa dəstək infrastrukturunun genişləndirilməsi (dəstək mərkəzləri, kiçik biznes inkubatorları, texnoparklar və s.);

- KOM-lar üçün kütləvi sahibkarlıq və ekoloji maarifləndirmənin inkişafı;

- təsərrüfat subyektlərinin fəaliyyətinə həddindən artıq və əsassız dövlət müdaxiləsinin aradan qaldırılması;

- innovasiyaların stimullaşdırılması, məhsulun keyfiyyətinin yüksəldilməsi, “yaşıl” enerji, səmərəli və informasiya texnologiyalarının tətbiqi;

- KOS subyektlərinin assosiasiyalar və innovasiya şəbəkələrinə inteqrasiyası;
- kredit resurslarının mövcudluğunun təmin edilməsi, uzunmüddətli, ortamüddətli və qısamüddətli kreditlər üzrə faiz dərəcəsinin subsidiyalaşdırılması;
- torpağın orta kadastr balı ilə təmin edilməsi, bitişik torpaq istifadələrindən əlavə torpaqların ayrılması imkanı;
- qeyri-ənənəvi sənaye sahələrinin inkişafı, yeni fəaliyyət sahələri, o cümlədən aqroekoturizm, ekoloji təmiz kənd təsərrüfatı və s.

*Kooperativ və inteqrasiya əlaqələrinin inkişafı sahəsində:*

- dövlətin iştirakı ilə yaradılan holdinqlər üçün idarəetmə şirkətlərinin seçilməsi və ya yaradılması meyarlarının, qaydalarının və şərtlərinin müəyyən edilməsi;
- kəndli (fermer) müəssisələrinin vahid holdinq strukturlarına cəlb edilməsi qaydasının müəyyən edilməsi;
- vergiləri, rüsumları (rüsumları), respublika və yerli büdcələrə digər icbari ödənişləri, o cümlədən dövlət məqsədli ödənişləri ödədikdən sonra onların sərəncamında qalan holdinq iştirakçılarının mənfəətindən (dövlətin iştirakı ilə) ayırmalar hesabına mərkəzləşdirilmiş fondun formalaşdırılması; büdcə vəsaitləri, habelə dövlət büdcədənkənar fondları azı 5 faiz məbləğində.

*Əmək ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, əmək motivasiyası sahəsində:*

- kənd təsərrüfatı biznesinin inkişafı məqsədilə sahibkarlıq təşəbbüsünün artırılmasına və sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi;
- kənd təsərrüfatı istehsalı sahəsində təcrübəsi olan, lazımi ixtisaslara malik və kənd təsərrüfatı biznesinin təşkili və aparılması üçün başlanğıc kapitalı olan təşəbbüskar vətəndaşların stimullaşdırılması;
- iqtisadiyyatın aqrar sektorunun inkişafı üçün prioritet istiqamətlərə uyğun gələn peşə və ixtisaslar üzrə kadrlara tələbatın müəyyən edilməsi və əhalinin rəqabət qabiliyyətinin təmin edilməsi məqsədilə əmək bazarının monitorinqinin və proqnozlaşdırılmasının təşkili yolu ilə əhalinin məşğulluğunun tənzimlənməsi;
- kənd təsərrüfatı kadrlarının əlaqələndirilmiş şəkildə hazırlanması, onlara olan ehtiyacın proqnozlaşdırılması və birgə layihələrin həyata keçirilməsi üzrə məsləhətləşmələr vasitəsilə təhsil müəssisələri, potensial işəgötürənlər və tədqiqat mərkəzləri arasında əlaqə mexanizminin formalaşdırılması;
- kənd təsərrüfatı kadrlarının həvəsləndirilməsi, xüsusən də əməyinin ödənilməsi ilə bağlı məsələlərin təkmilləşdirilməsi;
- kəndə əmək ehtiyatlarının cəlb edilməsi və kəndin demoqrafik potensialının artırılması məqsədilə kəndin sosial infrastrukturunun daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi, kənd təsərrüfatı əməyinin nüfuzunun artırılması.

*Milli ərzaq təhlükəsizliyi sahəsində:*

- əhalinin aktiv və sağlam həyat tərzi üçün zəruri olan həcmdə və çeşiddə təhlükəsiz və yüksək keyfiyyətli ərzaq məhsulları ilə fiziki və iqtisadi əlçatanlığın əldə edilmiş səviyyəsinin saxlanılması;
- daxili ərzaq bazarının yüksək keyfiyyətli yerli istehsal olunan ərzaq məhsulları ilə (sağlam qida və üzvi qida məhsullarının payının 20%-ə qədər artırılması ilə) dolğunlaşdırılmasına şərait yaradılması, ərzaq məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi;
- ərzaq təhlükəsizliyinə təhdidlərin effektiv proqnozlaşdırılması və proqnozlaşdırılması, kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının strateji ehtiyatlarının formalaşdırılması yolu ilə onların mənfi təsirlərinin minimuma endirilməsi;
- aqrar sənayenin potensialından istifadənin optimallaşdırılması, resurs sərfiyyatı rejimi ilə tullantısız və ekoloji təmiz texnologiyaların tətbiqi yolu ilə yerli istehsalçıların daxili və xarici bazarlarda rəqabət qabiliyyətinin artırılması;
- Azərbaycan Respublikasının səmərəli ərzaq təhlükəsizliyi sistemi və əhalinin qidalanması və həyat keyfiyyətinin yaxşılaşdırılması sahəsində strategiyası ilə dünya iqtisadiyyatının subyekti ki-

mi imicinin formalaşdırılması.

*Kənd təsərrüfatı sahəsində xarici iqtisadi əlaqələr sahəsində:*

- maliyyə dəstəyi, vergi sistemi, qiymətqoyma, sığorta və digər tədbirləri təkmilləşdirməklə ixracın, əsasən yüksək əlavə dəyərə malik məhsulların stimullaşdırılması;
- yerli məhsulların keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi: baytarlıq, fitosanitariya və sanitar-gigiyenik rejimə riayət edilməsi; məhsulların beynəlxalq tələblər səviyyəsində istehsalını təmin edən texnoloji reqlamentlər sisteminin və yerli istehsal standartlarının tətbiqi;
- informasiya-analitik marketinq mərkəzlərinin, birgə müəssisələrin, istehsal-ticarət korporasiyalarının və bazar infrastrukturunun digər elementlərinin yaradılması yolu ilə məhsulların xarici bazarlara çıxarılması sisteminin təkmilləşdirilməsi;
- kənd təsərrüfatı və emal sənayesində idxalı əvəz edən sənaye sahələrinin və istehsal komplekslərinin inkişafı.

## *Nəticə*

Beləliklə, aqrar sektorun rəqabət qabiliyyətini səkkiz qrupa ayırdığımız bir çox amillər müəyyən edir: istehsal amilləri; texnologiyalar; strategiya, struktur və rəqabət; tələb parametrləri; məhsulların keyfiyyəti və rəqabət qabiliyyəti; əlaqəli və köməkçi sahələr; təsadüfi hadisələr; hökumət siyasəti. Hər bir amilin ayrı-ayrılıqda əhəmiyyətinə baxmayaraq, onların hamısı birlikdə bazar sabitliyi ilə xarakterizə olunan prinsipial olaraq yeni kənd təsərrüfatı keyfiyyətini formalaşdırmağa çağırılır.

Hesab edirik ki, yuxarıda göstərilən tövsiyələr Azərbaycan Respublikası iqtisadiyyatının aqrar sektorunda biznesin davamlı inkişafını təmin edəcək və şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Alıyev, İ. Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyinin təmin olunması problemləri / İ.Alıyev, İ.Soltanlı, – Bakı: “Avropa” nəşriyyatı, –2017, –428 s.
2. Ataşov, B.X. “Ərzaq təhlükəsizliyinin aktual problemləri” / B.XAtaşov –Bakı: “Elm”, –2011, –180 s.
3. Qafarov,N.C. Aqrar istehlak bazarının formalaşması və inkişafının iqtisadi problemləri. Monoqrafiya. Bakı, 2023. “Kooperasiya” nəşriyyatı, – 323 s.;
4. Quliyev,E.A. Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meyilləri. Monoqrafiya / E.A.Quliyeva, B.X.Ataşov, E.B.Ələkbərov. – Bakı: Kooperasiya, – 2021, – 344 s.
5. Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar,çağırışlar və perspektivlər. –Bakı, –2018. “Kooperasiya” nəşriyyatı, –480 s.;
6. Гончаров, В.Д. Методические аспекты анализа конкурентоспособности перерабатывающих предприятий / В.Д. Гончаров, А.И. Новиченко. – М.: ООО “НИПКЦ Восход-А”, 2006. – 49 с.
7. Ленская, Т.И. Организационно-экономические факторы повышения конкурентоспособности продукции АПК: дис. … канд. экон. наук: 08.00.05 / Т.И. Ленская. – Минск, 2013. – 152 с.
8. Саубанов, К.Р. Конкурентоспособность регионального сельского хозяйства в Приволжском федеральном округе: дис.… канд. экон. наук: 08.00.05 / К.Р. Саубанов. – Казань, 2010. – 176 с.
9. Портер, М. Конкуренция / М. Портер; пер. с англ. – М.: Издательский дом “Вильямс”, 2005. – 608 с.
10. Киреенко, Н.В. Система сбыта продукции АПК на основе маркетингового подхода: теория, методология, практика: в 2 ч. / Н.В. Киреенко; под ред. В.Г. Гусакова. – Минск: Ин-т систем. исслед. в АПК НАН Беларуси, 2015. – Ч. 2. – 173 с.

11. Хамчуков,Д.Ю. Конкурентоспособность отраслевого уровня: актуальность, содержание, особенности, факторы / Д.Ю. Хамчуков // Белорус. экономика: анализ, прогноз, регулирование.– 2002. – №12.– с. 36–41.
12. Ильина,З.М. Конкурентоспособность продукции и продовольственнаябезопасность. Теоретическиеипрактические аспекты / З.М. Ильина, Н.Н. Батова. – Минск: Ин-т систем. исслед. вАПКНАН Беларуси, 2010. – 120 с.
13. Батова, Н.Н. Конкурентная среда агропродовольственного рынка: сущность и особенности формирования / Н.Н. Батова // Аграр. экономика. – 2015. – № 10. – с. 26–31.
14. Гусаков,В.Г. Точка опоры для экономического рычага: как добиться конкурентоспособности, самоокупаемости и самофинансирования национального АПК / В.Г. Гусаков // Белорус. нива. – 2013.–23 апр. – №73.– с.6.
15. Гусаков,В.Г. Концептуальные подходы по формированию интеграционного поля продовольственной конкурентоспособности в условиях функционирования единого экономического пространства стран ТС / В.Г. Гусаков // Изв. НАН Беларуси. Сер. аграр. наук.– 2012. – №4. – с. 23–36.
16. Калиев,Г. Повышение конкурентоспособности сельскохозяйственной продукции и продовольствия в Казахстане: избр. тр.: в 3 т. / Г. Калиев, Г. Никитина. – Алматы, 2008. – Т. 3. – с. 9–62.

***Афиг Джаваншир оглы Насибов***
***Старший преподаватель Азербайджанского***
***Университета Кооперации, к.э.н.***
***Электронная почта: afig.nesibov84@mail.ru***

## Конкурентный фактор обеспечения устойчивого развития бизнеса в агропромышленном комплексе

***Резюме***

**Цель исследования** – заключается в изучении проблем обеспечения конкурентоспособности агропромышленных предприятий Азербайджана и подготовке теоретических и практических рекомендаций по ее совершенствованию.

**Методология исследования** – применялись системный подход, терапевтический анализ, логическое обобщение, причинно-следственные методы.

**Прикладная значимость исследования** – направлено на инвестиции аграрных предприятий, инновации, трансформацию отношений населения, кредитование, развитие мелких и средних собственников, развитие кооперативов и установок и др. можно использовать как средство решения проблем.

**Результаты исследования** – выявлены и осмыслены с концептуально-теоретической точки зрения факторы, определяющие конкурентоспособность аграрного сектора, разработаны основные направления развития бизнеса в аграрном секторе экономики страны и рекомендованы к практической реализации.

**Оригинальность и научная новизна исследований** - выявлены и проанализированы основные факторы, определяющие конкурентоспособность аграрного сектора, сделаны научно обоснованные предложения относительно основных направлений развития бизнеса в аграрном секторе экономики страны.

***Ключевые слова: агропромышленный комплекс, конкуренция, устойчивое развитие бизнеса, малые и средние предприятия.***

*Afig Javanshir Nasıbov*
*Senior Lecturer, Azerbaijan University of Cooperation*
*E-mail: afig.nesibov84@mail.ru*

**Competitive factor in ensuring sustainable business development in the agro-industrial complex**

***Summary***

**The purpose of the study** is to study the problems of ensuring the competitiveness of agro-industrial enterprises in Azerbaijan and prepare theoretical and practical recommendations for its improvement.

**Research methodology** - a systematic approach, therapeutic analysis, logical generalization, causal methods were used.

**Applied significance of the research** - it is aimed at the investment of agricultural enterprises, innovation, the transformation of population relations, lending, the development of small and medium-sized owners, the development of cooperatives and installations, etc. can be used as a means of solving problems.

**The results of the study** - the factors that determine the competitiveness of the agricultural sector have been identified and comprehended from a conceptual and theoretical point of view, the main directions for business development in the agricultural sector of the country's economy have been developed and recommended for practical implementation.

**Originality and scientific novelty of research** - the main factors determining the competitiveness of the agricultural sector are identified and analyzed, scientifically sound proposals are made regarding the main directions of business development in the agricultural sector of the country's economy.

***Key words: agro-industrial complex, competition, sustainable business development, small and medium enterprises.***

UOT: 338

*Famil Vəli oğlu RÜSTƏMOV*
*Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu,*
*“Aqrar sektorun iqtisadi problemləri” şöbəsi,*
*aparıcı elmi işçi, i.f.d., dosent*
*E-mail: Familrustamov456@gmail.com*
*https: // orcid.org/0000-0003-490X-43X2*

# AZƏRBAYCANDA KƏND YERLƏRİNİN İNKİŞAFINDA AQRAR TURİZMİN ROLU VƏ ƏHƏMİYYƏTİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** aqrar turizmin mahiyyəti, onun keçdiyi tarixi inkişaf yolunun öyrənilməsi, Azərbaycanda bu turizm növü ilə bağlı həyata keçirilən dövlət dəstəyi tədbirlərinin, eləcə də mövcud hüquqi bazanın təhlili, regionların, xüsusilə də kənd yerlərinin davamlı inkişafında aqroturizmin rolu və əhəmiyyətinin əsaslandırılmasından ibarətdir.

**Tədqiqatın metodikası -** müşahidə, sistemli yanaşma, müqayisəli təhlil və qiymətləndirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** aqrar turizmin inkişafını zəruri edən səbəblər göstərilir, aqroturizmlə bağlı problemlər, strateji məqsəd və hədəflər təhlil edilir, dünyada, xüsusilə də Avropanın inkişaf etmiş ölkələrində aqrar turizmin mövcud vəziyyəti və əldə edilmiş nailiyyətlər araşdırılır.

**Tədqiqatın nəticələri -** Azərbaycanda aqroturizmin potensialı və inkişaf perspektivləri tədqiq edilir, bu sahəyə cavabdeh olan qurumlar üçün tövsiyə xarakterli təkliflər səsləndirilir.

**Tədqiqatın orijinallığı və elm yeniliyi** – nəzəri mənbələrdən, statistik məlumatlardan və analitik materiallardan ardıcıl və düzgün istifadə edilməsi baxımından tədqiqatın nəticələri orijinaldır, aqrar turizm sahəsində sahibkarlığın inkişafının regional xüsusiyyətlərinə təsir göstərən iqtisadi mexanizmlərdən istifadə olunmasına dair mülahizələr elmi yenilik xarakterlidir.

***Açar sözlər: davamlı inkişaf, aqrar turizm. kənd turizmi, kəndli, fermer, gəlir.***

## *Giriş*

Dünyanın heç bir yerində mükəmməl və vahid aqroturizm konsepsiyası hələki mövcud deyildir. Ancaq bütün bunlara rəğmən, Avropanın əksər dövlətlərində turizmin ən perspektivli növlərindən hesab edilən aqroturizm sənayesi uzun illərdir ki, insanların əlavə gəlir mənbəyinə çevrilməklə sürətlə inkişaf etməkdədir. Artıq bu sahədə müəyyən ənənələr formalaşmış, xeyli təcrübə toplanmışdır ki, onlardan da uğurlu hesab etdiklərimizi məmnuniyyətlə mənimsəmək olar. İtaliya, Fransa, İngiltərə və Almaniya kimi inkişaf etmiş Avropa ölkələrində bu istiqamətdə daha çox nailiyyətlər əldə olunmuşdur. Belə ki, bu ölkələrdə istirahətə yollanan hər dörd yerli turistdən biri, eləcə də milyonlarla xarici turist kənd yerlərində istirahət etməyə üstünlük verirlər. Artıq insanlar kənd yerlərində yalnız yayda deyil, digər bayram və tətil günlərində də istirahət etməyə üstünlük verirlər. Bunun da nəticəsidir ki, son zamanlar bu sahəyə fermerlərin özləri də aktiv şəkildə qoşularaq iri sərmayə qoyuluşları edirlər.

**Aqrar turizm nədir?**

Aqrar turizm ekoturizmin bir istiqaməti olmaqla kənd turizmini və kulinar turizmi özündə əks etdirir. Bu turizm növünü aqrar sahə ilə turizm sahəsinin kəsişməsindən əmələ gələn bir turizm növü kimi də qəbul edə bilərik. Turizmin bu sahəsinin inkişafı mədəni ənənələrin qorunub saxlanmasına, tarixin öyrənilməsinə, ənənəvi sənətkarlığın dirçəldilməsinə, ucqar kənd təsərrüfatı rayonlarının iqtisadi inkişafına, yerli əhalinin xidmət sektorunda və ekoloji təmiz qida istehsalında məşğulluğuna təkan verir.

Zaman keçdikcə dünyada daha çox turist şəhər həyat tərzindən bezərək bu turizm növünə üstünlük verir. Aqroturizm insanlara bir müddət saf təbiət qoynunda asudə vaxt keçirmək, dağları, dərə-

ləri, meşələri, çayları gəzib dolaşmaq, kənd həyat tərzinə qərq olmaq, kənd mədəniyyəti, tətbiqi sənəti, milli mahnı və rəqslər, yerli folklor nümunələri, yerli adət-ənənələrlə tanış olmaq, ənənəvi kənd işlərində iştirak etmək, bəzən hətta kənd təsərrüfatı işləri ilə kəndlilərlə birlikdə məşğul olmaq, kənd həyatının ən gözəl günlərini yaşamaq imkanı verir. İri meqapolislərdən uzaqda ölçülü bir həyatın dincliyi və sakitliyi ilə dolu bir mühitdə bir neçə gün keçirtmək, göllərdə və çaylarda balıq tutmaqdan, meşələrdə giləmeyvə və göbələk yığmaqdan zövq almaq istəyən turistlər məhz bu turizm növünü seçirlər.

Aqrar turizmin inkişafı, kənddən şəhərə miqrasiyanın zəifləməsində və əksinə olaraq şəhərdən kəndə miqrasiyanın formalaşmasında, kəndlilərin sosial-iqtisadi vəziyyətinin yüksəlməsində mühüm vasitəyə çevrilə bilər. Bu gün xaricdə istirahət, xarici ölkələrə səyahət tədricən adiləşdiyindən, əlçatmaz və lüks bir tərz olmaqdan çıxdığından tətili Malta, İtaliya, Fransa, İspaniya, Maldiv adaları və ya Türkiyədə keçirməklə bağlı xəbərlərlə artıq heç kimi təəccübləndirmək olmur. Sevindirici haldır ki, zövqlü bir tətildən ötrü yeni seçim imkanları yarandığından, xüsusilə, təbiətlə baş-başa qalmaq üçün alternativ variantlar ortaya çıxdığından, insanlar istirahət düşüncələrində dəyişiklik etməyə başlayıblar. Aqroturizm konsepsiyası da bu baxımdan turizmdə yeni bir qola çevrilib və bu turizm növünün pərəstişkarlarının sayı gündən-günə artmaqdadır. Getdikcə daha çox insan sakit bir kənd atmosferinə qərq olmağa, şəhərin səs-küyünü və problemlərini bir müddətə unutmağa üstünlük verirlər. Bu turizm növü kənd həyatının xüsusiyyətlərini daha yaxından tanımaq imkanı verməklə bərabər, həm də ailə və ya yaxın çevrə ilə birlikdə istirahət etmənin əla yoludur. Təmiz havada manqalda kabab bişirmək, samovar qaynatmaq, yaşıl otların üzərində dincələrək gül-çiçəyin ətrindən zövq almaq, quşların səsini dinləmək, şəlalənin şırıltısına qulaq asmaq səs-küylü şəhər restoranlarında bayağı ziyafəti əvəz etməklə, insan həyatında yaddaqalan xatirələrə çevrilir. Belə bir istirahət, əyləncə insanları ruhən rahatlaşdırır, gündəlik şəhər həyatının stresindən uzaqlaşdırır, təbiətə çəkir və həyata, ətraf dünyaya fərqli baxmağa imkan yaradır. Əksər ekspertlərin də təsdiq etdiyi kimi adətən belə istirahətdən sonra insanlar daha sakit və tarazlı olurlar, çünki təbiətlə ünsiyyət hər bir insan üçün olduqca faydalıdır.

Qeyd etmək lazımdır ki, aqroturizmin inkişafında yerli idarəetmə orqanlarının (bələdiyyələr, yerli icra orqanları) müstəsna rolu vardır. Ən azından ona görə ki, yerlərdə aqroturizmin inkişafı üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, eləcə də müxtəlif normativ sənədlərin qəbul edilməsi məhz onlardan asılıdır. Bu mənada İtaliyanı nümunə göstərə bilərik. Belə ki, bu ölkənin bir sıra əyalətlərində aqroturizmin inkişafı üçün yerli hakimiyyət və mərkəzi hökumətin qəbul etdiyi qanunlar nəticəsində iqtisadi cəhətdən zəif inkişaf etmiş regionlarında (Kalabri, Siciliya, Sardiniya və s. rayonlarda) aqroturizmin sürətli inkişafına nail olundu.

Aqrar turizmin dəstəklənməsi milli kənd mənzərələrinin qorunması baxımından da əhəmiyyətlidir. İsveçrənin gözəl Alp çəmənliklərini, Hollandiyanın dəyirmanlarını və kanallarını kənd turizminin sahəsində qorumaq mümkün olub. Hazırda Avropa Birliyi aqroturizmə Qərbi Avropanın kənd təsərrüfatını xilas etmək üçün bir vasitə kimi yanaşır. Köhnə kənd evləri əsasən bu cür istirahət edənlər üçün təmir olunur.

**Dünyada aqroturizm**

İnsanların kənd yerlərində istirahətetmə ənənəsi qədim vaxtlara təsadüf etsə də, aqrar turizm adlandırdığımız bu istirahət (səyahət) 19-cu əsrin əvvəllərində turizm növü kimi meydana gəlmiş və 20-ci əsrin ikinci yarısında aktiv şəkildə inkişaf etməyə başlamışdır. Belə ki, 1955-ci ildə Fransada "Agricolture et Turisme" Assosiasiyası yaradılmış, 1965-ci ildə isə İtaliyada Milli Kənd Təsərrüfatı və Turizm Assosiasiyası ("Aqriturist") fəaliyyətə başlamışdır. İndi bir çox Avropa ölkələrində dövlət tərəfindən dəstəklənən aqroturizm assosiasiyaları fəaliyyət göstərməkdədir. Bəzi Avropa ölkələrində aqroturizm sənaye subyektləri assosiasiyalar şəklində fəaliyyət göstərir. Məsələn, İspaniyada mülki, fermer və kənd mehmanxanalarını birləşdirən aqroturist assosiasiyalar, bəzi ölkələrdə isə dövlət aqroturist agentlikləri fəaliyyət göstərir. Məsələn, Macarıstanda birləşmiş kənd turizm (aqroturist) agentliyi, Polşada isə regionlar üzrə aqrar turizm birlikləri şəklində fəaliyyətə üstünlük verilir.

İngiltərədə kənd turizmi sürətlə populyarlaşdığından fermerlər köhnə təsərrüfatları turizm məqsədi ilə bərpa edərək turistlərə müxtəlif xidmətlər təklif edirlər. İrlandiyada isə kəndlilər mülklərini sertifikasiyadan keçirərək və otel kimi “ulduz” ala bilərlər. Macarıstanda aqrar turizm xidmətləri göstərən hüquqi və fiziki şəxs vergidən azaddır. Rumıniyada da bu cür sahibkarların 15 il müddətinə vergidən azad edilməsi gözlənilir.

Avropada aqroturizm ilk növbədə bəzi şərtlərin diqtəsi ilə - kənd təsərrüfatının iqtisadi əhəmiyyətinin azalması ilə əlaqədar olaraq yaranıb, inkişaf etməyə başlamışdır. Aqrar sahənin avtomatlaşdırılması nəticəsində əl əməyinə ehtiyac azaldığından kənd yerlərində işsizliyin artması, gəlirlərin isə azalması səbəbindən kiçik kənd təsərrüfatı komplekslərinin sahibləri əlavə gəlir əldə etmək üçün belə bir vasitəyə əl atmağa məcbur oldular.

Kənd turizmi dünyada 20-ci əsrin sonu 21-ci əsrin əvvəllərində daha çox populyarlaşmağa başlamışdır. Xüsusən də Avropada. 1997-2012-ci illər arasında kənd turistlərinin sayı demək olar ki, iki dəfə artaraq 60 milyona çatıb. Hazırda Almaniya, İtaliya, Böyük Britaniya və Fransada turizm xidmətləri təklif edən on minlərlə ferma var [2]. Aqrar turizmin digər turizm növləri ilə müqayisədə turistlər üçün daha ucuz başa gəlməsi, daha əlçatan olması bu turizm növünün böyük potensialından xəbər verir. Hələlik isə Avropada aqroturizm ümumi turizm həcminin təxminən 15%-ni təşkil edir.

Hər il 7 milyondan çox insan Fransa kəndlərində istirahət edir ki, bu turların da hər biri “yaşıl istirahət” təşkilatı tərəfindən sertifikatlaşdırılır. İspaniyada kənd turizmi istiqaməti üzrə istirahət həvəzkarlarına 25 min tur təklif edilir ki, bundan da təqribən hər il 6 milyon insan faydalanır. Kənd turizmi Almaniyanın qərb və cənub bölgələrində - Şimali Reyn-Vestfaliya, Bavariya və Badendə daha populyardır. İtaliya kənd turizmi sahəsində keyfiyyət standartlarının yaradılması və bu standartlara xüsusilə diqqətlə riayət olunması ilə məşhurdur. Burada təsərrüfatların rəhbərləri və işçiləri üçün icbari kurslar keçirilir, onlara öz təsərrüfatlarında qonaq qəbul etmək, onların istirahətini yüksək səviyyədə təşkil etmək öyrədilir. Səyahətçilər arasında ən populyar İtaliya əyalətləri Trentino, Cənubi Tirol, Piedmont və Toskanadır.

Ümumiyyətlə, Avropada Kənd Turizmi Assosiasiyasının (Avrogitlər) məlumatına görə bu sahəyə 100 minə yaxın ailə, fermer təsərrüfatı cəlb edilib ki, bunun da hesabına birbaşa və dolayı yolla 1 milyona yaxın iş yeri dəstəklənir və eyni zamanda təxminən 150 milyard avro gəlir əldə edilir. Aqroturizm kənd təsərrüfatı istehsalçılarının ümumi gəlirinin təxminən 35%-ni təşkil edir.

**Azərbaycanda aqrar turizm**

Respublikamızda bu turizm növü əslində insanların uzun illər boyu səs-küylü şəhər həyatından uzaqlaşaraq kənd, rayon yerlərində yaşayan qohum-əqrabaları ilə müəyyən vaxt keçirmək arzusu üzərində formalaşmışdır.

Əvvəldə də qeyd etdiyimiz kimi uca dağları, füsunkar meşələri, dağ çayları, sərin bulaqları və şəlalələri ilə əhatə olunan təbiəti ilə bərabər, zəngin mətbəxə malik xeyli sayda regionları, qonaqpərvər insanları olan ölkəmizdə aqroturizmi inkişaf etdirmək üçün çox münbit şərait mövcuddur. Belə ki, ölkənin əksər bölgələrində, xüsusilə də şimal, cənub, şimal-qərb regionlarında bu sahənin hərtərəfli inkişafı üçün lazımi coğrafi və iqlim şəraiti mövcuddur.

Müşahidələrimiz göstərir ki, Azərbaycan vətəndaşlarının hələlik bu sahəyə marağı çox zəifdir. Əhali arasında maarifləndirmə və məlumatlandırma işlərinin zəif aparılması, yerli infrastrukturların istənilən səviyyədə olmaması, aqroturizmlə məşğul olan firmaların azlığı əsas səbəblərdəndir. Bu hal keçmiş postsovet məkanı ölkələrinin çoxuna xasdır. Son illər Belorusiya və Gürcüstanda bu sahədə müəyyən canlanma və inkişaf müşahidə edilir. Belarusiyada bu sahə yeni olsa da, orada artıq müəyyən uğurlar qazanılmaqdadır. Burada aqroturizmlə məşğul olmaq istəyənlərə dövlət tərəfindən güzəştli kredit, ucuz torpaq sahəsi və lazımi texniki dəstək verilir. Bu sahənin inkişafı nəticəsində kəndlərdə yeni iş yerləri açılmış və iri şəhərlərə işçi qüvvəsi axınının qarşısı alınmışdır. Bu ölkənin kəndlərində işsizlik səviyyəsi 1,3% təşkil edir.

Son illərdə ölkəmizdə aqroturizmin genişləndirilməsi istiqamətində bir sıra beynəlxalq təşkilatlarla, yerli qeyri-hökumət təşkilatları ilə uğurlu əməkdaşlıq əlaqələri yaradılmışdır. Aqroturizm

fəaliyyətlərinin təşkili və kənd evi sahibləri üçün qonaqlama xidmətinin təşkili üzrə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə əməkdaşlıq çərçivəsində, həmçinin Aİ-nin maliyyə dəstəyi ilə bir sıra layihələr reallaşdırılmışdır [8].

Ölkəmizin əksər regionları, xüsusilə də şimal-qərb regionunda yerləşən rayonlarda aqroturizm üçün geniş imkanlar mövcud olsa da, bu sahə hələ də arzu edilən inkişaf səviyyəsinə çatmamışdır. Şəki rayonu (Kiş, Baş Küncüt, Biləcik və digər kəndləri), Oğuz rayonu (Baş Daşağıl, Xal-Xal və digər kəndləri), Qax rayonu (İlisu, Qaxbaşı və digər kəndləri), Zaqatala rayonu (Car, Yuxarı Tala və digər kəndləri), Balakən rayonu (Katex, Mahamalar və digər kəndləri) aqroturizmin inkişafı üçün real imkanlara malik olan rayonlarımızdır.

Statistik məlumatlara əsasən ölkəmizin şimal-qərb regionunda əhalinin 70 faizdən çoxu kəndlərdə yaşayır. Digər regionlarımızda da kənd əhalisinin nisbəti yüksəkdir. Lakin iqtisadi təhlillər göstərir ki, kəndlərimiz müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olsalar da, onların əksəriyyətinin əldə etdikləri gəlir arzulanan səviyyədə deyildir. Bunun da başlıca səbəblərindən biri kəndlilərin məhsullarının satışı ilə bağlı üzləşdikləri çətinliklərdir. Turizmin bu növünün inkişafı həm də kəndlilərə öz məhsullarını uzağa getmədən elə öz kəndlərində turistlərə təqdim etməsinə yardımçı olar, onların gəlirlərinin artmasına kömək edər.

**Aqrar turizmlə bağlı mövcud hüquqi bazanın və həyata keçirilən dövlət dəstəyi tədbirlərinin qısa təhlili**

Azərbaycanda aqrar turizmin inkişafı üçün kifayət qədər böyük potensial mövcuddur. Bu sahənin inkişafı ilə bağlı müvafiq qanunvericilik aktları qəbul edilmiş, bu istiqamətdə əhəmiyyət kəsb edən dövlət dəstəyi tədbirləri həyata keçirilmiş və bu gün keçirilməkdədir. “Ailə Biznesinə Asan Dəstək” (ABAD), “Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” (KOBİA), “Aqrar Tədarük və Təchizat”, “Aqrar Kredit və İnkişaf Agentliyi” (AKİA) və bir sıra digər dövlət qurumları aqrar turizmlə məşğul olmaq istəyən kəndli və fermerlərə öz köməkliklərini təklif edirlər. [3]

Ölkəmizdə aqroturizm fəaliyyəti ilə məşğul olan kəndli və fermerlər, eləcə də digər sahibkarlar öz fəaliyyətlərini turizm haqqında mövcud hüquqi bazaya, o cümlədən Turizm haqqında və Ailə-kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının qanunlarına əsaslanaraq həyata keçirirlər. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İxtisaslaşmış Turizmin İnkişafına Dair Strateji Yol Xəritəsində müəyyən edilən strateji hədəflərdən biri ekoloji və kənd turizminin inkişafı ilə bağlıdır (Tədbir 3.5.2: Azərbaycanda kənd turizminin inkişaf etdirilməsi).[4] [5]

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramında da regionlarda kənd turizminin inkişafı hədəf kimi göstərilərək kənd turizmi ilə məşğul olan sahibkarlara kreditlərin və qrantların verilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi, bir sıra ənənələrin təbliği (çörəkbişirmə, xalçaçılıq və s.) məqsədilə qısamüddətli kursların təşkili, turizm xidmətləri təklif edən nümunəvi fermer təsərrüfatı (şərabçılıq, arıçılıq, balıqçılıq və s.) modelinin yaradılması, mövcud turizm marşrutlarının inkişaf etdirilməsi və yeni turizm marşrutlarının yaradılmasının təşviqi, regionlarda turizm xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. [3]

Aqrar turizmlə bağlı hüquqi bazadan danışarkən qeyd etməliyik ki, “Kənd Təsərrüfatına Göstərilən Dövlət Yardımının Səmərəliliyini və Effektivliyini Artırmaq üçün Kənd Təsərrüfatı Nazirliyinin Potensialının Artırılması üzrə Tvinninq Layihəsi” çərçivəsində beynəlxalq və yerli ekspertlərlə birikdə Azərbaycanda aqroturizmlə bağlı yeni qanun layihəsi hazırlanmış, aqroturizm anlayışı, aqroturizm operatoru kimi qeydiyyatdan keçmək üçün tələb olunan meyarlar, aqroturizm operatorlarının reyestrinin yaradılması, onların bu reyestrə düşməsi üçün lazımi prosedurlar müəyyən edilmişdir. Həmin meyarları, minimal tələbləri, gələcək inkişafı hədəfləyən fəaliyyət planını özündə əks etdirən texniki təlimatlar da hazırlanmışdır. [6]

Qeyd etməliyik ki, 2016-cı ildə təsdiq edilmiş Azərbaycan Respublikasında İxtisaslaşmış Turizmin İnkişafına Dair Strateji Yol Xəritəsində daha çox diqqət yetirilən sahə kimi milli parklar

səviyyəsində turizmin inkişafı nəzərdə tutulduğundan aqroturizmin sürətli inkişafı üçün çevik təsir mexanizmlərinə geniş yer ayrılmamışdır. Ümid edirik ki, hazırlanan yeni qanun layihəsində aqrar turizmə daha geniş yer ayrılacaqdır. Aqrar turizmlə bağlı xüsusi qanun hazırlanana qədər isə 2005-ci ildə təsdiq edilmiş, kənd yerlərində ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsini, özünüməşğulluğun stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsini, alternativ gəlir mənbələrinin genişləndirilməsini və kənd yerlərinin inkişafının sürətləndirilməsini hədəfləyən “Ailə Kəndli Təsərrüfatı haqqında” Azərbaycan Respublikasının Qanununa istinad etməklə, bu turizm növünün inkişaf etdirilməsini məqsədəuyğun hesab edirik.

### *Nəticə*

Etiraf etməliyik ki, son illər ölkəmizdə bütövlükdə turizmin inkişafı üçün xeyli işlər görülmüş, bölgələrdə bir neçə hava limanı istifadəyə verilmiş, yol infrastrukturu demək olar ki, yenidən qurulmuş, şimal-qərb və qərb bölgələrinə sürət qatarları hərəkətə başlamış, ölkənin bütün regionları qazlaşdırılmış və fasiləsiz elektrik enerjisi ilə təmin olunmuş, bu sahədə hüquqi baza təkmilləşdirilmişdir. Nəzərə alsaq ki, ölkəmizdə əsrarəngiz təbiət mənzərələri ilə bol olan, təbii görkəmini, saf gözəlliyini qoruyub saxlayan, hər bir iddialı xarici turisti özünə cəlb edə biləcək potensialı olan kəndlər kifayət qədərdir, biz əminliklə deyə bilərik ki, respublikamızda aqroturizmin inkişafı üçün güclü potensial mövcuddur. Yeganə məsələ sistemli, düşünülmüş siyasət aparmaqla, qarşıya çıxan maneələri düzgün şəkildə həll etməklə, kəndliləri bu işə cəlb etməklə aqrar turizmi ölkə iqtisadiyyatı və xüsusilə də kəndlilər üçün gəlirli bir sahəyə çevirməkdir. Unutmamalıyıq ki, aqroturizmin inkişafı təkcə kəndli və fermerlərin gəlirlərini şaxələndirməyə və artırmağa deyil, eyni zamanda yeni iş yerlərinin yaranmasına, kənd-şəhər əlaqələrinin dərinləşməsinə, ölkəmizə xarici turistlərin cəlb edilməsinə, bütövlükdə kənd yerlərinin inkişafına xidmət edir. Yeni ideyalar və yanaşmalar əlavə sərmayə qoyuluşlarına səbəb olur ki, bu da aqrotuzmin hərtərəfli inkişafına stimul yaratmaqla dövlət büdcəsinə daxilolmaları artırır, insanlarda sahibkar ruhunu gücləndirir, son nəticədə isə əhalinin yaşayış səviyyəsi yüksəlir.

Turistlərin cəlbi üçün ilk növbədə kənddaxili infrastruktur yaxşılaşdırılmalıdır, xüsusilə də nəqliyyat, rabitə, səhiyyə xidmətlərinin keyfiyyəti yüksəldilməlidir. Kənddaxili yollar da yaxşı vəziyyətdə olmalıdır ki, turistlər həm öz şəxsi nəqliyyat vasitələri ilə, həm də piyada və ya ictimai nəqliyyatdan istifadə edərək istədikləri ünvana rahat gedib çata bilsinlər. Eyni zamanda gigiyenik normalara da ciddi fikir vermək lazımdır. Həm bələdiyyələr, həm turizm qurumları, həm də digər yerli və mərkəzi icra orqanları turizmin bu sahəsinin inkişafı istiqamətində birgə fəaliyyət göstərməlidirlər.

Ümid edirik ki, Qarabağa böyük qayıdış, “Ağıllı kənd” layihələri və “Ağıllı kənd təsərrüfatı” konsepsiyasının reallaşdırılması yaxın gələcəkdə ölkəmizdə aqrar turizmin inkişafına əlavə təkan verəcəkdir.

Aqrar turizm sahəsində uğurlar qazanmış Avropa ölkələrinin təcrübələrinin təhlili göstərir ki, aqroturizm sektorunda sürətli inkişafa dövlət tərəfindən hazırlanmış və çevik idarəçilik prinsiplərinə əsaslanan xüsusi proqramlar çərçivəsində daha tez nail olmaq olar. Hesab edirik ki, aqrar turizm üzrə elektron baza sisteminin yaradılması, xidmət paketlərinin hazırlanması, müxtəlif dəstəkverici mexanizmlərin işlənməsi, kəndlərdə müvafiq evlərin təmirinə və bərpasına, eləcə də istehlak avadanlıqlarının alınmasına uzunmüddətli və aşağı faizli kreditlərin verilməsinin təmin edilməsi, bu sahə ilə məşğul olmaq istəyən insanlara müəyyən bir müddətə vergi güzəştlərinin tətbiq edilməsi, insanların bilik və bacarıqlarının artırılmasına yönəlik işlərin aparılması ölkəmizdə aqrar turizmin sürətli inkişafına təkan verə bilər.

“Kənd turizmi” və “aqroturizm” anlayışları çox yaxınmənalı anlayışlar olsalar da, hətta bir çox istifadə edilən mənbələrdə və yaxud ədəbiyyatlarda bu anlayışların eyniləşdirilməsinə baxmayaraq, nəzərə alınmalıdır ki, bu anlayışlar tamamilə eyni məna kəsb etmir və müəyyən fərqli cəhətlərə də malikdirlər.

## ƏDƏBİYYAT


1. Aqroturizm tarixi [Elektron resurs] / Aqroturizm internet portalı http://agroturismo.ru/history.php
2. Turizm tarixi ilə bağlı məqalə [Elektron resurs] / "tələbə kitabxanası" internet portalı https://studbooks.net/731145/turizm/istoriya_vozniknoveniya_razvitiya_selskogo_turizma
3. Aqroturizm fəaliyyətlərinin təşkili üzrə Bələdçi kitabı [Elektron resurs] / Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2020 https://tourism.gov.az/uploads/documents/agritourism_handbook2020.pdf
4. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 17 dekabr 2016 https://president.az/az/articles/view/22134
5. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi [Elektron resurs] / Azərbaycan Dövlət İnformasiya Agentliyi https://azertag.az/store/files/Strateji_yol_xeritesi/Turizm_sənayesinin_inkişafına_dair_strateji_yol_xeritesi.pdf
6. Azərbaycanda aqroturizm operatorları fəaliyyət göstərə biləcək [Elektron resurs] / Report İnformasiya Agentliyi, 27 aprel 2022, https://report.az/turizm/azerbaycanda-aqro-turizm-operatorlari-fealiyyet-gostere-bilecek/
7. Aqroturizm – maneələr və inkişaf perspektivləri [Elektron resurs] / Fed.Az biznes-maliyyə portalı, 2022 https://fed.az/az/aqrar/aqroturizm-maneeler-ve-inkisaf-perspektivleri-45565
8. Azərbaycanda kənd turizminin inkişafı üçün görülən işlər açıqlanıb [Elektron resurs] / Fed.Az biznes-maliyyə portalı, 2022, https://fed.az/az/turizm/azerbaycanda-kend-turizminin-inkisafi-ucun-gorulen-isler-aciqlanib-130298


***Фамиль Вели оглы Рустамов***
***доктор философии по экономики, доцент***
***Институт Экономики Министерства***
***Науки и Образования***

## Современное состояние и перспективы развития аграрного туризма в Азербайджанской Республике

***Резюме***

**Целью исследования** - изучение сущности аграрного туризма, его исторического пути развития, анализ реализуемых в Азербайджане мер государственной поддержки, связанных с этим видом туризма, а также существующей нормативно-правовой базы, обоснование роли и значение агротуризма в устойчивом развитии регионов, особенно сельской местности.

**Методология исследования -** использовались методы наблюдения, системного подхода, сравнительного анализа и оценки.

**Прикладное значение исследования** - указаны причины развития аграрного туризма, проанализированы проблемы, связанные с агротуризмом, стратегические цели и задачи, современное состояние аграрного туризма в мире, особенно в развитых странах Европы, а также исследуются достигнутые достижения.

**Результаты исследования** - изучен потенциал и перспективы развития агротуризма в Азербайджане и даны рекомендации для учреждений, ответственных за эту сферу.

**Оригинальность исследования и научная новизна -** результаты исследования являются оригинальными с точки зрения последовательного и корректного использования теоретических источников, статистических данных и аналитических материалов, соображений об использовании экономических механизмов, влияющих на региональные особенности

развития предпринимательства в области аграрного туризма являются научными инновациями.

***Ключевые слова: аграрный туризм. сельский туризм, крестьянин, фермер, доход.***

***Famil Veli Rustamov***
***PHD in Economics, Associate Professor***
***Institute of Economics of the Ministry of Science and Education***

## Current state and prospects for the development of agricultural tourism in the Republic of Azerbaijan

***Summary***

**The purpose of the research** is to study the essence of agrarian tourism, its historical development path, the analysis of the state support measures implemented in Azerbaijan related to this type of tourism, as well as the existing legal framework, and the justification of the role and importance of agritourism in the sustainable development of regions, especially rural areas.

**Research methodology** - observation, systematic approach, comparative analysis and evaluation methods were used.

**The applied importance of the research** - the reasons for the development of agrarian tourism are indicated, the problems related to agritourism, strategic goals and objectives are analyzed, the current situation of agrarian tourism in the world, especially in the developed countries of Europe, and the achieved achievements are investigated.

**The results of the research** - the potential and development prospects of agrotourism in Azerbaijan are studied, and recommendations are made for the institutions responsible for this field.

**Research originality and scientific innovation** - the results of the research are original in terms of the consistent and correct use of theoretical sources, statistical data and analytical materials, considerations on the use of economic mechanisms that affect the regional characteristics of the development of entrepreneurship in the field of agrarian tourism are scientific innovation.

***Key words: agricultural tourism. rural tourism, peasant, farmer, profit.***

UOT 338.004

*Əkrəm Niyazi oğlu HƏSƏNZADƏ*
*Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı*
*e-mail: akram.hasanzada@atm.gov.az*

# AQRAR SAHƏDƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ MƏRHƏLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Aqrar sahənin innovasiya texnologiyaları əsasında sürətli inkişafının təmin edilməsi istiqamətində dəyişikliklər və özəlliklə elmi yeniliklərin kommersiyalaşması şəraitində mövcud problemləri və məhsul istehsalçılarının yeniliklərin tətbiqinə fərqli yanaşmaları öyrənmək, araşdırmaq və bu sahədə əsas hədəfləri müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – Tədqiqat işində müşahidə, təhlil, müqayisə və məntiqi ümumiləşdirmə kimi iqtisadi üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin innovativ inkişafının səmərəliliyini təmin etmək üçün dövlət və özəl təsərrüfatlarda yanaşmaların və prioritetlərin müəyyənləşdirilməsinə, aqrar sahənin innovativ inkişafı üçün yeni layihə və proqramların işlənib hazırlanmasına töhfə verə bilər.

**Tədqiqatın nəticələri** – Aqrar sahənin innovativ inkişafına yeni yanaşmalar və əldə edilən elmi yeniliklərin tətbiqi istiqamətində tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Müasir bazar iqtisadiyyatı şəraitində müxtəlif tipli təsərrüfat subyektlərinin innovativ potensialının öyrənilməsi əsasında onların inkişafının və fəaliyyət mühitindəki dəyişikliklərə uyğunlaşması istiqamətləri müəyyən edilmiş, əmtəə, texnoloji, resurs, təşkilati, iqtisadi, sosial-iqtisadi və təkmilləşdirici yeniliklərin tətbiqinin təsərrüfat subyektlərinin innovativ fəaliyyətinin artırılmasında rolu əsaslandırılmışdır.

***Açar sözlər: sənaye inqilabi 4, əşyaların interneti (İoT), orqanik məhsul, ağıllı kənd təsərrüfatı, istehsal.***

## *Giriş*

Əhalinin sürətli artım tempi, artan resurs məhdudiyyətləri və iqlimin sürətli dəyişməsi kənd təsərrüfatı məhsulları istehsalçıları üçün mövcud olan maneələrdən biridir. Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) proqnozuna görə, 2050-ci ilə qədər qlobal ərzaq istehsalının 70 faiz artaraq 2,3 milyard insana xidmət edəcəyi gözlənilir. Səmərəli idarəetmə, optimallaşdırılmış toxum və gübrə istifadəsi ilə birlikdə dəqiq və davamlı monitorinq kənd təsərrüfatında sürətli inkişafı təmin edə bilər. Bu gün inkişaf etməkdə olan regionlarda kiçik torpaq sahələri olan məhsul istehsalçıları (fermerlər) ümumi kənd təsərrüfatı məhsulu istehsalçılarının təxminən 4/5-nü təşkil edirlər. Apardığımız araşdırma və təhlillərə görə Azərbaycan kənd təsərrüfatı məhsulları istehsalçılarının bilik və bacarıqlarının artırılması təmin edilərsə və eyni zamanda, onların dəqiq və real məlumatlara çıxışı olarsa və məlumatlı şəkildə dəqiq qərarlar qəbul edərlərsə onda məhsul istehsalını artıra bilərlər.

Hazırda fermerlər dünya əhalisinin artan tələbatının ödənilməsi məqsədilə daha çox ərzaq istehsalında irəliləyiş əldə etmək üçün 4-cü Sənaye İnqilabında əmələ gəlmiş texnologiyasından istifadə edirlər. Qeyd edək ki, 1940-cı ildə bir fermer cəmi 19 nəfəri qidalandıra bilirdisə, hal-hazırda innovativ texnologiyalardan düzgün istifadə nəticəsində bu gün hər fermer əlavə 155 nəfəri qidalandıra bilir. Bu gün fermerlər mühərrikli avadanlıq, müasir heyvan və məhsul saxlama yerlərinə malikdirlər və biotexnologiya kimi kənd təsərrüfatında inkişafa imkan verən texnologiyalardan istifadə edirlər. Daha qabaqcıl texnologiya fermerlərə daha çox insanı qida məhsulları ilə təmin etməyə imkan verir, eyni zamanda, ailələrinin ehtiyaclarını ödəməyə və əlavə gəlir əldə etmək üçün təsərrüfatlarda daha az insanın əməyə cəlb edilməsinə şərait yaradır.

**Kənd Təsərrüfatı inqilabı - 4**

Kənd təsərrüfatı inqilabı - 4 ilə davamlı və ağıllı sənaye kənd təsərrüfatına real vaxtla vəhdət təşkil etməkdədir. Prosesin elementləri məkan-zaman məlumatlarının toplanması, işlənməsi və təhlili qida istehsalından tutmuş istehlakçıya qədər kənd təsərrüfatı sənayesinin bütün mərhələlərini əhatə edir. Real vaxt rejimində təsərrüfat idarəçiliyi, yüksək dərəcədə avtomatlaşdırma və məlumatlara əsaslanan ağıllı qərar qəbulu ilə belə bir aqroekosistem məhsuldarlığı, kənd təsərrüfatı ərzaq təminatını, ərzaq təhlükəsizliyini və təbii ehtiyatlardan istifadəni xeyli artıracaq [7].

Kənd təsərrüfatı 4 adlı bu transformasiya ilə kənd təsərrüfatında yeni bir proses yaranıb və bu çərçivədə kompüter dəstəkli idarəetmə sistemləri, müxtəlif proqram və texniki vasitələr, rəqəmsal sensorlarla təchiz olunmuş kənd təsərrüfatı maşınları və kənd təsərrüfatı avadanlıqları və onların bir-biri ilə əlaqəsi, görüntü işlənməsi texnologiyaları, Coğrafi İnformasiya Sistemləri (CİS) bir vəhdət təşkil edir. Pilotsuz uçuş aparatlarlarının (dronların) istifadəsi kimi ağıllı sistemlərin yaradılması, yayılması və tətbiqi əhəmiyyət qazanmışdır.

*4-cü Sənaye İnqilabı prosesi ilə başlayan böyük dəyişiklik və texnoloji inkişaflar gündəlik həyatımızın bir parçasına çevrilmiş, həmçinin mobil cihazların həyatımıza təsirli və intensiv şəkildə daxil olması kimi anlayışlar kənd təsərrüfatı sektorunda da özünü göstərmişdir. Süni intellekt, maşınlar arasında əlaqə, bulud sistemləri (Cloud Systems) və əşyaların interneti (İoT) və bu prosesin kənd təsərrüfatı istehsalına əks etdirmələri məhsuldarlıq, səmərəlilik, sürət, davamlılıq, qida təhlükəsizliyi və rəqabət qabiliyyəti kimi formalaşmağa başladı [8].* 4-cü Sənaye İnqilabı adlı bu transformasiya ilə kənd təsərrüfatı sektorunda yeni bir prosesin müəyyənləşdirilməsi zərurətini ortaya çıxardı. Bu kontekstdə kompüter dəstəkli idarəetmə sistemləri, müxtəlif proqram və texniki vasitələr, rəqəmsal sensorlarla təchiz olunmuş kənd təsərrüfatı maşınları və sahələri, onların hər biri ilə əlaqəsi digər, görüntü emal texnologiyaları kimi ağıllı sistemlərin ortaya çıxmasına, qurulması və yayılmasına əhəmiyyətli dərəcədə təsir etdi. Bu sistemlərlə kənd təsərrüfatı istehsalının davamlılığı üçün vacib olan bütün amillər tez bir zamanda istehsalçıların məlumat bazasına təqdim olunur və resurslardan səmərəli istifadə təmin edilir.

Bu gün təsərrüfat heyvanlarının yetişdirilməsi, yemlənməsi qaydası (norması) və onların yaşayış saxlanma şərtləri dəyişib. Heyvanlar üzərində aparılan araşdırmalar nəticəsində alimlər hansı növ saxlama şəraitinin heyvanları daha rahat etdiyini aşkar ediblər. Bundan əlavə, onları xüsusi yemləmə normaları ilə bəsləyəcək zootexnikilər və çöldə isti olanda sərinləmək üçün ventilyator və süni su fəvvarələrindən istifadə edilməyə başlanıb.

İllər ərzində dəyişən heyvandarlıq sektoru ilə yanaşı, bitkiçilik də inkişaf etmişdir. Kənd təsərrüfatında biotexnologiyanın tətbiqi bitki və heyvan istehsalının artırılmasının nəticəsi olaraq insan həyatının keyfiyyətini yaxşılaşdırmaq üçün canlı orqanizmin manipulyasiyasıdır. Toxumun davamlılığı və məhsuldarlığı illər ərzində həm biotexnologiyanın, həm də gen mühəndisliyinin köməyi ilə dəyişdi. Əvvəllər sərt hava şəraiti səbəbindən məhsullar məhv olurdu. Ancaq indi elm adamları ilk növbədə toxumları dəyişdirərək məhsulun nəticələrini dəyişə bilirlər. Bütün dövrlərdə fermerlər öz resurslarından maksimum yararlanmağa çalışırlar. Bununla belə, daim inkişaf edən texnologiya ilə müasir fermerlər davamlı kənd təsərrüfatı və konservasiya kimi əkinçilik təcrübələri ilə məşğul ola bildilər (JR Animal Scientist, n.d.). Fujitsu Yaponiyadakı fermerlərə məhsullarını və xərclərini daha yaxşı idarə etməyə kömək etmək üçün ümummilli kameralar və sensorlar şəbəkəsindən (yağış, rütubət, torpaq temperaturu) məlumat toplayır [5].

**Ağıllı kənd təsərrüfatı**

Tələb təklifdən çox olduğu üçün orqanik qidalar daha bahalıdır. Bundan əlavə, orqanik məhsulların qiymətində təkcə istehsalın maya dəyəri deyil, həm də qida təhlükəsizliyi, ekoloji təhlükəsizlik və s. digər amilləri də nəzərə alınır. Orqanik məhsulların marketinqi və tədarük zənciri nisbətən çətindir və buna görə də yüksək xərclər tələb olunur. Orqanik k/t-nın məhsuldarlığını artırmaq üçün müəyyən vaxt tələb edir. Bununla belə, orqanik əkinçilik adi əkinçiliyə əla alternativdir, çünki onlar heç bir ciddi çirklənməyə səbəb olmur və insan sağlamlığına təhlükə yaratmır. Bir sözlə, insanın yeganə sərvəti sağlamlıq olduğu üçün onun qayğısına qalmamaq ona baha başa gəlir. Orqa-

nik əkinçilik çox az karbon emissiyasına malikdir və torpağın təbii xüsusiyyətlərini bərpa etməyə kömək edir. Kompost gübrələr və ya zərərvericilərə qarşı kompos qarışıqlarının torpağa tətbiqi, üzvi maddələrin konsentrasiyası, bufer qabiliyyəti, torpağın zərərsiz maddələrlə mübadiləsi qabiliyyəti və s. kimi torpağın xüsusiyyətlərini yaxşılaşdırmağa kömək edir. Təbii ehtiyatların və biomüxtəlifliyin qorunması ekoloji kənd təsərrüfatının əsas prinsipidir. Orqanik məhsul istehsalçısı olan fermerlər faydalı həşəratların populyasiyasını artırmaq və bununla da zərərli həşəratları tutmaq kimi təbii üsullardan istifadə edirlər.

Ağıllı kənd təsərrüfatı əkin, məhsul yığımı və əkinçilik, heyvandarlıq və akvakultura məhsullarının paylanmasının optimal idarə edilməsidir. Ağıllı kənd təsərrüfatı, əlverişli mühitlərə nəzarət etmək üçün nəzərdə tutulmuş dəqiq kənd təsərrüfatının alt moduludur. 2050-ci ilə kimi dəqiq kənd təsərrüfatı texnikaları bazarının daha da böyüməsi gözlənilir. Çin və Yaponiya kimi ölkələrdə smartfonlar və Əşyaların İnterneti (IoT) nəticəsində ağıllı kənd təsərrüfatı həllərinin sürətlə mənimsənilməsinə nail olunmuşdur. Ağıllı əkinçilik proqram mühəndisliyi və kompüter elmi ilə gələn bir konsepsiyadır. Bu hesablama elementləri obyektlərə daxil edilir və bir-biri ilə bağlıdır. Ağıllı kənd təsərrüfatı maşınlarının istifadəsi kənd təsərrüfatında sensorların istifadəsi sayəsində mümkündür. Sensor ətraf mühitdən fiziki kəmiyyətləri ölçən və onları oxuna bilən siqnala çevirən elektrotexniki cihazdır. Sensorlar tərəfindən oxunan ölçmələr arasında: temperatur, rütubət, işıq, təzyiq, səs-küy səviyyələri, sürət, istiqamət, müəyyən növ maddələrin olması və ya olmaması öz əksini tapmışdır.

Simsiz rabitə texnologiyaları, süni intellekt, maşınlar arasında rabitə (M2M), bulud sistemləri (Cloud Systems) və əşyaların interneti (IoT) kimi texnologiyaların tətbiqi ilə mobil cihazların artan istifadəsi kənd təsərrüfatı sektorunda öz yerini tutdu və kənd təsərrüfatında rəqəmsal transformasiya baş verdi. İnsan müdaxiləsi olmadan texnika ilə əkilən və yetişdirilən kənd təsərrüfatı 2000-ci illərin əvvəlində dünyada ilk məhsulunu verdi.

Ağıllı kənd təsərrüfatı təcrübələri təkcə böyük ənənəvi təsərrüfatlar üçün deyil, həmçinin kiçik ərazilərdə və ya mürəkkəb morfologiyaya malik təsərrüfatların da genişlənməsinə digər tendensiyaların yayılması üçün ardıcıl təkan ola bilər. Beləliklə, xüsusi bitkilərin və ya xüsusi sortların qorunmasını və ya üzvi əkinçiliyi hədəfləyir. Ağıllı kənd təsərrüfatı həmçinin suyun daha səmərəli istifadəsi və məhsul mühafizəsi proseslərindən optimallaşdırılmış şəkildə istifadə etməklə açıq ekoloji faydalara malikdir.

Ağıllı kənd təsərrüfatı üçüncü yaşıl inqilab adlanan kənd təsərrüfatında informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqini təmsil edir. Üçüncü inqilab, dəqiq kənd təsərrüfatı, IoT, sensorlar və aktuatorların istifadəsi, geolokasiya sistemləri, böyük verilənlər, dron və ya dronlar, robotlar kimi İKT həllərinin becərmə prosesində tətbiqi vasitəsilə kənd təsərrüfatı sektorunun istiqamətini dəyişir. Ağıllı kənd təsərrüfatı davamlılıq və resurslardan ən səmərəli və həssas istifadə əsasında kənd təsərrüfatı məhsuldarlığının artırılması üçün real potensial təklif edir. ABŞ-da əkinçilik cəmiyyətinin 20%-dən 80%-ə qədəri bu tip həllərdən istifadə edir. Fermer üçün ağıllı kənd təsərrüfatı qərara dəstək alətləri və ya təsərrüfatların daha səmərəli idarə olunması vasitəsilə yüksək əlavə dəyər təmin etməlidir. Bu mənada ağıllı kənd təsərrüfatı bir-biri ilə əlaqəli üç texnoloji sahə ilə sıx bağlıdır.

**Dəqiq Kənd Təsərrüfatı**

Dəqiq Kənd Təsərrüfatı (HT) 1990-cı illərdə ortaya çıxdı. Mahiyyəti daha yüksək kənd təsərrüfatı məhsulu əldə etmək üçün daha az resurslardan istifadə etməkdir. Dəqiq əkinçilik təbii ehtiyatların və istehsal proseslərinin bütün aspektlərini özündə cəmləşdirən geniş çeşidli mənalara malikdir. Təbii ehtiyat şəraitinə ərazi, region, hava və iqlim, təbii fəlakətlər və istehsal prosesinə heyvandarlıq, əkin, gübrələmə, zərərvericilərə qarşı mübarizə və s. daxildir.

V.M. Babayeva öz tədqiqatlarında göstərir ki, *Kənd təsərrüfatının əvvəlki tarixi boyunca yerinə yetirilən "gözəyarı" şumlama, səpin və gübrə vermə bu sistemdə dəqiqliklə yerinə yetirilir, əlavə itkiyə yol verilmir. Peyk və laboratoriya məlumatları əsasında sahənin hər bir hissəsi üçün səciyyəvi göstəricilərin xəritəsi tərtib olunaraq resursların ən rasional şəkildə paylanmaq imkanı*

*yaranır [1].* Bu gün sensorlardan geniş istifadəyə zərurət olduğundan kənd təsərrüfatı istehsalının, istismarının və idarə olunmasının bütün proseslərində sensorlar geniş miqyasda istifadə olunur və həmçinin sensor məlumatları daha dəqiqdir. Seçmə prosesi daha sürətlidir və avtomatlaşdırılmış toplama prosesi də insan səhvinin və ya gözlənilməz xətanın qarşısını alır. Dəqiq kənd təsərrüfatı ilə məşğul olmaq, bu cür məlumatları vaxtında necə əldə etmək və düzgün emal etmək bir çox problemlərlə üzləşir. Birincisi, kənd təsərrüfatı ilə bağlı təşkilatlarda kənd təsərrüfatı məlumatlarının standartlaşdırılmasından əziyyət çəkirlər. İkincisi, mövcud kənd təsərrüfatı məlumat sistemi çox vaxt ənənəvi kənd təsərrüfatı fəaliyyəti üçün nəzərdə tutulub, ona görə də özündə daha dəqiq məlumatları cəmləşdirə bilmir.

**Orqanik kənd təsərrüfatı**

Bəzi qidalar qida çatışmazlığının qarşısını almaq, sağlamlıq üçün faydalı qida maddələri təmin etmək və müəyyən xəstəliklərin yaranmasının qarşısını almaq qabiliyyətinə malikdir. Orqanik istehsalda ənənəvi kənd təsərrüfatında istifadə olunan gübrələrin və fitosanitar məhsulların 90%-ni təşkil edən sintetik kimyəvi maddələrdən istifadə edilmir. Orqanik məhsullar adi məhsullarla müqayisədə saxlama zamanı daha aşağı keyfiyyət itkilərinə məruz qalır. Orqanik kənd təsərrüfatı biomüxtəlifliyi və aqroekosistemlərdə müxtəlif səviyyələrin mövcudluğunu təşviq edir və biomüxtəlifliyin artırılması üzrə təcrübələr (bitkilər assosiasiyaları, növbəli əkinlər, məhsulun şaxələndirilməsi) geniş yayılmışdır. Bu təcrübələr xəstəliklər və zərərvericilər kimi davam edən monokulturalarla bağlı problemlərin qarşısını alır. Orqanik kənd təsərrüfatında zərərvericilərə və xəstəliklərə qarşı mübarizə üçün icazə verilən yeganə maddələr təbii mənşəlidir və beləliklə, ətraf mühitimizdə pestisid qalıqlarının mövcudluğunu məhdudlaşdırır. Orqanik kənd təsərrüfatı təbii ehtiyatların idarə edilməsi sahəsində daha davamlı kənd təsərrüfatı növüdür, çünki təkrar istifadəni və təkrar emalını bir çox tətbiqləri arasında mühüm dəyər kimi görür. Orqanik kənd təsərrüfatı ənənəvi kənd təsərrüfatından daha az ətraf mühitə təsir göstərir.

**Ənənəvi kənd təsərrüfatı**

Ənənəvi kənd təsərrüfatında kimyəvi gübrələrin istifadəsi ilə məhsuldarlıq daha sürətli və daha qısa müddətdə artır. Bu, fermerlər üçün bir üstünlükdür. Lakin gübrə və pestisid istehsalında istifadə olunan zəhərli elementlər nəticədə əldə edilən məhsulun özündə toplanır və istehlakçıya ciddi narahatlıq yarada bilər. Bundan əlavə, bu kimyəvi maddələr torpağa və havaya qalıcı təsir göstərdiyindən ətraf mühitə böyük ziyan vurur.

Ekoloji ətrafa təsiri və təsərrüfatın idarə edilə bilməməsinin səciyyənləndirilməsi:

1) Sahə boyu gübrələrin və pestisidlərin yanlış tətbiqi üçün çox vaxt qeyri-elmi təcrübələr toplusu;

2) Bütün sahə və maliyyə məlumatlarının ayrı-ayrılıqda əl ilə saxlanması xətalara və məlumat itkisinə səbəb olur;

3) Coğrafi etiketləmə və bölgənin aşkarlanması mümkün deyil;

4) Havanı proqnozlaşdırmaq üçün etibarlı üsullar yoxdur;

5) Fermerlərin sadə alətlərdən istifadə etməsi prosesi zəhmətli və vaxt aparan edir.

***Nəticə***

Aqro-ərzaq sisteminin rəqəmsallaşdırılması, texnologiyaların sosial-iqtisadi perspektivdən dayanıqlılığa və onların qida sistemlərimizin transformasiyasına töhfəsinə qədər hərtərəfli qiymətləndirilməsini tələb edir. Rəqəmsallaşma, torpağın qorunduğu, üzvi maddələrin artdığı, şaxələndirmənin mal-qara və bitkiləri bir araya gətirdiyi, müxtəlifliyin artdığı, qidalanma dövrlərinin bağlandığı və daxilolmaların minimuma endirildiyi bütün qida ehtiyatının vahid transformasiyasını dəstəkləmək üçün alətlər toplusu kimi qəbul edilməlidir.

Ağıllı kənd təsərrüfatının istifadəsində insan müdaxiləsi azalır və istehsalın keyfiyyəti və həcmi artır. Təsərrüfat məhsuldarlığı buluddakı məlumatları təhlil etməklə artır. Ağıllı idarəetmə, kənd təsərrüfatı, torpaq və məhsulun idarə edilməsinə kənd təsərrüfatı məhsuldarlığını artırmaq və resurslardan daha qənaətlə istifadə etməklə ətraf mühitə dəyən ziyanı minimuma endirməyə imkan

verən bir texnikadır. Ağıllı kənd təsərrüfatı tətbiqləri ilə təkmilləşdirilmiş məlumat və nəzarət resurs israfının qarşısını almaq, məhsulun ümumi gəlirini artırmaq və istehsal nəticəsində ətraf mühitin çirklənməsini minimuma endirmək məqsədi daşıyır. Ağıllı kənd təsərrüfatı texnikaları, əkinçilikdən məhsul yığımına qədər istehsalın demək olar ki, hər mərhələsində istifadə oluna bilər. Kənd təsərrüfatında rəqəmsal transformasiya bizə bir çox imkanlar təqdim edir və kənd təsərrüfatının əlavə dəyərində əhəmiyyətli faydalar gətirir. Simsiz rabitə texnikalarının yüksək səviyyədə inkişaf etdiyi bu gün, 5G ilə maşınların bir-biri ilə danışa biləcəyi yeni bir dövr canlanacaq.

Təbii ki, aqrar sahənin də texnoloji inkişafın təsirinə məruz qalması qaçılmazdır. Məsələn, karbon emissiyalarının ölçülməsi və monitorinqi yolu ilə hazırlanmış yeni gübrə növlərinin istifadəsi nəticəsində daha az karbon emissiyasına nail olmaq olar. Karbon ölçmə sensorları və 5G şəbəkəsi ilə sadə IoT cihazları ilə əldə ediləcək konvergensiya bu və buna bənzər ölçmə və təhlillərə imkan verəcəkdir. Son 50 ildə torpağın deqradasiyasının təsirinin kənd təsərrüfatı məhsuldarlığında 13% itkiyə səbəb olduğu müəyyən edilmişdir. Torpaqsız əkinçilik minimum su və minimum gübrə ilə istixana sahələrində idarə edilməli, rütubət və istilik parametrləri ən yüksək məhsuldarlığı əldə edəcək şəkildə idarə edilməlidir.

IoT, M2M, dəqiq kənd təsərrüfatı və kənd təsərrüfatında yaxşı kənd təsərrüfatı üçün avtonom avtomobil tətbiqləri bütün dünyada böyük diqqəti cəlb edən inkişaf sahəsidir. Artıq beynəlxalq təcrübədə avtonom kombaynlarla məhsul itkilərinin azaldılması, ehtiyaca uyğun olaraq lazım olan yerlərə mütənasib miqdarda gübrə və çiləmə üsulu tətbiqi, bitkinin fenoloji mərhələsinə və torpağın rütubət vəziyyətinə görə suvarma gündəliyinə optimal nəzarət kimi işlər sayəsində, kənd təsərrüfatında xəstəliklərin vəziyyətinin proqnozlaşdırılması və erkən diaqnostikası, kənd təsərrüfatında itkilərin azaldılması və məhsuldarlığın artırılması, informatika və kommunikasiya tətbiqlərinin təkmilləşdirilməsi nümunələri var. 2050-ci ilə qədər kənd təsərrüfatı sahəsində aparılacaq IoT tədqiqatları ərzaq və qida istehsalını artıracaq. Yeni texnologiyalar sayəsində qlobal istiləşmə və iqlim dəyişiklikləri ilə yanaşı, intensiv/yanlış kənd təsərrüfatı təcrübələrinin yaratdığı ətraf mühitə təsirlər də azalacaq.

## ƏDƏBİYYAT

1. V.M.Babayeva, Aqrar sahənin innovasiyalı inkişafının prioritet istiqamətləri, https://agroeconomics.az/az/article/37/aqrar-sahenin-innovasiyali-inkisafinin-prioritet-i/
2. Aceto, G., V. Persico and A. Pescapé (2019). "A Survey on Information and Communication Technologies for Industry 4.0: State-of-the-Art, Taxonomies, Perspectives, and Challenges," in IEEE Communications Surveys & Tutorials, vol. 21, no. 4, pp. 3467-3501, Fourthquarter, DOI: 10.1109/COMST.2019.2938259. Bu şəkilin linki idi
3. Asare-Kyei, D (n.d.). Big Data: The Future Of Sustainable Agriculture In Ghana 2022, https://esoko.com/big-data-sustainable-agriculture/.
4. Brase, T. (2015). Precision Agriculture; Delmar Publishers Inc.: Salem, OR, USA, p. 288.
5. Carlson, C. (2012). Fujitsu Rolls Out Cloud-based Big Data Platform for Farmers. FierceCIO. http://www.fiercecio.com/story/fujitsu-rolls- out-cloud-based-big-data-platformfarmers/2012-07- 19.
6. CEMA-European Agricultural Machinery (2017). Digital Farming: What Does It Really Mean? And What Is the Vision of Europe's Farm Machinery Industry for Digital Farming? CEMA: Brussels, Belgium, 2017. Erişim tarihi:9 Ekim, 2022, https://www.cema- agri.org/images/publications/position- papers/CEMA_Digital_Farming_-_Agriculture_4.0 13_02_2017_0.pdf.
7. De Clercq, M., A. Vats, and A. Biel (2018). "Agriculture 4.0: The future of farming technology," in Proc. World Government Summit, pp. 11–13.de Wilde, S. (2016). "The future of technology in agriculture", STT 81.
8. SFS (2018). Smart Farming Solutions – How IoT transforms Agriculture Sector, Mitesh Patel / 10 May 2018 / IoT, https://readwrite.com/smart-farming-solutions-how- iot-transforms-agriculture-sector/

*Акрам Ниязи оглы Гасанзаде*
*Диссертант Центра Аграрных Исследований*
*Э-почта: akram.hasanzada@atm.gov.az*

## Этапы применения инновационных технологий в сельском хозяйстве

***Резюме***

**Цель исследования** - состоит в изучении и исследовании существующих проблем и различных подходов производителей продукции к внедрению инноваций в коммерциализацию научных инноваций, с изменениями в направлении облегчения быстрого развития в аграрном секторе на основе инновационных технологий и специфики. Также целью является определение основных целей в данной области.

**Методика исследования -** В исследовательской работе использовались такие экономические методы, как наблюдение, анализ, сравнение и логическое обобщение.

**Прикладное значение исследования -** Он может способствовать определению подходов и приоритетов в государственном и частном хозяйствах по обеспечению эффективности инновационного развития аграрного сектора в условиях рыночной экономики, разработке новых проектов и программ инновационного развития аграрного сектора.

**Результаты исследования -** Даны рекомендации и выдвинуты предложения по внедрению новых подходов к инновационному развитию аграрной сферы и полученных научных инноваций.

**Оригинальность и научная новизна исследования -** На основе изучения инновационного потенциала различных типов хозяйствующих субъектов в условиях современной рыночной экономики определены направления их развития и адаптации к изменениям среды деятельности, обоснована роль внедрения товарных, технологических, ресурсных, организационных, экономических и социально-экономических инноваций в повышении инновационной деятельности хозяйствующих субъектов.

***Ключевые слова: промышленная революция 4, интернет вещей (IoT), органический продукт, умное сельское хозяйство, производство.***

*Akram Niyazi Hasanzade*
*Dissertation student of the Agrarian Research Center*
*e-mail: akram.hasanzada@atm.gov.az*

## Application stages of innovative technologies in the agriculture

***Summary***

**The purpose of the research** is to study and investigate the current problems and different approaches of product manufacturers to the application of innovations in the conditions of changes in the direction of ensuring the rapid development of the agricultural sector based on innovative technologies, and especially in the commercialization of scientific innovations, and to determine the main goals in this field.

**Research methodology.** Economic methods such as observation, analysis, comparison and logical generalization were used in this research paper.

**Application significance of the research.** In the conditions of the market economy, this research can contribute to the determination of approaches and priorities in state and private farms to ensure the efficiency of the innovative development of the agricultural sector, and the development of new projects and programs towards the innovative development of the agricultural sector.

**Results of the research.** Recommendations and proposals were made in the direction of new approaches to the innovative development of the agricultural sector and the application of the obtained scientific innovations.

**Originality and scientific innovation of research.** Based on the study of the innovative potential of different types of economic entities in the conditions of the modern market economy, the directions of their development and adaptation to changes in the operating environment were determined, and the role of the application of commodity, technological, resource, organizational, economic and socio-economic and improvement novelties in increasing the innovative activity of economic entities was substantiated.

***Key words: industrial revolution 4, internet of things (IoT), organic product, smart agriculture, production.***

**UOT 338.336**

***Qurban Rauf oğlu MİRZƏYEV***
***Azərbaycan Dövlət Aqrar Universiteti,***
***dissertant***
***qurban.mirzayev@bk.ru***

# AQRAR SAHƏDƏ LİZİNQ ƏMƏLİYYATLARININ AUDİTİ, ONUN MÜASİR METOD VƏ METODOLOJİ ƏSASLARI

*Xülasə*

**Tədqiqatın məqsədi** – aqrar sahədə lizinq əməliyyatlarının müasir uçotuna olan çağırışlara cavab yenilənmiş mühasibat uçotu sisteminin mötəbərliyinin artırılması üçün yeni standartlara uyğunlaşdırılmış audit metod və metodologiyasının hazırlanması, habelə auditin işinin keyfiyyətinin yüksəldilməsində yeni üsulların tətbiqi məsələləridir.

**Tədqiqatın metodologiyası** – metodlardan əsasən tədqiqatların empirik üsullarla əsaslandırılması ilə praktiki istifadə edilən qabaqcıl təcrübələrdən, hesabatlılığın etibarlılığını təmin edən audit sübutlarının toplanmasında vektorial yanaşma, müqayisəli təhlil, ümumiləşdirmə və qiymətləndirilmə kimi üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış nəticələrdən e-biznesin iqtisadi artıma təsirinin tənzimlənməsi ilə bağlı nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – qlobal çağırışlar nəzərə alınmaqla tədqiqat işinin əsas əhəmiyyəti kimi qərarların güzgün qəbul edilməsində mühasibat uçotunun dürüst yoxlanmasının əhəmiyyəti və lizinq əməliyyatları üzrə müasir standartlara əsasən qiymətləndirilməsi və tanınması fonunda mövcud risklərin minumuma salınmasına nail olunması ilə əlaqədar təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə göstərilən problemlərin həlli yerli qanunvericilik bazasını da nəzərə almaqla müasir şəraitin tələblərinə uyğun beynəlxalq maliyyə və audit standartları tələbində yanaşmaya nail olunmasıdır. Bununla əlaqədar məqalədə təqdim edilmiş tövsiyələr lizinq əməliyyatları üzrə audit işinin təşkilində nəzərə alınmalı olan standart tələblərə maksimum əməl edilməsində, auditin müasir çağırışlara cavab verən istənilən yanaşmasına (vaxta qənaət-pula qənaət, məsuliyyət-ədalət-professionallıq və sairə) və bu sahə üzrə keyfiyyətinin yüksəldilməsinə imkan verəcək.

***Açar sözlər: lizinq, audit işi, aqrar sahə, audit standartları, audit sübutları, audit planlaşdırılması.***

## *Giriş*

Son dövrlər üzrə dünya iqtisadiyyatında baş verən maliyyə böhranları artıq dövlətləri məcbur edir ki, ərzaq təhlükəsizliyi məsələlərində daha ehtiyatlı davransınlar. Xüsusilə də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının informasiyasına əsasən, qlobal bazarlarda ərzaq məhsullarına olan tələb artmaqdadır. Bunun qarşısının alınmasında əsas istiqamət isə dünya alimlərinin ümumi fikrinə əsasən iki istiqamət göstərilir: a) ehtiyatlardan düzgün faydalanmaq; b) yeni texnologiyalardan maksimum istifadə etmək. Ehtiyatlardan səmərəli istifadə ümumi baxımdan əsasən problemin bir hissəsini həll etsə də tam aradan qaldırılmasına nail olmaq mümkün deyil. Bunun üçün müasir texnologiyalardan istifadə mütləqdir. Belə ki, süni intellektin yaratdığı imkanlardan da istifadə edərək yenilənmiş kənd təsərrüfatı maşın və avadanlıqları istehsal edilməli və birbaşa istehsalda iştirak etməlidir. Lakin, bildiyimiz kimi, bir çox aqrar sahibkarın birbaşa iri həcmli və bahalı texnikaya çıxışı məhduddur. Bunun üçün yeni maliyyələşmə mənbəyi kimi lizinq üsulundan istifadə edilir. Bu yeni yanaşma özü ilə digər məsələni də aktuallaşdırır: bu əməliyyatların mühasibat uçotunun aparılması və müasir standartların tələbləri əsasında auditinin təşkili kimi. Beləliklə, mövzu üzrə apardığımız tədqiqatımıza görə, aqrar sahədə auditin vəzifəsi yeni çağırışlara cavab

verən müasir uçot standartları əsasında, prinsiplərə əsaslanan audit standartları və tələblərinə əməl edilməsi və yoxlamanın aşağıdakı hallara cavab verməsinin təmin edilməsidir:

a) MHBS əsaslı uçotun təşkil edilməsinə əminlik;
b) BAS əsasında heç bir güzəşt olmadan audit edilmə;
c) Yeni təhlil sisteminə cavab verən nəticələrə fokuslanma;
d) Qərarların düzgün qəbulunda rəylərin qüsursuzluğu;
e) Ehtiyatların səfərbər olunması və düzgün qitmətləndirmə.

Yuxarıda göstərilmiş audit vəzifələrin üstünlüyü yeni konsepsiya kimi çıxış edən “kapitalın qorunması” konsepsiyasına əsaslanan maddələrə loyal yanaşma, qanunla qorunan münasibətlər ilə auditorun keyfiyyət göstəricilərinin məcmusu kimi təqdim edilməsidir. Yəni beynəlxalq standartlar onlara mütləq şəkildə əməl edən şəxslərdən və bu tərəfləri qoruyan qanunvericilik bazasının qüsursuz olması kimi başa düşülməlidir. Düzgün qurulmuş uçot işinin əsas faydalarından biri kimi qərarların qəbulunda əhəmiyyət kəsb edən informasiyanın toplanması hesab edilirsə də, auditin əsas işi müəssisənin maliyyə hesabatları üzrə məlumatın tam, dolğun, düzgün, mötəbər, anlaşılan və əsas olaraq da Beynəlxalq Audit Standartlarına əsaslanmış tərtib edilməsidir. Araşdırmalar göstərir ki, “son zamanlar aqrar sahədə audit xidməti artıq öz əhəmiyyətini artırmaqdadır. Belə ki, uzunmüddətli maliyyə davamlılığına və fəaliyyətin fasiləsizliyinə ancaq mükəmməl təşkil edilmiş uçot və audit işinin qurulması ilə yanaşı həm də düzgün idarəetmə də birbaşa təsir edir” [18, s.11-12]. Bildiyimiz kimi aqrar sahədə verilmiş vergi tətilləri, aqrar subsidiyaların həcminin böyüklüyü, texnika ilə təminat və sairə dövlət və qeyri-dövlət tədbirləri düzgün idarəçilikdə maliyyə məsləhət xidmətlərinin rolunu sanki aqrar idarəçilikdə arxa plana atmışdır. Lakin müasir idarəçilik elmi yoxlanılmamış, rasional hesab edilməyən, dialektik metodla əsaslandırılan, empirik metodla təsdiqlənən audit işinin olmamasına və ya zəif olmasına görə, əfsuslar olsun ki, mümkün deyildir. Qeyd etmək yerinə düşər ki, son zamanlar AR Auditorlar Palatasının apardığı məqsədyönlü fəaliyyətdə bu məsələlər öz müsbət həllini tapmışdır (auditor fəaliyyətinin hüquqi tənzimlənməsi, ədalətli lisenziyalaşma və s.). Araşdırmalardan məlum olur ki, orta və iri təsərrüfat subyektləri, o cümlədən aqrar təşkilatlar da auditor xidmətlərindən həm illik maliyyə fəaliyyətlərinin yoxlanmasında, həm də digər maliyyə təsərrüfat hərəkətlərinin qiymətləndirilməsində istifadə edə bilərlər.

**Aqrar sahədə lizinq əməliyyatlarının auditi işinin qurulması istiqamətləri**

Müasir iqtisadi şəraitdə xüsusilə də aqrar sahədə maliyyə böhranlarının mövcud vəziyyətində, bir çox təsərrüfat subyektləri istehsalın şərtlənməsi və istehsalın artırılması üçün müasir avadanlıqlara ehtiyac duyur. Lakin risklərin böyük olduğu iqtisadi mühitdə heç bir sahibkar birbaşa investisiya qoyuluşları etmək istəmir. Bu vəziyyətdə texnikaların və avadanlıqların yenilənməsi üçün yeni kreditləşmə (verilmiş və ya alınmış qiymətliyə görə hesablanmış faizlərin alınması nöqteyi-nəzərindən) növü olan lizinq əməliyyatlarından istifadə etmək zərurəti yaranır. Lakin icarə münasibətlərinin qədim tarixi olsa da müasir iqtisadi şəraitdə bu əməliyyatların həyata keçirilməsi üçün dəqiq normativ-hüquqi baza, əməliyyatların standartlar əsasında uçotunun aparılması, aparılmış mühasibat uçotunun təhlili və auditinin təşkili məsələləri və eyni zamanda azad bazar şəraitində iqtisadi münasibətlər fonunda özününküləşdirmə hüququnun tanınması və sairə məsələlər öz həllini tapmalıdır. Araşdırmalardan məlum olur ki, bir çox təsərrüfat subyektləri istər lizinqverən, istərsə də lizinqalan təsərrüfatlar bir çox hallarda bu əməliyyatların mahiyyətinə deyil, formasına üstünlük verirlər və mühasibat uçotlarında da hüquqların təhvil-təslimindən çox obyektlərin ötürülməsi kimi təqdim edirlər. Ancaq istənilən halda lizinq əməliyyatlarının məzmununu və spesifik xüsusiyyətlərini düzgün başa düşmədən nə onun uçotunun qurulması, nə də auditinin təşkili təkmilləşdirilə bilməz. Ona görə də lizinqin sosial-iqtisadi forma kimi mahiyyətinin nədən ibarət olduğunu, onun məqsədinin, prinsiplərinin və təşkilati formalarını aydınlaşdırmaq lazımdır.

Araşdırmalardan məlum olur ki, bir çox iqtisadı ədəbiyyatlarda lizinq münasibətləri sadəcə ancaq istehsal alətlərinə aid edilir. Məsələn, “lizinq - istehsal təyinatlı qurğuların, maşınların, avadanlıqların.....icarəyə götürülməsidir.” [17, II cild 2020 səh. 258]. Yaxud “lizinq-istehsalçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi

ilə həyata keçirilən xidmət növüdür” (Böyük İqtisadi Ensiklopediya” III cild “Şərq-Qərb” nəşriyyatı - 2012-ci il səhifə 394) kimi ifadə edilən fikirlər də mövcuddur. Yerli müəlliflərdən Xalid Cəfərov hesab edir ki, “maliyyə lizinqi- aktiv üzrə mülkiyyət hüquqlarına aid təqribən bütün risk və mükafatların ötürülməsini təmin edən icarə nüvüdür”. [22, I cild səh. 100]. Həmçinin gənc alimlərdən Radil Fətullayev hesab edir ki, “maliyyə lizinqi hər hansı bir obyektin və ya əmlakın uzunmüddətli elə icarəsidir ki, nəticədə obyektin (əmlakın) istifadə hüququ ilə yanaşı onun nəzarət hüququ da icarəyə götürənə keçir. ...yəni sonda mülkiyyət hüququ da lizinqi götürənə ötürülür.” [11, səh. 31]. Göründüyü kimi, yanaşmalardan məlum olur ki, müəlliflər lizinqi, ilk növbədə, lizinq obyekti və lizinq əməliyyatlarının həyata keçirilməsi şərtləri göstərilmədən investisiya fəaliyyətinin bir növü kimi təmsil edir. Eyni zamanda, bəzi xarici ədəbiyyatda lizinq anlayışı tam fərqli izah olunur. Məsələn, bəzi müəlliflər lizinqi “...məhsuldar qüvvələrin və istehsal münasibətlərinin müəyyən vəziyyətini ifadə edən mülkiyyət münasibətlərinin həyata keçirilməsi yolu” hesab edirlər. Digərləri isə hesab edirlər ki, lizinq “...maddi-texniki təminatın yeni formasıdır və uzunmüddətli icarə ilə və ya onun formalarından biri ilə” müəyyən edilir [8, s. 5]. Hətta “Lizinq xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda da göstərilir ki, “lizinq-istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya orta və uzun müddətə icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növüdür” [16]. Əfsuslar olsun ki, demək olar hamı xidmət növünü, obyektin icarəyə verilməsi faktını, icarə münasibətlərini göstərsə də ancaq iqtisadi və hüquqi münasibətlərin məcmusu kimi çıxış edən lizinq əməliyyatlarını göstərməmişdir. Bu da gələcəkdə maliyyə lizinqi kimi münasibətlərdə və onların uçotu məsələlərində mürəkkəb iqtisadi münasibətlərin izah olunmasında çətinliklər yaradacaqdır.

Azərbaycanda lizinq münasibətləri əsasən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 747□751 maddələri və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123.1 və 140-cı maddələri ilə tənzimlənir. Bu tənzimləmələrdə lizinqin tərifi verilməmiş, sadəcə lizinq obyekti, lizinq müqaviləsi, onun formaları və sair anlayışlar göstərilmişdir. Bu da gələcəkdə mühasibat uçotu predmeti olan TTA üzrə lizinq əməliyyatlarında çətinliklər yaradacaqdır. Vergi Məcəlləsinin izahına görə maliyyə lizinqi anlayışı bu tələblər ödənildiyi hallarda qəbul edilir: “müqavilə müddəti bitdikdən sonra əmlak mülkiyyətə verilməli, yaxud müddəti sonunda icarəyə alana aktivi müəyyən edilmiş qiymət əsasında satın almaq hüququ yaranar, yaxud; icarə müddəti istismar müddətinin 75%-dən çoxdur, yaxud; avtivin qalıq dəyəri icarənin əvvəlinə onun real bazar qiymətinin 20%-dən aşağıdır, yaxud; icarə üzrə ödəniləcək məbləğ aktivin müqavilə bağlanmış ilk gün dəyərinin azı 90%-nə bərabər və yaxud da ondan artıqdır. Bəzən isə icarəyə verilən əmlak icarəçiyə özəl hazırlandığından aktiv müddətin sonunadək icarəçidən başqa heç kəsin istifadəsinə maraqlı olmadığına görə digərlərinə ötürülə bilmədiyi üçün icarəyə alan tərəfdə qalır”. Lakin bildiyimiz kimi, vergi uçotu maliyyə uçotunun tam əhatəli hissəsi hesab olunmadığına görə bu təqdimetmə ancaq vergi hesabatlarında keçərlidir və MHBS-yə əsasən nisbətlərlə müəyyənetmə onun təməl keyfiyyət göstəricisindən biri olan “mahiyyətin formadan üstünlüyü” prinsipinə zidd gəlir. Araşdırmalardan məlum olur ki, nə Mülki Məcəllədə, nə də Vergilər Məcəlləsində lizinqin digər növləri olan operativ və təkrar lizinqlə bağlı heç bir müddəalar əks olunmamışdır ki, bu da uçotun aparılmasında, sublizinqlərin qeydiyyatında, əməliyyat lizinqinin təkrar istifadəsində iştirakçılar arasında qeyri-müəyyənlik yarada bilər. Hesab edirik ki, müasibat uçotunda ən mötəbər mənbə kimi lizinqin tərifi “İcarə” adlı 17 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartlarında verilmişdir. Standarta əsasən “Maliyyə icarəsi-aktiv üzrə mülkiyyət hüquqlarına aid bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Sonda, mülkiyyət hüququ həm keçə, həm də keçməyə bilər” [14, səh. 4]. Digər sanballı izah kimi Dünya Bankı təqdim edilmişdir: “Lizinq tərəflər arasında razılaşdırılmış dövri ödənişlər müqabilində onun mülkiyyəti olan digər tərəfin əmlakından bir tərəfə istifadə etməyə imkan verən xüsusi münasibətdir” kimi izah olunur. Sonda bütün tərəfləri qane edən tərif isə Avropa Lizinq Assosiasiyasının yanaşmasıdır. Bu yanaşmaya görə: “...istehsal obyektlərinin, sənaye obyektlərinin, avadanlıqların, daşınmaz əmlakın icarəçi tərəfindən istehsal məqsədləri üçün istifadəsi üçün icarə müqaviləsi, bu avadanlıq icarəyə verən

tərəfindən alındığı halda, o, həmçinin mülkiyyət hüququnu özündə saxlayır". Göründüyü kimi, bütün hallarda lizinq münasibətlərində əsasən iki tərəf formalaşır: əmlakın sahibi və ya əmlakın istifadəçisi. Əgər lizinq münasibətlərində daha bir məsələ lizinq əməliyyatının kredit əməliyyatları ilə müqayisəli təsviridir ki, burada lizinqin daha mürəkkəb hüquqi və iqtisadi xarakterinin olduğunu müəyyən etməyə imkan verir. Lizinq münasibətlərinin mürəkkəbliyi onunla müəyyən edilir ki, onlar lizinq müqaviləsi ilə yanaşı, alqı-satqı müqaviləsi, girov müqaviləsi, kredit müqaviləsi, lizinqdə olan avadanlıqlarda istehsal olunan məhsulların tədarükü müqaviləsi ilə şərtlənir. İngilis dilli ölkələr yalnız iki "icarə" termini ilə fəaliyyət göstərir ki, bu da bizim kirayə və ya "operativ lizinq" və "lizinq" icarəyə daha yaxındır. İngilis terminologiyasında lizinq-rentin hansı növünün nəzərdə tutulduğunun aydınlaşdırılması "finance leasing" – maliyyə lizinqi, "leaseback" – lease-back... anlayışlarının izahlı tərifindən keçir" [17, s.112]. Qeyd etmək lazımdır ki, iqtisadiyyatı inkişaf etmiş əksər ölkələrdə təşkilatın həm öz əmlakı, həm də icarəyə götürülmüş əmlak balansda bərabər şəkildə əks olunduğundan bu aspekt mövcud mühasibat uçotu və hesabat standartları ilə bağlı lizinq münasibətlərinin inkişafına mane olmur. Ölkəmizdə "Mühasibat uçotu haqqında" Qanuna əsasən "təsərrüfat subyektləri debitor və kreditor borclarını, əmlaklarını ayrıca uçota almalıdır" yazılır [13]. Yəni, öz və icarəyə götürülmüş əsas vəsaitlərin ayrıca uçotu aparılır. Ona görə də mühasibat uçotunun və hesabatın təşkilini tənzimləyən qanunvericilik və normativ sənədlərdəki bu fərqlərin aradan qaldırılması yerli alim və praktikantların qarşısında duran mühüm tətbiqi vəzifələrdən biridir. Müasir iqtisadi ədəbiyyatda lizinq obyektini təyin edərkən müəlliflər çox vaxt qanunvericilik və normativ sənədlərə istinad edirlər və ya bu anlayışı müstəqil şərh etməyə çalışırlar.

Beləliklə, aqrar sahədə lizinq əməliyyatlarının mürəkkəbliyini nəzərə alaraq audit işinin qurulması zamanı aşağıdakı istiqamətləri göstərmək olar:




*Şəkil müəllif tərəfindən hazırlanmışdır.*

Şəkildən də göründüyü kimi, aparılan bütün audit işləri əsasən sənədlərin yoxlanılması (bura lizinq obyektinin daxil olması, müqavilə, kommersiya xərclərini təsdiqləyən sənədlər, müvafiq qaimələr, gömrük sənədləri, invoislər, istehsalata buraxılış aktı, podrat müqvilələr, inventar jurnalları, inventar kartları və sairə), MHBS və BAS əsasında tanınma, təqdimetmə və qiymətləndirmələr, maliyyə hesabatlarında lizinq obyektinin əks olunması, izahlı şərhlərdə Şərhlər Komitəsinin tövsiyələrinə istinadlar, Konseptual Əsaslara uyğunluq yoxlanılmalıdır. Həmçinin, daxili və əlaqəli orqanların (Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Sosial Müdafiə Nazirliyi və digərləri) təlimatlarına əməl edilmə səviyyəsi yoxlanılır. Məsələn, aqrar sektor üzrə büdcə və qeyri-büdcə təşkilatlarında təlimata əsasən köhnəlmənin hesablanması qaydaları, uçotun aparılması təlimatı, Hesablar Planı üzrə təlimat, xərclərin tanınması qaydaları və sairə məsələlər yoxlanılmalıdır. Qanunvericilik bazası dedikdə, lizinqlə əlaqəli bütün qanunlar, sərəncamlar və fərmanlar nəzərdə tutulur. Auditor nəzərə almalıdır ki, Auditor Palatanın metodoloji vasitələri, BAS üzrə bilikləri ilə yanaşı o həm də yerli qanunvericilik bazasını da yaxşı bilməlidir. Bu istiqamətdə ona AR Konstitusiyası, Mülki Məcəllə, Vergi Məcəlləsi, Cinayət Məcəlləsi, Əmək Məcəlləsi, İnzibati Məcəllə, “Mühasibat uçotu haqqında” AR-in Qanunu haqqında müvafiq qanunvericilik bazasına malik biliklər lazımdır. Digər istiqamət isə işçi heyətinin adekvatlığının yoxlanmasıdır. Düzgün qərarların qəbulunda iki təsir mümkündür: mükəmməl sistemin qurulması və bütün risklərin təsirliyini nəzərə ala bilən mütəxəssis. Hesab edirik ki, son zamanlar inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq peşəkar mühasib və daxili nəzarət işçilərinin cəlb edilməsi tendensiyası ölkəmizdə də artıq başlamışdır. Çünki, zəif mütəxəssis yeni vüsət almış lizinq əməliyyatlarının yoxlanmasını və uçotunu müvafiq qaydalara əsaslandırmasa bu gələcək üçün böyük vəsait itkisi və sonda da müflisləşmə deməkdir.

**Audit işinin müasir qaydalara uyğun qurulması ancaq BAS əsasında mümkündür**

Audit işi ölkəmizdə beynəlxalq audit standartlarına uyğun aparılması ilə əlaqədar mükəlləf olunduğu anlaşılır və müasir fəaliyyət sahələrindən olan lizinq əməliyyatları da yeni audit prosedurlarının mövcudluğu fonunda bu məsələdə istisna təşkil etmir. Xüsusilə lizinq əməliyyatlarının vergiyə cəlb edilməsində maliyyə uçotu qaydalarından fərqliliyi gələcəkdə təxirə salınmış vergilərin debitor və ya kreditor kimi tanınmasında, bununla əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş vergi güzəştlərinin tətbiqi məsələləri auditin beynəlxalq tələblər səviyyəsində aparılmasını labüd edir.

Hesab edirik ki, aqrar sektorda lizinq əməliyyatları üzrə auditin aparılması qaydası cədvəl 1-dəki kimi formalaşdırıla bilər: [18, səh. 87-88].

Göründüyü kimi, lizinq fəaliyyətinin auditi zamanı ilkin tapşırıq kimi tapşırığın nədən ibarət olmasını qəbul etməli və tapşırığın şərtlərinin təsərrüfat subyektlərilə razılığa gəlinməsini təmin etmək lazımdır. Həmçinin auditin başlanmasında etik və müstəqillik tələblərinə, savad və səriştəyə malik olan peşəkar heyət cəlb etməklə audit tapşırığının mükəmməl yerinə yetirilməsinə zəmanət vermək lazımdır.

Planlaşdırma bölməsində auditor auditin aparılması istiqamətini, fəaliyyətin mürəkkəbliyini, işin həcmini, məsul tərəflərin müəyyən edilməsini, tapşırıq qrupunun öhdəliklərini, audit riskini, bir sözlə, yarana biləcək bütün problemləri əsaslandırılmış şəkildə proqnozlaşdırmalıdır. Planlaşmanın son nəticəsi kimi tapşırıqla bağlı ümumi məqsədlərin təyini, audit strategiyası və audit planının tamamlanmasını başa çatdırmalıdır.

İcra bölməsində isə auditor özünün plana əsasən fəaliyyətini təşkil etməli, tərtib etdiyi planına nəzarət etməklə onun icrasına lazım gəldikdə müdaxilə etməli və istiqamət verməlidir. Burada mühüm məsələlərdən biri də vaxta qənaət etməklə keyfiyyətli audit rəyinə nail olunması və nəticələrin zamanında təhlil edilərək risklərin yumşaldılmasına, bəzən isə risklərin minimuma salınmasına kömək edilməsidir.

**Cədvəl 1.**

**Lizinq əməliyyatları üzrə auditin aparılması qaydası**

| | | | |
|---|---|---|---|
| 1 | **İlkin mərhələ** | 210 | Audit fəaliyyətində verilmiş tapşırıqların izahı |
| | | 220 | Audit işinə nəzarət |
| | | 300 | Auditin planlaşdırılması məsələləri |
| | | 510 | Yoxlanmanın başlanması mərhələsi |
| 2 | **Planlaşdırma** | 200 | BAS üzrə auditin qurulması tələbləri |
| | | 230 | Sənədləşmə |
| | | 240 | Auditorun məsuliyyəti və üçüncü tərəflərə görə öhdəliklər |
| | | 250 | Yoxlama zamanı metodologiya məsələləri |
| | | 260 | Qərarverici şəxslərlə əlaqə |
| | | 265 | Daxili audit işinin effektivliyi barəsində rəhbərliyə məlumatın verilməsi |
| | | 300 | Auditin planlaşdırılması məsələləri |
| | | 315 | Əhəmiyyətli riskin qiymətləndirilməsi |
| | | 320 | Əhəmiyyətlilik |
| | | 330 | Risklərin yumşaldılması tədbirləri |
| | | 505 | Digər mənbələrdən istinadlar |
| | | 520 | Analitik prosedurlar |
| | | 600 | Digər mülahizələr |
| | | 610 | Daxili audit işinin faydalılığı |
| 3 | **İcra mərhələsi** | 230 | Sənədləşmə |
| | | 330 | Risklərin yumşaldılması tədbirləri |
| | | 402 | Xidmət edən subyektin auditi üzrə mülahizələr |
| | | 500 | Audit sübutu |
| | | 501 | Sübutun yetərliliyi |
| | | 505 | Digər mənbələrdən istinadlar |
| | | 520 | Analitik prosedurlar |
| | | 530 | Seçim |
| | | 540 | MHBS üzrə müfəssəl audit |
| | | 550 | Əlaqəli tərəflər |
| | | 600 | Digər mülahizələr |
| | | 610 | Daxili audit işinin faydalılığı |
| | | 620 | Ekspertiza işi |
| | | 710 | Müqayisəli məlumatlardan istifadə |
| 4 | **Təhlil və son mərhələ** | 220 | Audit işinə nəzarət |
| | | 230 | Sənədləşmə |
| | | 450 | Səhvlərin qiymətləndirilməsi |
| | | 520 | Analitik prosedurlar |
| | | 560 | Yoxlamadan sonrakı hadisə |
| | | 570 | Əsas prinsip: Fəaliyyətin fasiləsizliyi |
| | | 580 | Təqdimatlar: yazılı versiyalar |
| 5 | **Hesabatlılıq** | 260 | Qərarverici şəxslərlə əlaqə |
| | | 700 | Hesabat verilmə |
| | | 705 | Auditorun hesabatında dəyişiklik edilməsi |
| | | 706 | Auditorun hesabatında dəyişikliyin izahı |
| | | 720 | Auditor hesabatına görə məsuliyyət |

Təhlil hissəsində bəzən lizinq əməliyyatlarının auditi sənədlərinin hamısının təhlil edilməsi istənilir. Lakin hesab edirik ki, buna ehtiyac yoxdur. Lakin tapşırıq üzrə auditor əhəmiyyət kəsb edən sahələri, xüsusilə risk faktorları yarada biləcək məsələləri təhlil etməlidir. Buraya: lizinqlə bağlı yenilənmiş audit standartlarının təsir darəsində olan məsələlər; maliyyə hadisələrinin ilkin və icma şəkildə və ya ayrılıqda əhəmiyyətli olmadığına əmin olmaq; audit strategiyası və planlaşdırılmasından irəli gələn və audit aparılması üzrə tələb olunan testlərin və audit sübutlarının təhlilə uyğunluğu; ağlabatan audit rəyi üçün audit sübutunun yetərliyi və müvafiq sübutların zamanında əldə edilməsinə kadr adekvatlığı; maliyyə hesabatlarının konseptual əsaslarla təmin edilməsinə olan əminlik və sairə məsələlər daxildir. Lizinq əməliyyatlarının auditi zamanı audit icra olunan təsərrüfat subyektində ilkin olaraq aşağıdakı məlumatlar təhlil edilməlidir: təsdiqlənmiş maliyyə hesabatları, menecerin təqdimat məktubu və idarəetmə orqanına ünvanlanan rəsmi məktub. Bu bölmənin digər əhəmiyyəti ondadır ki, auditor lizinq əməliyyatları üzrə işin təhvilinədək əhəmiyyətli hərəkətləri (maliyyə, inzibati, metodiki və sairə) təhlil etməlidir. Bu zaman auditorun məsuliyyətinə daxil olan əsas məsələlər verilmiş tapşırığın beynəlxalq standartlara və müasir metodoloji tələblərə uyğun şəkildə planlaşdırıldığı və tam icra edildiyinə təminat hesab edilir.

Hesabat bölməsində auditor çalışmalıdır ki, audit edilmiş maliyyə hesabatları imzalanmazdan əvvəl bütün aidiyyatı tərəflərin məlumatları və audit sübutu kimi qəbul edilmiş istənilən informasiya dəqiqləşdirilsin. Auditorlar lizinq əməliyyatlarında ən azı iki tərəfin də məlumatlarını onların özləri ilə razılaşdırdıqdan sonra, heç bir məsələnin indi və ya gələcəkdə mübahisələnməməsinə zəmanət yarandığı halda, bununla əlaqədar auditorda (özündə) tam əminlik yarandıqdan sonra rəy formalaşdıra bilər.

## *Nəticə*

Müasir dünya iqtisadiyyatının iştirakçıları tələb edir ki, maliyyə resuslarına çıxışlar asanlaşdırılsın və ya onların alternativləri daha əlçatan olsun. Bu baxımdan kreditləşmə üçün ayrılacaq maliyyə vəsaitlərinin tapılmasından daha çox bu vəsaitin yönəlməsi gözlənilən aktivin əldə olunması aktual olmalıdır. Lizinq bu tələbatı ödədiyinə görə son zamanlar onunla əlaqəli istənilən fəaliyyət; hüquqi bazanın formalaşması, mühasibat uçotunun aydınlaşdırılması, yeni təhlil istiqamətləri, audit işinin birbaşa lizinq əməliyyatlarına təsirliyi və sairə öz əhəmiyyətini artırmışdır. Biz belə nəticəyə gəlirik ki, aqrar lizinq əməliyyatlarının auditinin təşkilində aşağıdakı məsələlər öz həllini tapmalıdır:

1. BAS ilə yoxlanılma ancaq MHBS-yə tam keçiddən sonra əhəmiyyətli ola bilər.
2. BAS üzrə yoxlama bütün audit standartlara tam şəkildə əməl edilməsi ilə mümkündür.
3. Azərbaycan Respublikasında lizinq münasibətlərinin qorunması, inkişafı və lizinqin hüquqi bazasının tamamlanması üçün “Lizinq fəaliyyəti” haqqında Qanun qüvvəyə minməlidir.
4. Lizinq əməliyyatı tərəflərinin uçotunun və fəaliyyətinin auditinin düzgün qurulması üçün konkret uçot təlimatı olmalı və lizinqin bütün xüsusiyyətlərini nəzərə alan audit yanaşması formalaşmalıdır. Məsələn, lizinqi kredit əməliyyatından ayıran konturlar, əlaqəli tərəflərin yoxlanılması, audit sübutlarına olan son tələblərə əməletmə və s.
5. MHBS və BAS bilən mütəxəssislərin cəlb edilməsi və onların aqrar sahədə lizinq əməliyyatlarının qeydiyyat / yoxlama işlərinin təşkilinə cəlb edilməsi mexanizmləri formalaşmalıdır. Bu sahədə xidmət haqlarının az olması savadlı mütəxəssislərin cəlb edilməsini məhdudlaşdırır.
6. Sənədləşmə işinin sadələşdırılməsinə nail olunması həm vaxta qənaət, həm də inzibati işlərin azalmasına səbəb olacaqdır. Bu isə öz növbəsində izafi xərcləri azaldacaqdır. Məsələn, satış müqaviləsi ilə lizinq müqaviləsinin birləşdirilməsi, bahalı hissələrin də lizinqlə alınması işinin təşkili buna misal ola bilər.
7. Avtomatlaşdırılmış uçot və daxili audit sistemlərinin tətbiqinin sürətləndirilməsi üçün təşviqlərin təşkili həyata keçirilməlidir.

Göründüyü kimi, aqrar sektorun lizinq əməliyyatları üzrə fəaliyyətində bir çox məsələlər hələ tam həllini tapmamışdır, lakin hesab edirik ki, son zamanlar uçot və audit xidmətinin mükəm-

məlləşdirilməsi, avtomatlaşdırılmış proqram təminatlarının tətbiqi məsələlərinə istər dövlətin, istərsə də təsərrüfat subyektlərinin loyallığı yaxın gələcək üçün gözəl imkanlar vəd etməkdədir.

## ƏDƏBİYYAT


1. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. №882/16.09.1994.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının " 30" yanvar 2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmişdir "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsasən Mühasibat Uçotunun Aparılması Qaydaları"
3. Abdulov Ş.V., Əhmədov Y.B. "Kənd təsərrüfatında mühasibat (maliyyə) uçotu" Dərslik. Bakı, Mütərcim-2009, 420 səh.
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi elektron mənbə- https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi
5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi elektron mənbə 38-ci fəsil- https://e-qanun.az/framework/46944
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (2005). Bakı: Qanun, 352 s.
7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. (2003). Bakı: Qanun. https://www.e-qanun.az/framework/46944
8. Бычкова С.М. Доказательства в аудите -М.: Издат. Финансы и статистика, 1998. - 496с.
9. Ə.Salahov, V.Mehdiyev. "Mühasibat uçotu" Dərslik. Bakı 2016. 3 saylı Bakı mətb, 566 səh.
10. Ə.S.Salahov. "Mühasibat uçotunun kompüterləşməsi" Bakı-2008. "Kooperasiya" nəşriyyatı, 236 səh.
11. R.Fətullayev. "Beynəlxalq mühasibat uçotunun əsasları" Bakı-2019. "Nurlar" nəşriyyat və poliqrafiya mərkəzi, 320 səh.
12. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları. AR Maliyyə Nazirliyinin Kollegiyasinin "30" yanvar 2017-ci il tarixli Q-01 saylı Qərarı
13. "Mühasibat uçotu haqqında" AR-in Qanunu. 29 iyun 2004-cü il tarixli 716 saylı Qanun
14. Mühasibat Uçotunun Beynəlxalq Standartı "İcarələr" adlı 17 saylı standart
15. "Mühasibat uçotu: qanunlar, qaydalar, təlimatlar" Bakı,2013. Hüquq ədəbiyyatı nəşr, 756 səh.
16. "Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı-1994
17. P.E.Muxtarova və başqaları. "İzahlı mühasibatlıq terminləri lüğəti" Bakı, 2020. Mütərcim, 372 səh.
18. P.E.Muxtarova və başqaları "Audit" dərslik. Bakı-2019. Mütərcim, 588 səhifə
19. Терехов А.А. Аудит/А.А. Терехов.-М.:Издательство Финансы и статистика,1998.-512с
20. Терехов А.А. Аудит: перспективы развития. - Л., 2018. - 560 с.
21. Vaganova O.Y. Methodology for auditing an enterprise's activity on various asperts and areas of amounting // Synergy of Stiees. - 2017. - No. 10. - Pp. 308-334.
22. X.Cəfərov. "Müxabirləşmələrin praktiki izahı" Bakı,2020. Zərdabi nəşr, 376 səh.


***Гурбан Рауф оглы Мирзоев***
***Азербайджанский Государственный Аграрный Университет***
***диссертант, e-mail:qurban.mirzayev@bk.ru***

## Аудит лизинговых операций в сельскохозяйственной сфере, его современная методика и методологическая основа

***Резюме***

**Целью исследования** является разработка метода и методологии аудита, адаптированных к новым стандартам для повышения достоверности обновленной системы бухгалтерского учета в ответ на вызовы современного учета лизинговых операций в сельскохозяйст-

венной сфере, а также вопросы применения новых методы повышения качества аудиторской работы.

**Методология исследования** – на основе методов исследования, основанных на эмпирических методах, передовых практиках, используемых на практике, для сбора аудиторских доказательств, обеспечивающих достоверность отчетности, были использованы такие методы, как векторный подход, сравнительный анализ, обобщение и оценка.

**Прикладная значимость исследования** – полученные результаты могут быть использованы для решения теоретических и практических задач, связанных с регулированием влияния электронного бизнеса на экономический рост.

**Результаты исследования** заключаются в подготовке предложений и рекомендаций относительно важности честного аудита бухгалтерского учета при принятии решений как основной важности исследования с учетом глобальных вызовов, а также достижения минимизации существующих рисков с учетом оценки. и признание лизинговых операций по современным стандартам.

**Оригинальность и научная новизна исследования** - решение представленных в статье проблем заключается в достижении подхода к требованиям международных финансовых и аудиторских стандартов в соответствии с требованиями современных условий с учетом местной законодательной базы. В связи с этим представленные в статье рекомендации позволяют максимально соблюсти стандартные требования, которые следует учитывать при организации аудиторской работы по лизинговым операциям, любой подход к аудиту, отвечающий современным требованиям (экономия времени-экономия денег, ответственность-юстиция-профессионализм и т.п.) и улучшение качества этой сферы.

***Ключевые слова: лизинг, аудиторская работа, аграрная сфера, стандарты аудита, аудиторские доказательства, планирование аудита.***

***Gurban Rauf Mirzayev***
***Dissertation student of Azerbaijan State Agrarian University.***
***E-mail:qurban.mirzayev@bk.ru***

## Audit of leasing operations in the agricultural field, its modern method and methodological basis

***Summary***

The aim of the study is to develop an audit method and methodology adapted to new standards to improve the reliability of the updated accounting system in response to the challenges of modern accounting for leasing operations in the agricultural sector, as well as the application of new methods to improve the quality of audit work.

**Research methodology** – based on research methods based on empirical methods, best practices used in practice, methods such as vector approach, benchmarking, summarization and evaluation were used to collect audit evidence that ensures the reliability of the reporting.

**Applied significance of the study** - the results obtained can be used to solve theoretical and practical problems related to the regulation of the impact of e-business on economic growth.

The results of the study consist in the preparation of proposals and recommendations on the importance of an honest audit of accounting in decision-making as the main importance of the study, taking into account global challenges, as well as achieving minimization of existing risks, taking into account the assessment and recognition of leasing operations according to modern standards.

**The originality and scientific novelty of the re**search - the solution of the problems presented in the article is to achieve an approach to the requirements of international financial and auditing standards in accordance with the requirements of modern conditions, taking into account the local

legal framework. In this regard, the recommendations presented in the article make it possible to comply with the standard requirements as much as possible, which should be taken into account when organizing audit work on leasing operations, any approach to audit that meets modern requirements (saving time-saving money, responsibility-justice-professionalism, etc.) and improving the quality of this area.

***Key words: leasing, audit work, agrarian field, audit standards, audit evidence, audit planning.***

UOT: 631

*Xanım Ehtibar qızı HƏSƏNOVA*
*Azərbaycan Dövlət Aqrar Universiteti, assistent*
*E-mail: xanim-yusifova-1991@mail.ru;*

*Fərid Şakir oğlu VƏLİYEV*
*Assistent, Azərbaycan Dövlət Aqrar Universiteti,*
*E-mail: ferid.veliyev.89@mail.ru*

# KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi və ekoloji cəhətdən təmiz qida məhsullarının istehlakının həcminin artırılması məqsədilə müasir şəraitdə dövlətin aqrar siyasətindən, o cümlədən istehsal olunan ərzağın təhlükəsizliyinin təmin edilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, düzgün idarə olunması məqsədilə ərzaq bazarının inkişafının nəzəri-metodoloji əsaslarının öyrənilməsindən, onun mövcud inkişaf meyilləri və məhsulun keyfıyyətinin qiymətləndirilməsi məsələlərinin araşdırılmasından, həmçinin bu prosesdə məhsul keyfıyyətinin idarə olunmasının təkmilləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılmış təcrübi əhəmiyyətli təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – Tədqiqat prosesində müşahidə, müqayisə və dinamik inkişaf, cədvəl, analitik təhlil, kompleks yanaşma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tədbiqi əhəmiyyəti** – İstehsal olunan məhsulun keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi onun düzgün idarə edilməsilə sıx bağlıdır.

**Tədqiqatın nəticələri** – Ərzaq bazarının inkişafının mövcud vəziyyəti, əmtəə və məhsulun keyfiyyətinin idarə olunması və keyfiyyətinin qiymətləndirilməsi, ona təsir edən amillərin təhlili, o cümlədən, məhsulun keyfiyyətinin yüksəldilməsi üçün təcrübə və imkanlar, həmçinin məhsulun keyfıyyətinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətləri araşdırılaraq, ümumi nəticələr əldə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** – Müasir dövrdə kənd təsərrüfatı, o cümlədən, ərzaq bazarının inkişafına təsir edən faktorlar ümumiləşdirilmişdir, aqrar sahənin inkişafına və təkmilləşdirilməsinə məhsulun keyfıyyətinin idarə olunmasının təsiri öyrənilərək, kompleks tədbirlər aparılmışdır, eyni zamanda xarici iqtisadi əlaqələrin ərzaq bazarına təsiri mexanizmi tədqiq edilmişdir.

***Açar sözlər: Məhsul keyfiyyəti, ərzaq təhlükəsizliyi, əhali tələbatı, sahibkarlıq fəaliyyəti, istehlak qabiliyyəti, ərzaq təhlükəsizliyi, səmərəlilik, sosial-iqtisadi tədbirlər.***

## *Giriş*

Azərbaycan əhalisinin ərzaq və qida məhsullarına olan ehtiyac və tələbatının ödənilməsi və ekoloji kənd təsərrüfatı məhsullarının istehlakının həcminin artırılması müasir dövrdə dövlətin aqrar strategiyasının qarşısında duran ən mühüm hədəflərdəndir. Ölkədə istehsal olunan ərzağın təhlükəsizliyinin təmin edilməsi məhsulun keyfıyyətinin yüksəldilməsilə sıx bağlıdır.

Qeyd etmək lazımdır ki, son illər Dövlət tərəfindən ərzaq bazarında tarazlığın təmin edilməsi ölkənin ərzaq təhlükəsizliyinin qorunması, eləcə də əhalinin ekoloji təmiz məhsullara olan tələbatının qarşılanması istiqamətində silsilə tədbirlər həyata keçirilməkdədir.

Ərzaq bazarında məhsulun keyfıyyətinin yüksəldilməsi müasir şəraitdə aqrar sahədə istehsalın intensivləşdirliməsinin əsas amillərindən biridir. Məhsulun keyfiyyəti və onun idarə olunması iqtisadi kateqoriya olub, iqtisadiyyatın ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Beləliklə, məhsul keyfiyyəti və onun idarə olunması, məhsulun cəmiyyətin tələbatının ödənilməsi prosesində olan mövcud xassələrinin, faydalılıq və yararlılıq dərəcəsinin məcmusunu özündə əks etdirir. Bu anlayış

müxtəlif ədəbiyyatlarda müxtəlif formada göstərildiyi və izah edildiyi üçün, onun ümumi məzmununa fərqli yanaşmalar da mövcuddur, ancaq onun iqtisadi mahiyyəti və iqtisadi tərəfi daha əhəmiyyətli hesab edilir. Çünki, iqtisadi nöqteyi-nəzərdən keyfiyyət həm də səmərəliliyin yüksəldilməsinə təsir edən bir faktordur [1, səh. 489].

**Məhsulun keyfiyyətinin idarə olunması və yüksəldilməsi istiqamətləri**

Bildiyimiz kimi, məhsulun keyfiyyəti ilə iqtisadi fəaliyyət arasında xətti asılılıq mövcuddur. Məhsulun keyfiyyətinin düzgün idarə edilməsi ayn-ayrı bazarların, kənd təsərrüfatı və emal sənayesinin dayanıqlı inkişafına təkan verir. Bütün bunlar isə mövzunun aktuallığını, həmçinin onun mühüm nəzəri və praktiki əhəmiyyətə malik olduğunu şərtləndirir.

Məhsulun keyfiyyətini təmin edən və yüksəldən alternativ variantlardan biri onun dondurulmasıdır. Dondurulma prosesi məhsulun saxlanması üçün ənənəvi və tez-tez istifadə olunan üsullardan biridir. Bu proses məhsulun qida dəyərini, görünüşünü, təbii dadının ən yaxşı şəkildə qorunmasını təmin edir.

Bildiyimiz kimi, dondurulmuş məhsulların tərkibində kimyəvi reaksiyaların sürəti zəifləyir, bakteriya və mikroorqanizmlərin inkişafı dayanır və fermentlərin fəaliyyəti dayanılır ki, bu da onların xarab olmadan uzun müddət saxlanılmasına şərait yaradır. Əgər biz bu prosesin qaydasına nəzər salsaq, adətən meyvə və tərəvəzlər bütöv şəkildə yox, yaxşı olardı ki, onları yarıya bölərək, dilim şəklində və ya kublar şəklində kəsilərək dondurulsun[4].

O cümlədən, meyvələri şəkər siroplarında və ya şəkər qatmadan müəyyən olunmuş formada dondurmaq olar. Ümumiyyətlə, əksər vaxtlarda meyvə və tərəvəz şirələri, konsentrantları və pürələri qida sənayesində dondurulur. Bu zaman da dondurma prosesinin bütün mərhələ və şərtlərini bilmək əsas şərt və vacib prinsip hesab edilir.

Beləliklə, dondurulma prosesi və ya üsulu, məhsulların təzəliyinin ən yaxşı qorunub saxlanması qaydalarından biridir. Dondurulmuş qidalarda keyfiyyət xüsusilə xammalın seçilməsindəm, ilkin emalların adevkat tətbiqindən, qablaşdırmadan və  dondurulma şəraitindən asılıdır.

Qeyd edək ki, məhsulların dondurulma prosesi, eləcə də,  dondurulmuş məhsulların saxlanması məsələlərində izlənilən keyfiyyət itkilərini və digər problemləri minimuma endirmək üçün uyğun texika və texnologiyanın təkmilləşdirilməsi lazımdır. Çünki, son dövrlərdə dondurulmuş məhsul istehlakı artmaqdadır [4].

Ümumiyyətlə qeyd etmək istərdim ki, biz elə formada iqtisadi mexanizm formalaşdırmalıyıq ki, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, saxlanması, daşınması və istehlakı proseslərində məhsulların keyfiyyəti, təhlükəsizliyi təmin edilsin və maksimum dərəcədə itkilərə yol verilməsin.

Təhlillər göstərir ki, məhsulun keyfiyyətinin idarə edilməsi, təyin olunması zamanı bir çox üsullardan istifadə olunur ki, onlardan da ən səmərəlilisi sosioloji üsuldur. Bu üsul vasitəsilə məhsulun keyfiyyətinin müəyyən olunması zamanı fərqli anket və sorğulardan istifadə etməklə istehlakçı və istehsalçı müəssisə və fərdi şəxslərin istək, arzu və təklifləri öyrənilir ki, bu da sosioloji üsulun vacibliyini və mühümlülüyünü əks etdirir. Eyni zamanda bu üsulda sərgi, yarmarka və satış-reklam mərkəzlərinin imkan və üstünlüklərindən də geniş istifadə olunur.

Məhsulun keyfiyyəti dedikdə, təyinata uyğun olaraq müəyyən ehtiyacları ödəməyə uyğunluğunu müəyyən edən xassələrin məcmusu başa düşülməlidir. Kənd təsərrüfatı məhsullarının keyfiyyəti bir çox texnoloji, təşkilati, sosial, iqtisadi və təbii amillərdən asılıdır. Bunlardan: torpağın münbitliyi, hava şəraiti, bitki sortları və heyvan cinsləri, məhsulların istehsalı, tədarükü, saxlanması və satışı üzrə bütün əməliyyatların vaxtı və keyfiyyəti, istehsalat imkanlarının, texniki avadanlıqların, gübrələrin və pestisidlərin mövcudluğu, ixtisaslı kadrlar, işçilərin keyfiyyət göstəricilərinə maddi maraq sistemi və s. Məhsulların keyfiyyətini müəyyən edən bir çox amillərə təsir etmək, habelə bütün istehsal dövrü ərzində işin və son məhsulun keyfiyyətinə müntəzəm olaraq nəzarət etmək, texnoloji proseslərin pozulmasını operativ şəkildə aradan qaldırmaq üçün vahid keyfiyyət idarəetmə sisteminə ehtiyac var [5, səh 6].

**Cədvəl 1.**

**Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi və məhsuldarlığı**

| Göstəricilər | İllər | | | | | | 2010-cu illə müqayisədə 2021-ci ildə artma (+); azalma (-)% |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2014 | 2018 | 2019 | 2020 | 2021 | |
| **Əkin sahəsi (min ha)** | | | | | | | |
| Dənli bitkilər | 648,2 | 802,3 | 1125.5 | 968.0 | 967.3 | 1031,4 | + 1,6 dəfə |
| Pambıq | 101,2 | 112,4 | 21.1 | 30.2 | 42.8 | 29,8 | -3,4 dəfə |
| Tütün | 8,1 | 2,2 | 1.2 | 1.4 | 1.4 | 1,5 | -5.4 dəfə |
| Kartof | 2,5 | 70,7 | 65.6 | 65.8 | 65.2 | 66,0 | +25,7 |
| Tərəvəz | 56,8 | 78,2 | 80.9 | 81.1 | 81.1 | 78,3 | +37,8 |
| Bostan | 26,8 | 30,1 | 31.1 | 31.9 | 33.2 | 30,0 | + 11,9 |
| Üzüm | 14,2 | 9,6 | 15 | 15,4 | 15,9 | 16,3 | + 14,0 |
| Meyvə və giləmeyvə | 83,1 | 93,0 | 125 | 127,7 | 130,5 | 133,5 | +60,6 |
| Çay yarpağı | 5,4 | 2,9 | 0.8 | 0,6 | 0.8 | 0,9 | -6,0 dəfə |
| **Məhsuldarlıq (sentnerlə)** | | | | | | | |
| Dənli bitkilər | 23,8 | 26,5 | 26,6 | 20,7 | 25,4 | 27,2 | + 14,2 |
| Pambıq | 9Д | 17,5 | 15.5 | 12.7 | 15.5 | 19,5 | +2,1 dəfə |
| Tütün | 22,2 | 25,7 | 21,7 | 24.0 | 24,9 | 27,9 | +25,6 |
| Kartof | 84 | 149,0 | 149.0 | 145.0 | 144.0 | 147,0 | +75,0 |
| Tərəvəz | 133 | 140.0 | 140.0 | 142.0 | 146.0 | 150 | +12,7 |
| Bostan | 98 | 121 | 132.0 | 137.0 | 144.0 | 143 | +45,9 |
| Üzüm | 35,8 | 61,8 | 74.7 | 74.7 | 81.5 | 88,6 | +2.47 dəfə |
| Meyvə və giləmeyvə | 61,9 | 73,9 | 71,9 | 70.6 | 71.7 | 73,8 | +19,2 |
| Çay yarpağı | 2,0 | 2,5 | 5,7 | 9.4 | 9.8 | 10,5 | + 5,25 dəfə |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, müqayisə olunan dövrdə dənli bitkilərin əkin sahəsi 1,6, məhsuldarlığı isə 14,2%,, kartofun əkin sahəsi 25,7%, məhsuldarlığı 75,0 %, bostan bitkilərinin əkin sahəsi 11,9 %, məhsuldarlığı 45.9 %, üzümçülük əkin sahəsi 14,0 %, məhsuldarlığı 2,47 dəfə və s. artmışdır[6].

Qeyd etmək istərdik ki, ölkə rəhbərliyi taxıl istehsalının həcmini artırmaq, eyni zamanda isə taxıl istehsalçılarının marağını qorumaq üçün müəyyən strateji addımlar atıb ki, bu da taxıl istehsalının inkişafına səbəb olub. Bu isə məhsul keyfiyyətinin idarə olunması ilə birbaşa bağlı olub, bu sahənin dayanıqlı inkişafina təkan verir. Məsələn, ölkə Prezidentinin 23 yanvar 2007-ci il tarixli “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamına uyğun olaraq, Nazirlər Kabineti tərəfindan 15 fevral 2007-ci il tarixli 32 nömrəli qərar qəbul edilib. Qərara görə, əsas kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsindən vəsaitlərin verilməsi nəzərdə tutulub. Bu məqsədlə 42,2 milyon manat məbləğində yardım verilib. Nazirlər Kabinetinin 16 noyabr 2007-ci il tarixli 181 №-li qərarı ilə, buğda istehsalçılarına yardım məqsədilə hazırlanmış “Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədilə dövlət budcəsinin vəsaiti hesabına yardım verilməsi qaydaları” təsdiq edilib.

Göründüyü kimi, hazırkı şəraitdə ərzaq məhsulları istehsalçılarına müxtəlif növ xidmətlərin göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bu növ xidmətlərin isə aqroservis və aqrolizinq qu-

rumları tərəfindən həyata keçirilməsi məqsədəuyğundur. Lakin müvafiq və zəruri xidmətləri göstərən qurumların ayn-ayrı regionlarda və ərazilərdə daha sıx yaradılması, onların müvafiq kənd təsərrüfatı texnikası ilə, həmçinin mövcud texnikanın saz halda saxlanması üçün lazımi hissələrlə təmin edilməsi, bu qurumlarını müxtəlif iqtisadi metodlarla stimullaşdırılması ərzaq məhsulları istehsalının və məhsul keyfiyyətinin yüksəldilməsinin əsas amili sayılır və tam həllini gözləyən aktual məsələlərdən hesab edilir[7, səh. 54-56].

**Kənd təsərrüfatı məhsulları üçün inteqrasiya olunmuş keyfiyyət idarəetmə sistemi (KSUKSHP)**

Kənd təsərrüfatı məhsulları üçün inteqrasiya olunmuş keyfiyyət idarəetmə sistemi (KSUKSHP) kənd təsərrüfatı məhsullarının istehsalı, saxlanması, daşınması və istehlakı zamanı tələb olunan keyfiyyət səviyyəsinin yaradılmasına, təmin edilməsinə və saxlanmasına yönəlmiş metod və vasitələrin məcmusudur. O, müəssisə və idarələrdə aşağıdakı vəzifələri həll edir: onun istehsalında məhsulun keyfiyyətinin müəyyən edilmiş səviyyəsinin təmin edilməsi; məhsulun yığılması, saxlanması və daşınması zamanı istehsal olunan kənd təsərrüfatı məhsullarının keyfiyyətinin saxlanılması; məhsulun satışı və emalı zamanı əldə edilmiş keyfiyyət səviyyəsindən səmərəli və tam istifadə edilməsi.

Kənd təsərrüfatı məhsulları ilə yanaşı heyvandarlıq sahəsi də, demək olar ki, iqtisadiyyatın inkişafını təmin edən əsas faktorlardan biridir. Texnoloji proseslərin standartlaşması bitkiçilik və heyvandarlığın əksər sahələrini əhatə edir. Bu standartlar texnoloji proseslərin həyata keçirilməsi üçün tələbləri müəyyən edir, o cümlədən, idarə edilən parametrlərin, normaların, əməyin keyfiyyətinin qiymətləndirilməsi məsələlərini əhatə edir [8, səh. 71].

Bildiyimiz kimi, heyvandarlıq sahəsinin inkişaf tendensiyalarından biri də baytarlıq sahəsinin formalaşması və inkişafı ilə bağlıdır.

Qeyd etmək istərdik ki, ölkəmizdə baytarlıqla məşğul olan həkimlərimizin fəaliyyəti və performansları yüksək dəyərləndirilir və bu istiqamətdə bir çox tədbirlər görülmüşdür. Yeri gəlmişkən qeyd edək ki, 29 aprel – Beynəlxalq Baytar Həkimi günüdür. Dünya Baytarlıq günü Azərbaycanda çalışan baytar həkimləri tərəfindən də qeyd olunur. Bu gün 2000-ci ildə Ümumdünya Baytarlıq Assosiasiyası tərəfindən təsis olunub. Məqsəd, heyvanların təhlükəsizliyinin təmin edilməsi, onların sağlamlığının qorunması və rifahının yaxşılaşdırılmasından ibarətdir.

***Nəticə***

Bildiyiniz kimi, son dövrlərdə idxal olunan məhsulların tərkibində istehlak məhsulları xüsusi çəkiyə malikdir. Biz həmin məhsulların tərkibinə baxsaq, ərzaq (yeyinti) məhsullarının çoxluq təşkil etdiyini görə bilərik. Fikrimizcə, idxal strukturunun təkmilləşdirilməsi prosesində qida və ərzaq məhsullarının idxalının məhdudlaşdırılması, respublika çərçivəsində keyfiyyətli qida və ərzaq məhsullarının istehsalında əlverişli olacaq, o cümlədən kənd təsərrüfatı sahəsində, heyvandaqlıq və bitkiçilik sahələrində də geni modifikasiya olunmamuş tərkibə malik olan məhsullar və cins heyvanların, həmçinin bu sahələrin maddi-texniki baza ilə təmin olunması, işçi qüvvənin cəlb olunması və onların ixtsaslaşması və s. məsələlər məhsulun keyfiyyətinin idarə olunmasında və keyfiyyətin artırılmasında mühüm rol oynayacaq.

Eyni zamanda aparılan təhlillərdən aydın olur ki, təxminən orta hesabla 20-25% itkilər baş verir ki, bu da kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, istehsalı, tədarükü və saxlanması proseslərində baş verir. Bunun da xüsusi səbəblərindən biri kənd əhalisinin istehsal etdiyi məhsulların şəhərlərə daşınması imkanlarına malik olmaması, eyni zamanda yetişdirilmiş ərzaq məhsullarının və əmtəələrin qaydaya uyğun olaraq mütəşəkkil formada tədarukünün həyata keçirilməməsi ilə əlaqədardır.

O cümlədən, kənd təsərrüfatında məhsulun keyfiyyətinin idarə olunmasına nəzarət və təhlükəsizliyinin təmin olunması üzrə müəyyən tədbirlər təşkil olunur ki, bu proseslərdə Kənd Təsərrüfatı Nazirliyi, nazirliyin tabeçiliyində olan şöbə və qurumların rolu böyükdür. Nümunə olaraq, mövcud şəraitdə baytarlıq sahəsində də müəyyən addımlar atılıb. Beynəlxalq təcrübələrdən istifadə edərək,

eyni zamanda dövlət baytarlıq xidmətinə nəzarət gücləndirilmiş və özəl baytarlıq sahəsi formalaşmış və inkişaf etməyə başlamışdır. Xüsusilə onu qeyd etmək istərdik ki, iqtisadi rayonlarda baytarlıq laboratoriyaları zona baytarlıq laboratoriyası, baytarlıq diaqnostika kabineti və baytarlıq məntəqələri ilə əvəz olunmuşdur, belə ki, 4 zona baytarlıq laboratoriyası, 30 yeni sahə baytarlıq məntəqəsi və 47 baytarlıq diaqnostika mərkəzi yaradılaraq fəaliyyət göstərir. O cümlədən, xüsusi bukletlər və plakatlar hazırlanmışdır ki, bu da əhalinin quş qripinə qarşı maarifləndirilməsi üçün, eyni zamanda vəhşi quşların ovlanması qadağan olunaraq müəyyən tədbirlər irəli sürülmüş, sərhəd baytarlıq xidməti öz fəaliyyətini gücləndirmişdir. Bütün bu tədbirlər nəinki heyvandarlıq sahəsinin inkişafına təsir edəcək, eyni zamanda ÜDM-in artımında böyük rol oynayacaq [9, səh. 9-12].

## ƏDƏBİYYAT


1. Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı - 2017. (547 s).
2. Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Bakı 2007. 602 s.
3. Quliyev E.A. Etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri. Monoqrafiya. Bakı: Elm”, 2013, 151.
4. afsa.gov.az
5. Marocchino, Cecilia Aguide to upgrading rural agricultural retail markets Rome: Food And Agrilculture Organization Of The United Nations 2009.
6. stat.gov.az
7. Mövlamov S. Ərzaq təhlükəsizliyinin statistik tədqiqi, “Statistika xəbərləri” jurnalı, №1, 2017, səh. 54-61
8. Yaqubov S.M. Sosial-iqtisadi tərəqqidə innovasiya potensialından səmərəli istifadənin təhlili və qiymətləndirilməsi, “Audit” jurnalı, №4, 2014
9. Асанова А.А., Сеиткожиева М.У. Концептуальные основы повышения конкурентоспособностиперерабатывающей промышленности АПККыргызской Республики, Вестник КРСУ. Том 14. № 8, 2014



***Ханым Эхтибар кызы Хасанова***
***ассистент, Азербайджанский Государственный Аграрный Университет,***
***Электронная почта: hanim-yusifova-1991@mail.ru;***

***Фарид Шакир оглы Валиев***
***ассистент, Азербайджанский Государственный Аграрный Университет,***
***Электронная почта: ferid.veliyev.89@mail.ru***


## Направления совершенствования управления качеством сельскохозяйственной продукции


***Резюме***

**Цель исследования**: изучение теоретико-методологических основ развития продовольственного рынка с целью удовлетворения потребности населения в продуктах питания и увеличения объемов потребления экологически чистых продуктов питания в современных условиях, в том числе обеспечения безопасности пищевых продуктов. производимых продуктов питания, повышение качества продукта и увеличение объема потребления населением экологически чистых продуктов питания, заключается в исследовании современных тенденций его развития и вопросов оценки качества продукции, а также в разработке научно основаны практические предложения и рекомендации по совершенствованию управления качеством продукции в этом процессе.

**Методология исследования**: в процессе исследования использовались методы наблюдения, сравнения и динамического развития, таблицы, аналитического анализа, комплексного подхода.

**Значение применения исследования**: Обеспечение качества и безопасности выпускаемой продукции тесно связано с ее надлежащим управлением.

**Результаты исследования** – современное состояние развития рынка продовольствия, управления и оценки качества товаров и продукции, анализ факторов, влияющих на него, в том числе опыт и возможности повышения качества продукции, а также направления совершенствования управления качеством продукции, и общие были получены результаты.

**Научная новизна исследования** - обобщены факторы, влияющие на развитие сельского хозяйства, в том числе продовольственного рынка в современное время, изучено влияние управления качеством продукции на развитие и совершенствование аграрной отрасли, проведены комплексные мероприятия. взято, в то же время изучен механизм влияния внешнеэкономических связей на рынок продовольствия.

***Ключевые слова: Качество продукции, продовольственная безопасность, спрос населения, предпринимательская активность, потребительский потенциал, продовольственная безопасность, эффективность, социально-экономические мероприятия.***

***Khanim Ehtibar Hasanova***
***Assistant, Azerbaijan State Agrarian University,***
***E-mail: khanim-yusifova-1991@mail.ru;***

***Farid Shakir Valiyev***
***Assistant, Azerbaijan State Agrarian University,***
***E-mail: ferid.veliyev.89@mail.ru***

## Directions for improving quality management of agricultural products

***Summary***

**The purpose of the research** is to study the theoretical and methodological bases of the development of the food market in order to satisfy the population's demand for food products and increase the volume of consumption of ecologically clean food products in modern conditions, including ensuring the safety of the produced food, improving the quality of the product, and increasing the volume of the population's consumption of ecologically clean food products. , it consists of the investigation of its current development trends and issues of product quality assessment, as well as the development of scientifically based practical proposals and recommendations for the improvement of product quality management in this process.

**Research methodology** - In the research process, observation, comparison and dynamic development, table, analytical analysis, complex approach methods were used.

**The applied importance of the research** - Ensuring the quality and safety of the manufactured product is closely related to its proper management.

**The results of the research** - the current state of food market development, commodity and product quality management and quality assessment, analysis of factors affecting it, including experience and opportunities for improving product quality, as well as directions for improving product quality management, and general results were obtained.

**The scientific novelty of the research** - the factors affecting the development of agriculture, including the food market in modern times, were summarized, the impact of the management of product quality on the development and improvement of the agrarian field was studied, and comprehensive measures were taken, at the same time, the mechanism of the influence of foreign economic relations on the food market was studied.

***Key words: Product quality, food safety, population demand, entrepreneurial activity, consumption capacity, food safety, efficiency, socio-economic measures.***

# II BÖLMƏ.
# MALİYYƏ MƏSƏLƏLƏRİ VƏ ANTİİNFLYASİYA SİYASƏTİ

UOT 336

*dos. Rahib Nadir oğlu KAZIMOV*
*kazimov-r.n.@mail.ru,*
*dos. Fariz Qasım oğlu ƏMRAHOV*
*amrahov59@mail.ru*

## TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN MALİYYƏ DAYANIQLIĞININ TƏHLİLİ METODİKASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – Təsərrüfat subyektlərinin maliyyə sabitliyinin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsi.

**Tədqiqatın metodologiyası** – Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması, onun maliyyə sabitliyinin gücləndirilməsi sahəsində ölkə və xarici müəlliflərin elmi-tədqiqat xarakterli əsərləri, elmi konfransların materialları tədqiqatın nəzəri və metodoloji əsasları qismində çıxış edir. Tədqiqat prosesində müxtəlif qiymətləndirmə metodlarından, o cümlədən, dialektika, təhlil, sintez, induksiya, deduksiya, müqayisə, nəzəri və praktiki materialların ümumiləşdirilməsi, kompleks təhlil və sistemli yanaşma metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Tədqiqatın nəticələri və onlardan formalaşdırılmış təklif və tövsiyələr iqtisadi subyektlərin maliyyə sabitliyinin qiymətləndirilməsi metodikasının təkmilləşdirilməsini təmin etməklə müəssisənin maliyyə vəziyyətini və onun fəaliyyətinin son nəticələrinə təsirini qiymətləndirməyə imkan verəcəkdir.

**Tədqiqatın nəticələri** – Təsərrüfat subyektlərinin maliyyə vəziyyətini səciyyələndirən mühüm istiqamət kimi təhlilin metodikasının təkmilləşdirilməsi onların təsərrüfat-maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ehtiyatlarını müəyyən etməklə təşkilatın rəqabət üstünlüklərini təmin edəcəkdir.

**Tədqiqatın optimallığı və elmi yeniliyi** –Təsərrüfat subyektlərinin maliyyə sabitliyinin təhlilinin müasir vəziyyətinin xarakteristikasının verilməsi. İqtisadi subyektlərin maliyyə sabitliyinin qiymətləndirilməsi metodikasının çatışmazlıqlarının müəyyən edilməsi, onun təkmilləşdirilməsinin zəruri aspektlərinin işlənib hazırlanması.

***Açar sözlər: maliyyə sabitliyi, likvidlik, ödəmə qabiliyyəti, maliyyə əmsalları.***

### *Giriş*

Bazar iqtisadiyyatının müasir inkişafı şəraitində təşkilatın maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi mühüm aktuallıq kəsb edir. Belə ki, müəssisənin istehsal, kommersiya və maliyyə fəaliyyətinin nəticələri onun maliyyə vəziyyətindən asılıdır. Hər bir kommersiya təşkilatı daima özünün maliyyə vəziyyətini, maliyyə çətinliyi təhlükəsini diaqnoz etməli, alınmış nəticələr əsasında fəaliyyət taktikasına korrektə etməlidir. Təşkilatın maliyyə vəziyyəti onun real və potensial maliyyə vəziyyətini, cari fəaliyyətinin maliyyələşdirilməsinin müəyyən səviyyəsinin təmin olunması imkanını səciyyələndirir.

Təşkilatın rəhbərliyi daima seçim qarşısında (optimal satış qiyməti, kredit və investisiya siyasəti sahəsində qərar qəbul etmək və s.) olurlar. Buna görə də müəssisənin maliyyə strategiyasının

realizə olunması prosesində onun maliyyə vəziyyətinin yaxşılaşması, likvidliyin, ödəmə qabiliyyətinin, maliyyə sabitliyinin yüksəldilməsi istiqamətlərinə xüsusi diqqət verilməlidir [4; 8].

Vurğulamaq yerinə düşər ki, təsərrüfat subyektlərinin maliyyə sabitliyinin faktiki qiymətləndirilməsi yalnız onların özlərinin deyil, eləcə də iqtisadi subyektlərin fəaliyyətində maraqlı olan kontragentlər üçün də mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, təsərrüfat subyektlərinin maliyyə fəaliyyətinə bir sıra amillər təsir göstərir və bu baxımdan onların maliyyə vəziyyətində mühüm dəyişikliklər özünü göstərir. Bu faktorlar, istər-istəməz, vaxtaşırı olaraq təhlil edilməli və analitik qiymətləndirilməlidir. Bu da, öz növbəsində, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti gedişində ortaya çıxan problemlərin və onların səbəblərinin müəyyən edilməsi, onların aradan qaldırılması istiqamətində rasional və effektli idarəetmə qərarlarının hazırlanması və həyata keçirilməsini zəruri etmişdir [1; 2]. Bütün bunlar, müəssisənin maliyyə vəziyyətinin, xüsusi ilə onun maliyyə sabitliyinin qiymətləndirilməsinin aktuallığını səciyyələndirir.

**“Maliyyə vəziyyəti” anlayışı və onun iqtisadi məzmunu**

Maliyyə vəziyyəti işgüzar fəallığın və müəssisənin etibarlığının mühüm xarakteristikası hesab olunur. O, müəssisənin rəqabət qabiliyyətini və işgüzar əməkdaşlıqda potensialını müəyyən edir, bütövlükdə müəssisənin, eləcə də, onun tərəfdaşlarının iqtisadi maraqlarının səmərəli realizə edilməsinin qarantı sayılır. Vurğulamaq yerinə düşər ki, müəssisənin maliyyə vəziyyəti müəssisənin idarə olunması sisteminin mühüm elementi olmaqla onun vasitəsi ilə təsərrüfat proseslərinin mahiyyəti müəyyən edilir, müxtəlif maliyyə situasiyaları qiymətləndirilir, istehsal ehtiyatları aşkar edilir və onlardan istifadə mexanizmləri hazırlanır, elmi cəhətdən əsaslandırılmış plan və idarəetmə qərarları qəbul edilir [3; 5].

Müəssisənin maliyyə vəziyyətinin təhlili onun fəaliyyətinin sistemli tədqiq edilməsi və nəticələrin ümumiləşdirilməsi əsasında onun işinin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmişdir. Belə ki, maliyyə vəziyyətinin təhlili maliyyə vəziyyətinin dəqiq və obyektiv mənzərəsini formalaşdıran daha informatik göstəricilərin əldə edilməsi məqsədi ilə həyata keçirilir ki, bu da, təsərrüfat subyektinin iqtisadi stabilliyinin artım meylini müəyyən etməyə və qiymətləndirməyə imkan verir. Maliyyə vəziyyətinin təhlilinin məqsədi – maliyyə fəaliyyətində çatışmazlıqları vaxtında aşkar etmək və aradan qaldırmaq, müəssisənin maliyyə vəziyyətinin və ödəmə qabiliyyətinin yaxşılaşdırılması yollarını müəyyən etməkdir. Əlbəttə, bu istiqamətdə əsas vəzifələr sırasında təhlil olunan obyektin real vəziyyətinin identifikasiya edilməsini, onun tərkibi və xarakteristikasının tədqiq edilməsini və onun baza xarakteristikası və normativ kəmiyyətləri ilə müqayisə olunmasını, vaxt kəsiyində obyektlərin maliyyə vəziyyətinin dəyişməsinin və bu dəyişiklikləri yaradan əsas amillərin və onların təsirinin kəmiyyətcə hesablanmasını aid etmək olar [1; 6]. İqtisadi subyektin maliyyə vəziyyəti haqqında informasiya müxtəlif bazar subyektləri tərəfindən təhlil olunur (şəkil 1).




**Şəkil 1. Müəssisənin maliyyə vəziyyəti haqqında informasiyanın istifadəçiləri.**

*Mənbə: Sxem bu sahədə tədqiqat aparmış alimlərin [1; 3; 4; 8] tədqiqatlarının nəticələri əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Qeyd etmək lazımdır ki, iqtisadi və maliyyə proseslərinin yaxşılaşdırılması, idarəetmənin yaxşılaşdırılması məqsədi ilə maliyyə vəziyyətinin təhlili müəssisənin özü üçün də zəruridir. Məlum olduğu kimi, "Maliyyə Hesabatının təqdimatı" adlı 1 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartı və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (2018-ci il) ilə tənzimlənən maliyyə hesabatları kommersiya təşkilatlarının maliyyə vəziyyətinin qiymətləndirilməsinin informasiya bazasını təşkil edir. Ümumiyyətlə, təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili prosesində "Maliyyə vəziyyəti haqqında hasabat"ın, "Mənfəət və zərər və digər məcmu gəlir haqqında hasabat"ın, "Kapitalda dəyişikliklər haqqında hasabat"ın, "Pul vəsaitlərinin hərəkəti haqqında hasabat"ın, "Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər"in məlumatlarından istifadə olunur.

Təşkilatın maliyyə vəziyyətinin təhlilinin yuxarıda göstərilən informasiya mənbələri ilə yanaşı, müfəssəl təhlil prosesində operativ informasiyalardan, analitik və sintetik uçot məlumatlarından, eləcə də idarəetmə uçotu və hesabatın məlumatlarından istifadə olunur. Qeyd olunmalıdır ki, müəyyən hallarda mühasibat hesabatının məlumatları müəssisənin maliyyə vəziyyətinin təhlili üçün kifayət deyildir (xüsusi ilə investorlar üçün). Məhz bu baxımdan, maliyyə hesabatı ilə yanaşı daxili informasiyalardan da (qeyri-uçot mənbələrindən) istifadə olunur. Bu istiqamətdə qanunlar, prezidentin fərmanları, hökumətin qərarları, yuxarı idarəetmə orqanlarının əmrləri, müəssisənin rəhbərlərinin əmr və göstərişləri, auditor yoxlamalarının nəticələri maliyyə vəziyyətinin təhlilinin informasiya bazası rolunla çıxış edirlər [1; 3; 8].

Beləliklə, praktikada müəssisənin maliyyə vəziyyətinin təhlilinin metodiki vəzifələrinin yerinə yetirilməsi investisiya obyektinin seçilməsi və müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş təsərrüfatdaxili ehtiyatların aşkar olunması üzrə əsaslandırılmış idarəetmə qərarlarının qəbul olunmasını, planlaşdırma və müəssisənin resurslarının idarə olunması sisteminin təkmilləşdirilməsini təmin edir. Unutmaq olmaz ki, kommersiya təşkilatlarının iqtisadi fəaliyyətinin nəticələri ilk növbədə, istehsalın rentabelliyindən, məhsul istehsalı və satışının düzgün təşkilindən və xüsusi dövriyyə vəsaitləri ilə təmin olunması dərəcəsindən asılıdır.

**Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi**

Maliyyə vəziyyətinin təhlili metodikası aparılan təhlilin məqsəd və vəzifələrinə müvafiq olaraq idarəetmə qərarlarının müqayisə və qəbul edilməsi məqsədi ilə müxtəlif meyar və normativlərdən istifadəni nəzərdə tutan və bir-biri ilə qarşılıqlı əlaqəli analitik prosedurlar kompleksidir. Hazırda iqtisadi ədəbiyyatlarda və praktikada təşkilatın maliyyə vəziyyətinin təhlilinin çoxsaylı metodikalarına rast gəlinir. Əksər metodikalar maliyyə əmsallarının təhlili əsasında qurulmuş və təsərrüfat subyektlərinin cari maliyyə vəziyyətini qiymətləndirməyə imkan verir. Maliyyə vəziyyətinin təhlili sahəsində respublikanın tanınmış iqtisadçıları H.Namazəliyevin, İ.M.Mahmudovun, S.Y.Müslümovun, R.N.Kazımovun, H.A.Cəfərlinin, N.M.İsmayılovun və digərlərinin, eləcə də yaxın xarici ölkələrin iqtisadçı alimləri A.D.Şeremetin, M.İ.Bakanovun, R.S.Sayfulinin, V.V.Kovalyevin, O.V.Yefimovanın xidmətləri, tədqiqat işləri xüsusi vurğulanmalıdır.

Qeyd etmək lazımdır ki, maliyyə vəziyyətinin təhlilinin mövcud hazırkı metodikaları təhlilin əldə edilmiş nəticələrinin traktovkası sahəsində standart yanaşmaların tətbiqi ilə köhnəlmiş qaydaların çıxarılmasına istiqamətlənmişdir. Bu zaman böyük miqdarda informatik göstəricilərdən istifadəni nəzərdə tutan metodikaların təhlilin keyfiyyətini yüksəltməklə yanaşı onun interpretasiyasını çətinləşdirməsi faktı da vurğulanmalıdır.

A.D.Şeremetin metodikasına əsasən maliyyə vəziyyətinin təhlilinin vəzifələri mütləq və nisbi maliyyə göstəricilərinin dinamikasının tədqiqi vasitəsi ilə həll edilir. Bu zaman maliyyə əmsallarının faktiki kəmiyyəti onların baza kəmiyyətləri ilə müqayisə edilir. Müəllif hesab edir ki, təsərrüfat subyektinin maliyyə vəziyyəti onun vəsaitlərinin yerləşdirilməsi və onların formalaşması mənbələrinin vəziyyəti ilə səciyyələnir. Təşkilatın maliyyə vəziyyətinin təhlili zamanı istifadə edilən əsas göstəricilərə aktivlərin faktiki həcminin onların normativ kəmiyyətinə və formalaşdırılma mənbələrinə uyğunluğu, immobilizə edilmiş dövriyyə vəsaitlərinin həcmi, xüsusi dövriyyə vəsaiti ilə təmin olunması, ödəmə qabiliyyəti və dövriyyə vəsaitlərinin dövranı göstəricilərini aid

etmək olar. Müəllifə görə, xüsusi vəsaitlərin mövcudluğunun, təhlil olunan dövrdə onun dəyişməsinə təsir göstərən amillərin müəyyən edilməsi maliyyə vəziyyətinin təhlilinin mühüm mərhələsi hesab olunur. Daha sonra müəssisənin xüsusi dövriyyə vəsaitləri ilə təmin olunması dərəcəsi təhlil edilir [8].

Digər mütəxəssislərə görə təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili iki mərhələdə həyata keçirilir: maliyyə-təsərrüfat fəaliyyətinin ekspres təhlili və müfəssəl maliyyə təhlili. Maliyyə-təsərrüfat fəaliyyətinin ekspres təhlilinin məqsədi təşkilatın maliyyə uğurları haqqında əyani, opereativ və dürüst informasiyanın əldə edilməsidir. Müfəssəl təhlilin məqsədi təşkilatın əmlak və maliyyə vəziyyətinin hərtərəfli xarakteristikasını müəyyən etmək, onun cari maliyyə nəticələrini qiymətləndirmək və onun gələcək proqnozunu müəyyən etməkdir. Müəlliflərə görə müəssisənin maliyyə vəziyyətinin ekspres təhlili üç mərhələdə qiymətləndirilir: I mərhələdə maliyyə hesabatının analitik tədqiqinin zəruriliyi haqqında qərar qəbul edilir; II mərhələdə izahlı qeydlərlə tanışlıq həyata keçirilir, müəssisənin maliyyəsində kəmiyyət və keyfiyyət dəyişiklikləri müəyyən edilir, ötən dövrdə iş şəraiti qiymətləndirilir; III mərhələdə müəssisənin maliyyə vəziyyətinin öyrənilməsi əsasında onun təsərrüfat fəaliyyətinin səmərəliliyi kompleks qiymətləndirilir. Öz növbəsində, müfəssəl təhlil metodikası likvidlik və maliyyə sabitliyi əmsalları əsasında müflisləşmə ehtimalının müəyyən edilməsinə istiqamətlənmişdir [1; 4; 7]. Əlbəttə, ekspres-təhlilinin fərqli cəhəti onunla xarakterizə olunur ki, bu halda az vaxt və əmək sərf edilir, təhlilə məhdud həcmdə informasiya cəlb edilir, ənənəvi təhlil metodlarından tam istifadə edilmir. Təhlilin bu növündə təşkilatın maliyyə sabitliyini səciyyələndirən göstəricilərin dəyişməsinin səbəbləri tam açıqlanmır.

N.P.Lyubişin maliyyə vəziyyətinin təhlilinə “balansın oxunması” ilə başlanmasını təklif edir. “Balansın oxunuşu” bilavasitə mühasibat balansı əsasında təşkilatın işinin yekunları və onun maliyyə vəziyyəti ilə ümumi tanışlığı nəzərdə tutur. Bu mərhələdə balansın üfiqi, daha sonra şaquli təhlili aparılmalıdır. Həmin metodikaya görə avans edilmiş kapitalın rentabelliyi və xüsusi kapitalın rentabelliyi təşkilatın maliyyə vəziyyətinin təhlilinin əsas göstəricilərinə aiddir. Hesablama zamanı balans mənfəəti və ya xalis mənfət göstəricisindən istifadə oluna bilər. Müəllif müflisləşmə əlamətlərini qeyd etməklə menecerlərin ilk növbədə onlara diqqət yetirməli olduqlarını vurğulayır. Sözügedən metodika üzrə maliyyə vəziyyətinin təhlili nəticəsində təşkilatlarda kompleks qiymətləndirmə həyata keçirilir və bundan sonra təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlər işlənib hazırlanır. Bu zaman təşkilatın perspektivə maliyyə strategiyasının hazırlanmasına xüsusi diqqət verilir [5].

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlilinin yuxarıda nəzərdən keçirilən metodikalarının məzmununun ümumiləşdirilməsi əsasında onların müəyyən üstünlükləri və çatışmazlıqlarını qeyd etmək olar (cədvəl 1).

İqtisadiyyatın inkişafının müasir şəraitində bir sıra problemlər təsərrüfat subyektlərinin iqtisadi inkişafı yolunda maneələrə çevrilmişdir. Həmin problemlər sırasında idarəetmə sisteminin bazarın müasir tələblərinə uyğun təkmilləşdirilməməsini, təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin obyektiv qiymətləndirilməsinə imkan verən analitik informasiya təminatı sisteminin kifayətedici səviyyədə qurulmamasını göstərmək olar. Unutmaq olmaz ki, maliyyə resurslarından səmərəli istifadə, maliyyə dayanıqlığının gücləndirilməsi istənilən təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətinin fasiləsizliyinin qarantı qismində çıxış edir. Deyilənlərə rəğmən, təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin idarə olunması və daha da yaxşılaşdırılması mövcud aktiv və öhdəliklərinin optimallaşdırılmasına və bu əsasda onun kapitalının effektliyinin yüksəldilməsinə fokuslanmışdır. Qeyd olunan fikirləri ümumiləşdirərək deyə bilərik ki, maliyyə resurslarından daha düzgün istifadə olunması nəticəsində təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının yüksəlməsi onun rəqabət qabiliyyətinin, investisiya cəlbediciliyinin, eləcə də tərəfdaşlarının seçilməsində bir sıra üstünlükləri təmin edir. Beləliklə, təsərrüfat subyektlərinin maliyyə sabitliyinin yüksəlməsi onun bazarın gözlənilməz dəyişikliklərinə düzgün reaksiya vermək və həmin dəyişikliklərdən asılılığını, son nəticədə, onun müflisləşmə riskini azaldır [3; 8].

**Cədvəl 1.**

**Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili metodikalarının müqayisəli qiymətləndirilməsi**

| Müəssisənin maliyyə vəziyyətinin təhlili metodikaları | Üstünlükləri | Çatışmazlıqları |
|---|---|---|
| Şeremet A.D. | Təhlil zamanı bütün hesabat formalarından istifadə olunur | Müflisləşmə ehtimalının təhlili və maliyyə fəaliyyətinin proqnozu məsələləri nəzərdən keçirilmir |
| Kovalyev V.V. | İlkin və müfəssəl təhlil mərhələləri nəzərdə tutur ki, bu da, ilkin mərhələdə təşkilatın fəaliyyətini qiymətləndirməyə və zəruri informasiyanın mövcudluğu baxımından sonrakı təhlilin aparılmasına hazırlıq qiymətləndirilir, mühasibat balansı və auditor hesabatından savayı izahlı qeydlərdən istifadə olunur | Perspektivə təşkilatın fəaliyyətinin proqnozlaşdırılmasına baxılmır, reytinq qiymətləndirmə aparılmır, təhlilin informasiya təminatı tam deyildir. |
| Lyubişin N.P. | Müəssisənin maliyyə vəziyyətinin və ödəmə qabiliyyətinin yaxşılaşdırılması ehtiyatlarını müəyyən etməyə imkan verir | Təhlil zamanı nisbi göstəricilərə üstünlük verilir, halbuki, inflyasiya şəraitində mütləq göstəriciləri müqayisə olunan səviyyəyə gətirmək çətindir. |

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin qiymətləndirilməsi bir-biri ilə qarşılıqlı əlaqəli bir neçə istiqamətdə təhlilin aparılmasının zəruriliyi ilə xarakterizə olunmalıdır. Belə ki, həmin istiqamətlərlə bağlı əmlak vəziyyətinin, maliyyə dayanıqlığının, cari aktivlərin idarə olunması səviyyəsinin (maliyyə menecmentinin) təhlili və analitik qiymətləndirilməsi xüsusi vurğulanmalıdır. Bu məqsədlə kompleks qiymətləndirmə indikatorlarından - maliyyə əmsallarından istifadə olunması nəzərdə tutulur. Qeyd olunmalıdır ki, iqtisadi ədəbiyyatlarda maliyyə vəziyyətinin qiymətləndirilməsi metodikası ilə bağlı vahid yanaşmaya rast gəlinmir. Belə ki, bir qrup iqtisadçılar maliyyə vəziyyətinin təhlili zamanı likvidlik və maliyyə sabitliyi göstəricilərindən istifadə olunmasını məqsədəuyğun hesab edirlər [1; 3; 6]. Digər qrup alimlər hesab edirlər ki, müəssisənin maliyyə vəziyyətinin təhlili prosesində kapitalının vəziyyətini əks etdirən maliyyə əmsallarından istifadə olunmalıdır [4; 7; 8].

Qeyd olunmalıdır ki, təsərrüfat subyektlərinin maliyyə vəziyyətini səciyyələndirən likvidlik ilk növbədə onların təsərrüfat fəaliyyətlərinin xüsusiyyətlərindən asılıdır və “ödəmə qabiliyyəti” anlayışı müəssisənin özünün cari aktivləri hesabına qısamüddətli öhdəliklərini örtmək bacarığını xarakterizə edir. Müəssisənin ödəmə qabiliyyəti kənar və daxili amillərin təsiri altında formalaşır və şərti olaraq cari və uzunmüddətə ödəmə qabiliyyətini fərqləndirmək lazımdır. Belə bir faktı da vurğulamaq zəruridir ki, həmin məqsəd - iqtisadi subyektlərin likvidliyinin qiymətləndirilməsi onların aktivlərinin və passivlərinin strukturunun təhlil olunması və maliyyə əmsallarının hesablanması və qiymətləndirilməsi vasitəsi ilə həyata keçirilir [4; 5; 7].

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin təhlili prosesində maliyyə dayanıqlığını səciyyələndirən mühüm indikator kimi xüsusi dövriyyə kapitalına (cari aktivlərlə cari öhdəliklərin fərqi) xüsusi əhəmiyyət verilir. Belə ki, xüsusi kapitalın manevrlik əmsalının, material ehtiyatlarının və cari aktivlərinin xüsusi vəsaitlə təmin olunmasının qiymətləndirilməsi zamanı bu göstəricidən istifadə olunur. Qeyd edək ki, sonuncu göstərici müəssisənin müflisləşməsi ehtimalının qiymətləndirilməsində istifadə olunan iki meyardan biridir. Belə bir məsələ də nəzərə alınmalıdır ki,

müəssisənin maliyyə dayanıqlığına onun əmlakının, eləcə də mövcud maliyyə resurslarının strukturu təsir göstərir. Bu məqsədlə müəssisələrin aktivlərinin quruluşu, xüsusi ilə gəlirlərin formalaşmasında mühüm rol oynayan və böyük əhəmiyyət kəsb edən dövriyyə aktivlərinin dəyişmə meyli qiymətləndirilməlidir.

Təsərrüfat subyektlərinin maliyyə vəziyyətindən, onaların maliyyə dayanıqlığının qiymətləndirilməsinin əhəmiyyətindən bəhs edərkən debitor borclarının və pul gəlirlərinin artım tempinin müqayisə edilməsi yolu ilə mövcud nisbətlərin nəzərdən keçirilməsinin vacibliyi də xüsusi qeyd olunmalıdır. Məlumdur ki, debitor borcları müəssisənin vəsaitlərinin dövriyyədən yayınmasıdır və pul vəsaitlərinə ehtiyac yarandıqda o, maliyyə çətinlikləri ilə üzləşməli olacaq və məcburiyyət qarşısında borc vəsaitindən istifadə etmək məcburiyyətində olacaqdır. Bu isə, borca görə əlavə xidmət xərcinin ödənilməsi deməkdir. Bu nöqteyi-nəzərdən, sözügedən məsələ daima diqqət mərkəzində olmalıdır. Belə ki, bu nisbət vahiddən böyük olduqda həmin müəssisələrin ödəmə qabiliyyətinin itirilməsi və beləliklə də, növbəti illərdə müflisləşmə riski ilə üzləşəcəyi şübhə doğurmamalıdır.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə bir fikir formalaşdırmaq olar ki, müəssisənin maliyyə sabitliyi onun maliyyə vəziyyətini səciyyələndirən mühüm göstəricilərdən biridir. Nəticə etibarı ilə, təşkilatın iqtisadi perspektivi onun iqtisadi vəziyyətinin yaxşılaşmasından asılıdır.

### *Nəticə*

Beləliklə, təsərrüfat subyektlərinin iqtisadi vəziyyəti pul resursları ilə təmin olunması ilə xarakterizə olunur ki, stabil istehsal və kommersiya fəaliyyəti, ödəmə qabiliyyəti və iqtisadi stabilliyin təmin olunması üçün həmin vəsaitlərin məqsədəuyğun yerləşdirilməsi və yüksək səmərəliliklə istifadəsi, digər təsərrüfatçılıq subyektləri ilə iqtisadi münasibətlərin qurulması mühüm əhəmiyyət kəsb edir. Belə ki, fasiləsiz keyfiyyətli məhsul istehsalı və satışı təşkilatın iqtisadi vəziyyətinə müsbət təsir göstərir. Bu baxımdan, iqtisadi fəaliyyət pul vəsaitlərinin sistematik daxil olması və düzgün istifadəsinə, hesablaşma və kredit intizamının gözlənilməsinə, xüsusi və borc vəsaitlərinin səmərəli nisbətinə, təşkilatın səmərəli fəaliyyəti məqsədi ilə iqtisadi stabilliyin təmin olunmasına istiqamətlənməlidir.

### ƏDƏBİYYAT

1. Müslümov, S.Y., Kazımov, R.N. Maliyyə təhlili. Dərslik. – Bakı. CBS. 2011
2. Cəfərli, H.A. İqtisadi təhlil. Dərslik. – Bakı. Elm və təhsil. 2009.
3. Ефимова, О.В. Финансовый анализ: современный инструментарий для принятия экономических решений: Учебник. – М.: Омега-Л, 2018.
4. Ковалев,В.В. Анализ финансового состояния предприятия. Учебное пособие // В.В.Ковалев, В.П.Привалов. – М.: Центр экономики и маркетинга. 2015.
5. Любушин, Н.П. Финансовый анализ / Н.П. Любушин, Н.Э. Бабичева. – М.: Эксмо, 2018
6. Мищенко, Е.А. Диагностика финансового состояния коммерческих организаций / Е.А.Мищенко, Э.А.Моисеенко //Экономика и бизнес: теория и практика. – 2019. – № 3-2. – с.27-31
7. Савицкая, Г.В. Анализ хозяйственной деятельности предприятия. – М.: “ИНФРА-М”, 2018
8. Шеремет, А.Д. Методика финансового анализа деятельности коммерческих организаций: практич. пособие /А.Д.Шеремет, Е.В.Негашев. – М.: Инфра-М, 2017.

***доц. Рагиб Надир оглы Казимов***
***доц. Фариз Гасым оглы Амрахов***

### Проблемы оценки финансового стабильности коммерческих организаций

### *Резюме*

**Цель исследования.** Совершенствование методики оценки финансовой устойчивости хозяйствующих субъектов.

**Методика исследования.** В качестве теоретических и методологических основ исследования выступают работы отечественных и зарубежных авторов научно-исследовательского характера, материалы научных конференций в области улучшения финансового состояния хозяйствующих субъектов, укрепления их финансовой устойчивости. В процессе исследования использовались различные методы оценки, в том числе диалектика, анализ, синтез, индукция, дедукция, сравнение, обобщение теоретического и практического материала, комплексный анализ и системный подход.

**Прикладное значение исследования.** Результаты исследования и сформулированные ими предложения и рекомендации позволят оценить финансовое состояние предприятия и его влияние на конечные результаты его деятельности, обеспечив совершенствование методики оценки финансовой устойчивости хозяйствующих субъектов.

**Результаты исследования.** Совершенствование методики анализа как важного направления, характеризующего финансовое состояние хозяйствующих субъектов, обеспечит конкурентные преимущества организации путем выявления резервов повышения эффективности их хозяйственно-финансовой деятельности.

**Оптимальность и научная новизна исследования.** Анализ финансовой устойчивости хозяйствующих субъектов предоставление характеристики современного состояния. Выявление недостатков методики оценки финансовой устойчивости хозяйствующих субъектов, разработка необходимых аспектов ее совершенствования.

***Ключевые слова: финансовая стабильность, ликвидность, платежеспособность, финансовые коэффициенты.***

***ass. prof. Rahib Nadir Kazımov***
***ass. prof. Fariz Qasım Amrahov***

**Problems of assessing the financial stability of commercial organizations**

***Summary***

**The purpose of the study.** Improving the methodology for assessing the financial stability of economic entities.

**Methodology of the study.** In the field of improving the financial condition of economic entities, strengthening its financial stability, scientific-research works of national and foreign authors, materials of scientific conferences act as theoretical and methodological bases of research. Various assessment methods, including dialectics, analysis, synthesis, induction, deduction, comparison, generalization of theoretical and practical materials, complex analysis and systematic approach were used in the research process.

**The applied significance of the study.** The results of the study and their formulated proposals and recommendations will allow us to assess the financial condition of the enterprise and its impact on the final results of its activities, ensuring the improvement of the methodology for assessing the financial stability of economic entities.

**Results of the study.** Improving the methodology of analysis as an important direction characterizing the financial condition of economic entities will ensure the competitive advantages of the organization by determining the reserves of increasing the efficiency of their economic and financial activities.

**Optimality and scientific novelty of research.** Giving a characteristic of the modern state of the analysis of financial stability of economic entities. Identification of the shortcomings of the methodology for assessing the financial stability of economic entities, development of the necessary aspects of its improvement.

***Key words: financial stability, liquidity, solvency, financial ratios.***

**UOT: 657.1**

***Rauf Mirzağa oğlu ALLAHYAROV***
***Azərbaycan Dövlət İqtisad Universiteti, i.f.d.***
***allahyarovrauf50@gmail.com***

# MÜƏSSİSƏLƏRİN MALİYYƏ UÇOTUNUN TƏRTİBİ SİSTEMİNDƏ KAPİTALIN SAXLANMASI VƏ MƏNFƏƏTİN TANINMASI İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - müəssisələrin maliyyə uçotunun tərtibi zamanı kapitalın saxlanması yolları və onların təkrar formalaşdırılması üsullarını nəzərdən keçirməkdir.

**Tədqiqatın metodologiyası -** məqalənin hazırlanmasında analitik təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** kimi maliyyə kapitalının mənbələri və kapitalın saxlanması formalarının maliyyə sisteminin təşkilindəki rolunu göstərməkdir. Tətbiqi cəhətdən mühasibat uçotu prosesi dövri xarakter daşıyır ki, həmin dövr ərzində kapitalın saxlanması və mənfəətin tanınması prosesinin nəzərdən keçirilməsi ilə bağlı resurs kifayətsizliyi mövcuddur. Dövr bir sıra mühasibat uçotunun həyata keçirildiyi vaxt aralığıdır. Fəaliyyətə davam edən bir müəssisənin həyatı, maliyyə fəaliyyəti haqqında dövri hesabatların təqdim edilməsi məqsədi ilə süni müddətlərə bölünə bilər.

**Tədqiqatın nəticələri** kimi müəssisələrdə kapital fondu üzrə yüksək gəlirlilik potensialının müəyyən edilməsi və ona uyğun olaraq iqtisadi tədqiqat aparılması ilə bağlı tövsiyələr və təkliflər irəli sürülmüşdür.

Təkrar istehsal yanaşması baxımından maliyyə resurslarının mahiyyətini aşağıdakı kimi ifadə etmək olar. Maliyyə resursları sadə və geniş təkrar istehsalın həyata keçirilməsi, maliyyə-kredit sistemi qarşısında öhdəliklərin yerinə yetirilməsi üçün nəzərdə tutulmuş, subyektin və dövlətin sərəncamında olan pul gəlirləri, daxilolmaları və əmanətləridir. Bundan çıxış edərək, makrosəviyyədə maliyyə resurslarının əsas mənbəyinin, tədavül prosesində sərf olunan istehsal amillərinin kompensasiyası üçün istifadə olunan ümumi milli məhsulun dəyəri təşkil etdiyini qeyd etmək olar. Real istehsalın maliyyə resursları ilə təmin olunma dərəcəsini müəyyən etmək üçün kapitallaşmanın ümumi daxili məhsula nisbətindən istifadə edilir. İqtisadi böhranlar şəraitində milli sərvətin bir hissəsi də maliyyə resursları kimi çıxış edə bilər. Beləliklə, məqsəd nöqteyi-nəzərindən makro səviyyədə maliyyə resurslarını iki qrupa bölmək olar: sadə təkrar istehsalda istifadə olunan istehsal amilləri, geniş təkrar istehsal üçün nəzərdə tutulan amillər.

Birinci qrup, ümumi məhsula sərf edilmiş dövriyyə vəsaitlərinin əvəzinin ödənilməsinə yönəldilmiş hissə və amortizasiya fondu hesabına, ikincisi hissə amortizasiya fondu, mənfəət və maliyyə bazarında səfərbər olunan vəsaitlər hesabına formalaşır. Subyektin normal fəaliyyətinin əsası, onun cari fəaliyyət və inkişafında yaranan ehtiyacları ödəmək qabiliyyətini təmin etmək üçün kifayət qədər maliyyə resurslarının olması ilə bağlıdır. Bu onu göstərir ki, maliyyə resurslarının formalaşması şəxsi və onlara bərabər tutulan vəsaitlər hesabına maliyyə bazarında resursların səfərbər edilməsi və yenidən bölüşdürülmə qaydasında maliyyə-bank sistemindən vəsaitlərin daxil olması hesabına həyata keçirilir [2, s.16]. Maliyyə resurslarının formalaşması subyektlərin yarandığı vaxtda, nizamnamə kapitalının, yəni təsisçilərin hesabına yaradılan əmlakın formalaşması zamanı baş verir. Nizamnamə kapitalının ölçüsü istehsal prosesinə qoyulan həmin vəsaitlərin - əsas və dövriyyə kapitalının həcmini göstərir.

Subyektlərin özünə məxsus olan maliyyə resurslarının digər əsas mənbəyi mənfəət və amorti-

zasiya ayırmalarıdır. Mənfəət və amortizasiya istehsala qoyulan vəsaitlərin dövriyyəsinin nəticəsidir və subyektin müstəqil idarə etdiyi maliyyə resurslarına aiddir. Amortizasiya ayırmalarından və mənfəətdən təyinatı üzrə optimal istifadə istehsalı genişləndirilmiş əsaslarla bərpa etməyə imkan verir. Xüsusilə yeni yaradılan subyektlər üçün əhəmiyyətli maliyyə resursları maliyyə bazarında səfərbər edilə bilər. Onların səfərbər edilməsinin formaları subyekt tərəfindən buraxılmış səhmlərin, istiqrazların və digər növ qiymətli kağızların satışı ilə əlaqəlidir.

**Maliyyə resurslarının strukturu və mənbələri**

Maliyyə resurslarının mahiyyəti göstərir ki, mənşəyinə görə onlar daxili və xarici resurslara bölünür. Daxili maliyyə resursları, xalis mənfəəti və amortizasiyanı əks etdirir. Xarici resurslar özü iki qrupa bölür: özünün və borc vəsaiti. Kredit kapitalı maliyyə resursları baxımından xüsusi əhəmiyyət kəsb edir və geri qaytarılma və ödəmə şərtləri ilə verilmiş pul vəsaitini xarakterizə edir. Məhz buna görə də nizamnamə kapitalı daxili və xarici komponentlərə bölünür. Maliyyə resurslarının formalaşması və istifadəsi prosesi təkrar istehsalın səmərəliliyini müəyyən edən sosial-iqtisadi sistemin inkişafının əsas aspektlərindən biridir.

Beləliklə, kapitala təkcə ümumi iqtisadi baxımdan deyil, həm də maliyyə idarəçiliyi mövqeyindən yanaşmaq məqsədəuyğundur. Kapital ən çox istifadə olunan iqtisadi kateqoriyalardan biridir. Subyektlərin yaradılması və inkişafının əsas iqtisadi əsası olan kapital onun fəaliyyət göstərməsi prosesində dövlətin, mülkiyyətçilərin və kadrların maraqlarını təmin edir. Subyektlərin kapitalı onun aktivlərinin formalaşmasına qoyulmuş pul, maddi və qeyri-maddi formalarda vəsaitlərin ümumi dəyərini xarakterizə edir. Kapital gəlir gətirən subyektin maliyyə resurslarını xarakterizə edir. Ona görə də bu iki kateqoriyanın tabeçiliyi nöqteyi-nəzərindən kapital maliyyə resurslarının ən yüksək vəziyyətini ifadə edir, o zaman iqtisadi fəaliyyətdə iştirak edən bu resurslar mənfəət gətirir.

Maliyyə resursları müvafiq mənbələr vasitəsilə subyektlərin fəaliyyət dövriyyəsinə çevrilir. Onlara iki nöqteyi-nəzərdən baxmaq olar: istehsal və digər məqsədlərə xidmət etmək üçün zəruri olan maliyyə resurslarını cəlb etmək, digər baxımdan potensial olaraq mövcud maliyyə mənbələrinin yaradılması, formalaşması prosesində istifadə olunan maliyyə dəstəyi metodlarının məcmusu. Maliyyələşdirmə subyektlərin kapitalını, pul gəlirlərini və fondlarını formalaşdırmaq və istifadə etmək, bu əsasda sadə və geniş təkrar istehsalı təmin etmək məqsədi ilə daxili və xarici mənbələrdən vəsaitlərin yönəldilmiş fəaliyyətidir [4, s.24]. Eyni zamanda, sadə və geniş təkrar istehsalın maliyyə təminatının forma və üsulları, prinsipləri və şərtləri toplusudur. Buna görə də maliyyələşdirmə alternativ maliyyə mənbələrinin müəyyən edilməsini, konkret mənbələrin seçilməsini, maliyyələşdirmə mənbəyinin növündən asılı olaraq resursların daxil olması və xərclənməsinin təşkilini əhatə edən prosesdir.

Maliyyələşdirmə mənbələrini üç əsas qrup təşkil edir: istifadə olunan, mövcud, potensial. Birincisi, subyektin kapitalını formalaşdırmaq üçün artıq istifadə olunan ehtiyacların maliyyələşdirilməsi mənbələrinin məcmusudur. Subyekt səviyyəsində istifadə olunan maliyyə resursları mənbələri nizamnamə kapitalı, əlavə kapital, əvvəlki illərin bölüşdürülməmiş mənfəəti, yığılmış amortizasiya fondu və cari dövrün satışından əldə olunan gəlirdir. Mövcud mənbələr potensial olaraq istifadə oluna bilən mənbələrdir. Belə mənbələrdən daha geniş istifadə olunur. Mövcud mənbələrə nizamnaməyə uyğun olaraq formalaşan xüsusi təyinatlı fondlar, ehtiyat fondu və mallara, işlərə və xidmətlərə görə ödənişin təxirə salınması şəklində istifadə edilən kontragentlərin müvəqqəti sərbəst vəsaitləri daxildir. Potensial mənbələr maliyyə, kredit və hüquqi münasibətlər şəraitində subyektlərin fəaliyyəti üçün nəzəri cəhətdən istifadə edilə bilən mənbələrdir. Potensial mənbələrə həmçinin, subyektlərin imkanlarına, o cümlədən təşkilati-hüquqi formasına, mövcud kapital strukturuna, kredit tarixçəsinə, kredit qabiliyyətinin səviyyəsinə və s. əsasən maliyyə bazarında səfərbər oluna bilən vəsaitlər daxildir.

***Nəticə***

Göstərilənləri ümumiləşdirərək qeyd etmək olar ki, maliyyə sabitliyi subyektlərin fəaliyyətində davamlılığın əsas elementlərindəndir və aşağıdakı istiqamətləri əhatə edir: maliyyə sabitliyi əsa-

sən, müxtəlif növ pul vəsaitlərinin hərəkətinin həcmi və vaxt baxımından bir-biri ilə necə sinxronlaşdırıldığı ilə müəyyən edilir; subyektin kapitalı təsərrüfat fəaliyyətində mənfəət əldə etməyə səbəb olduqda maliyyə resurslarının ən yüksək vəziyyətini təmsil edir; subyektlərin fəaliyyətinin maliyyələşdirilməsi alternativ mənbələrin müəyyən edilməsini və konkret mənbələrin seçilməsini, maliyyələşdirmə mənbəyinin növündən asılı olaraq resursların daxil olmasının və xərclənməsinin təşkilini əhatə edir və s.

## ƏDƏBİYYAT


1. Abasquluyev R. Maliyyə və kredit. Bakı, Qanun Nəşriyyatı, 2011. 256 s.
2. Агеева, Н.А. Деньги, кредит, банки: Учебное пособие / Н.А. Агеева. - М.: Риор, 2018. - 432 с.
3. Деньги, кредит, банки.\Под ред. О.И. Лаврушина - М.: Финансы и статистика, 2015. – 560 с.
4. Соколинская Н. Актуальные направления развития банковского дела: монография / Москва: Русайнс, 2016. 274 с.
5. Управление банковскими рисками: учеб. пособие для студентов вузов, обучающихся по направлениям экономики и управления / Л.Н. Тепман, Н.Д. Эриашвили. – Москва: ЮНИТИ-ДАНА, 2015. – 311 с.


***Парвин Гусейн оглы Идрисли***
***Диссертант АГАУ***
***Электронная почта: parvin.idrisli@gmail.com***

## Кредитные ресурсы финансовой безопасности и стабильности как один из основных инструментов

***Резюме***

**Целью исследования** - подготовить предложения и рекомендации по обеспечению доступа потребителей к кредитным ресурсам, которые считаются основным средством реализации финансовой безопасности и стабильности.

**Методология исследования** – это системный и комплексный подход к исследуемой проблеме, при изучении различных аспектов финансового обеспечения использовались методы, связанные со сравнительным анализом, обобщением и оценкой.

**Значимость исследования** – полученные результаты могут быть использованы для решения теоретических и практических задач, связанных с более полным удовлетворением потребности потребителей в финансовых ресурсах.

**Результатом исследования** - с учетом современного уровня развития страны, заключаются в подготовке предложений и рекомендаций по обеспечению финансовыми ресурсами и удовлетворению спроса на кредиты.

**Оригинальность и научная новизна исследования** - исследование взаимосвязи финансовой безопасности, финансовой устойчивости и кредитования характеризует оригинальность исследования. На основе оптимального подхода к указанным вопросам полученные результаты можно считать основной научной инновацией исследования в целях обеспечения эффективности экономических отношений с потребителями и кредитодателями.

***Ключевые слова: кредит, банковское дело, финансы, риск, качество, оценка.***

*Parvin Huseyn Idrisli*
*Phd student of ASAU*
*E-mail: parvin.idrisli@gmail.com*

**Credit resources of financial security and stability as one of the main tools**

***Summary***

**The aim of the study** is to prepare proposals and recommendations on providing consumers with access to credit resources, which are considered to be the main means of realizing financial security and stability.

**The research methodology** - a systematic and complex approach to the investigated problem, methods related to comparative analysis, generalization and evaluation were used in the study of various aspects of financial provision.

**The significance of the study** – the obtained results can be used to solve theoretical and practical problems related to more complete satisfaction of consumers' need for financial resources.

**The result of the study** - taking into account the modern level of development of the country, consists in the preparation of proposals and recommendations on the provision of financial resources and meeting the demand for loans.

**Originality and scientific novelty of research** - research on the relationship between financial security, financial stability and lending characterizes the originality of research. Based on the optimal approach to the mentioned issues, the results can be considered the main scientific innovation of the research in order to ensure the efficiency of economic relations with consumers and credit providers.

***Keywords: credit, banking, finance, risk, quality, assessment.***

UOT № 336.7 JEL kodu – E52

*Səbuhi Mübariz oğlu ABBASOV*
*doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti*
*Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6*
*e-mail: sebuhi.finance@gmail.com*

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ APARILAN ANTİİNFLYASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Xülasə***

Son dövrlərdə COVİD-19 pandemiyasının dünya iqtisadiyyatına vurduğu zərbə və onun ardından gələn Rusiya-Ukrayna müharibəsinin fəsadları inflyasiya ilə mübarizə məsələsinin öyrənilməsini olduqca aktual etmişdir. İnkişaf etmiş ölkələrin çoxillik təcrübələri nəticəsində formalaşdırdıqları təkmil antiinflyasiya siyasətinin tətqiq edilməsi gələcək dövrlərdə ölkəmizdə inflyasiya ilə mübarizə zamanı effektiv tədbirlərin işlənib hazırlanması baxımından da olduqca əlverişlidir. Bu baxımdan tədqiqatın əsas məqsədi ABŞ və inkişaf etmiş Avropa ölkələri timsalında inflyasiya ilə mübarizə imkanlarını araşdırmaq və onun inkişaf istiqamətlərini müəyyən etmək olmuşdur. Araşdırmanın əsas obyekti kimi ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, İspaniya və s. inkişaf etmiş ölkələrdə aparılan antiinflyasiya tədbirləri əsas götürülmüşdür.Tədqiqat prosesi zamanı təhlil, müşahidə, sistemli yanaşma, məntiqi ümumiləşdirmə, müqayisəli analiz və statistik göstəricilərin qiymətləndirilməsi metodu tədbiq edilmişdir. Araşdırma prosesinin nəticəsində əldə edilən ən önəmli yenilik İEÖ-lərin pul-kredit yönümlü antiinflyasiya siyasətinin kompleks şəkildə tədqiq olunması və ümumi mənzərənin gözlər önünə sərilməsi olmuşdur. Tədqiqat zamanı fərqli regionlardan olan İEÖ timsalında antiinflyasiya siyasətinin müxtəlifliyi öyrənilmişdir. Əldə olunan məlumatlar gələcək dövrlər üçün ölkəmizdə bu sahənin inkişafı üçün rəhbər rolunu oynama potensialına sahibdir. Həmçinin tədqiqat işi bu mövzu ətrafında araşdırma aparan digər tədqiqatçılar üçün əhəmiyyətli referans mənbəyi kimi də çıxış edəcəkdir.

***Açar sözlər: pul-kredit siyasəti, antiinflyasiya, inkişaf etmiş ölkələr, dünya iqtisadiyyatı, inflyasiya.***

## *Giriş*

XIX əsrin ikinci yarısından etibarən ABŞ başda olmaqla bir sıra Avropa ölkələri müasir kapitalizmin təsiri nəticəsində olduqca yüksək inkişaf səviyyəsinə nail oldular. Ölkədə bir nəfərə düşən ÜDM-in həcminə və yüksək elmi, texnoloji və iqtisadi inkişaf səviyyəsinə görə bu ölkələri inkişaf etmiş ölkələr adlandırmağa başladılar. İEÖ apardıqları siyasətlər və atdıqları addımlar baxımından həmişə digər dünya dövlətlərinə öncüllük etmişdirlər. Digər dövlətlər addım atarkən onların təcrübələrinə istinad etmişdirlər. Bu hal heç də təsadüfi xarakter daşımamışdır. Düzgün iqtisadi siyasətin qurulması İEÖ-nün inkişafını şərtləndirən ən əsas amillərdən biri olmuşdur. İqtisadi siyasətin hər forması, istər monetar siyasət, istər fiskal siyasət, istərsə də digər təyinatlı tədbirlər bu ölkələri iqtisadi inkişaf baxımından yüksək səviyyəyə çatdırmışdır. Bildiyimiz kimi inflyasiya hər zaman ölkə iqtisadiyyatı qarşısında duran ən önəmli təhdidlərdən biri olmuşdur. İstər millətin, istərsə də dövlətin maliyyə vəsaitinin dəyərinin durmadan azalması ilə xarakterizə olunan bu proseslə hər zaman mübarizə aparılmışdır. Xüsusilə ötən əsrin sonu və XX əsrin əvvəllərinə aid statistik göstəricilərə nəzər salan zaman ən effektiv mübarizə yollarının da məhz İEÖ tərəfindən seçildiyini müşahidə edə bilərik. Araşdırma zamanı da həmin sözü gedən mübarizə yolları tədqiq edilmişdir. Bu metodların tədqiqi inkişaf etmiş ölkələrin iqtisadiyyatının müasir vəziyyətinin öyrənilməsi baxımından da olduqca əhəmiyyətlidir. Çünki hər bir ölkə iqtisadi siyasətini formalaşdıran zaman inflyasiya ilə mübarizə məsələsinə xüsusi diqqət ayırır. İnkişaf etmiş ölkələr isə bu baxımdan daha dərin təcrübəyə və mütəşəkkil iqtisadi ənənəyə sahibdirlər.

**ABŞ timsalında inkişaf etmiş ölkələrin iqtisadiyyatı**

Bir ölkənin inkişaf etmiş ölkə kateqoriyasına aid olub-olmadığını müəyyən etmək üçün bir çox göstərici tətbiq olunur. Qeyd edilən göstəricilərə sahib olan ölkələr İEÖ adlandırılırlar. Bu ölkələr dünya üzərində istər iqtisadi, istər siyasi, istərsə də texnoloji baxımdan əsaslı formada söz sahibidirlər. İEÖ-yə xas olan bəzi göstəriciləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Bu ölkələr olduqca dayanıqlı iqtisadiyyata malikdirlər və milli gəlirlərinin həcmi olduqca yüksəkdir.
2. İEOÖ kənd təsərrüfatında ixtisaslaşdıqları halda İEÖ sənayedə ixtisaslaşırlar.
3. İEÖ-də məhsul istehsalı və ixracatının həcmi olduqca yüksəkdir.
4. İEÖ-lər olduqca yüksək hərbi gücə sahib olurlar.
5. Elm, təhsil və texnologiya yüksək inkişaf səviyyəsinə çatmış olur.
6. Mədəni və sosial cəhətdən inkişaf etmiş olurlar. Rifah səviyyəsi, həyat keyfiyyəti və sağlamlıq səviyyəsi yüksək olur.
7. Digər dövlətlərə nisbətən daha dayanıqlı milli valyutaya (dollar, avro və s.) sahib olurlar.
8. Ölkədə bir nəfərə düşən ümumi daxili məhsulun həcmi olduqca yüksəkdir (təxminən 20-30 min dollar həcmində).

Yuxarıda sadaladığımız göstəricilər içində ən əhəmiyyətlisi əhalinin bir nəfərinə düşən ÜDM-in həcmidir. Çünki BVF (Beynəlxalq Valyuta Fondu) ölkələri inkişaf səviyyəsinə görə qruplaşdıran zaman əsasən bu göstəricidən istifadə edir. BVF-nin hesabatına görə hal-hazırda dünyada 37 inkişaf etmiş ölkə mövcuddur: Bunlardan 28-i Avropanın, 6-sı Asiyanın, 2-si Şimali Amerikanın, 2-si isə Okeaniyanın payına düşür [1, səh. 63].

İEÖ-də aparılan antiinflyasiya siyasətinin əsas istiqamətlərinə baxmaq üçün ayrı-ayrı ölkələrin iqtisadiyyatlarına nəzər salaq. Bu məqsədlə müxtəlif coğrafi regionlardan ölkələrin iqtisadiyyatı tədqiqatımızın obyekti kimi çıxış edir. Şimali Amerikadan ABŞ, Asiyadan Yaponiya və Cənubi Koreya, Avropadan isə İngiltərə, Fransa və Almaniya kimi ölkələrin iqtisadiyyatına nəzər salaq.

Ümumiyyətlə dünyada dolların önəmini nəzərə alaraq deyə bilərik ki, ABŞ-ın bir ölkə kimi rolu dünyada inflyasiya ilə mübarizə baxımından olduqca önəmlidir. Bu səbəblə də ABŞ-ın monetarist siyasətinin və antiinflyasiya tədbirlərinin əsas istiqamətlərinin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən araşdırma zamanı da ən çox ABŞ-ın üzərində dayanılmışdır. ABŞ-da pul-kredit siyasəti qısamüddətli faiz dərəcələri və pul ehtiyatlarının, bir sözlə, monetarist bazanın tənzimlənməsi ilə xarakterizə olunur [2, səh. 81]. İlk dəfə 1694-cü ildə İngiltərə Bankının təsis edilməsi müasir pul-kredit siyasəti anlayışını meydana gətirmişdi. ABŞ-ın monetarist siyasətinin ilkin mərhələləri də məhz bu dövrə aid edilir. Bu dövrlərdə siyasət yürüdülərkən əsasən pulun dəyərinin qorunub saxlanılması, pul çapı üzərində nəzarət, pulun keyfiyyətli şəkildə dövriyyəsinin təmin edilməsi və inflyasiya ilə mübarizə kimi məsələlər önəm daşıyırdı. Ötən əsrlərdə qızılın xüsusi önəmini nəzərə alaraq pul-kredit siyasəti qızıl ehtiyatları üzərində tənzimləmələri də əhatə edirdi. Bura qızıl rezervlərinin qorunub saxlanılması, müəyyən qızıl normalarının müəyyənləşdirilməsi və qızıl ticarəti aiddir. Qeyd edilən qızıl normaları da özlüyündə faiz dərəcələrindən təsirlənirdi. Bu da həmin dövrdə faiz dərəcələrinin ideal həddinin təmin olunmasının əhəmiyyətini bir qat daha artırırdı.

Daha sonra 1913-cü ilin dekabr ayının 23-ündə ABŞ iqtisadiyyatının ən əhəmiyyətli monetarist qurumu olan ABŞ Mərkəzi Bankı, bu gün hər kəsin bildiyi adı ilə FED (Federal Reserve System) təsis edildi. Bu ABŞ iqtisadiyyatı üçün olduqca əhəmiyyətli hadisə idi, çünki artıq milli valyutanın qorunması üçün mərkəzi qurum mövcud idi. FED yarandığı ilk günlərdən inflyasiya ilə mübarizə baxımından da olduqca əvəzsiz rola malik olmuşdur. FED-in təsis edilməsindəki ən önəmli səbəb o dövrdə hökumət tərəfindən faiz dərəcələrinin ümumi ölkə iqtisadiyyatı üçün nə dərəcədə əhəmiyyətli olmasının müəyyən edilməsi olmuşdur. Belə ki, 1907-ci ildə ABŞ-da "bankirlər təşvişi" deyə adlandırılan iqtisadi böhran baş verdi. Bu böhranın nəticəsində heç bir mərkəzə bağlı olmayan onlarla kommersiya bankı müflis elan edilərək bağlanıldı. Hökumət böhranla mübarizə məqsədi ilə federal səviyyədə iqtisadi agentliklərə səlahiyyətlər tanımışdı. Agentliklər ilk növbədə

vahid ehtiyatlar sisteminin yaradılması və ümumi ölkə səviyyəsində tətbiqini icra etmişdirlər. ABŞ Mərkəzi Bankı olan FED də belə bir dövrdə böhran sonrası zərurətdən ortaya çıxmışdır (5, səh. 124).

ABŞ iqtisadiyyatındakı ən əhəmiyyətli hadisələrdən biri XX əsrin 30-cu illərində cərəyan edən və bütün dünyaya təsiri ilə yadda qalan böyük iqtisadi böhranın meydana gəlməsi olmuşdur. Bu zaman Mərkəzi Bankın apardığı pul-kredit siyasətinin önəmi və antiinflyasiya tədbirlərinin inkişaf etdirilməsi kimi məsələlər bir daha aktual hal almışdır. Pul-kredit siyasəti çərçivəsində hökumət qızıl standartları üzərində dəyişikliyə getdi və qızıl standartlarının ABŞ milli valyutasına tətbiq edilməsi qərarını aldı. Bu hadisə ilə dollar qızıldan daha əhəmiyyətli ehtiyat vasitəsinə çevrildi. 1933-cü ildən etibarən hər kəs əlindəki qızıl ehtiyatlarını dollara dəyişməli oldu. Bu dövrdə antiinflyasiya siyasətinin əsas istiqamətlərinə nəzər salan zaman Keynsçı yanaşmanın hegemonluğu xüsusilə diqqətə çarpır. Monetar yox, daha çox fiskal yönümlü bu antiinflyasiya siyasətinə görə hökumət inflyasiya ilə mübarizə üçün vergi dərəcələri və büdcə ehtiyatları üzərində tənzimləmələr aparmalıdır. Əsası XX əsrin 30-cu illərində böhran zamanında atılan bu antiinflyasiya siyasəti günümüzdə hələ də tətbiq olunur.

ABŞ-da dolların dünyanın ən əhəmiyyətli ehtiyat valyutası kimi təkamül etməsindən sonra ölkə pul-kredit siyasətinin inkişafının ən önəmli addımlarından biri sayılan Bretton Woods sistemi yaradıldı. Bretton Woods sistemi ikinci dünya müharibəsi sonrası xüsusilə dağıntılara məruz qalmış Qərbi Avropa ölkələrinin yenidən canlandırılması məqsədi ilə ABŞ-ın təşəbbüsü ilə bağlanan Bretton Woods sazişi çərçivəsində yaradılmış beynəlxalq pul-kredit idarəetmə sistemi kimi xarakterizə oluna bilər. Bu sistem nəticəsində dollar daha da beynəlxalq status daşıdı, xarici ölkələr arasında mövqeyi bərkidildi. O vaxtdan etibarən dollar ən əhəmiyyətli mübadilə vasitəsi kimi dünya ticarətində yerini aldı və qızılı sıxışdırıb çıxardı. Sistemin ən önəmli xüsusiyyəti isə odur ki, dünya ölkələri o dövrdən etibarən pul-kredit siyasətlərini qurarkən artıq dollar məzənnələrini nəzərə almalı oldular, hətta bir çox ölkələr milli valyutasını dollara sabitləməyə başladı. Bu, dollar üçün olduqca əhəmiyyətli bir hal idi. Bretton Woods sisteminin bir digər nəticəsi də BVF (Beynəlxalq Valyuta Fondu) və BİYB (Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı) kimi qurumların yaradılması olmuşdur.

1971-ci ildə ABŞ-da “Nikson şoku” adlandırılan bir digər əhəmiyyətli iqtisadi hadisə baş verdi. Bu hadisə ümumilikdə ölkənin pul-kredit siyasəti və inflyasiya normaları üzərində əhəmiyyətli şəkildə təsirə malik olmuşdur. 1971-ci ildə ölkədə inflyasiya norması 5.8%, işsizlik norması isə 6.1% həcmində idi. Bu problemlərlə mübarizə məqsədi ilə prezident Nikson kəskin monetarist ölçülər götürdü. Atılan addımlara aşağıdakılar aid idi:

A. Dolların qızıl ilə mübadilə edilməsinin qarşısını aldı. Artıq digər düvlətlər öz qızıllarını dollar ilə və ya əksinə, əllərində olan dollar ehtiyatlarını qızıl ilə dəyişmək üçün ABŞ-a müraciət edə bilməyəcəkdilər.

B. İnflyasiya ilə mübarizə məqsədi ilə 3 ay müddətinə əməkhaqları və qiymətlərin dondurulması qərarı alındı.

C. Valyuta məzənnələrində gözlənilən dəyişikliklərin dollara təsirini azaltmaq üçün idxalın həcmində 10%-lik sərhəd tədbiq edildi. Bu, həm də ABŞ-ın məhsullarını dəyər itkisindən qorumaq üçün atılmış bir addım idi.

Niksonun atdığı bu addım pul-kredit siyasətində Bretton Woods sisteminin sonunu gətirdi. “Nikson şoku” adlandırılan bu hadisə dünya tarixinə siyasi uğur, lakin iqtisadi uğursuzluq kimi daxil olmuşdur. Bu addımların nəticəsində ölkədə 1973 və 1975-ci illər arasında iqtisadi durğunluq meydana gəlmişdir, staqflyasiya halı yaranmışdır və üzən valyuta məzənnələrində qeyri-sabitlik meydana çıxmışdır. İnflyasiya ilə mübarizə məqsədi ilə atılan bu addımlar tamamilə əks nəticə ilə xarakterizə olunmuşdur [7, səh. 47].

Niksonun iqtisadi uğursuzluğu dönəmində ABŞ iqtisadçısı Milton Fridman müasir monetarizmin əsasını qoydu. Pul kütlələri və faiz dərəcələrinin tənzimlənməsinin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini nəzəri olaraq təklif edən Milton Fridman həmçinin pul-kredit yönümlü antiinflyasiya

siyasəti hesab olunan sərt pul siyasətinin də əsasını qoymuşdur. Müasir və təkmilləşdirilmiş monetarist siyasət nəticəsində ABŞ hökuməti, xüsusilə də FED Niksonun iqtisadi uğursuzluğunu yumşaltmağa nail olmuşdur. FED inflyasiya hədəfini 2 faiz həcmində müəyyən etmiş və bunun üçün qısamüddətli faiz dərəcələrini artırmışdır. Faiz dərəcələrinin artırılması öz növbəsində dövriyyədə olan dolların həcmini azaltmış və inflyasiya dərəcələrini tədricən istənilən səviyyəyə geri qaytara bilmişdir. Uzun illər boyunca FED 2%-lik inflyasiya dərəcəsini uğurla qoruyub saxlamışdır. Lakin 2019-cu ildə meydana gələn COVİD-19 pandemiyasının dünya iqtisadiyyatı üzərindəki mənfi təsiri nəticəsində illər sonra ilk dəfə 2020-ci ildə FED inflyasiya dərəcələrinin artacağının proqnozunu vermişdir. Daha sonra 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin təsiri ilə enerji qiymətlərində kəskin bahalaşma müşahidə olundu və xüsusilə Avropa və ABŞ-a təsir göstərən müasir inflyasiya böhranı baş verdi. Bu zaman ABŞ-ın inflyasiya göstəriciləri 8%-lərə qədər yüksəldi. Son dövrlərdə ABŞ-da qeydə alınan inflyasiya göstəriciləri aşağıdakı kimidir:

**Cədvəl 1.**

**ABŞ-da illər üzrə illik inflyasiya dərəcəsi (1975-2022).**

| İnflyasiya dərəcəsi (%-lə) | **1975** | **1980** | **1990** | **2000** | **2005** |
|---|---|---|---|---|---|
| **ABŞ** | 9.1 | 13.5 | 5.4 | 3.4 | 3.4 |
| | **2010** | **2015** | **2020** | **2021** | **2022** |
| | 1.6 | 0.1 | 1.2 | 4.7 | 8.0 |

ABŞ müasir inflyasiya böhranından çıxmaq üçün ard-arda antiinflyasiya addımları atdı. Bunlardan ən önəmlisi FED-in faiz dərəcələrini artırması oldu. Hətta faizlər son 15 il ərzində ən yüksək faiz dərəcələri olan 4.5% həcminə kimi artırıldı. Bununla əsas məqsəd ABŞ Mərkəzi Bankının standart inflyasiya hədəfi olan 2%-lik hədəfə nail olunması olmuşdur. FED-in proqnozlarına görə 2023-cü ildə bu hədəfə nail olunması olduqca çətin görünsə də 2024-cü ildən etibarən qeyd edilən hədəflərə çatmaq mümkün ola bilər. Lakin faiz dərəcələrində bu anlıq artış ABŞ iqtisadiyyatında iqtisadi durğunluğa səbəbiyyət verə bilər. Proqnoza görə növbəti ildə ABŞ iqtisadiyyatında 0.1% həcmində kiçilmə olması istisna edilmir.

ABŞ-ın inflyasiya ilə bir digər mübarizə vasitəsi kimi isə vergi siyasəti nəzərə çarpmışdır. Ənənəvi fiskal yönümlü antiinflyasiya siyasəti tətbiq edilən zaman vergi dərəcələrinin artırılması və bununla da dövriyyədə olan pulun həcminin azaldılmasına nail olunması nəzərdə tutulur. Lakin ABŞ iqtisadi siyasəti müasir inflyasiya böhranından çıxmaq məqsədi ilə müəyyən səviyyədə təkmilləşdirilmiş antiinflyasiya yönümlü vergi siyasəti tətbiq etmək niyyətindədir. Qeyd edilən müasir antiinflyasiya yönümlü vergi siyasəti prinsip etibarı ilə inflyasiya səviyyəsinə görə tənzimlənən gəlir vergiləri kimi xarakterizə olunur. İnflyasiya səviyyəsinə görə tənzimlənən gəlir vergisi dedikdə gəlir və ya mənfəət vergisi kimi qazancdan tutulan vergilər hesablanan zaman tətbiq olunan formulaya faktiki il üzrə inflyasiya dərəcəsinin illik normasının da əmsal kimi daxil edilməsi nəzərdə tutulur.

ABŞ-da aparılan antiinflyasiya siyasətinin əhəmiyyəti dolların ehtiyat valyuta kimi beynəlxalq iqtisadiyyata təsiri nəzərə alınan zaman daha da önə çıxır. ABŞ inkişaf etmiş bir ölkə kimi nəinki daxili iqtisadiyyatda, həmçinin dünyada inflyasiya ilə mübarizə baxımından olduqca önəmli rol oynayır. FED-in pul-kredit siyasəti, faiz dərəcələri üzərindəki tənzimləmələri və pul emissiyası üzərindəki əməliyyatları təkcə ABŞ-da yox, valyutasını dollara sabitləmiş digər dövlətlərdə də inflyasiya dərəcəsinin artıb-azalmasında xüsusi rola sahibdir [6, səh. 20].

**Digər inkişaf etmiş ölkələrdə aparılan antiinflyasiya siyasəti**

Müxtəlif regionlarda yerləşən ölkələrin iqtisadiyyatına nəzər salmaq məqsədi ilə Asiya regionunun iki qabaqcıl inkişaf etmiş ölkəsi olan Yaponiya və Cənubi Koreyanın antiinflyasiya siyasətinə və monetarist mövqeyinə nəzər salaq. Yaponiyada pul-kredit yönümlü antiinflyasiya siyasəti Yaponiya Bankı tərəfindən yerinə yetirilir. Yaponiya Bankı ölkənin Mərkəzi Bankıdır və əsas

məqsədi ölkədə qiymət sabitliyini qoruyub saxlamaq və milli valyutanın dayanıqlılığını qorumaqdır. Yaponiya Mərkəzi Bankı ümumilikdə pul bazarı üzərində əməliyyatlar da daxil olmaqla bir çox əməliyyat icra edir. Yaponiyada antiinflyasiya siyasəti də daxil olmaqla əsas pul-kredit siyasəti üzrə qərarlar bankın siyasət üzrə ali heyəti tərəfindən pul-kredit siyasəti iclası adlandırılan tədbirlərdə alınır. Bu iclaslarda heyət ölkənin ümumi iqtisadi və maliyyə vəziyyətini təhlil edir, pul bazarı əməliyyatları üzrə yol xəritələri hazırlayır, gələcək dövr üçün Bankın pul-kredit sahəsindəki duruşunu müəyyənləşdirir və iclas sonrası alınmış əhəmiyyətli qərarları ictimaiyyətə elan edirlər. Bunun nəticəsində də ölkədə milli valyutanın sabitliyinin qorunmasına, faiz dərəcələrinin ideal həddində saxlayaraq sahibkarlığın canlandırılmasına və inflyasiyanın qarşısının alınmasına nail olmağı hədəfləyirlər [3, səh. 4]. FED-də olduğu kimi Yaponiya Bankı da inflyasiya hədəflənməsini 2 faiz həcmində müəyyən etmişdir. Yaponiya Bankının əsas prinsiplərindən biri daim faiz dərəcələrini aşağı həddə saxlamaq olmuşdur. Lakin son inflyasiya böhranından sonra Yaponiya Bankı inflyasiya ilə mübarizə məqsədi ilə faiz dərəcələrini artırmağa məcbur oldu. Bu isə öz növbəsində yenin dollar qarşısında dəyər itirməsi ilə nəticələndi. Son dövrlərdə Yaponiyada qeydə alınan inflyasiya göstəriciləri aşağıdakı kimidir.

**Cədvəl 2.**

**Yaponiyada illər üzrə illik inflyasiya dərəcəsi (1975-2022).**

| *İnflyasiya dərəcəsi (%-lə)* | ***1975*** | ***1980*** | ***1990*** | ***2000*** | ***2005*** |
|---|---|---|---|---|---|
| **Yaponiya** | 11.73 | 7.78 | 3.08 | -0.68 | -0.28 |
| | ***2010*** | ***2015*** | ***2020*** | ***2021*** | ***2022*** |
| | -0.73 | 0.8 | 0 | -0.2 | 4.0 |

Cənubi Koreyada da pul-kredit siyasəti aktiv bir şəkildə tətbiq olunur, lakin pul-kredit siyasəti mahiyyəti etibarı ilə digər inkişaf etmiş ölkələrdən bir qədər fərqlənir. Belə ki, Koreya Bankı pul-kredit siyasətini quran zaman əsas hədəf kimi inflyasiya ilə mübarizə yox, ölkədə sahibkarlıq fəaliyyətinin inkişafını prioritet götürür. Bu isə özlüyündə faiz dərəcələrinin aşağı səviyyədə müəyyən olunaraq şəxslərin əlində daha çox pul vəsaiti cəmlənməsi ilə özünü büruzə verir. Bu addım qısamüddətli dövr üçün inflyasiya səviyyəsinin yüksəlməsinə gətirib çıxarsa da uzunmüddətli dövrdə ölkənin iqtisadi göstəricilərinin artmasına və inkişafına əsaslı şəkildə zəmin yaradır. Koreya Bankında pul-kredit siyasətini formalaşdırmaq məqsədi ilə 7 üzvdən ibarət heyət yaradılmışdır. Bu heyətin tərkibinə bankın sədri də daxildir. Koreya Bankının da əsas inflyasiya hədəfləməsi digər inkişaf etmiş ölkələrdə olduğu kimi 2 faiz həcmində müəyyən edilmişdir. Son dövrlərdə Cənubi Koreyada qeydə alınan inflyasiya göstəriciləri aşağıdakı kimidir.

**Cədvəl 3.**

**Cənubi Koreyada illər üzrə illik inflyasiya dərəcəsi (1975-2022)**

| *İnflyasiya dərəcəsi (%-lə)* | ***1975*** | ***1980*** | ***1990*** | ***2000*** | ***2005*** |
|---|---|---|---|---|---|
| **Cənubi Koreya** | 25.25 | 28.7 | 8.57 | 2.26 | 2.75 |
| | ***2010*** | ***2015*** | ***2020*** | ***2021*** | ***2022*** |
| | 2.94 | 0.71 | 0.54 | 2.5 | 5.09 |

İngiltərə, Fransa və Almaniya kimi nəhəng Qərbi Avropa dövlətlərinin pul-kredit siyasəti də ABŞ-da olduğu kimi dünya iqtisadiyyatına birbaşa təsir göstərir. Bu inkişaf etmiş ölkələr tərəfindən aparılan antiinflyasiya siyasəti istər region üçün, istərsə də beynəlxalq səviyyədə inflyasiya göstəricilərinə təsir edir. Odur ki, bu ölkələrin antiinflyasiya tədbirlərinə və pul-kredit siyasətinə baxmaq olduqca məqsədəuyğun olardı. İngiltərə Mərkəzi Bankı da inflyasiya hədəfləməsini 2 faiz həcmində müəyyən etmişdir. İngiltərə bankı pul-kredit siyasətini əsasən iki istiqamətdə aparır. Bunlardan birincisi ölkə üzrə ən optimal faiz dərəcələrinin təklif olunması, ikincisi isə istiqraz alaraq faiz dərəcələrinin aşağı həddə qorunub saxlanılması. Hər iki istiqamətə də nəzər salan

zaman açıq şəkildə görə bilirik ki İngiltərə Mərkəzi Bankı əsasən faiz dərəcələrinə üstünlük verir və inflyasiya ilə mübarizə məqsədi ilə də faizlərdən aktiv şəkildə bir alət kimi istifadə edir. Bu, İngiltərənin monetarist siyasəti üçün olduqca səciyyəvi bir haldır. Qeyd edilən yanaşmanın inflyasiya dərəcələri üzərində nə qədər effektiv olub-olmadığını görmək üçün son illərdə ölkədə qeydə alınan inflyasiya göstəricilərinə nəzər salaq.

**Cədvəl 4.**

**İngiltərədə illər üzrə illik inflyasiya dərəcəsi (1975-2022)**

| *İnflyasiya dərəcəsi (%-lə)* | ***1975*** | ***1980*** | ***1990*** | ***2000*** | ***2005*** |
|---|---|---|---|---|---|
| **İngiltərə** | 24.21 | 17.97 | 8.06 | 1.18 | 2.09 |
| | ***2010*** | ***2015*** | ***2020*** | ***2021*** | ***2022*** |
| | 2.49 | 0.37 | 0.99 | 2.52 | 9.2 |

Fransa və Almaniyada pul-kredit siyasəti 1999-cu ildən etibarən Avropa Mərkəzi Bankı tərəfindən tənzimlənir. Bu ölkələr Avropa Birliyinin üzvü olduqlarından valyuta kimi avrodan istifadə edirlər. Avro isə Avropa Mərkəzi Bankı tərəfindən tənzimlənir. Bu ölkələrdə də inflyasiya hədəfi 2 faiz həcmindədir və pul-kredit siyasətinin əsas məqsədi avronun bir ehtiyat valyuta kimi dayanıqlılığını artırmaq və dollar ilə rəqabətdə daha güclü olmasına nail olmaqdır. Son dövrlərdə pandemiya və müharibənin təsiri ilə olduqca çətin vəziyyətə düşsə də tədricən inflyasiyanın aşağı həddə salınmasına nail olunmağa başlanılmışdır [4, səh. 6]. Avropa Mərkəzi Bankı da inflyasiya ilə mübarizə üçün ənənəvi yollardan istifadə edir. Bura faiz dərəcələrinin artırılması və pul emissiyasının azaldılması kimi sərt pul siyasətinə xarakterik olan antiinflyasiya tədbirləri daxildir. İnflyasiya ilə bağlı ümumi mənzərəni daha aydın görə bilmək üçün Fransa və Almaniyada qeydə alınmış inflyasiya göstəricilərini aşağıdakı cədvəldə qeyd edək.

**Cədvəl 5.**

**Fransa və Almaniyada illər üzrə illik inflyasiya dərəcəsi (1975-2022).**

| *İnflyasiya dərəcəsi (%-lə)* | | | | | |
|---|---|---|---|---|---|
| **Fransa** | ***1975*** | ***1980*** | ***1990*** | ***2000*** | ***2005*** |
| | 11.69 | 13.56 | 3.19 | 1.68 | 1.75 |
| | ***2010*** | ***2015*** | ***2020*** | ***2021*** | ***2022*** |
| | 1.53 | 0.04 | 0.48 | 1.64 | 5.9 |
| **Almaniya** | ***1975*** | ***1980*** | ***1990*** | ***2000*** | ***2005*** |
| | 5.91 | 5.44 | 2.70 | 1.44 | 1.55 |
| | ***2010*** | ***2015*** | ***2020*** | ***2021*** | ***2022*** |
| | 1.10 | 0.51 | 0.51 | 3.14 | 7.9 |

### *Nəticə*

İnkişaf etmiş ölkələrdə antiinflyasiya siyasəti əsasən pul-kredit yönümlü olmaqla aparılır. Tədqiqatın nəticəsindən də göründüyü kimi, ölkələr inflyasiyanı əsasən 2 faiz həcmində hədəfləmiş və bu hədəfə çatmaq üçün zəruri addımlar atmışdırlar. Ölkələrin daxili iqtisadi siyasətlərindən asılı olaraq antiinflyasiya ilə mübarizə metodları da fərqlilik göstərə bilir. Yaponiya və Cənubi Koreya kimi texnologiya yönümlü, istehsalat yönümlü ölkələr daha çox faiz dərəcələrini aşağı həddə saxlayaraq inflyasiya ilə mübarizə aparırlarsa; İngiltərə, Fransa və Almaniya kimi Avropa ölkələri faiz dərəcələrini zəruri hallarda yüksəltməkdən çəkinmirlər. Əsas etibarı ilə deyə bilərik ki, dünya iqtisadiyyatında paylarının çox yüksək olması səbəbindən inkişaf etmiş ölkələrin atdığı hər bir addım digər inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına və ümumi dünya iqtisadiyyatına da birbaşa təsir edir. Xüsusilə dollar və avro kimi valyutaların beynəlxalq ticarətdə hegemonluq etməsi bu halı şərtləndirir. Bu səbəbdəndir ki, FED və Avropa Mərkəzi Bankının apardığı antiinflyasiya siyasəti regional yox, qlobal xarakter daşıyır. İEÖ-nün pul-kredit yönümlü antiinflyasiya siyasəti

çoxillik təcrübəyə dayandığından olduqca mütəşəkkildir. Bunun əsas nümunəsini pandemiya və müharibədən sonra çevik qərarlar alaraq inflyasiya şəraitini olduqca yumşalda bilmələrində açıq şəkildə müşahidə edərək gördük. Ölkəmizdə və digər İOÖ-də gələcəkdə pul-kredit yönümlü anti-inflyasiya siyasətinin təkmilləşdirilməsinin nə dərəcədə əhəmiyyətli olması bu sayədə gözlər önünə sərilmiş oldu.

## ƏDƏBİYYAT

1. Şəkərəliyev, A.S. “Dünya və beynəlxalq iqtisadiyyat”. Bakı. 2012.
2. Hacızadə, E. “Dünya İqtisadiyyatı”. Bakı. 2018.
3. Türkoğlu, M. “Gelişmiş ve Gelişmekte Olan Ülkelerde Enflasyon Hedeflemesi Rejimi Uygulamaları” Alanya. 2015
4. Serdar, Ö. “Enflasyon Hedeflemesi Yaklaşımı: Gelişmiş ve Gelişmekte Olan Ülkelerin Karşılaştırmalı Analizi”. İstanbul. 2019.
5. Bordo, Michael D. “History of monetary policy” New York. 2018.
6. Thomas, H. “History of Banking Institutions of Europe and the United States”. Carvill. 48-50 s.
7. Jared, W. “State Tax Policy as an Inflation Response”. Tax Foundation. 2023.
8. https://www.macrotrends.net
9. https://www.usinflationcalculator.com
10. https://www. bankofengland.co.uk

***Сабухи Мубариз оглы Аббасов***
***Докторант Азербайджанский Государственный Экономический Университет***
***Город Баку, улица Истиглалиет, 6***
***электронная почта : sebuhi.finance@gmail.com***

## Основные направления антиинфляционной политики в развитых странах

***Резюме***

В последнее время влияние пандемии COVID-19 на мировую экономику и последствия последовавшей за ней российско-украинской войны сделали изучение вопроса борьбы с инфляцией весьма актуальным. Изучение опережающей антиинфляционной политики, сформированной развитыми странами в результате многолетнего опыта, также весьма благоприятно с точки зрения разработки эффективных мер борьбы с инфляцией в нашей стране в будущем. В связи с этим основной целью исследования было исследование возможностей борьбы с инфляцией и определение направлений ее развития на примере США и развитых стран Европы. Основным объектом исследования являются США, Англия, Франция, Германия, Италия, Испания и др. За основу были взяты антиинфляционные меры, проводимые в развитых странах.В процессе исследования применялся метод анализа, наблюдения, системного подхода, логического обобщения, сравнительного анализа и оценки статистических показателей. Важнейшим нововведением, достигнутым в результате исследовательского процесса, стало всестороннее изучение денежно-кредитной направленной антиинфляционной политики СВУ и представление общей картины. В ходе исследования были изучены разновидности антиинфляционной политики на примере ИЭП из разных регионов. Полученная информация может сыграть направляющую роль в развитии этой области в нашей стране на будущие периоды. Кроме того, исследовательская работа будет служить важным справочным источником для других исследователей, проводящих исследования по этой теме.

***Ключевые слова: денежно-кредитная политика, антиинфляция, развитые страны, мировая экономика, инфляция.***

***Sabuhi Mubariz Abbasov***
***Doctoral student Azerbaijan State Economic University***
***Baku city, Istiglaliyet Street, 6***
***e-mail: sebuhi.finance@gmail.com***

**Main directions of anti-inflation policy in developed countries**

***Summary***

In recent times, the impact of the COVID-19 pandemic on the world economy and the consequences of the Russia-Ukraine war that followed it have made the study of the issue of fighting inflation very relevant. The study of the advanced anti-inflation policy formed by developed countries as a result of many years of experience is also very favorable in terms of developing effective measures in the fight against inflation in our country in the future. In this regard, the main goal of the study was to investigate the possibilities of fighting inflation and to determine its development directions in the example of the United States and developed European countries. The main object of research is the USA, England, France, Germany, Italy, Spain, etc. the anti-inflationary measures carried out in developed countries were taken as the basis. During the research process, the method of analysis, observation, systematic approach, logical generalization, comparative analysis and evaluation of statistical indicators was applied. The most important innovation achieved as a result of the research process was the comprehensive study of the monetary and credit-oriented anti-inflationary policy of the IEDs and the presentation of the general picture. During the research, the variety of anti-inflation policy was studied on the example of IEPs from different regions. The obtained information has the potential to play a guiding role for the development of this field in our country for future periods. Also, the research work will act as an important reference source for other researchers conducting research on this topic.

***Key words: monetary policy, anti-inflation, developed countries, world economy, inflation.***

UOT 336.7

*Həsən Vüqar oğlu QƏNBƏROV*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutunun doktorantı*
*E-mail: hasan.ganbarov@hotmail.com*

# AZƏRBAYCANDA BANK SEKTORUNUN İNKİŞAF GÖSTƏRİCİLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Azərbaycanda bank sektorunun inkişaf göstəricilərinin qiymətləndirilməsindən ibarətdir. Araşdırma nəticəsində Azərbaycanda bank sektorunun inkişaf göstəricilərinin statistik məlumatlar əsasında təhlil edilməsi, həmçinin Azərbaycanın bank sektorunun rəqabət qabiliyyətinin idarə olunması mexanizmlərinin müəyyən edilməsi nəzərdə tutulmuşdur.

**Tədqiqatın metodikası -** tədqiqat zamanı sistemli təhlil, analitik prosedurlar, müqayisəli qiymətləndirmə kimi üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** təhlil nəticəsində maliyyə inkişafı ilə iqtisadi artım arasında əlaqənin olduğu və bu əlaqənin maliyyə inkişafından iqtisadi artıma doğru olduğu qənaətinə gəlinmişdir. Azərbaycanda ÜDM-in və ixracın həcminin sürətli artması, əhalinin sosial vəziyyətinin yaxşılaşması və nominal gəlirlərinin artması bank sektorunun inkişafına da ciddi təsir göstərmişdir.

**Tədqiqatın nəticələri -** araşdırma nəticəsində müəyyən edilmişdir ki, son illər Azərbaycanda bank sektoru üzrə səmərəlilik göstəricilərində yaxşılaşma baş vermişdir. Lakin əsas məsələlərdən biri qeyri-faiz gəlirlərinin artırılması və bankların prudensial normativlərə uyğunluğunun artırılmasıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Azərbaycanın bank sektoru üzrə səmərəlilik göstəriciləri, təmərküzləşmə dərəcəsi hesablanmış və kompensasiya olunan əmanət məbləğinin adambaşına düşən ÜDM-ə nisbətinin bir sıra ölkələrlə müqayisəsi aparılmışdır.

***Açar sözlər: bank sektoru, iqtisadi inkişaf, əmanətlər, pul siyasəti, kredit.***

## *Giriş*

İqtisadi artım bütün ölkələr üçün çox vacibdir. Ölkələrin həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərindən olan iqtisadi artıma nail olmaq, eləcə də artımı davamlı etməkdən ibarətdir ki, bu da çox çətin və zəruri bir prosesdir. Artıma təsir edə biləcək bir çox iqtisadi faktorlar var və bu amillərdən birinin bank sektoru olduğunu söyləmək olar. Banklar pul siyasəti və monetar nəzarət kanalı olmaqla yanaşı, iqtisadiyyatın restrukturizasiyasında və uzunmüddətli dayanıqlı makroiqtisadi sabitliyin təmin edilməsində effektiv institutlardır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını reallaşdırmağa, müstəqil siyasət həyata keçirməyə başladı. Bu siyasətin əsas istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılmış iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil edirdi. Bank sektoru Azərbaycanda inkişaf edən sektorlardan biridir. Bank sektoru Azərbaycanın maliyyə sektorunun mühüm elementidir. Bu gün banklar aktiv və kapitalın həcminə, regional əhatə dairəsinə görə digər maliyyə vasitəçilərini dəfələrlə üstələyir. Azərbaycan Mərkəzi Bankının kommersiya banklarına dəstəyi bu sektorun inkişafını təmin edir. Banklar arasında rəqabət sektorun inkişafına səbəb olan amillərdən biridir. Banklar müştərilərinə təqdim etdikləri xidmətlərin sayını və keyfiyyətini günü-gündən artıraraq, müştərilərinin etibarını qazanmağa çalışırlar. Bu gün Azərbaycanın bank sektorunda mühüm və sürətli inkişaf baş verir.

**Nəzəri aspektlər**

Banklar yerinə yetirdikləri funksiyalara görə ölkə iqtisadiyyatının inkişafı prosesində mühüm rol oynayırlar. İlk dəfə 1911-ci ildə alman alimi Joseph Schumpeter iqtisadi artım prosesində maliyyə sisteminin mühüm qolu olan bankların olduqca vacib rol oynadığını bildirmişdir. O, iddia

edirdi ki, real sektor artımı maliyyə sektorunun inkişafına əsaslanır. [1] Bundan əlavə müasir tədqiqatçılarda bank sektorunun iqtisadi inkişafda rolu ilə bağlı bir sıra araşdırmalar aparmışdırlar. Thorsten Beck və Levine (2004) bank sektorunun inkişafı ilə iqtisadi artım arasındakı əlaqəni araşdırdılar. Tədqiqat 1976-1998-ci illər arasında beşillik məlumatlarla cəmi 40 ölkədə panel analiz üsulu ilə aparılmışdır. Araşdırmada bank sektorunun inkişafı, bankların özəl sektora verdiyi kreditlərin ÜDM-ə nisbəti ilə təmsil olunub. Aparılan təhlillər nəticəsində bank sektorunun inkişafı ilə iqtisadi artım arasında əhəmiyyətli və müsbət əlaqə müəyyən edilmişdir. [2] Həmçinin Türkiyə iqtisadçıları Aslan Özgür və İsmayil Küçükaksoy (2006) maliyyə inkişafı ilə iqtisadi artım arasındakı əlaqəni araşdırdılar. Təhlil Türkiyə üçün 1970-2004-cü illər üçün illik məlumatlardan istifadə etməklə zaman sıraları səbəb-nəticələrinin təhlili metodundan istifadə etməklə qiymətləndirilmişdir. Tədqiqatda maliyyə inkişafı özəl sektorun kreditlərinin həcmi ilə təmsil olunub. Təhlil nəticəsində maliyyə inkişafı ilə iqtisadi artım arasında əlaqənin olduğu və bu əlaqənin maliyyə inkişafından iqtisadi artıma doğru olduğu qənaətinə gəlinmişdir. [1]

**Azərbaycanda bank sektorunun inkişafı**

Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirilən iqtisadi islahatlar və dünya bazarına neft ixracının artması ilə ÜDM-in və ixracın həcmi sürətli artmış, əhalinin sosial vəziyyəti yaxşılaşmışdır. İqtisadiyyatda artımın olması və əhalinin nominal gəlirlərinin artması bank sektorunun inkişafına da ciddi təsir göstərmişdir. Bankların inkişaf etməsi ilə yanaşı sektorda rəqabətin artması və Mərkəzi Bankın 2010-cu ildə bank kapitalına minimum tələbin 10 mln manatdan 50 mln manata çatdırılması bank sektorunun formalaşmasında mühüm rol oynamışdır. 2015-ci ildə Azərbaycanın milli valyutası manatın 2 dəfədən çox ucuzlaşması bank sektoruna ciddi təsir göstərmiş bə bəzi bankların bağlanmasına səbəb olmuşdur. Belə ki, 2005-ci ildə ölkədə 44 bank fəaliyyət göstərmiş və 2010-cu ildə daha bir bank yaranaraq bankların sayı 45-ə çatmış, ancaq 2015-ci il devalvasiyasından sonra 15 bank bağlanaraq bankların sayı 30-a düşmüşdür. 2020-ci ildə isə 4 bank bağlanmış və hazırda ölkədə mövcud bankların sayı 26-dır. [3] Bank sektoru bu dövrdə bütün göstəricilər üzrə kəskin artmışdır. Belə ki, Qrafik 1-dən göründüyü kimi 2021-ci ildə Azərbaycanda bank sektorunun aktivlərinin həcmi 2005-ci illə müqayisədə 17.1 dəfə, kredit qoyuluşlarının həcmi 12.2 dəfə, bank kapitalının həcmi 12.8 dəfə, depozitlərin həcmi isə 21.2 dəfə artmışdır.




**Qrafik 1. Azərbaycanın bank sektorunun inkişafı**

*Mənbə: Qrafik AMB, Azərbaycan Banklar Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hesablanıb*

Bank sektorunda səmərəlilik göstəriciləri üzrə də artım baş vermişdir. Belə ki, 2005-ci ildə bank aktivlərinin ÜDM-də xüsusi çəkisi 18%, kredit qoyuluşlarının həcminin qeyri-neft ÜDM-ində xüsusi çəkisi 23.8% olsa da, 2021-ci ildə müvafiq olaraq 41.4 və 29.6% təşkil etmişdir. [3], [4] Mühüm göstəricilərdən biri olan kredit qoyuluşlarında dollarlaşmanın azalmasıdır. Belə ki, 2005-

ci ildə xarici valyutada kredit qoyuluşlarının xüsusi çəkisi 62,3% olsa da, 2021-ci ildə bu göstərici 25.8%-ə düşmüşdür. (Cədvəl 1)

**Cədvəl 1.**

**Bank sektorunun səmərəlilik göstəriciləri**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| Bank aktivlərinin ÜDM-də xüsusi çəkisi %-lə | 18,0 | 31,3 | 64,2 | 39,8 | 37,0 | 40,1 | 44,3 | 41,4 |
| Kredit qoyuluşlarının qeyri-neft ÜDM-ində xüsusi çəkisi %-lə | 23,8 | 49,7 | 57,7 | 26,7 | 27,9 | 30,4 | 28,6 | 29,6 |
| Xarici valyutada kredit qoyuluşlarının xüsusi çəkisi %-lə | 62,3 | 36 | 49,4 | 40,9 | 38 | 35,6 | 29,8 | 25,8 |
| Xarici valyutada depozitlərin xüsusi çəkisi %-lə | 79,5 | 58 | 81,6 | 72,4 | 65,3 | 61 | 56,4 | 49,4 |
| Qeyri-işlək kreditlərin xüsusi çəkisi %-lə | 4,7 | 5,4 | 5,3 | 13,8 | 12,2 | 8,3 | 6,1 | 4,2 |
| Xalis mənfəətin aktivlərə nisbəti %-lə (ROA) | 1,9 | 0,9 | 1,5 | 3,2 | 0,9 | 1,6 | 1,8 | 1,6 |
| Xalis mənfəətin kapitala nisbəti %-lə (ROE) | 11 | 6,3 | 8,9 | 23,8 | 6,9 | 11,7 | 12,1 | 12,3 |
| Müştərilərə kreditlər üzrə orta faiz dərəcələri (dövrün sonuna) | 17,7 | 17,4 | 14,2 | 12,1 | 11,8 | 9,69 | 9,22 | 9,15 |
| Depozitlər üzrə orta faiz dərəcələri (dövrün sonuna) | 10,6 | 8,2 | 7,2 | 5,6 | 4,9 | 4,5 | 4,5 | 4,3 |
| Marja %-lə | 7,1 | 9,2 | 7 | 6,5 | 6,9 | 5,19 | 4,72 | 4,85 |

*Mənbə: Cədvəl AMB, Azərbaycan Banklar Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hesablanıb.*

Bank sektorunun rəqabətqabiliyyətlilik dərəcəsinin ölçülməsi üçün beynəlxalq təcrübədə ən mühüm göstərici təmərküzləşmə dərəcəsinin ölçülməsidir. Bu adətən beynəlxalq praktikada bank sektorunun müxtəlif göstriciləri üzrə 10 bank, 5 bank və 3 bankın ümumi bank sektorunda xüsusi çəkisinin ölçülməsi ilə müəyyən edilir. 2021-ci ilin statistik məlumatlarına görə 10 bankın aktivlərinin ümumi bank sektorunun aktivlərində xüsusi çəkisi 75.87 %, 5 bankın xüsusi çəkisi 64.56%, 3 bankın isə 55.68% təşkil edir. Bu göstəricilər kredit qoyuluşları üzrə müvafiq olaraq 70.16%, 56.29% və 44.28%, depozit portfeli üzrə 42.78%, 36.84% və 32.31% təşkil edir. Cədvəl məlumatlarından göründüyü kimi, bank sektorunda aktivlər, balans kapitalı və xalis mənfəət üzrə təmərküzləşmə digər göstəricilər - depozitlər, faiz və qeyri-faiz gəlir-xərcləri ilə müqayisədə daha yüksəkdir. Ancaq 2005-ci illə müqayisədə bank sektorunda təmərküzləşmə xeyli azalmışdır. Belə ki, aktivlər üzrə 10 bankın xüsusi çəkisi 2005-ci ildə 95%-dən çox olsa da, 2021-ci ildə 75,9%-dək azalmışdır. Bu əsasən Beynəlxalq Bankın aktivlərinin çox hissəsinin 2015-ci ildə Aqrar Kreditə ötürülməsilə olmuşdur. [4] Ancaq inkişaf etmiş ölkələrdə bank sektorunun təhlili göstərir ki, hazırda Azərbaycanda bankların təmərküzləşməsi həmin ölkələrlə müqayisədə nisbətən aşağıdır. Məsələn, statistik məlumatlara görə, Kanada, Fransa və Hollandiyada 3 bankın aktivlərinin xüsusi çəkisi 85%-dən yüksəkdir. Ancaq Yaponiya və ABŞ-da bank sektorunda təmərküzləşmə digər ölkələrlə müqayisədə çox aşağıdır. Belə ki, bu ölkələrdə 5 bankın aktivlərinin ümumi bank sektorunun aktivlərində xüsusi çəkisi müvafiq olaraq 44 və 46%-dir. (Cədvəl: 2)

Azərbaycan bank sisteminin əsas xüsusiyyətlərindən biri, adətən vahid filial bank növü olan, müəyyən ixtisaslaşma olan investisiya sahələrini maliyyələşdirmək və kommersiya bankçılığı adlanan qısamüddətli kredit sahəsində çalışmaqdır. Azərbaycan Respublikasında bankların əsas fəaliyyət sahəsi kreditlərin verilməsi ilə bağlıdır. Banklar ümumiyyətlə hökumətə və oxşar dövlət qurumlarına kredit xidmətləri göstərir. Bununla belə, kredit xidmətlərində mühüm çatışmazlıqları

qeyd etmək lazımdır: investisiya məqsədlərinə xidmət edən kreditlər ya mənfi, ya da kiçik bir paya malikdir. Ümumilikdə verilən kreditlərin 90%-dən çoxu qısamüddətli kreditlərdir.

**Cədvəl 2.**

**Azərbaycanda bank sektorunun təmərküzləşmə dərəcəsi (2021)**

| | 10 bankın xüsusi çəkisi (%-lə) | 5 bankın xüsusi çəkisi (%-lə) | 3 bankın xüsusi çəkisi (%-lə) |
|---|---|---|---|
| Aktivlər | 75,87 | 64,56 | 55,68 |
| Cəmi Kreditlər | 70,16 | 56,19 | 44,28 |
| Depozit Portfeli | 42,78 | 36,84 | 32,31 |
| Balans Kapitalı | 71,34 | 61,74 | 50,89 |
| Xalis Mənfəət | 72,19 | 70,25 | 65,92 |
| Faiz gəlirləri | 58,77 | 46,97 | 40,67 |
| Faiz xərcləri | 55,81 | 36,38 | 29,31 |
| Qeyri-faiz gəlirləri | 59,66 | 52,17 | 49,30 |
| Qeyri-faiz xərcləri | 53,09 | 41,23 | 35,22 |

*Mənbə: Cədvəl AMB, Azərbaycan Banklar Assosiasiyasının məlumatları əsasında müəllif tərəfindən hesablanıb.*

Bank sektoru Azərbaycanın maliyyə sektorunun mühüm elementidir. Bu gün banklar aktiv və kapitalın həcminə görə, regional əhatə dairəsinə görə digər maliyyə institutlarını dəfələrlə qabaqlayır. Azərbaycanda ikimərhələli bank sektoru mövcuddur. Birinci mərhələdə Azərbaycan Mərkəzi Bankı fəaliyyətini davam etdirir, ikinci mərhələdə isə dövlət bankları, kommersiya bankları və bank olmayan kredit təşkilatları fəaliyyət göstərir.

Məlumdur ki, banklar əhalidən əmanət cəlb edir və öz adından yerləşdirir. Buna görə də çağdaş dövrdə bankların əsas vəzifələrindən biri də bilavasitə əmanətçilərin mənafeyinə xidmət etməkdən ibarətdir. Bu məqsədlə Banklar əmanətçiləri əmanət siyasəti barədə ictimaiyyəti məlumatlandırır, maarifləndirir, ictimaiyyət arasında əmanət qoyuluşları və banklarla bağlı sorğuların keçirilməsi, eləcə də əhalinin əmanət-investisiya davranışlarının təhlili və qiymətləndirilməsi, bu sistemin səmərəliliyi baxımından mühüm işlər görürlər. Bu baxımdan, ölkədə bank sisteminin inkişafına və əhalinin bank sisteminə inamının qazanılması və daha da artırılması baxımından beynəlxalq təcrübədə olduğu kimi Azərbaycanda da Əmanətlərin sığortalanması Fondu yaradılmışdır(ƏSF). Beynəlxalq təcrübə göstərir ki, bütövlükdə, bank sistemində əmanətlərin qorunması mexanizmi ilə xüsusi ixtisaslaşmış qurumlar fəaliyyət göstərir. Belə qurumlar Azərbaycanda da yaradılmış və hal-hazırda da fəaliyyət göstərir. ƏSF beynəlxalq praktikaya uyğun olaraq sığorta hadisəsi baş vermiş bankın əmanətçilərinə kompensasiya məbləği ödəyir. Kompensasiyanın məbləği ölkədən ölkəyə fərqlidir. Əmanətlərin məbləğinin artırılması ölkənin iqtisadi inkişafında gələcək artım meyillərinin və makroiqtisadi tələblərin nəzərə alındığını göstərir. Digər tərəfdən, kompensasiya olunan əmanətlərin məbləğinin artırılması milli bank sisteminin beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə müsbət təsir göstərir. Cədvəl 3-dən göründüyü kimi, Azərbaycanda kompensasiya olunan məbləğin adambaşına düşən ÜDM-ə nisbəti göstəricisi əksər ölkələrdəki səviyyədən yüksəkdir ki, bu da müsbət amil kimi qiymətləndirilməlidir.

Azərbaycanda ƏSS-də əmanətlərin qorunmasının əsas meyarı illik faiz dərəcəsi əsasında müəyyən olunmasıdır. Belə ki, hər ilin əvvəlinə Fondun Himayəçilik Şurası Mərkəzi Bankla razılaşdırılmaqla qorunan əmanətlər üzrə faiz dərəcəsinin yuxarı həddini müəyyən edir və həmin faizdən yuxarı olan əmanətlər qorunmur. Başqa sözlə, Azərbaycanda qorunan əmanətlər 100 000 manatdır. Lakin, 12%-dən yuxarı olan əmanətlər isə qorunmur. Eyni zamanda xarici valyutada olan əmanətlər isə 100 000 manat ekvivalentində, lakin 2.5% dən çox olan əmanətlər qorunmur. Fikrimizcə, belə bir həddin qoyulması banklar arasında rəqabət mühitinin olmasının qarşısını almaqla bərabər,

Azərbaycanda əmanətçilərin sosial hüquqlarını məhdudlaşdırır. Belə vəziyyət banklarda əmanət cəlb etmək baxımından rəqabətin pozulmasına səbəb olur.

**Cədvəl 3.**

**2021-ci ildə kompensasiya olunan əmanət məbləğinin adambaşına düşən ÜDM-ə nisbəti**

| Ölkələr | Kompensasiya olunan məbləğ /Adambaşına düşən ÜDM | Adambaşına düşən ÜDM ABŞ dolları ilə |
|---|---|---|
| Azərbaycan | 12,5 | 4207 |
| Rusiya | 2,7 | 8694 |
| Qazaxıstan | 4,8 | 7019 |
| Belçika | 1,4 | 43533 |
| Finlandiya | 1,3 | 44492 |
| Almaniya | 1,5 | 40875 |

*Mənbə: Müəllif tərəfindən hesablanıb*

Digər tərəfdən isə əmanətçilər əmanət yerləşdirmək baxımından bank seçimində maraqlı olmurlar. Təcrübə göstərir ki, bununla bağlı məhdudiyyətin əmanətçilərin üzərinə deyil, bankların üzərinə qoyulması daha məqsədəuyğundur. Məsələn, faiz dərəcəsi ilə bağlı Qazaxıstanda da belə bir məhdudiyyət vardır. Lakin Qazaxıstanda belə məhdudiyyət bankların üzərinə qoyulmuşdur. İnkişaf etmiş ölkələrdə isə qorunan əmanətlər yalnız məbləğlə müəyyən edilir.

### *Nəticə*

Azərbaycanda bank sektorunun istər statistik və istərsə də riyazi hesablamaları onu deməyə əsas verir ki, ilk növbədə bu sektorda rəqabətin təmini və daha da inkişaf etdirilməsi üçün potensial imkanlar var. Belə ki, hesablamalar göstərir ki, konsentrasiya səviyyəsi üzrə ən yüksək dəyər Azərbaycan Beynəlxalq Bankındadır. Lakin bu bankda belə aktivlər üzrə konsentrasiya səviyyəsi 1000 belə deyil. Eyni zamanda, Aktivlər üzrə 3 iri bankın təmərküzləşmə həddi 56%, 5 bankın 65% və 10 bank üzrə isə 76%-dir. Bank sektorunun inkişafı ilə bağlı başqa bir məqam isə səmərəlilik göstəriciləri ilə bağlıdır. Belə ki, 2021-ci ildə banklar üzrə gəlirlik marjası 2005-ci illə müqayisədə 2.25% azalmışdır ki, bu da bir tərəfdən banklar arasında rəqabətin artmasını göstərir. Bu baxımdan ən zəruri məsələ bankların baş verə biləcək risklərə qarşı dayanıqlığının artırılmasıdır. Bunun üçün, bankların qeyri-faiz gəlirlərinin artırılması, banklara qarşı prudensial tələblərin artırılması və rəqabət mühitinin genişləndirilməsi önəmli məsələlərdən biridir.

### ƏDƏBİYYAT

1. PARASIZ, İlker, Modern Bankacılık Teori ve Uygulama, İstanbul, 2000
2. SİMPSON, Carolyn, Choosing a Career in Banking and Finance, New York, 1999
3. https://aba.az/banklar/renkinql%c9%99r/
4. https://abb-bank.az/az/haqqimizda/melumatlarin-aciqlanmasi
5. https://www.cbar.az/page-41/macroeconomic-indicators

***Гасан Вугар оглы Ганбаров***
***докторант Института Экономики,***
***Министерства Науки и Образования Азербайджана***
***E-mail: hasan.ganbarov@hotmail.com***

### Показатели развития банковского сектора Азербайджана

***Резюме***

**Целью исследования** - оценка показателей развития банковского сектора Азербайджана. В результате исследования планируется проанализировать показатели развития банков-

ского сектора Азербайджана на основе статистических данных, а также определить механизмы управления конкурентоспособностью банковского сектора Азербайджана.

**Методология исследования** – в ходе исследования использовались такие методы, как систематический анализ, аналитические процедуры и сравнительная оценка.

**Прикладная значимость исследования** – в результате анализа сделан вывод, что существует связь между финансовым развитием и экономическим ростом, и эта связь - от финансового развития к экономическому росту. Быстрый рост ВВП и объема экспорта в Азербайджане, улучшение социального положения населения и увеличение номинальных доходов населения оказали серьезное влияние на развитие банковского сектора.

**Результаты исследования** - в результате исследования было установлено, что в последние годы в Азербайджане наблюдается улучшение показателей эффективности банковского сектора. Однако одним из основных вопросов является увеличение непроцентных доходов и повышение степени соблюдения банками пруденциальных нормативов.

**Оригинальность и научная новизна исследования** – рассчитаны показатели эффективности банковского сектора Азербайджана, степень концентрации и проведено сравнение отношения суммы возмещаемых депозитов к ВВП на душу населения с рядом стран.

***Ключевые слова: банковский сектор, экономическое развитие, депозиты, денежно-кредитная политика, кредит.***

***Hasan Vugar Ganbarov***
***Doctoral student of the Institute of Economics***
***of the Ministry of Science and Education of Azerbaijan***
***E-mail: hasan.ganbarov@hotmail.com***

**Development indicators of the banking sector in Azerbaijan**

***Summary***

**The purpose** - of the study is to assess the development indicators of the banking sector in Azerbaijan. As a result of the research, it is planned to analyze the development indicators of the banking sector in Azerbaijan based on statistical data, as well as to determine the mechanisms of managing the competitiveness of the banking sector of Azerbaijan.

**Methodology of the research -** methods such as systematic analysis, analytical procedures, and comparative evaluation were used during the research.

**Applied significanse of the study** - as a result of the analysis, it was concluded that there is a relationship between financial development and economic growth, and this relationship is from financial development to economic growth. Rapid growth of GDP and export volume in Azerbaijan, improvement of the social condition of the people and increase of the nominal income of the population had a serious impact on the development of the banking sector.

**The results of the study** - as a result of the study, it was determined that there has been an improvement in the efficiency indicators of the banking sector in Azerbaijan in recent years. However, one of the main issues is increasing non-interest income and increasing banks' compliance with prudential regulations.

**The originality and scientific novelty of the research -** the efficiency indicators of the banking sector of Azerbaijan, the degree of concentration were calculated and the ratio of the compensated deposit amount to GDP per capita was compared with a number of countries.

***Key words: banking sector, economic development, deposits, monetary policy, credit.***

**UOT 336**

***Rauf Qədir oglu MUSTAFAYEV***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant***
***raufmustafayev29@gmail.com***

***Elmi rəhbər: dosent Əsgər İmaməli oğlu ƏLİYEV***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***aliyevasgar1949@gmailşcom***

# BEYNƏLXALQ QİYMƏTLƏNDİRMƏ STANDARTLARI

***Xülasə***

**Tədqiqatın məqsədi** - qiymətləndirmənin beynəlxalq qiymətləndirmə standartlarına uyğun həyata keçirilməsi üçün qərəzsizlik, qiymətləndirmə, səriştə və standartlardan ağlabatan kənarlaşma baxımından ümumi etik prinsiplər müəyyən edilmişdir. Bu baxımdan, qiymətləndirmə standartlarının ümumi çərçivəsi beynəlxalq audit standartlarında olan etik prinsiplərə uyğundur. Tədqiqatın məqsədi beynəlxalq qiymətləndirmə standartlarında olan etik prinsipləri müzakirə edərək və beynəlxalq audit standartlarında olan etik prinsiplərlə müqayisəli təhlil aparmaqla, beynəlxalq qiymətləndirmə standartlarının rolu və əhəmiyyətini müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - tədqiqatda statistik, iqtisadi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Azərbaycanın milli qiymətləndirmə standartları ilə bağlı nəzəri-konseptual və praktiki baxışların formalaşmasıdır. Əldə edilmiş nəticələrdən milli qiymətləndirmə standartlarının müəyyənləşdirilməsi zamanı istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – araşdırma göstərir ki, beynəlxalq qiymətləndirmə standartlarında və beynəlxalq audit standartlarında etik prinsiplərin tədqiqi nəticəsində iki standart əhatə dairəsinə görə oxşar prinsipləri ehtiva edir. Digər tərəfdən, beynəlxalq qiymətləndirmə standartları audit standartları ilə müqayisədə etik prinsiplərin tətbiqi ilə bağlı daha aydın və məhdudlaşdırıcı qaydaları ehtiva edir. Lakin qeyd olunan qaydaların icra nəzarətinin həmkarlar ittifaqlarına həvalə edilməsi qiymətləndirmə qaydalarının sanksiya gücünü zəiflədir. Beynəlxalq audit standartları isə standartlara uyğunluğun auditi baxımından daha güclü struktura malikdir, lakin prinsip və qaydaların müəyyən edilməsi və həyata keçirilməsinə qoyulan məhdudiyyətlər baxımından daha yumşaq bir yanaşma tətbiq etmişdir. Audit standartlarında prinsip və qaydalarda kəskin məhdudiyyətlər yoxdur və bu məsələ ilə bağlı qərarı auditorlar qəbul edir. Bunu qurumların peşəkar qiymətləndirməsinə və mühakiməsinə buraxmaq daha yaxşıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** tədqiqatda beynəlxalq qiymətləndirmə standartlarında və beynəlxalq audit standartlarında etik prinsiplər təhlil edilir və qiymətləndirmə qaydalarının sanksiya gücünün zəifləməsi aşkar edilir. Beynəlxalq audit standartlarında auditorların peşəkar qiymətləndirmə və mühakiməsinə buraxılması təklifi irəli sürülür.

***Açar sözlər: beynəlxalq qiymətləndirmə standartları, qiymətləndirmə, beynəlxalq audit standartları, etik prinsiplər.***

## *Giriş*

Qiymətləndirmə hər hansı bir aktivin dəyərinin qiymətləndirilməsi və müəyyən edilməsi, aktivin dəyərinin pul ifadəsində ifadə edilməsi prosesidir. Aktivlərin qiymətləndirilməsi keçmişdən bu günə qədər mühasibat uçotu və maliyyə elmində ən mühüm mövzulardan biri olmuşdur. Bazar iştirakçılarının aktivlərin dəyərini dəqiq, qərəzsiz və həqiqətə uyğun müəyyən etməsi çox vacib məsələdir.

Qiymətləndirmə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi alətlərindən biri də qiymətləndirmə standartlarıdır. Bu standartlar sifarişçilərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilmə-

sində, qiymətləndirmə prosedurlarının sadələşdirilməsində, qiymətləndirmə ilə əlaqədar anlayışların, hüquqi-normativ sənədlərin müddəalarının birmənalı təfsirində, mümkün mübahisələrin qarşısının alınmasında böyük rol oynayırlar. Hazırda Azərbaycanın əmlak bazarında beynəlxalq və milli qiymətləndirmə standartlarından istifadə olunmaqdadır [2].

**Beynəlxalq Qiymətləndirmə Standartları**

Beynəlxalq Qiymətləndirmə Standartları Şurası (IVSC) peşəkar qiymətləndiricilərin irəliləyişinə sadiq olan müstəqil, qeyri-kommersiya təşkilatıdır.

Bizim əsas məqsədimiz standartların işlənib hazırlanması və onların universal qəbul edilməsini və bütün dünyada aktivlərin qiymətləndirilməsində praktik tətbiqini təmin etməklə qiymətləndirməyə ictimai inam yaratmaqdır. Beynəlxalq Qiymətləndirmə Standartları (IVS) onlardan istifadədə yüksək peşəkarlıqla yanaşı, maliyyə sisteminin vacib hissəsidir.

Qiymətləndirmələr maliyyə və digər bazarlarda maliyyə hesabatlarına, normativlərə uyğunluğa və ya ipoteka kreditləşməsinə və əmlak əməliyyatlarına daxil olmaq üçün geniş istifadə olunur. Beynəlxalq Qiymətləndirmə Standartları (IVS) qiymətləndirmə təcrübəsində şəffaflığı və ardıcıllığı təşviq edən ümumi qəbul edilmiş konsepsiya və prinsiplərdən istifadə etməklə qiymətləndirmə tapşırıqlarının yerinə yetirilməsi üçün standartlardır. BSSC həmçinin peşəkar qiymətləndiricilərin fəaliyyətinə və ixtisaslarına əsas praktik yanaşmaların formalaşmasına öz töhfəsini verir.

ISSC Standartlar Komitəsi ISSC-ni birbaşa inkişaf etdirən orqandır. ISSC Standartlar Komitəsi nəşrlərinin işlənib hazırlanması və təsdiq edilməsində muxtariyyətə malikdir.

Standartlar Komitəsi IVS-nin hazırlanması prosesində:

- maraqlı tərəflərlə (qiymətləndiricilər, qiymətləndirmə xidmətlərinin istifadəçiləri, tənzimləyicilər, peşəkar qiymətləndirmə təşkilatları və s.) məsləhətləşmələr və bütün yeni standartların və ya mövcud standartlara əhəmiyyətli dəyişikliklər haqqında məlumatın açıqlanması daxil olmaqla, hər hansı yeni standartın hazırlanması üçün müəyyən edilmiş prosedura və ya prosesə riayət edir, maliyyə bazarlarında qiymətləndirmə sahəsində digər standartlaşdırma orqanları ilə qarşılıqlı əlaqədə olur, maraqlı tərəflərlə dəyirmi masalar və konkret istifadəçilər və ya istifadəçi qrupları ilə məqsədyönlü müzakirələr də daxil olmaqla, informasiya fəaliyyətini həyata keçirir.

IVS-nin məqsədi şəffaf və ardıcıl qiymətləndirmə təcrübələrini gücləndirməklə qiymətləndirmə xidmətlərindən istifadə edənlərin etibarını artırmaqdır. Hər bir qiymətləndirmə standartı aşağıdakı məqsədlərdən birinə və ya bir neçəsinə cavab verir:

- beynəlxalq səviyyədə tanınmış prinsip və tərifləri müəyyənləşdirir və ya təkmilləşdirir;
- qiymətləndirmə tapşırıqlarının yerinə yetirilməsi və qiymətləndirmə hesabatlarının hazırlanması üçün ümumi prinsipləri müəyyən edir və yayır;
- nəzərə alınmalı olan xüsusi mülahizələri və müxtəlif növ aktiv və ya öhdəlikləri qiymətləndirmək üçün adətən istifadə olunan metodları müəyyən edir.

Standartların bəzi bölmələri hər hansı konkret fəaliyyət istiqamətini göstərmir və ya diqqət yetirmir, lakin onlar qiymətləndirmə apararkən nəzərə alınmalı olan fundamental prinsipləri və konsepsiyaları təqdim edirlər.

Beynəlxalq Qiymətləndirmə Standartları Çərçivəsinə əsasən, Beynəlxalq Qiymətləndirmə Standartlarına uyğun olaraq qiymətləndirmə aparmaq üçün aşağıdakı ümumi etik prinsiplər tətbiq edilməlidir.

- Qərəzsizlik;
- Bacarıq;
- Standartlardan ağlabatan kənarlaşmalar.

Beynəlxalq Qiymətləndirmə Standartları Şurası qiymətləndirmə peşəsinin keyfiyyətinin yaxşılaşdırılmasına həsr olunmuş müstəqil, qeyri-kommersiya təşkilatıdır. Qiymətləndirmələr həm maliyyə, həm də digər bazarlarda istifadə olunur və maliyyə hesabatlarının hazırlanması, qaydalara riayət edilməsi və ya təminatlı borcların və əməliyyatların effektivliyinin dəstəklənməsi üçün əsas hesab olunur.

Beynəlxalq Qiymətləndirmə Standartları praktikada şəffaflığın və ardıcıllığın artırılmasına xidmət edən ümumi qəbul edilmiş konsepsiya və prinsiplər çərçivəsində qiymətləndirmə tapşırığının yerinə yetirilməsini təmin edən standartlardır. Beynəlxalq Qiymətləndirmə Standartları Şurası həmçinin qiymətləndiricilərin davranışı və səriştələrinə praktiki yanaşmalar hazırlayır.

Beynəlxalq Qiymətləndirmə Standartlarının məqsədi şəffaf və ardıcıl qiymətləndirmə prosedurlarını təmin etməklə istifadəçilərin qiymətləndirmə xidmətlərinə inamını artırmaqdır. Standart aşağıdakılardan ən azı birinə xidmət etməlidir:

- Qlobal miqyasda qəbul ediləcək prinsip və tərifləri müəyyən etmək və ya inkişaf etdirmək;
- Qiymətləndirmə araşdırmalarının və qiymətləndirmələrin hesabat prosedurlarının müəyyən edilməsi və rəsmi elan edilməsi;
- Nəzərdən keçirilməsini tələb edən xüsusi məsələlərin və müxtəlif növ aktiv və ya öhdəliklərin qiymətləndirilməsində istifadə olunacaq metodların müəyyən edilməsi.

Beynəlxalq Qiymətləndirmə Standartları qiymətləndirmənin standartlara uyğun aparıldığını göstərmək üçün riayət edilməli olan məcburi şərtləri ehtiva edir. Standartlar bəzi aspektlərdə müəyyən fəaliyyət kursunu nəzərdə tutmasa və ya tələb etməsə də, qiymətləndirmə tapşırığını yerinə yetirərkən nəzərə alınmalı olan əsas prinsipləri və anlayışları təmin edir.

Beynəlxalq Qiymətləndirmə Standartları aşağıdakı kimi təşkil edilmişdir:

**Beynəlxalq Qiymətləndirmə Standartları Çərçivəsi**

Bu çərçivə Beynəlxalq Qiymətləndirmə Standartlarına giriş sözü kimi xidmət edir. Beynəlxalq Qiymətləndirmə Standartları Çərçivəsi qərəzsizlik, qiymətləndirmə, səriştə və Beynəlxalq Qiymətləndirmə Standartlarına uyğun olan qiymətləndiricilər üçün standartlardan ağlabatan kənarlaşmalar üçün ümumi prinsipləri ehtiva edir.

**Beynəlxalq Qiymətləndirmə Standartları - Ümumi Standartlar**

Standartlar bütün qiymətləndirmə işlərinin aparılması şərtlərini, o cümlədən qiymətləndirmə işlərini, dəyərin əsaslarını, qiymətləndirmə yanaşmaları və üsullarını və hesabatları müəyyən edir. Standartlar qiymətləndirmələrin bütün aktiv növlərinə və bütün qiymətləndirmə məqsədləri üçün tətbiq oluna biləcəyini təmin etmək üçün hazırlanmışdır.

**Beynəlxalq Qiymətləndirmə Standartları - Aktiv Standartlar**

Aktiv standartlarına müəyyən aktiv növlərinə aid olan tələblər daxildir. Müəyyən bir növ aktivin qiymətləndirilməsi zamanı bu tələblərə ümumi standartlarla yanaşı riayət edilməlidir. Aktiv standartlara onların dəyərinə təsir edən hər bir aktiv növünün xüsusiyyətləri haqqında zəruri ümumi məlumat, habelə xüsusi aktivlərlə bağlı və onlara tətbiq edilən ümumi yanaşmalar və qiymətləndirmə üsulları ilə bağlı tələblər daxildir.

Bu Kodeks nə haqqındadır?

Bu Dəstə daxildir: MHBS Prinsipləri, MHBS Ümumi Standartları və MHBS üzrə Komitə tərəfindən 15 dekabr 2016-cı ildə təsdiq edilmiş 1 iyul 2017-ci il tarixindən qüvvəyə minən MHBS Aktiv Standartları. Bu standartların erkən tətbiqinə icazə verilir.

İstinad edilmiş standartlara gələcək dəyişikliklər ISSC Standartlar Komitəsi ISSC-ləri müntəzəm olaraq nəzərdən keçirməyi və maraqlı tərəflərin və bazar ehtiyaclarını ödəmək üçün standartları yeniləməyi və ya təkmilləşdirməyi planlaşdırır. Komitə bu məcəllədə təqdim olunan əlavə standartların və ya standartlara düzəlişlərin tətbiqi ilə nəticələnə biləcək layihələri həyata keçirməyə davam edir.

Beynəlxalq qiymətləndirmə stanadartları haqqında bəzi məlumatları nəzərdən keçirək. Bu standartlar Beynəlxalq Qiymətləndirmə Standartları üzrə Beynəlxalq Komitə (İnternational Valuation Standarts Committee - İVSC) tərəfindən hazırlanır. Təşkilat 1981-ci ildə Kral İnstitutu (Böyük Britaniya) tərəfindən sertifikat verilmiş qiymətləndiricilərin təşəbbüsü ilə yaradılmışdır. Həmin təşkilat 50-dən çox ölkənin peşəkar qiymətləndiricilər birliklərini birləşdirir. Azərbaycan Respublikasını təşkilatda Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti təmsil edir.

Komitənin başlıca vəzifələri mühasibat uçotu və digər maliyyə hesabatlarında istifadə üçün dürüst ifadə olunmuş standartların və praktiki tövsiyələrin hazırlanması, onların ölkələrdə və milli

təşkilatlarda yayılması, qəbul və tətbiq edilməsinə kömək göstərilməsindən ibarətdir. Komitənin fəaliyyət dairəsinə həmçinin ayrı-ayrı dövlətlərdən və təşkilatlardan daxil olmuş rəy və təkliflər əsasında standartlara düzəlişlər edilməsi, standartların şərhi, qruplaşdırılması və tətbiqi sahəsində meydana çıxan ziddiyyətli məqamların aşkar edilməsi ilə bağlı məsələlərin həlli də daxildir.

Qeyd olunmalıdır ki, təşkilatın hazırladığı qiymətləndirmə standartları və normaları tövsiyə xarakteri daşıyır və məhz buna görə də, onun qarşısında duran başlıca vəzifə müxtəlif ölkələrin milli qiymətləndirmə standartlarını əlaqələndirmək və mümkün qədər yaxınlaşdırmaqdır. Bu standartlar siyasi sərhədlərdən asılı olmayan, bazar iqtisadiyyatı prinsiplərini əks etdirən vahid möhkəm özülə əsaslanır.

Səciyyəvidir ki, beynəlxalq qiymətləndirmə standartları zamanın tələblərinə uyğun olaraq daim təkmilləşdirilir. Belə ki, 1 iyul 2000-ci ildə İVSC Beynəlxalq Qiymətləndirmə Standartlarının həcmcə əvvəlki standartlardan 2 dəfə böyük olan yeni redaksiyasını (BQS-2000), 26 iyun 2001-ci ildə isə həmin standartların müddəalarını daha da inkişaf etdirən və aydınlaşdıran, qiymətləndirmə xidmətləri sahəsində baş verən dəyişiklikləri nəzərə alan yeni redaksiyanı - BQS-2001 qəbul etmişdir. BQS-2001-ə əmlakın maliyyə hesabatlarının tərtibi məqsədilə qiymətləndirilməsi üzrə tövsiyələr də əlavə olunmuşdur.

Beynəlxalq Qiymətləndirmə Standartları qiymətləndirmənin ümumi anlayışlarını və prinsiplərini ifadə edən giriş hissəsindən, bazar dəyərinin müəyyənləşdirilməsinə həsr olunmuş I bölmədən və bazar dəyərindən fərqli, qiymətləndirmə bazası kimi qəbul olunan, digər dəyər növlərini əks etdirən II bölmədən ibarətdir.

BQS-2001-ə standartların tətbiq olunmasına dair 2 tövsiyə daxil edilmişdir. Birinci tövsiyədə qiymətləndirmə standartlarından maliyyə hesabatlarının tərtibi üçün istifadə olunmasının xüsusiyyətləri, ikincidə isə, onlardan girov əsasında kredit verilməsi məqsədi üçün istifadənin xüsusiyyətləri nəzərdən keçirilir.

BQS-2001-ə daşınmaz əmlakın icarə hüquqlarının, maşın və avadanlığın, qeyri-maddi aktivlərin, biznesin qiymətləndirilməsi, habelə qiymətləndirmə zamanı ətraf mühitin zərərli maddələrlə çirkləndirilməsinin nəzərə alınması məsələlərinə dair 7 metodiki göstəriş də daxil edilmişdir.

Beynəlxalq Qiymətləndirmə Standartlarının şərhində inkişaf etməkdə olan əmlak bazarında qiymətləndirmənin aparılması xüsusiyyətləri, ictimai (dövlət) bölməsinin aktivlərinin qiymətləndirilməsinin fərqli cəhətləri, habelə aktivlərin Bank Nəzarəti üzrə Bazel Komitəsinin (Basel Committee of Banking Supervision) tələblərinə uyğun qiymətləndirilməsi məsələlərinə baxılır. Standart istifadə olunan anlayışların açıqlanması verilən lüğətlə təchiz edilmişdir.

IVSC-nin qiymətləndirmə standartlarının hazırlanması sahəsində uzunmüddətli fəaliyyəti beynəlxalq səviyyədə standartlaşmanın milli standartların yaradılması prosesindən xeyli fərqlənməsi barədə nəticə çıxarmağa əsas verir.

Milli qiymətləndirmə standartlarında ölkənin daxili siyasəti və praktiki fəaliyyətin təşəkkül tapmış prinsipləri, ölkənin sosial-iqtisadi məqsədləri, milli adət və ənənələr, dil xüsusiyyətləri öz əksini tapır.

Milli qiymətləndirmə standartlarını onların işlənilməsi və tətbiqi sahəsində geniş təcrübəyə malik olan bir neçə xarici ölkənin timsalında nəzərdən keçirmək olar. Belə ölkələrə əsasən ABŞ, Avropa ölkələri və Rusiya Federasiyası aid edilir [8].

**ABŞ-ın qiymətləndirmə standartları**

ABŞ-da qiymətləndirmə fəaliyyətinin tənzimlənməsi ilə məşgul olan ictimai təşkilat qiymətləndiricilərin aparıcı qurumları (Qiymətləndirmə İnstitutu, Amerika Qiymətləndiricilər Cəmiyyəti, Qiymətləndirmə Magistrlərinin Milli Assosiasiyası) tərəfindən 1987-ci ildə yaradılmış və indiyə qədər fəaliyyət göstərən Qiymətləndirmə Fondudur. Hazırda 50-dən çox təşkilat həmin Fondun sponsoru, yaxud Məşvərət Şurasının üzvüdür.

Fond peşəkar qiymətləndiricilər birliklərinin (təşkilatlarının) təmsil olunduğu Mürəbbilər Şurası tərəfindən idarə olunur. Bu qurum Qiymətləndirmə Standartları üzrə Şuranın və Qiymətləndiricilərin İxtisas Səviyyəsi üzrə Şuranın üzvlərini təyin edir, fondun fəaliyyətinin maliyyə təminatı

məsələləri ilə məşğul olur.

ABŞ qiymətləndiricilərinin mütləq qaydada riayət etdikləri Peşəkar Qiymətləndirmə Fəaliyyətinin Vahid Standartları (PQFVS) Qiymətləndirmə Standartları üzrə Şura tərəfindən hazırlanmış və təsdiq olunmuşdur. Şuranın tərkibi 5 nəfər yüksək ixtisaslı qiymətləndiricidən ibarətdir. Qiymətləndirmə Standartlarında təklif olunan əlavələr və dəyişikliklər bu qurumun ayda bir dəfə keçirilən iclaslarında açıq müzakirəyə çıxarılır və təsdiq olunur [16].

Şuranın fəaliyyətinə Qiymətləndirmə Fondunun nəzdində yaradılan, qiymətləndirmə xidmətlərindən istifadə edən 32 təşkilatın və hökumət agentliklərinin təmsil olunduğu Məşvərət Şurası tərəfindən nəzarət olunur.

PQFVS-də qiymətləndirmə apararkən, qiymətləndirmə haqqında hesabatları yoxlayarkən, məsləhət xidmətlərini göstərən zaman qiymətləndiricilərin riayət etməli olduğu şərtlər, qiymətləndirmənin aparılması, yoxlamaların keçirilməsi və məsləhət xidmətlərinin göstərilməsi üsulları öz əksini tapmışdır.

- Standart 1 və 2 qiymətləndirmə prosesini və daşınmaz əmlakın qiymətləndirilməsi barədə hesabatın tərtibi proseslərini tənzimləyir;
- Standart 3 qiymətləndirmənin aparılması barədə hesabatların yoxlanılması normalarını və onların əsasında hesabatların tərtibi qaydalarını müəyyənləşdirir;
- Standart 4 və 5 qiymətləndiricinin daşınmaz əmlakın qiymətləndirilməsi üzrə məsləhət fəaliyyətinin inkişafına və ümumiləşdirilməsinə yönəldilmişdir;
- Standart 6 daşınmaz və daşınar əmlakın vergitutma məqsədləri üçün kütləvi qiymətləndirilməsi üzrə işlərin aparılması və nəticələrinin elan olunması meyarlarını açıqlayır;
- Standart 7 və 8 şəxsi əmlakın; Standart 9 və 10 biznesin qiymətləndirilməsinin inkişafı və ümumiləşdirilməsi normalarını müəyyənləşdirir.

Göstərilən standartlara izahedici şərhlər və əlavələr edilmişdir. Bu şərhlərdə qiymətləndirmə standartları ilə bağlı olan qaydaların, əsasnamələrin, qərarların Qiymətləndirmə Standartları üzrə Komissiya (ASB) tərəfindən təfsiri əks olunmuşdur.

Qiymətləndirmə fəaliyyətinin ən mühüm tələblərindən biri qiymətləndiricinin etik öhdəliklər qəbul etməsidir. Buna görə də, Standartlara 4 bölmədən (davranış, menecment, konfidensiallıq, hesabatın aparılması) ibarət olan, qiymətləndiricidən obyektivlik, fikir sərbəstliyi, etik normalara uyğun davranış tələb edən “Etika haqqında Əsasnamə”, həmçinin qiymətləndiricinin verdiyi rəyə görə birbaşa məsuliyyətini müəyyənləşdirən “Səriştəlilik haqqında Əsasnamə” və müəyyən məhdud şərtlər daxilində yol verilə bilən kənarlaşmaları müəyyənləşdirən “Kənarlaşmalar haqqında Əsasnamə” daxil edilmişdir.

**Avropa ölkələrinin qiymətləndirmə standartları**

Əsas Fondların Qiymətləndiricilərinin Avropa Qrupu (TEGOVO) Qərbi Avropa ölkələri qiymətləndiricilərinin milli təşkilatlarının assosiasiyası kimi 1977-ci ildə yaradılmışdır. EVROVAL təşkilatı ilə birləşdikdən sonra bu təşkilat “Qiymətləndiricilər Assosiasiyalarının Avropa Qrupu” (The European Group of Valuers Assosiations - TEGOVA) adlanır. Təşkilatın yaradılmasının başlıca məqsədlərindən biri Avropa Birliyi ölkələrində ümumi qiymətləndirmə standartlarını işləyib hazırlamaqdır. TEGOVA Qiymətləndirmə Standartları üzrə Beynəlxalq Komitə ilə sıx əməkdaşlıq edir [17].

Avropa Qiymətləndirmə Standartlarının əsas xüsusiyyətlərindən biri Avropa ölkələrinin qanunvericiliyinə uyğun olan mühasibat hesabatlarının tərtibi üçün yerinə yetirilən qiymətləndirməyə istinad etməsidir. Eyni zamanda, bu standartların qiymətləndirmənin digər məqsədlərinə də şamil olunmasının mümkünlüyü göstərilir. Həmin standartlar təşkilat üzvləri üçün tövsiyə xarakterlidir və qiymətləndirmənin yerinə yetirilməsi üçün istiqamət göstəricisi rolunu oynayır.

Avropa Qiymətləndirmə Standartlarının (“Mavi kitab” adlandırılır) sonuncu redaksiyası 2000-ci ildə qəbul olunmuşdur. Bu sənəd 9 standartdan və 13 metodiki tövsiyədən ibarətdir.

Standart 1, 2 və 3-də göstərilən standartların Beynəlxalq Qiymətləndirmə Standartlarına uyğunluğu, qiymətləndiricinin ixtisası, səviyyəsi və peşə etikası ilə bağlı məsələlər nəzərdən keçirilir.

Standart 4-də qiymətləndirmənin əsas prinsipləri və qiymətləndirmə haqqında hesabatın tərtib olunmasına əsas yanaşmalar müəyyənləşdirilir. Bu standartda qiymətləndirmənin əsas məqsədləri; qiymətləndirmə bazasının seçilməsi qaydaları, bazar dəyəri, icarə hüquqlarının bazar dəyəri, Avropa İttifaqının qanunvericiliyinə uyğun olan bazar dəyəri, ədalətli dəyər, mövcud istifadənin dəyəri, alternativ istifadənin dəyəri, köhnəlmə nəzərə alınmaqla əvəzolunma dəyəri anlayışları göstərilmişdir.

Standart 5 maliyyə hesabatlarının tərtibi üçün əmlakın qiymətləndirilməsi məsələlərinə həsr olunmuşdur. Burada aktivlərin təsnifatı və onun əsasında seçilən qiymətləndirmə bazası, qiymətləndirmənin metodologiyası məsələlərinə, habelə torpağın, binaların, xüsusiləşdirilmiş obyektlərin qiymətləndirilməsinin fərqli məqamlarına baxılır.

Standart 6 daşınmaz və daşınar əmlakın girov məqsədləri, habelə ipoteka kreditləşməsi üçün qiymətləndirilməsi haqqındadır. Bu standartda girov dəyəri, öhdəliklərin xüsusi dəyəri anlayışları izah olunur, qiymətləndirici qarşısında müstəqillik, məsuliyyətlilik, xüsusi biliklərin olması tələbləri qoyulur. Standartda qiymətləndirmə prosesində zərərli maddələrin mövcudluğunun, əmlakın məcburən satılması amillərinin, obyektdən alternativ istifadənin mümkünlüyünün nəzərə alınması zəruriliyi göstərilir.

Standart 7 əmlakın gələcək dövrdə ehtimal edilən dəyərinin müəyyən edilməsi ilə əlaqədardır. Bu standartda investisiya dəyəri anlayışı açıqlanır.

Standart 8 investisiya və sığorta şirkətlərinin, pensiya fondlarının qiymətli kağızlarına investisiya qoyuluşları məsələsi barədədir. Standartda bazar dəyərinin Avropa İttifaqının direktivlərinə uyğun olaraq müəyyənləşdirilməsi, habelə qiymətləndirmə metodologiyası, qiymətləndiricinin ixtisas səviyyəsi ilə bağlı məsələlərə aydınlıq gətirilir.

Standart 9 qiymətləndirmənin nəticələrinin təqdimatı, qiymətləndirmə sertifikatının formaları məsələlərini izah edir.

Nəzərdən keçirdiyimiz sənədə 13 metodoloji tövsiyə də daxil edilmişdir ki, bunlara dəyərə təsir göstərən amillər; xüsusiləşdirilmiş obyektlərin qiymətləndirilməsi; maşın və avadanlığın qiymətləndirilməsi; investisiyalar üçün nəzərdə tutulan aktivlərin qiymətləndirilməsi; kənd təsərrüfatı obyektlərinin qiymətləndirilməsi; tarixi obyektlərin qiymətləndirilməsi; biznesin qiymətləndirilməsi; qeyri-maddi aktivlərin qiymətləndirilməsi; daşınmaz əmlak indekslərinin qiymətləndirilməsi; beynəlxalq qiymətləndirmələr; müştərək müəssisələrin və məhdud məsuliyyətli cəmiyyətlərin qiymətləndirilməsi; dəyərin torpaq və tikililər arasında bölgüsü; müxtəlif ölkələrdə qiymətləndirmənin xüsusiyyətləri.

Avropa qiymətləndirmə standartlarına qiymətləndiricilərin sertifikatlaşdırılması, qiymətləndirmə haqqında hesabata rəy verilməsi, qiymətləndiricinin etikası məsələlərinə dair əlavələr daxil edilmişdir.

**Rusiya Federasiyasının qiymətləndirmə standartları**

Rusiya Federasiyasının qiymətləndirmə standartlarının hüquqi əsasları "Standartlaşdırma haqqında" Federal Qanunla müəyyənləşdirilmişdir. Bu qanuna müvafiq olaraq, qiymətləndirmə fəaliyyəti sahəsində standartlaşdırma sisteminin əsas vəzifələri aşağıdakılardır:

- əmlakın qiymətləndirilməsi prosesinin bütün iştirakçıları arasında qarşılıqlı anlaşmanın və əlaqənin təmin olunması;
- qiymətləndirmə xidmətlərinin göstərilməsi üçün normativ bazanın formalaşdırılması;
- qiymətləndirmə metodlarına, qiymətləndirmə barədə hesabatların məzmunu və formasına vahid tələblərin qoyulması;
- qiymətləndirmə üçün istifadə olunan texniki-iqtisadi informasiyanın təsnifləşdirilməsi və kodlaşdırılması sisteminin yaradılması və tətbiqi;
- anlayışların, qiymətləndirmə xidmətlərinin təsnifatının, qiymətləndirmə metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması;
- standartlaşdırma vasitələri və metodlarının köməyi ilə Rusiya Federasiyasının qanunvericiliyinə əməl olunmasına təsir göstərilməsi [11,12].

"Qiymətləndirmə fəaliyyəti subyektləri tərəfindən məcburi qaydada tətbiq olunan qiymətləndirmə standartları" Rusiya Federasiyası Hökumətinin 6 iyul 2001-ci il tarixli 519 saylı qərarı ilə təsdiq edilmişdir. Göstərilən standartlarda qiymətləndirmə obyektinin dəyərinin əsas növlərinin açıqlanması, qiymətləndirməyə yanaşmalar və qiymətləndirmə metodları müəyyənləşdirilir. Burada həmçinin qiymətləndirilən obyektin bazar dəyərindən fərqlənən dəyər növlərinin də izahı verilir.

Bu növlərə aşağıdakılar aid olunmuşdur:

- satış bazarları məhdud olan qiymətləndirmə obyektinin dəyəri;
- qiymətləndirilən obyektin əvəzolunma dəyəri;
- qiymətləndirilən obyektin bərpa dəyəri;
- mövcud istifadə davam etdirildikdə obyektin dəyəri;
- qiymətləndirilən obyektin investisiya dəyəri;
- obyektin vergitutma məqsədləri üçün dəyəri;
- qiymətləndirilən obyektin utilləşdirilmə dəyəri;
- qiymətləndirilən obyektin likvid dəyəri.

Standartlarda qiymətləndirməyə xərc, müqayisə və gəlirlilik mövqelərindən yanaşmanın izahı verilməklə bərabər, qiymətləndiricinin bu yanaşmalar çərçivəsində qiymətləndirmə metodlarını sərbəst seçmək hüququ təsbit olunmuşdur.

Standartların üçüncü bölməsində qiymətləndirmənin keçirilməsinə əsas tələblər, onun mərhələləri, məlumatların toplanması və işlənməsi qaydaları müəyyənləşdirilir. Bu qaydalara əsasən qiymətləndirici "Qiymətləndirmə fəaliyyəti haqqında" Rusiya Federasiyasının Qanununun, habelə qiymətləndirmə standartlarının tələbləri barədə sifarişçiyə məlumat verməli və bunlar qiymətləndirmə aparılması haqqında bağlanılan müqavilədə əks olunmalıdır.

Standartların 20-ci maddəsində qiymətləndirmə obyektinin dəyərinin yekun kəmiyyətinin alqı-satqı əməliyyatlarının aparılması üçün 6 ay ərzində qüvvədə olması müəyyənləşdirilmişdir.

Qiymətləndirmə Standartları üzrə Beynəlxalq Komitədə (İVSC) Rusiya Federasiyasını Rusiya Qiymətləndiricilər Cəmiyyəti (RQC) təmsil edir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti də MDB Qiymətləndiricilər Birliyi Şurasının ən fəal üzvlərindən biri kimi bu istiqamətdə baş verən proseslərdən kənarda qalmır, mütəmadi olaraq əməkdaşlığını davam etdirir.

Əmlakın qiymətləndirilməsi və xidmətlərin sertifikatlaşdırılması prosesi üçün RQC tərəfindən 30-dan artıq standart və normativ sənəd hazırlanmışdır.

**Azərbaycanın milli qiymətləndirmə standartları**

Əmlak bazarını sivil dünya ənənələrinə uyğun olaraq inkişaf etdirmək məqsədi ilə bir sıra vəzifələrin həyata keçirilməsinə ehtiyac vardır. Bunlardan biri də milli qiymətləndirmə standartları və normalarının hazırlanmasından ibarətdir.

Milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması qaçılmaz bir prosesdir. Ölkəmizdə milli qiymətləndirmə standartlarının hazırlandığı bir zamanda, bu faktın unudulması iqtisadiyyatımız üçün olduqca böyük itkilərə gətirib çıxara bilər. Belə ki, ölkədə aparılmış qiymətləndirmə işlərinin xaricdə qəbul edilməsi məhz onların beynəlxalq təcrübəyə uyğun aparılmasından çox asılıdır. Bu bir həqiqətdir ki, hazırda beynəlxalq miqyas çərçivəsində inteqrasiya prosesləri gedir və bu proses həyatın bütün sferalarını əhatə etməkdədir. Ölkədə aparılan qiymətləndirmə işlərinin beynəlxalq standartların tələblərinə cavab verməsi ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinə və bütövlükdə iqtisadiyyatın inkişafına şərait yaradan amillərdən biridir.

Azərbaycanda qiymətləndirmə standartlarının hazırlanması çox mürəkkəb prosesdir. Bunun üçün həm beynəlxalq və Avropa qiymətləndirmə standartları, həm də, inkişaf etmiş iqtisadiyyatlı ölkələrin (o cümlədən MDB dövlətlərinin) bu sahədəki fəaliyyətləri dərindən öyrənilməli, standartları hazırlayanların maariflənmələri təmin edilməlidir.

Azərbaycan Respublikasının qiymətləndirmə standartlarının və normalarının hazırlanması

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 2000-ci il tarixli 90 saylı sərəncamı ilə əlaqədar nazirlik və təşkilatların, ictimai birliklərin təmsil olunduğu işçi qrupa həvalə edilmişdir. Bu qrupun hazırladığı “Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 iyul 2000-ci il tarixli 107 saylı qərarı ilə təsdiq edilmişdir [2].

“Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırlanmış “Qaydalar” üç hissədən ibarətdir: “Qiymətləndirmə Standartları”, “Qiymətləndirmə Normaları” və “Peşəkar Qiymətləndiricilərin hazırlanması”.

**Birinci hissə** - “Qiymətləndirmə Standartları”nda əmlakın qiymətləndirilməsinin məqsədi, vəzifələri və qiymətləndirmə işlərinin yerinə yetirilməsi zamanı qiymətləndiricilər qarşısında qoyulan tələblər və vəzifələr, bəzi anlayışların təyinatı, qiymətləndirmənin aparılması üçün istifadə olunan məlumatların keyfiyyətinə və qiymətləndirmə haqqında hesabatın məzmununa tələblər, müvafiq standartlara riayət olunmasına nəzarət və məsuliyyət formaları öz əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə işlənib hazırlanmış milli qiymətləndirmə standartlarının tərkibi aşağıdakı kimidir:

1.1. Daşınmaz əmlakın qiymətləndirilməsi
1.2. Daşınar əmlakın qiymətləndirilməsi
1.3. Fəaliyyət göstərən müəssisələrin qiymətləndirilməsi
1.4. Qeyri-maddi obyektlərin qiymətləndirilməsi.

Sözügedən “Qaydalar”da müvafiq istiqamətlər üzrə aşağıdakı standartların hazırlanması nəzərdə tutulur:

- normativ sənədlər sistemi;
- qiymətləndiricilərin Peşə Etikası Məcəlləsi;
- qiymətləndirmənin ümumi anlayışları və prinsipləri;
- bazar dəyərinin qiymətləndirmə bazası;
- maliyyə hesabatları və əlaqəli sənədlərin qiymətləndirilməsi;
- ssuda təminatı, girov və borc öhdəlikləri təminatlarının qiymətləndirilməsi;
- əmlakın qiymətləndirilməsi üzrə xidmətlərin təsnifləşdirilməsi;
- daşınmaz əmlakın qiymətləndirilməsi sahəsində peşəkar fəaliyyət standartları;
- istehsal vasitələri, maşın və avadanlığın qiymətləndirilməsi;
- fəaliyyət göstərən müəssisənin dəyərinin qiymətləndirilməsi bazası;
- meşə resursları və meşə torpaqlarının qiymətləndirilməsi;
- gəmilərin və üzən qurğuların qiymətləndirilməsi.

Nəzərdə tutulur ki, bu standartlar beynəlxalq standartlara və normalara uyğun olaraq hazırlanmalıdır.

Artıq standartların hazırlanması üzrə müvafiq addımlar atılmış, bu istiqamətdə dövlət orqanları ilə qiymətləndirici birliklərin sıx əməkdaşlığı təmin edilmişdir. Yaxın zamanlarda milli qiymətləndirmə standartlarının bəzilərinin hazırlanaraq istifadəyə verilməsi nəzərdə tutulur. Standartların düzgün tətbiqi də qarşıda duran vacib məsələlərdəndir. Qiymətləndirmə fəaliyyətinin subyektləri, istər mülkiyyətçilər (əmlak sahibləri), istərsə də qiymətləndiricilər standartların seçilməsi və tətbiqi zamanı diqqətli olmalıdırlar. Ona görə də, nəinki qiymətləndirici mütəxəssislər, həm də müəssisələrin müvafiq mütəxəssisləri əmlakın qiymətləndirilməsi prosesindən məlumatlı olmalı, standartları bilməli və tətbiq etməyi bacarmalıdırlar.

**İkinci hissə** - “Qiymətləndirmə normaları”nda qiymətləndirmə sahəsində fəaliyyətin vəzifələri, əsas məqsədləri və prinsipləri, normativ sənədlər sisteminin tərkibi və strukturu, normaların hazırlanması, təsdiqi, onlara yenidən baxılması, dəyişikliklər edilməsi, ləğvi və riayət olunmasına nəzarətin əsas qaydaları müəyyənləşdirilir.

**Üçüncü hissə** - “Peşəkar qiymətləndiricilərin hazırlanması”nda qiymətləndiricilərin hazırlanması məsələləri nəzərdən keçirilir, bazarın tələbi nəzərə alınmaqla, daha çox ehtiyac olan qiymət-

ləndirici ixtisaslarının siyahısı verilir.

Əmlak qiymətləndiriciləri həm ölkə daxilində, həm də təhsil alması üçün xarici ölkələrə göndərilməsi yolu ilə hazırlana bilər. Eyni zamanda, lazım gəldikdə, xarici ölkələrdən bu sahədə geniş təcrübəsi olan mütəxəssislər dəvət etməklə, kursların təşkil edilməsi yolu ilə də qiymətləndirici kadrlar hazırlana bilər.

Qiymətləndirmə fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi çərçivəsində qiymətləndiricilərin tarif xüsusiyyətləri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 30 yanvar 2003-cü il tarixli, “Azərbaycan Respublikasında qiymətləndirici fəaliyyətinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif İxtisas Sorğu Kitabçasının (VTİSK) (hissə 80) təsdiq edilməsi barədə” qərarı ilə müəyyənləşdirilmişdir.

Bu sənəddə qiymətləndiricilərin əmək funksiyaları, bilməli olduqları normativ-hüquqi, metodoloji sənədlərin, vərdişlərin siyahısı verilmişdir. Sənədə əsasən qiymətləndiricilərin ödəniş dərəcələri 15 qrupa bölünür və hər dərəcə üçün tələblər müəyyənləşdirilir.

Ən aşağı (8-ci dərəcə) qiymətləndirici ixtisasına yiyələnmək istəyənlərin qiymətləndirmə sahəsində ali və ya orta ixtisas təhsili olmalı, yaxud onlar əmlakın qiymətləndirilməsi sahəsində əlavə təhsil və ixtisas kursunu bitirməlidirlər.

9-13-cü dərəcələr “Peşəkar Qiymətləndirici” statusu verir. “Peşəkar Qiymətləndirici” statusunun 9-10-cu dərəcələrinin alınması üçün qiymətləndirici vəzifəsində azı 3 il, 11-12-ci dərəcələrinin alınması üçün peşəkar qiymətləndirici vəzifəsində azı 3 il, 13-cü (baş peşəkar qiymətləndirici) dərəcəsinin alınması üçün isə aparıcı peşəkar qiymətləndirici vəzifəsində azı 5 il iş stajı tələb olunur.

14-15-ci qiymətləndirici ekspert dərəcələrinin verilməsi üçün qiymətləndirmə sahəsində ali təhsil və peşəkar qiymətləndirici vəzifəsində 3 ildən az olmayan iş stajı tələb edilir.

### *Nəticə*

Beynəlxalq qiymətləndirmə standartlarında və beynəlxalq audit standartlarında etik prinsiplərin tədqiqi nəticəsində məlum olur ki, hər iki standart əhatə dairəsinə görə oxşar prinsipləri ehtiva edir. Digər tərəfdən, beynəlxalq qiymətləndirmə standartları audit standartları ilə müqayisədə etik prinsiplərin tətbiqi ilə bağlı daha aydın və məhdudlaşdırıcı qaydaları ehtiva edir. Lakin qeyd olunan qaydaların icra nəzarətinin həmkarlar ittifaqlarına həvalə edilməsi qiymətləndirmə qaydalarının sanksiya gücünü zəiflədir. Beynəlxalq audit standartları isə standartlara uyğunluğun auditi baxımından daha güclü struktura malikdir, lakin prinsip və qaydaların müəyyən edilməsi və həyata keçirilməsinə qoyulan məhdudiyyətlər baxımından daha yumşaq bir yanaşma tətbiq etmişdir. Audit standartlarında prinsip və qaydalarda kəskin məhdudiyyətlər yoxdur və bu məsələ ilə bağlı qərarı auditorlar qəbul edir. Bunu qurumların peşəkar qiymətləndirməsinə və mühakiməsinə buraxmaq daha yaxşıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında torpaqların normativ qiymətinin müəyyən edilməsi barədə Əsasnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 nömrəli qərarı ilə təsdiq edilmişdir)
2. Qiymətləndirmə standartları və normaları, peşəkar qiymətləndiricilərin hazırlanması Qaydaları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 iyun tarixli, 107 nömrəli qərarı ilə təsdiq edilmişdir)
3. Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) ilkin qiymətinə tətbiq edilən əmsallar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 24 yanvar tarixli 23 nömrəli qərarı ilə təsdiq edilmişdir)
4. Binalar üzrə əmlak vergisinin hesablanması Qaydaları (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 46 nömrəli qərarı ilə təsdiq edilmişdir)

5. "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi və saxlanması, istifadəsi və satışı barədə Əsasnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli qərarı ilə təsdiq edilmişdir)
6. Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürülməsi və qiymətləndirilməsi Qaydaları (Azərbaycan Respublikası Milli Bankı tərəfindən 5 may 2001-ci il tarixində təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır)
7. X.Kazımlı. "Qiymətləndirmənin əsasları", -Bakı, -2008
8. Оценка стоимости и экономика недвижимости. Материалы IV Международной конференции "Проблемы оценки в переходный экономике" Минск. ГИУСТ БГУ. Минск. 27- 28 мая 2004 г
9. Оценка урбанизированных земель. В.А.Прорвича. М. 2004
10. Оценка недвижимости. Г.Грязновой, М.А.Федотовой М. 2005
11. Некоторые аспекты теории и практики оценки земли. Н.П. Боброва Фонд Развития общества оценщиков. Москва 2005
12. .Оценка стоимости недвижимости. Грибовский С.В., Иванова Е.Н., Львов Д.С., Медведева О.Е., М. Интерреклама, 2003
13. Оценка рыночной стоимости машин и оборудования. Международная академия оценки и консалтинга. Москва. 2003
14. Оценка стоимости подвижного состава автомобильного транспорта. Международная академия оценки и консалтинга. Москва. 2003
15. Оценка стоимости транспортных срдеств: Учеб метод. пособие. Под ред. М.П.Улицкого. М.2004
16. "Uluslararası değerleme standartları", Uluslararası Değerleme Standartları Konseyi, 2017
17. Medine Türkcan, Prof. Dr. Nalan Akdoğan. "Uluslararası değerleme standartlarında etik ilkeler ve uluslararası denetim standartları ile karşılaştırması incelenmesi", Muhasebe Bilim Dünyası Dergisi Özel Sayı 2018; 20, ös426- ös439
18. https://www.apex-group.ru/ocenka-imushhetsva-i-nedvizhimosti/mezhdunarodnye-standarty-ocenki-2017
19. https://www.ocenchik.ru/docs/467.html

***Рауф Кадир оглы Мустафаев***
***Магистр Азербайджанская Академия***
***Труда и Социальных Отношений***

***Научный руководитель: доц. Аскер Имамали оглы Алиев***
***Азербайджанская Академия***
***Труда и Социальных Отношений***

## Международные стандарты оценки

***Резюме***

**Цель исследования -** для осуществления оценки в соответствии с международными стандартами оценки установлены общие этические принципы с точки зрения беспристрастности, оценки, компетентности и разумных отклонений от стандартов. В связи с этим общая структура стандартов оценки соответствует этическим принципам, содержащимся в международных стандартах аудита. Цель исследования состоит в том, чтобы путем обсуждения этических принципов, содержащихся в международных стандартах оценки, и проведения сравнительного анализа этических принципов, содержащихся в международных стандартах аудита, определить роль и значение международных стандартов оценки.

**Методология исследования -** в работе использовались статистический, экономический и сравнительный методы анализа.

**Практическое значение исследования** - формирование теоретико-концептуальных и практических взглядов на национальные стандарты оценки Азербайджана. Полученные результаты могут быть использованы при определении оценки общегосударственных стандартов.

**Результаты исследования** - В результате исследовательской работы видно, что в результате изучения этических принципов в международных стандартах оценки и международных стандартах аудита известно, что оба стандарта содержат схожие принципы по сфере применения. С другой стороны, международные стандарты оценки содержат более четкие и ограничительные правила в отношении применения этических принципов, чем стандарты аудита. Однако возложение контроля за выполнением указанных правил на профсоюзы ослабляет санкционирующую силу правил оценки. Международные стандарты аудита, с другой стороны, имеют более жесткую структуру с точки зрения аудита соблюдения стандартов, но используют более мягкий подход с точки зрения определения и реализации принципов и правил. Стандарты аудита не имеют жестких ограничений на принципы и правила, и решение по этому вопросу принимают аудиторы и ревизоры. Лучше предоставить это профессиональной оценке и суждению учреждений.

**Оригинальность и научная новизна исследования** - в исследовании анализируются этические принципы в международных стандартах оценки и международных стандартах аудита и выявляется ослабление санкционной силы правил оценки. В международных стандартах аудита предлагается оставить аудиторов на профессиональную оценку и суждение.

***Ключевые слова - международные стандарты оценки, оценка, международные стандарты аудита, этические принципы.***

***Rauf Qadir Mustafayev***
***Master Azerbaijan Academy of Labour and Social Relations***

***Scientific leader: Askar İmamali Aliyev***
***associate professor Azerbaijan Academy of Labour and Social Relations***

## International valuation standards

***Summary***

**The purpose of the study** - In order to carry out the assessment in accordance with international assessment standards, general ethical principles have been established in terms of impartiality, assessment, competence and reasonable deviations from standards. In this regard, the overall structure of the evaluation standards corresponds to the ethical principles contained in the International Standards on Auditing. The purpose of the study is to determine the role and significance of international standards of assessment by discussing the ethical principles contained in international standards of assessment and conducting a comparative analysis of the ethical principles contained in international standards of auditing.

**Research methodology** - statistical, economic and comparative analysis methods were used in the research work.

**The practical significance of the research** - formation of theoretical, conceptual and practical views on the national assessment standards of Azerbaijan. The results obtained can be used to determine the assessment of national standards.

**Results of the research** - As a result of the research work, it is clear that as a result of the study of ethical principles in international valuation standards and international auditing standards, it is known that both standards contain similar principles in terms of scope. On the other hand, international valuation standards contain clearer and more restrictive rules regarding the application of ethical principles than auditing standards. However, entrusting the implementation control of the mentioned rules to the trade unions weakens the sanctioning power of the evaluation rules. International auditing standards, on the other hand, have a stronger structure in terms of auditing compliance with the standards, but have adopted a more lenient approach in terms of defining and implementing principles and rules. Auditing standards do not have strict limits on principles and rules, and the decision on this issue is made by auditors and auditors. It is better to leave it to the professional evaluation and judgment of the institutions.

**Originality and scientific implications of the research**- the study analyzes ethical principles in international standards of evaluation and international standards of auditing and reveals the weakening of the sanctioning force of the evaluation rules. The international Standards on auditing suggest leaving auditors to professional assessment and judgment.

***Key words - international evaluation standards, evaluation, international auditing standards, ethical principles.***

# III BÖLMƏ.
# ÜMUMİ İQTİSADİ PROBLEMLƏR

UOT: 334.021.35; 338.22.021.2; JEL E19; E69.

*Nadir Bəyməmməd oğlu ƏKBƏROV*
*Az.DİU / UNEC/, doktorant*
*E-mail: akbarov.nadir.1@gmail.com*
*https://orcid.org/0000-0002-0465-1770*

## İQTİSADİ ARTIMIN MAHİYYƏTİ VƏ NƏZƏRİ-METODOLOJİ ƏSASLARINA BAXIŞ

*Xülasə*

**Tədqiqatın məqsədi** – inkişafın maddi bazasını təşkil edən iqtisadi artımın identifikasiyası və qiymətləndirilməsi baxımından nəzəri-təcrübi baxışların tədqiqi və icmallaşdırılması ilə bağlıdır. Həmçinin məqalədə iqtisadi artımın konsepsiyası ilə bağlı müasir baxışların irəli sürülməsi də önəmli hesab edilmişdir.

**Tədqiqatın metodologiyası** – iqtisadi artım üzrə klassik və müasir məktəblərin yanaşmalarına və bu sahədə olan tədqiqatların nəticələrinə əsaslanır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** ondan ibarətdir ki, aparılan araşdırmalar və əldə olunan nəticələr iqtisadi artımın müasir konseptual əsaslarının formalaşmasında isifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – iqtisadi artımın başlıca problemlərinin müəyyən edilməsi və onların aradan qaldırılması ilə bağlı tövsiyələrin irəli sürülməsi ilə bağlıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – iqtisadi artımın müasir elmi-nəzəri əsaslarının yaradılmasının zəruriliyinin əsaslandırılması və bu sahədə əhəmiyyət kəsb edən fikirlərin irəli sürülməsi ilə bağlıdır. Tədqiqatda iqtisadi artımın düzgün təsnifləşdirilməsinin müasir inkişaf proseslərinin qiymətləndirilməsində vacibliyi irəli sürülür. Həmçinin artım kateqoriyasının düzgün anlaşılması məqsədi ilə, qloballaşmanın iqtisadi siyasətə gətirdiyi, beynəlxalq rəqabətlilik və reytinq sistemlərinə yanaşmalarda da artımın funksional prizmadan şərh edilməsinin zəruriliyi sübut edilməyə çalışılır.

***Açar sözlər: iqtisadi artım, inkişaf, faydalılıq, istehsal faktorları, istehsal gücü, qiymət, rəqabət, institusional sistem, qloballaşma.***

### *Giriş*

İqtisadi münasibətlərin və inkişaf parametrlərinin, sivilizasiyanın elmi-texniki səviyyəsinin yüksəlməsi ilə yeni-yeni keyfiyyət xarakterlərinin yaranması sürətlə intensivləşməkdədir. Buna baxmayaraq, iqtisadiyyatın fundamenti hesab edilən klassik dominantların əhəmiyyəti heç də azalmır. Əksinə, müasir dövrdə iqtisadi inkişafda möhkəmlənən yeni trendlərin adekvat izahı üçün, artıq kanonikləşmiş iqtisadi kateqoriyaların mahiyyətinə yenidən baxılmasına zərurət daha da artır. Məlum olduğu kimi, bütövlükdə iqtisadi nəzəriyyə, artımı, istehsalın öz təbii səviyyəsinə görə qısamüddətli artıb-azalması kimi yox, məhsuldar qüvvələrin inkişafı nəticəsində, real istehsal həcminin uzunmüddətli dəyişməsi kimi izah edir. Bu halda, bir tarazlıq vəziyyətindən digərinə doğru artan istehsalın potensial həcmi tədqiqat obyektinə çevrilir. Real iqtisadi artımın mahiyyəti, iqtisadiyyatın potensial ehtiyatlarının məhdudluğu və ictimai tələbin sonsuzluğu kimi əsas ziddiyyətinin, yeni səviyyədə həll olunmasındadır. İqtisadiyyatın bu “əbədi” probleminin iki həll yolu var: - istehsal gücünün artırılması və ya mövcud güclərdən daha səmərəli istifadə olunması. Aydındır ki, iqtisadi subyektlər həmişə yeni artıma çalışırlar. Lakin real inkişaf heç də həmişə potensial imkanlara müvafiq olmur. Bu fikri təsdiq edəcək nümunələr indi kifayət qədər çoxdur.

Belə nümunələrdən sonuncusu kimi, Alan Qrinspenin “Amerikada kapitalizm: tarixi” adlı əsərində ABŞ-da iqtisadi inkişafın müasir xarakteri ilə bağlı şərhlərini göstərmək olar [1].

Əslində mahiyyət etibarı ilə, geniş anlamda iqtisadi artımın əsas və inteqral məqsədləri, əhalinin rifah halının yaxşılaşdırılması və milli təhlükəsizliyin təminatı ilə bağlıdır. Təcrübə göstərir ki, bütövlükdə iqtisadi inkişafın sürəti və keyfiyyəti arasında müəyyən ziddiyyət və ya uyuşmazlıq vardır. İqtisadi fikrin uzunmüddətli təkamül tarixində artım məsələsi müxtəlif prizmalardan çox geniş spektrdə tədqiq olunmuş və elmi nəşrlərdə şərh olunmuşdur.

**İqtisadi artımın funksional müstəvidə təzahürünün qiymətləndirilməsi**

Müasir təcrübə göstərir ki, iqtisadi artımın tədqiq və qiymətləndirilməsinə çox geniş və müxtəlif yanaşmalar mövcuddur. Bizim də tərəfdarı olduğumuz yanaşmaya əsasən, müvafiq əsas yanaşmaları iki qrupda ayırmaq mümkündür:

⇨ Cəmiyyətin tələb və imkanları;

⇨ İstehsal faktorlarının istifadəsi səviyyəsi.

İqtisadi artımın cəmiyyətin tələb və imkanları prizmasından fərqləndirilməsi ideyasına əsasən iqtisadi artım, əhali artımının sürəti ilə şərtləndirilir. Belə yanaşmada təbii, zəmanətli və faktiki artım tipləri də ayrılır. Geniş spektrə malik bu yanaşmada iqtisadi artımın istehlak və imkanlar prizmasından təhlili mühüm yer tutur və bu istiqamətdə R.Harrodun tədqiqatları daha əhəmiyyətli hesab olunur. İqtisadi artımın əhalinin artımı tendensiyası ilə şərtlənən təbii istehsal kateqoriyasını fərqləndirən Harrod hesab edir ki, əhalinin artım sürətinin xarakteri, təbii iqtisadi artımı formalaşdıran ilkin parametrdir. Belə ki, iqtisadi mahiyyət baxımından aydındır ki, iqtisadi artımın sürəti əhalinin çoxalması sürətindən həmişə üstün olmalıdır. Təbii iqtisadi artım sürətinin ikinci səbəbi - insanların özlərinin maddi-mənəvi tələbatının tam ödənilməsinə cəhdləridir. Çünki, istehlak artan xarakterə malikdir və tələb, istehlak və istehsal arasında güclü korrelyasiya mövcuddur. Bu əlaqənin özünün xarakteri haqqında isə iqtisad elmində iki yanaşma vardır: istehsalın inkişafının, yeni fəaliyyət növlərinin yaranması və sərvətin yığılmasının yeni tələbi yaratması konsepsiyasına əsaslanan Smit, Rikardo, Marşall, Marks və digərlərinin irəli sürdüyü “istehsalın dominantlığı” nəzəriyyəsi və R.German və N.Seniyorun müəllifi olduğu istehlakın, istehsalın nəticəsi kimi qəbul edilən “istehlakın dominantlığı” nəzəriyyəsi. Əlbəttə, demək olar ki, hər iki yanaşma mahiyyət etibarı ilə qaşılıqlı əlaqəlidir: istehsal istehlakı genişləndirir, istehlak isə istehsalı irəli itələyir [3].

İstehlak və imkan baxımından iqtisadi artımın ikinci növü - zəmanətli artım hesab olunur. Bu elə artım növüdür ki, sahibkarlar belə artımı öz maraqlarına cavab verdiyi üçün dəstəkləyir. Sahibkarlar daha çox gəlir əldə etmək və kapitalını artırmaq üçün “kapitalist təsərrüfatçılığı mənəviyyatına” malik olduqları ilə bağlı iqtisadi artıma səbəb ola biləcək hər bir addımı dəstəkləyir və öz fəaliyyətində belə yanaşmanı təsərrüfatçılığın ana xəttinə çevirir. İqtisadi artımın tələbat və imkanlar baxımından üçüncü növü faktiki iqtisadi artımdır. Bu, təbii və zəmanətli artım fonunda real olaraq həyata keçirilən iqtisadi artımdır. İqtisadi artım mahiyyət etibarı ilə daxilən ziddiyyətlidir. Belə ki, bir tərəfdən iqtisadi artım əhalinin tələbatını ödəyərək, rifahı yüksəldir, məşğulluğu artırır, kasıblıq səviyyəsinin aşağı düşməsini təmin edir. Digər tərəfdən isə, iqtisadi artımın nəticəsi olaraq, təbii resursların qeyri-səmərəli istifadəsi, ekologiyanın pisləşməsi, sosial bərabərsizliyin güclənməsi kimi vəziyyətlərin yaranması tezləşir. Beləliklə, təbii olaraq iqtisadi artımın sürətlənməsi müəyyən qabaqlayıcı tədbirlərin görülməsini zəruri edir. Yaranmış şəraitdə, dövlət və biznesin sosial məsuliyyətliliyi problemi daha da aktuallaşır.

İqtisadi artımın şərh olunan təbii, zəmanətli və faktiki növləri kimi təsnifatı ən “qədim” köklərə malikdir. Merkantilistlər hesab edirdi ki, iqtisadi artım - “xoşbəxtlik mənbəyidir”, insanların xoşbəxtliyi malik olduğu sərvətlərlə müəyyənləşir, sərvətlərə malik olmaq isə toplanmış daş-qaş və pullarla, tədiyyə balansının müsbət saldosunda ifadə olunur. Pul isə - sərvətlərə malik olmağın əsas ölçüsü hesab olunur. Fiziokratlar hesab edirdi ki, iqtisadi artım kənd təsərrüfatında olan sərvətdir. Onların baxışına görə torpaq sərvətin yeganə mənbəyidir və əkinçilik belə sərvətləri dəfələrlə artırır. Klassiklər iqtisadi artımı əməklə bağlayırlar. Belə ki, Adam Smitin təbirincə, iqtisadi artımın əsas determinantları - əmək bölgüsü, istehsal olunmuş məhsulun istehlakının və əhali

sayının artımıdır (istənilən ölkənin çiçəklənməsinin ən mühüm təzahürü əhalinin artımıdır) [4, s. 67], təbii qiymət və ya azad rəqabətin qiymətidir [5, s. 61]. J.B.Sey iqtisadi artıma “humanist yanaşma” göstərərək, hesab edirdi ki, artım milli sərvətdir və üç faktorun dəyişməz alyansı hesabına əldə edilir: torpaq yaradılan məhsulun maddi dəyərini verir, əmək belə maddi əsası dəyişir; kapital isə torpaq və əməyin gücünü qat-qat artırır [2, s. 32]. Eyni zamanda Sey hesab edirdi ki, milli sərvətin daha bir amili – bütün siniflər üçün əlçatan olan bilikdir. Maraqlı odur ki, Sey hesab edirdi ki, bilik xüsusi ilə elə qruplara vacibdir ki, “onların sərvəti halal zəhmətlə qazanılıb, istirahət zamanı əmək vərdişləri istifadə edilir və belə mühitdə insanların dostluq təmasları tez-tez baş verir”. Bu faktorun mahiyyəti ondan ibarətdir ki, ölkənin sərvətini başa düşən, təhsilli adamların vasitəsi ilə daha tez artırmaq olar. Hətta hökumət ən yaxşı planları hazırlasa belə insanların onları qavramasına yetəcək savadlarının olması vacibdir [5, s. 69].

İkinci yanaşmada iqtisadi artım tipləri istehsal faktorlarının istifadəsi səviyyəsindən qiymətləndirilir. Faktor yanaşması adlanan bu yanaşmada, intensiv və ekstensiv artım növləri fərqləndirilir. Bəzən bu növlər kəmiyyyət və keyfiyyət tipləri adlandırılır. Keyfiyyət növünün tərkib hissəsi kimi çox zaman innovasiyalı iqtisadi artım növü qəbul edilir. E.Denisonun ABŞ iqtisadiyyatında əmək məsrəfləri və əmək məhsuldarlığı faktorlarının tədqiqi nəticələri, fikrimizcə, artımın faktorlardan istifadənin nəticələrindən asılılığının sübutu kimi yetərincə əsaslı hesab edilə bilər [9]. Tədqiqatçının hesablamalarına əsasən, istehsal artımının üçdə biri əmək məsrəflərinin artımı, üçdə ikisi isə əməyin məhsuldarlığının artımı hesabına baş verir. Əlbəttə, nəzərə almaq vacibdir ki, əmək məsrəflərinin ölçüləri özü də iki qrup faktorların təsiri ilə formalaşır: əhalinin məşğulluğu ilə şərtlənən ekstensiv çoxalma və əməyin intensivliyi hesabına. Sonuncu məqam, cəmiyyətin sosial-iqtisadi quruluşundan, ölkənin inkişaf səviyyəsi və təsərrüfatçılıq tipindən ciddi asılıdır. Bu faktorlar çox əhəmiyyətlidir və bütövlükdə, dövlətin və vətəndaşların rifahını müəyyənləşdirən vacib amillərdir. Əmək məhsuldarlığının artmasına təsir edən amillər içərisində elmi-texniki tərəqqi də mühüm xüsusi çəkiyə malikdir. Belə ki, Denisonun hesablamalarına görə, ETT-nin məhsul artımına təsirinin payı - 42%, kapital qoyuluşlarının çəkisi isə 27%-dir [9]. Digər tərəfdən məlum olduğu kimi, iqtisadi artım milli yığım və qənaət norması, iqtisadiyyatın açıqlığı və təhsil potensialı ilə bilavasitə bağlıdır. Gəlirin dövlət institutları vasitəsi ilə yenidən bölüşdürülməsi faktoruna gəldikdə isə şərait birmənalı deyildir. ÜDM-də dövlət xərclərinin xüsusi çəkisinin artırılması iqtisadi inkişafa ziddiyyətli, müxtəlif istiqamətli təsirlər edir. Lakin, bu göstəricinin yol verilə bilən intervaldan kənara çıxması isə iqtisadi artımı dayandırır.

Təcrübədən məlum olduğu kimi, klassik anlamda digər amillərin təsirlərini sərf-nəzər etdikdə hesab etmək olar ki, milli iqtisadiyyatda yığım və istehlakın nisbəti ilə bağlı iki inkişaf variantı mümkündür: yığımın həcmi azalarsa, istehlak fondu artar və əksinə. Yəni yığım azalarsa təbii olaraq investisiya həcmi azalır. İstehlak çox azalarsa balans pozular və əgər yığım norması yüksələrsə istehlak səviyyəsi azalar. Yığımın maksimallaşmasına hədəflənmək, təbiidir ki, kapitalın həcmini kəskin artıracaq və istehlak imkanları azalacaq. Burada qeyd etməyi zəruri hesab edirik ki, iqtisadi artım faktorlarının müxtəlif kombinasiyalarına əsalanan yanaşmada qeyri-iqtisadi, xüsusi ilə koqnitiv və riyazi metodların tətbiqi daha tez-tez rast gəlinir və bu istiqamətdə çox maraqlı təcrübi, nəzəri-təcrübi nəticələr əldə edilmişdir [6]. Belə ki, “inkişaf magistralı” və ya “genişlənən iqtisadiyyat” ideyasının müəllifi Con fon Neymanın məhşur konsepsiyası bu baxımdan olduqca önəmlidir. Neyman ideyasının mahiyyəti ondan ibarətdir ki, “inkişaf magistralı” balanslı dinamikanı nəzərə almalı və optimal variant olmaqla reallıqda daha ehtimallıdır. Çünki balansın hər iki tərəfə pozulması müqabilində yenidən optimallaşmaya cəhdlər, əslində qeyd olunan magistraldan keçir. Balanslı iqtisadi artımın çatışmazlıqlarını - “qızıl qaydaları” formalaşdıran Felps teoremi izah edir. Bu teoremə görə, iqtisadi artım prosesində həmişə yığıma nisbətən, istehlak fonduna önəm vermək gərəkdir. Felps teoreminin mahiyyəti Keyns nəzəriyyəsinin və neoklassikanın məzmunu ilə səsləşir.

İqtisadi fikir tarixində mühüm bir mərhələnin əsasını qoymuş Keynsin iqtisadi artım nəzəriyyəsinin mahiyyətini, getdikcə genişlənərək iqtisadi artımı təmin edən “məcmu səmərəli tələb” konsepsiyası təşkil edir [7]. Başqa sözlə Keyns, klassik yanaşmanın əksinə olaraq, əsas vurğunu

təklif yox, tələb faktorlarına edir. Keyns inqilabi mülahizələrinin təsdiqi kimi, məcmu tələbin tərkib hissələrinin tədqiqi modelini təklif edir. Onun mülahizələrinə görə, məcmu gəlirin istehlak və yığım kimi iki hissəyə ayrılmasının əsasında məlum psixoloji qanun dayanır. Bu qanuna görə gəlirin artması davam etdikcə, insanlarda yığıma meyillilik artır və əksinə, istehlaka meyillilik azalır. Nəticədə ev təsərrüfatlarında, istehlakın azalması və yığımın artması sayəsində istehsalın azalması, iqtisadi artımın ləngiməsi ("qənaət ziddiyyəti") baş verir. Keynsin nəticələri belə bir fikri formalaşdırmağa imkan verir ki, ölkələr varlandıqca artan milli gəlirin böyük hissəsi yığıma gedir və az hissəsi istehlak olunur. Ona görə də sənayecə inkişaf etmiş ölkələrdə multiplikatorun ölçüləri kiçik və iqtisadi artımın sürəti isə dayanıqlıdır. Əgər ölkə kasıbdırsa, onda artan milli gəlirin demək olar ki, hamısı istehlak olunacaq və bu, güclü multiplikasiya effekti yaradacaqdır. Yəni, investisiyadakı dəyişikliklərin iqtisadiyyata təsirləri daha güclü olacaqdır. Beləliklə, Keyns dövlətin iqtisadiyyata təsirinin mümkün istiqamətlərini formalaşdırır:

- Gəlirlərin yığıma daha az meyilli insanlara yönəlik yenidən bölgüsünün aparılması (proqressiv vergiyə cəlbetmə və transfertlər hesabına);
- Monetar siyasət vasitəsi ilə bazar faiz dərəcəsinə təsir etməklə, investisiyaların cəlbediciliyinin yüksəldilməsi;
- Dövlət xərclərinin ciddi həcminə nail olmaqla və multiplikativ effektin hesabına məcmu tələbin genişləndirilməsi.

Keynsin iqtisadi inkişafa baxışları, bildiyimiz kimi, əsasən qısamüddətli dövrü əhatə edir. Ümumiyyətlə, C.Keynsin iqtisadi mahiyyətə baxışları daha çox cari vəziyyətin tələblərinin prioritetliyi üzərində qurulur. Onun, "uzunmüddətli dövrdə biz hamımız öləcəyik" fikirləri, iqtisadi siyasətin daha qısamüddətli hədəflərə istiqamətlənməsinin leytmotivi hesab oluna bilər. XX əsrin ikinci yarısında Keyns nəzəriyyəsinin ciddi uğurlara nail olması onun yaxşı mənada "təftişini" sanki stimullaşdırdı. Müharibədən sonrakı dövrdə dünyada iqtisadi inkişafın həm paradiqmasının, həm də resurs-texnoloji bazasının transformasiyasını nəzərə alaraq, Keynsin davamçıları onun nəzəriyyəsinin müxtəlif prizmalardan genişləndirilməsi üzrə ciddi tədqiqatlara rəvac verdi. Belə istiqamətlərdən biri, nəzəriyyənin uzunmüddətli dövrə transformasiyası ilə bağlı idi. Bu sahədə mühüm və maraqlı yanaşmalardan biri, artım faktorlarının qarşılıqlı əlaqələri modelini təklif edən Amerikalı alim R.Solouya məxsusdur.1987-ci il Nobel mükafatçısı Robert Solou modelin ilkin formasını "A Contribution to the Theory of Economic Growth" [9] adlı əsərində vermişdir. Solou modelinin əsas həlqəsini iqtisadi artımda kapital yığımı təşkil edir. Fərz olunur ki, əsas kapitalın aşınma norması - amortizasiyanın iqtisadi norması daimidir və kapitalın həcminə mütənasibdir. Digər tərəfdən, məcmu buraxılış kapitaldan asılıdır, ona görə də kapitalla silahlanma nə qədər yüksək olarsa istehsal həcmi və investisiya da yüksək olar. Deməli, mövcud kapitalın ehtiyatları ilə yeni kapitalın yığımı arasında əlaqələr şəksizdir.

Solou modelinin mühüm məziyyətlərindən biri onun geniş interpretasiya və nüfuzetmə imkanlarıdır. Yəni bu yanaşma əsasında daha fərqli şəraitlərdə iqtisadi artımın özəlliklərini müəyyənləşdirmək mümkündür. Belə ki, "dayanıqlı vəziyyət" (Stready State) kateqoriyası ilə müəyyənləşdirilən tarazlı artım vəziyyəti dediklərimizin sübutu kimi qəbul edilə bilər. Mahiyyətcə isə "dayanıqlı vəziyyət": uzunmüddətli tarazlı artımın - zamanın hər anında məhsul və istehsal faktorları bazarlarının tarazlığı və nisbi iqtisadi parametrlərin stabilliyinin mövcudluğu ilə mümkünlüyünü ehtiva edir. Başqa sözlə, tarazlı iqtisadi artımı müxtəlif yığım normaları vasitəsi ilə təmin etmək mümkündür. Lakin optimal yığım norması eləsi olacaqdır ki, burada istehsalın həcmini maksimallaşdırmaq olar. Yuxarıda qeyd edildiyi kimi, Amerika iqtisadçısı Eqmund Felps belə optimal yığım normasını müəyyənləşdirən meyarları "yığımın qızıl qaydaları" adlandırmışdır.

Müasir dövrdə iqtisadi artımın problemlərinin nəzəri - praktiki məsələlərinin müxtəlif aspektlərinin tətbiqi nümunələrinin araşdırılması belə qənaətə gəlməyə imkan verir ki, iqtisadi nəzəriyyənin müxtəlif qollarında irəli sürülən müddəaların heç də hamısı "təmiz" şəkildə özünü doğrultmamışdır və bu təbii hesab edilməlidir [11]. Çünki mahiyyət etibarı ilə iqtisadi nəzəriyyənin bütün fundamental konsepsiyaları təcrübədə (uzun dövrlər ərzində, davamlı və tam olaraq) həmişə xüsusi

özəlliklərlə müşayiət olunur. Fikrimizcə, rus tədqiqatçısı G.R.Skvorsovanın [3] təklif etdiyi kimi ənənəvi iqtisadi dinamikanın mühüm istiqamətləri çərçivəsində struktur elementləri ilə yanaşı, geniş anlamda iqtsadi fəaliyyətin institusional cəhətləri hesab ediləcək sosial və siyasi stabillik, ekoloji mühitin vəziyyəti, təkmil bazar münasibətləri və s. iqtisadi artımın mühüm amillləri kimi tədqiq edilməsi müasir inkişaf mərhələsində zəruri hesab edilməlidir. Hesab edirik ki, belə yanaşmanın seçimini şərtləndirən əsas amillər ondan ibarətdir ki, iqtisadi artıma təsir edən amillərin strukturlaşmasının təkmilləşdirilməsi, onların təsirlərinin birbaşa və ya dolayı xarakterinin dəqiqləşdirilməsi müasir inkişaf mərhələsində bütün milli iqtisadiyyatlar üçün, hətta o cümlədən, inkişaf etmiş və tam liberal ABŞ iqtisadiyyatı üçün də olduqca vacib məsələyə çevrilmişdir. Aparılan belə tədqiqatlar sayəsində müəyyənləşdirilmişdir ki, ABŞ iqtisadiyyatında son dövrlərdə bir neçə parametrə görə artımın nisbi mürəkkəbləşməsi və ləngiməsi, istehlak proseslərində deyil, məhz istehsal sahəsində baş vermişdir.

**İqtisadi artımın struktur-institusional müstəvidə tədqiqi**

İqtisadi münasibətlərin mürəkkəbləşməsi və genişlənməsi ilə xarakterizə olunan müasir inkişaf mərhələsində iqtisadi artımın institusional amilləri üç qrupda təsnifləşdirilə bilər [8]. Birinci qrupa - biznesin təşkili göstəriciləri: müəssisələrin ölçüləri, korporativləşmə səviyyəsi, diversifikasiya səviyyəsi, bazarın inhisarlığı göstəriciləri, muzdlu əməyin istifadəsi aid edilir. Buraya həmçinin sənaye klasterləri, sahibkarların sahəvi birlikləri və müxtəlif kooperativlər daxil edilir. İkinci qrupa iqtisadi infrastruktur aiddir və onun tərkibində bilavasitə son istehlak üçün məhsul istehsal etməyən, lakin həmin istehsalı təmin edən sahələr birləşir. Belə ki, müasir dövrdə zəruri infrastruktur elementləri olmadan iqtisadiyyatın effektiv və səmərəli fəaliyyəti mümkünsüzdür. İqtisadi artımın institusional amillərinin üçüncü qrupuna işgüzar fəallığın normativ qanunvericilik mühiti aid edilir. Belə mühit həm də dövlətin müxtəlif səviyyələrdə fəaliyyətinin məhsulu hesab olunur. Dövlət əsasən müxtəlif aspektlərdən biznes fəaliyyətini reqlamentləşdirir, lakin belə cəhətlərin hamısının iqtisadi artıma yönəldiyini demək olmaz. İnstitusional amillər müftəlif təzahür formalarına malik ola bilər, bununla belə onların hamısı cəmiyyətin maraqları baxımından təsərrüfatçılıq subyektlərinin fəaliyyət çərçivəsini müəyyənləşdirərək, iqtisadi fəaliyyətin effektivliyinin yüksəldilməsinə xidmət edir. Ümumiyyətlə, belə qənaətə gəlmək olar ki, iqtisadi artımın struktur və institusional amilləri sistemi kifayət qədər mürəkkəbdir və ona görə də əslində onların düzgün dəyərləndirilməsi sistemli təhlil tələb edir. Struktur və institusional amillər arasında əsas fərq ondan ibarətdir ki, struktur amillər iqtisadi artıma birbaşa təsir edərək, ÜDM-in dəyər komponentlərini müəyyənləşdirir. İnstitusional amillər isə ətraf mühit, çevrə amilləri kimi dolayı, lakin olduqca əhəmiyyətli təsirlərə malikdir. Dövlət vacib institusional amil kimi və digər belə amillərin vasitəsi ilə, real ÜDM artımını təmin edən istehsal prosesinə birbaşa müdaxilə etməyərək, iqtisadiyyatın strukturuna səmərəli və nəticəli təsir edə bilir. Belə yanaşma daxilində, fikrimizcə, müasir dövrdə artımın xarakteri və daşıyıcılarının mahiyyətini aydınlaşdırmaq baxımından, əsas institusional faktorlar kimi:

- ⇨ daxili bazarların struktur-təşkilati faktorları;
- ⇨ dövlət institutları və təsərrüfatçılığın normativ-hüquqi bazası;
- ⇨ milli iqtisadi infrastrukturun inkişafını səciyyələndirən amillər;
- ⇨ iqtisadi artımım dəstəklənməsi üzrə dövlətin iqtisadi siyasətinin qəbul edilməsi məqsədəuyğundur.

Müasir təcrübə göstərir ki, müasir dövrdə institusional amillərin iqtisadi artıma təsiri getdikcə güclənməkdədir. Ona görə də hesab edirik ki, mühüm institusional amillərin, o cümlədən, ilk növbədə, qlobal və milli iqtisadi siyasətin xarakter transformasiyası, həmçinin sürətlə genişlənən və mürəkkəbləşən bazarın strukturu, normativ-qanunvericilik və unifikasiya edilmiş konvensial tövsiyələr (milli və beynəlxalq müstəvilərdə) kompleksinin artıma təsiri xüsusiyyətlərinin davamlı araşdırılması və nəzərə alınması indiki mərhələdə və perspektivdə son dərəcə vacibdir. Fikrimizcə, ayrı-ayrı ölkələrdə, xüsusi ilə inkişaf etmiş iqtisadiyyatlarda artımın institusional amilləri kimi bazarların təşkilati strukturu, dövlət institutları və təsərrüfatçılıq mexanizmi xüsusiyyətləri ilə yanaşı, infrastruktur və artıma yönəlmiş siyasət hədəflərinin, təklif, bölgü və istehlak qruplarına aid

edilən amillərin sistemləşdirilməsinə də diqqət artırılmalıdır. Hiss olunur ki, iqtisadi fəaliyyətin mürəkkəbliyi ilə yanaşı, onun geniş mənada strukturunun sanki sintetikliyi xüsusiyyətləri də formalaşmaqdadır. Ona görə də resurs potensialına daha sıx bağlı ölkələrdə iqtisadi fəaliyyətin faktorları arasında müəyyən struktur münasibətləri və nisbətlərlə xarakterizə olunan səmərəliliyi və məhsuldarlığının arzuolunan səviyyəyə yüksəldilməsi son dərəcə vacibdir.

Məlum olduğu kimi, bütövlükdə iqtisadi artım praktik prizmadan real ÜDM-in uzunmüddətli böyüməsi trendini ifadə edir. Bu trend göstərir ki, real ÜDM-in hər il mütləq şəkildə böyüməsi vacib deyil, vacib olan iqtisadiyyatın hərəkətinin istiqaməti-meylidir. Qiymətləndirmənin uzunmüddətliliyi isə artımın özünün uzunmüddətli xarakteri, tam məşğulluq şəraitindəki potensial ÜDM-in həcmi, iqtisadiyyatın istehsal imkanlarının artımı ilə bağlılığı ilə şərtlənir. Beləliklə, hesab etmək olar ki, iqtisadi artım üç vasitə ilə:

- Real ÜDM-in trayektoriyası;
- İstehsal imkanlarının trayektoriyası;
- Məcmu tələb-təklif AD-AS modeli daxilində təmin edilə bilər və ya təsvir edilə bilər.

Belə mülahizələrin doğruluğunun sübutu kimi, artımın praktiki monitorinq yanaşması kimi qəbul edilə biləcək məşhur, “70 qaydası” nümunə ola bilər. Bu qayda sübut edir ki, əgər hansısa iqtisadi parametr ildə x%-lə artırsa həmin göstəricinin ikiqat həcmi “70/x” ildə təmin olunacaqdır. Bu qaydadan çıxış etsək, məsələn, adətən fərdi iqtisadi fəallıq dövründə, yəni işlədiyi müddətdə özündən sonra ikiqat çoxalmış ÜDM miras qoymaq arzusunda olan amerikalıların istəklərinə nail olunması üçün ölkədə orta illik 3%-lik artımın olması gərəkdir. Bəlkə də bu baxımdan uzun illərdir ki, ABŞ-da iqtisadi artımın 3-3.5% -lik artımı normal inkişaf səviyyəsi kimi qəbul edilir [1; 9]. Lakin “70 qaydası” göstərir ki, illər boyu sürətlə böyüyən iqtisadiyyatda artım sürəti daha böyük ilkin ÜDM üzrə hesablandığından, buraxılışın həcmi zəif böyüyən ölkələrdən daha sürətli olur. Belə ki, ÜDM-in ikiqat həcmi, 1%-lə artan iqtisadiyyatda 70, 4%-li iqtisadiyyatda isə 17,5 ildən sonra alınacaq. Deməli 70 ildən sonra 4%-li iqtisadiyyat öz ÜDM-ni 16 dəfə, 1%-li iqtisadiyyat isə cəmi ikiqat artıracaqdır. Əgər startda hər iki iqtisadiyyatda eyni ÜDM həcmi varsa, kumulyativ effekt sayəsində, 4%-li artıma malik iqtisadiyyat 70 ildən sonra 1%-li iqtisadiyyata nisbətən 8 dəfə böyük ÜDM-ə malik olacaqdır [1;9]. İlkin zəif istehsal potensialı və ÜDM səviyyəsinə malik kasıb ölkənin sürətli artım hesabına inkişafa başlaması hadisəsi “sürətli start” (“catch-up effect”) effekti adlanır. Qeyd etməyi vacib hesab edirik ki, sonuncu xüsusiyyət Azərbaycanın müstəqillik dövründəki iqtisadi inkişafı üçün xarakterik və adekvat mahiyyətə malikdir. Aydındır ki, cəmiyyətin müasir inkişaf mərhələsində intensiv inkişaf amilləri daha çox diqqət mərkəzində olmaqla tədqiq edilir və onların növ və formaları ETT-nin (elmi-texniki tərəqqi) inkişafı ilə daima artmaqdadır. Resursların keyfiyyətini xarakterizə edən əsas iqtisadi parametr onların məhsuldarlığıdır. Bu baxımdan da ölkədə həyat səviyyəsini müəyyənləşdirən və resursların nəticəliliyinin, səmərəliliyinin qiymətləndirilməsində onların məhsuldarlığı səviyyəsi aparıcı dominant element sayılır.

İqtisadi artım parametrinin, fikrimizcə, əsas mahiyyəti ondadır ki, rifah səviyyəsinin yüksəlməsini şərtləndirir. Müxtəlif sosial proqramların realizasiyasının maddi əsaslarını təmin etməklə bərabər istehsal imkanlarını genişləndirməklə, resursların məhdudluğu amilinin təsirlərini kompensasiya edir. İqtisadi artım, yeni effektiv texnologiyaların yaradılması və məhsul və xidmətlərin müxtəlifliyinin zənginləşməsi, həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsi kimi məsələlərin həllini şərtləndirir. Lakin iqtisadi artım öz-özlüyündə bütün çoxsaylı iqtisadi, sosial, ekoloji və digər problemləri həll etmir. Eyni zamanda iqtisadi artımın təmin edilməsi müəyyən xərcləri tələb edir.

İqtisadi artımın institusional amilləri sırasında sahibkarlıq qabiliyyəti və müvafiq fəaliyyətinin özünəməxsus rolu vardır. Bildiyimiz kimi, neoklassik iqtisadi nəzəriyyələrin, demək olar ki, hamısında sahibkarlıq qabiliyyəti mühüm iqtisadi resurs kimi dəyərləndirilir və iqtisadi artımın təmin olunmasında onun payını yüksək olaraq qəbul edirlər. Belə ki, hesab olunur ki, sahibkarlıq potensialı və qabiliyyəti, ölkədə iqtisadi artımın əsasını təşkil edən elmi-texniki proqresin realizasiyasında həlledici rola malikdir. Məsələn, Jan Batist Sey sahibkarlığın əsas funksiyasını-istehsal fak-

torlarının koordinasiyası kimi təsvir edib. Jozef Şumpeter isə, sahibkarlığı innovativliyin əsas daşıyıcısı kimi qəbul etmişdir. Sahibkarlığın mühüm funksiyaları kimi Şumpeter yeni məhsulların istehsalına, yeni xammal mənbələrinin mənimsənilməsinə, sahə strukturunun dəyişdirilməsinə xüsusi üstünlük verir. Onun fikrincə, sahibkar - elmi kəşfin iqtisadi reallaşdırıcısıdır. Müasir dövrdə də iqtisadi artımın aparıcı elementi elmi-texniki proqres hesab olunur.

### *Nəticə*

İqtisadi fikrin uzunmüdddətli təkamül dövründə artım probleminin mütəmadi öyrənilməsi ona görə vacib hesab edilir ki, artım ilk növbədə iqtisadi fəaliyyətin əsas hədəfi olan rifahın yüksəldilməsini təmin edir. Bu baxımdan artımın xarakteri və sürətinin tərkib hissələrinin təhlili, təminedici amillərinin qiymətləndirilməsi ayrı-ayrı ölkələrdə və fərqli zamanlarda inkişaf səviyyələrinin və artım sürətinin fərqlərinin izahını mümkün edir. İqtisadi artımı necə təmin etmək olar, hansı səbəbdən bəzi ölkələr daha sürətli inkişaf edir və əksinə, yüksək rifah halına nail olunması və saxlanılması üçün nələr edilməlidir, iqtisadi artımın xərcləri nədir və hansı mənbələrdən maliyyələşir kimi çoxsaylı sualların cavabı tapılmalıdır. Belə sualların cavabının nəzəri-metodoloji müstəvilərdə axtarılması isə qlobal iqtisadiyyatın indiki mərhələsində faktiki olaraq qarşısıalınmaz trendə çevrilmiş - inkişafın qeyri-bərabərliyinin dərinləşməsinin konkret səbəblərinin müəyyənləşdirilməsi üçün vacibdir. Lakin aparılan araşdırmalar göstərir ki, qloballaşmanın genişlənməsi və dərinləşməsi fonunda inkişafda institusional amillərin rolunun son dərəcə yüksəlməsi heç də artımın funksional amillərinin “unudulmasına” səbəb olmamalıdır. Xüsusi ilə son illərdə “beynəlxalq rəqabətlilik” kateqoriyasının yeni-yeni reytinq sistemlərinin yaradılması ilə zənginləşdirilməsi, həmçinin belə yanaşmanın “universallaşdırılması” meyilləri, fikrimizcə, artımın iqtisadi funksionallıqla bağlılığını inkar etməməlidir.

### ƏDƏBİYYAT


1. Алан Гринспен: ”Американцы предпочитают считать, что они “заработали” свои пособия и льготы” https://republic.ru/posts/94803?utm_27/09/2019
2. Блауг М. Экономическая мысль в ретроспективе. - М.: Дело, 1994. - 687 с., s 32
3. Скворцова Г. Р. Автореферат диссертации по теме “Структурные и институциональные факторы экономического роста в зрелой рыночной экономике” М. 2011
4. Смит А. Исследование о природе и причинах богатства народов. - М.: Соцэкгиз, 1962. - 684 с., s. 67
5. Сэй Ж.-Б. Трактат по политической экономии. - М.: Дело: Академия нар. Хоз-ва при Правительстве Рос.Федерации, 2000: [Электронный ресурс]. Режим доступа: http://ek-lit.narod.ru/say001.htm )
6. История экономических учений: Учеб. пособие / Под ред. В. Автономова, О. Ананьина, Н. Макашевой. М.: Инфра-М, 2002.
7. Лавров Е.И., Капогузов Е.А. Экономический рост: теории и проблемы: уч. пос. Изд-во ОмГУ, 2006. – 214 с.
8. Нуреев Р.М. Экономика развития модели становления рыночной экономики: Учебное пособие. М.: Инфра-М, 2001. С. 125–137.
9. Denison E.F. Why Growth Rates Differ. Postwar Expiriense in Nine Western Countries, Washington, D.C. 1967. “
10. Solow R.M. Growth theory: an exposition. New York Oxford. Oxford University Press, 2000.
11. http://www.grandars.ru/ ekonomicheskaya - teoriya/ekonomicheskiy-rost.html).

***Надир Баймамед оглу Акбаров***
***Аз.ГЕУ /UNEC/, докторант***
***Электронная почта: akbarov.nadir.1@gmail.com***
***https://orcid.org/0000-0002-0465-1770***

***Обзор сущности и теоретико-методологических основ экономического роста***

***Резюме***

**Цель исследования** - связана с изучением и обобщением теоретико-экспериментальных взглядов на выявление и оценку экономического роста, составляющего материальную базу развития. Также в статье было отмечено, что важным является выдвижение современного взгляда на концепцию экономического роста.

**Методология исследования** - основана на подходах классической и современной школ к экономическому росту и результатах исследований в этой области. Прикладная значимость исследования заключается в том, что проведенные исследования и полученные результаты могут быть использованы при формировании современных концептуальных основ экономического роста.

**Результаты исследования** - связаны с выявлением основных проблем экономического роста и выдвижением рекомендаций по их устранению.

**Оригинальность и научная новизна исследования** – обусловлены обоснованием необходимости создания современных научно-теоретических основ экономического роста и выдвижением важных идей в этой области. В исследовании выдвигается важность правильной классификации экономического роста при оценке современных процессов развития. Также с целью правильного понимания категории роста пытаются доказать необходимость интерпретации роста через функциональную призму в подходах к экономической политике, международной конкурентоспособности и рейтинговых системах, которые глобализация привела к экономической политике.

***Ключевые слова: экономический рост, развитие, полезность, факторы производства, производственные мощности, цена, конкуренция, институциональная система, глобализация***

***Nadir Baytammad Akbarov***
***Az.GEU /UNEC/ doctoral student***
***E-mail: akbarov.nadir.1@gmail.com***

**Review of the nature and theoretical methodological foundations of economic growth**

***Summary***

**The purpose of the study** is to study and review theoretical – experimental views from the point of view of identification and assessment of economic growth, which forms the material base of development. It was also considered important to put forward a modern view on the concept of economic growth in the article.

**The methodology of the study** is based on the approaches of classical and modern schools on economic growth and the results of research in this area.

**The applied significance of the study** lies in the fact that the research carried out and the results obtained can be used in the formation of modern conceptual foundations of economic growth. The results of the study are related to the identification of the main problems of economic growth and the promotion of recommendations on their elimination.

**The originality and scientific novelty of the study** is due to the substantiation of the need to create modern scientific and theoretical foundations of economic growth and the introduction of

ideas of significance in this area. The study puts forward the importance of the correct classification of economic growth in assessing modern development processes. In order to properly understand the category of growth, it is also tried to prove the need to interpret growth from a functional perspective in the approaches to international competitiveness and rating systems brought by globalization to economic policy.

***Key words: economic growth, development, utility, production factors, production capacity, price, competition, institutional system, globalization.***

**UOT 33:330.35**

***Eldost Şahmirzə oğlu SƏFƏRLİ***
***Bakı Dövlət Universiteti, doktorant***
***ORCID 0000-0003-2068-9987***
***email: seldost93@gmail.com***

# MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASINDA DAĞ-MƏDƏN SƏNAYESİNİN ROLU, MÖVCUD VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** - milli iqtisadiyyatın formalaşmasında dağ-mədən sənayesinin rolu, mövcud vəziyyəti və perspektivlərini təhlil etməkdir.

**Tədqiqatın metodologiyası** - sistemli yanaşma, statistik məlumatların müqayisəli təhlili və məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - beynəlxalq təcrübə sübut edir ki, dağ-mədən sənayesi bir çox inkişaf etmiş ölkələrin milli iqtisadiyyatının formalaşmasında lokomotiv rolunu oynamışdır. Bu sənaye sahəsində statistik göstəricilərin təhlili, korrelyasiyaların öyrənilməsi bu sahədə ölkəmizin yüksək iqtisadi potensialının reallaşdırılmasına kömək edəcəkdir.

**Tədqiqatın nəticələri** - bütün sənaye sahələri ilə mədənçilik sənayesi arasındakı yüksək müsbət düz-mütənasib asılılıq göstəriciləri, gələcəkdə də sənayenin bu sahəsinin milli iqtisadiyyata yüksək töhfələr verə bilər fikrinə riyazi əsas verir. Ölkəmizin mineral-xammal ehtiyatlarını, bu sahədəki beynəlxal əməkdaşlıqlarını nəzərə almaqla demək olar ki, bu sənaye sahəsi sürətlə inkişaf edən ölkə iqtisadiyyatında əsas rolunu daha da gücləndirə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - statistik məlumatlara əsaslanaraq ölkə iqtisadiyyatında dağ-mədən sənayesinin cari vəziyyəti təhlil edilmiş, eləcə də Azərbaycanda bu sənaye sahəsinin perspektivləri müzakirə olunmuşdur.

***Açar sözlər: dağ-mədən sənayesi, mədənçıxarma, milli iqtisadiyyat, sənaye, qiymətli metallar.***

## *Giriş*

Mədənçıxarma sənayesi bir çox ölkələrin milli iqtisadiyyatının formalaşmasında lokomotiv rolunu oynamışdır, hətta günümüzdə də bir çox ölkələrin ən əsas gəlir mənbələrindən biri olmaqla, ümumi daxili məhsulda əhəmiyyətli pay sahibidir. Belə ki, mədənçıxarma sənayesinin inkişafı çox vaxt ölkələrin resurs əldəetmə potensialını və iqtisadi artımını tənzimləyir.

Mədənçıxarma sənayesi yer təkində təbii olaraq yaranan mineralların kəşfiyyatı, işlənməsi, hasilatı və emalı ilə məşğul olan proseslərin məcmusudur. Dağ-mədən sənayesi məhsulu kimi müxtəlif iqtisadi əhəmiyyətli məhsullar – qiymətli, əlvan və qara metallar, kömür, almaz, müxtəlif tikinti materialları və s. çıxış edir. Mədən sənayesinin potensial bazar həcminə nəzər saldıqda, mədən sənayesinin dünya iqtisadiyyatına təsiri asanlıqla başa düşüləndir. Hasil edilən məhsulların bir çoxu enerjiyə tələbatın ödənməsində istifadə olunur və ya digər sənaye sahələri üçün xammal rolunu oynayır.

Azərbaycanın zəngin mədənçilik tarixi var, mədənçilik fəaliyyətinin kökləri qədim dövrlərə qədər gedib çıxır. Obyektiv tarixi, coğrafi və iqtisadi səbəblərdən Azərbaycanda mədənçıxarma sənayesinin formalaşması və inkişafı dedikdə, ilkin olaraq hər kəsin ağlına neft hasilatı və emalı, bununla birbaşa əlaqəli olan digər sənaye sahələrinin formalaşması gəlir. 19-cu əsrin ikinci yarısından etibarən Böyük Britaniyada başlayan Sənaye İnqilabının dalğası ölkəmizdə xam neftin hasilatına deyil, eləcə də metal filizlərinin hasilatı və mədənçıxarma sənayesinin digər sahələrinin də inkişafına təkan verdi.

**Azərbaycanda dağ-mədən sənayesinin formalaşması**

Azərbaycanın qərb bölgəsində, Kiçik Qafqaz sıra dağları boyu uzanan ərazidə mis, dəmir, zəy, kobalt filizləri yayılmışdır. Azərbaycanda neftdənkənar mədənçıxarma sənayesi, XIX əsrdə Ru-

siya imperiyasının mədənçıxarma sənayesində mühüm rol oynamışdır. Azərbaycan o dövrdə Rusiya imperiyasının tərkibində idi və onun mineral ehtiyatları imperiyanın ümumi iqtisadi inkişafına xüsusi töhfə verirdi. Gədəbəydə 1855-1856-cı illərdə yerli sahibkarlar tərəfindən misəritmə zavodu tikilmiş, daha sonra həmin zavod Almaniyanın “Simens” şirkəti tərəfindən alınaraq, 1865-ci ildə yenidən qurulmuşdur. Zavodda mis istehsalı ildən-ilə artırdı. Əgər 1870-ci ildə 44,213 pud mis əldə edilmişdisə, 1877-ci ildə bu, 52,988 puda çatmışdı. 1877-ci ildə Rusiyada istehsal edilmiş 213,931 pud misin 25 faizdən çoxunu Gədəbəy zavodu verirdi [3, s. 183]. Müxtəlif səbəblərə görə 1914-cü ildə Siemens qardaşlarının Gədəbəy-Qalakənd bölgəsində fəaliyyətləri başa çatmışdır.

Kobalt nisbətən nadir və qiymətli metaldır və tez-tez mis və nikel kimi metalların kəşfiyyatı və hasilatı zamanı əlavə məhsul kimi tapılır. Bəhs etdiyimiz dövrdə də ölkəmizdə ilkin kobalt istehsalı mis istehsalı ilə əlaqəli olub, onunla paralel inkişaf etmişdir. Tarixi mənbələrə nəzər saldıqda görə bilərik ki, Gədəbəydə misin sənaye üsulu ilə emalına qədər kobalt istehsalı çox zəif olmuşdur. 19-cu əsrin sonlarına doğru isə kobalt filizi hasilatında gözəçarpan inkişaf qeydə alınmışdır. Həmin dövrdə Almaniya, İsveç, Norveç, Macarıstan, Amerikaya ixrac edilən filizin miqdarı artmışdı. 1893-cü ildə həmin ölkələrə 70 min pud filiz göndərilmişdi. [3, s. 184]

1887-ci ildə A. Varentsov Daşkəsən dəmir və kobalt yataqları haqda ümumi məlumatlar nəşr etdirir. Onun sözlərinə görə, 1878-ci ilin noyabrında kobalt parıltısı yuvası aşkar edilib və 1879-cu ilin sonuna qədər birinci növ 3,566 pud, ikinci növ (mis kolçedanı ilə) 180 pud kobalt filizi və mis kolçedanı 5,137 pud istehsal olunub. Mis kolçedanı istehsal yerində yandırılıb və Gədəbəyə daşınıb. 1880-1882 illərdə sahədə yalnız kəşfiyyat işləri aparılmış, lakin yeni kobalt parıltısı yuvaları aşkar olunmayıb. 1883-1884 illərdə kəşfiyyat xərclərini ödəmək üçün köhnə işlənmiş sahələrdən və tullantıxanalardan istifadə edilmişdir. Nəticədə, 458 pud 33 funt kobalt parıltısı və 15 pud 711 funt mis kolçedanı çıxarılmışdır. 1885-ci ildə yeni və çox zəngin kobalt parıltısı yuvaları aşkar edilmişdir. Beləliklə, ruslar tərəfindən 1917-ci ilədək (həmin il də daxil olmaqla ) Daşkəsən yatağından 1,300 pud dəmir filizi çıxarılmış və əridilərək istifadə edilmişdir. 1914-cü ildə Daşkəsən dəmir filizi yatağı Almaniya Metallurqları Cəmiyyətini maraqlandırdı. Onun nümayəndələri, Daşkəsən filiz yatağının istismarı üçün keçmiş sahibkarla 30 illik müqavilə bağlamağa çalışmış, lakin Birinci Dünya müharibəsi bunun baş tutmasına mane olmuşdur.

XX əsrin əvvəllərində digər alman firması “Vagau” Balakən rayonu ərazisində əlvan metal yataqlarının axtarışı və istismarı ilə məşğul olmuş, Cixix və Köhnəmədən yataqlarından hasil edilmiş filizləri yerindəcə emal edərək, alınmış misi yerli iş adamlarına satmışdır. 1862-72–ci illərdə Naxçıvan şəhərinin yaxınlığında, Tumbul kəndində selitra istehsal edən zavod fəaliyyət göstərmişdir. XIX əsrin 80-ci illərində Şan Qirem tərəfindən, 1914-cü ildə isə ingilis Atterton tərəfindən Gömür kükürd yatağının (Naxçıvan MR) bazası əsasında kükürd istehsal edən zavod fəaliyyət göstərmişdir [14].

19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Azərbaycanda tikinti materiallarının hasilatının əhəmiyyətli artımı müşahidə edilirdi. Sənayenin digər sahələrinin inkişafı fonunda artan quruculuq işlərinin həyata keçirilməsi tikinti materiallarına olan tələbi də artırırdı. Regionun zəngin geoloji resursları tikinti üçün zəruri olan müxtəlif materialların çıxarılmasına imkan verirdi. Əhəngdaşı, gips, mərmər, kərpic və s. bu dövrdə tikinti materialları sənayesinin ən diqqətəlayiq məhsulları idi. Qobustan, Daşkəsən və Qaradağ rayonlarında çoxlu əhəngdaşı yataqları var idi. Əhəngdaşı açıq mədənlərdən çıxarılır və tikinti sənayesində sement, əhəng və tikinti materiallarının istehsalı üçün istifadə olunurdu. Bu dövrdə mərmər hasilatı da əhəmiyyətli idi. Azərbaycanın mərmər karxanaları, xüsusilə Quba və Daşkəsən rayonlarında tikinti və memarlıq məqsədləri üçün yüksək keyfiyyətli mərmər var idi. Çıxarılan mərmərdən binaların, abidələrin, heykəllərin və digər bəzək elementlərinin tikintisində istifadə edilmişdir. 80-90-cı illərdə Bakı və Yelizavetpol quberniyalarında 200-dən çox kərpic istehsal edən müəssisə vardı. Bakıda Nargin, Vostok firmaları, habelə R.K.Rəcəbov, Sabunçuda Əmiraslanov, Rzayev və Balaxanıda Q.T.İbrahimova məxsus iri zavodlar işləyirdi. Bu zavodların illik istehsal məbləği milyon manatdan çox idi [3, s. 185]. Yerli tikinti materiallarının, mövcudluğu idxaldan asılılığı azaldıb,infrastruktur layihələrinin, urbanizasiyanın və

memarlıq işlərinin sürətlə genişlənməsinə təkan vermişdir.

I Dünya Müharibəsinin başlanması bir çox sahələrdə olduğu kimi dağ-mədən sektorunun da inkişafında maneə və ləngimələrə səbəb olur. Həmin dövrdə iqitisadi resurslar əsasən müharibənin gedişində əhəmiyyət kəsb edən, yanacağın və silah-sursatın emalına fokuslanan sənaye sahələrinə - xam neft, kimya və maşınqayırma sənayelərinə yönləndirilmişdir. Müharibənin fəsadlarını aradan qaldırmaq, dağ-mədən sənayesini bərpa etməyin nə qədər mürəkkəb və vaxt aparan proses olduğunu təsəvvür etmək yəqin ki çətin deyil. Sonradan ölkə ərazisində yeni müstəqil dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, lakin iki ilə çatmayan qısa ömrünü, Sovet hakimiyyətinin qurulmasını və bütün bu proseslərin fonunda ölkə ərazisindəki siyasi vəziyyəti, hərc-mərcliyi nəzərə alanda iqtisadi resursların dağınıqlığı və səmərəsiz istifadəsi anlaşılan olur.

Sovet dövründə təbii qaynaqların istifadəsi əsasən qısa və uzunmuddətli ehtiyaclar diqqətə alınaraq planlanmışdı. Mədən yataqlarından, köhnə mərkəzi hökumət tərəfindən səmərəli şəkildə istifadə olunmayanlarının bəzilərində məhsuldarlıq aşağı düşmüş, bəziləri isə bağlanmış və ya iqtisadiyyata yük olacaq vəziyyətə düşmüşdür [4, s. 74].

Qeyd olunanlarla yanaşı bu tarixi reallığı da qəbul etmək lazımdır ki, Sovet dövründə aparılmış geoloji axtarış işləri bir çox mədənlərin kəşfi ilə nəticələnmiş, sənaye əhəmiyyətli yataqların rezervləri təsdiq edilmiş və istismara cəlb edilmişdir. Bu yataqların bazasında müstəqillik illərinə qədər müxtəlif müəssisələr fərqli adlarda fəaliyyət göstərmişdir. Bununla belə bir daha qeyd etmək yerinə düşər ki, bu rezervlər adətən Ümumittifaq emal sənayesini xammal ilə təmin etmək məqsədi ilə qısamüddətli və səmərəsiz hasil edilmişdir.

İkinci Dünya müharibəsi dövründə İttifaq tərkibində Azərbaycanın müharibəyə cəlb olunması, təbii ki, ölkə iqtisadiyyatının dağ-mədən sektoruna da təsirsiz ötüşməmişdir. Həmin illərdə Azərbaycanın bütün ittifaqı yanacaq-sürtkü materialları ilə təmin edən əsas ölkə olması, ölkəmizin dağ-mədən sənayesini də neft sənayesinin ehtiyacları üçün qeyri-filiz yataqları üzrə kəşfiyyat və hasilat işlərini intensivləşdirməyə dolayı yolla məcbur edirdi. Bu qəbildən olan qeyri-filizlərə misal olaraq barıt, kükürd kolçedanı, kaolin, odadavamlı gil və s. göstərmək olar. Bundan əlavə, dağ-mədən sənayesində müdafiə əhəmiyyətli mineral xammal ehtiyatlarının öyrənilməsi də ön plana çəkilmişdir. Bununla əlaqədar 1939-cu ildə kəşf edilmiş Parağaçay molibden yatağında istismar işlərinə başlanılmış, istismar edilən Şimali Daşkəsən yatağında kobalt filizinin çıxarılması sürətləndirilmişdir [14].

Regionun ən nəhəng dəmir filizi yataqları kompleksi olan “Daşkəsən” dəmir filizi sahəsində hasilat işlərinə SSRİ dönəmində başlanılıb. Bu məqsədlə 1945-ci ildə “Daşkəsən Filiz İdarəsi” yaradılıb. İdarə yaradıldıqdan 9 il sonra dəmir filizi konsentratının istehsalına start verilib. “Daşkəsən” dəmir filizi sahəsi 1954-cü ildən 1994-cü ilə qədər intensiv olaraq istismar edilib. 1994-cü ildən 2017-ci ilədək yataqda istismar işləri müəyyən fasilələrlə qismən aparılıb [12].

**Müstəqil Azərbaycanın dağ-mədən sənayesinin iqtisadi əhəmiyyəti**

Ölkəmizin təbii sərvətlərinin öyrənilməsi və mənimsənilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi və xalqımızın ümumu rifah halının yaxşılaşdırılması istiqamətində tam şəkildə sərf olunması yalnız Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra mümkün olub. Tam əminliklə demək olar ki, Azərbaycanın dağ-mədən sənayesinin yeni tarixi şəraitdə müasir inkişaf konsepsiyasının işlənib hazırlanması da ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərindən biridir. Heydər Əliyev 1993-cü ildə ölkəmizdə yenidən hakimiyyətə gəldikdən sonra neft və qaz sənayesinin inkişafı üçün xarici investorların cəlb edilməsi, hasilatın pay bölgüsü prinsipləri əsasında “Əsrin müqaviləsi”nin imzalanmasında qazanılan əməkdaşlıqlar və təcrübə qısa zaman sonra dağ-mədən sənayesində də oxşar müqavilələrin imzalanması ilə nəticələnmişdir.

Ümummilli liderin dağ-mədən sahəsinin inkişaf etdirilməsi ilə bağlı gərgin əməyi və praqmatik siyasəti nəticəsində bu sahədə aparılan işlərin miqyası genişlənib, yeni dağ-mədən ərazilərində geoloji-axtarış işlərinin həcminin artırılması, ölkəmizin potensialının genişləndirilməsi və xarici investorların ölkəmizdə bu sahəyə əsaslı kapital qoyuluşuna nail olunub. Təsadüfi deyil ki, “Əsrin müqaviləsi”ndən 3 il kimi qısa müddət keçməmiş 1997-ci il avqustun 20-də Azərbaycanın

“Azərqızıl” Dövlət Şirkəti ilə Amerikanın “R.V. İnvestment Group Service LLC” Şirkəti arasında “Hasilatın pay bölgüsü” tipli saziş imzalanmışdır. Uzunmüddətli iqtisadi səmərəliliyi əsas götürən bu müqavilə əsasında 2009-cu ildən başlayaraq Azərbaycan öz qızılını dünya birjalarına çıxarmışdır.

Heydər Əliyev tərəfindən əsası qoyulan bu fəaliyyət sonrakı dövrdə də cənab prezident İlham Əliyev tərəfindən davam etdirilmiş, bu məqsədlə 2015-ci il 11 fevral tarixli 1047 nömrəli prezident Sərəncamına əsasən “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Qısa müddət ərzində “AzerGold” QSC-nin ilk mədən layihəsi olan “Çovdar” qızıl yatağında da hasilat işlərinə başlanılmışdır.

Ölkəmizin dağ-mədən sənayesinin rolunu başa düşmək və qiymətləndirmək üçün bu sənaye sektorundakı bir neçə əsas statistik göstəriciləri nəzərdən keçirmək kifayət edir. İlk öncə onu qeyd edək ki, mədənçıxarma sənayesindəki statistik göstəricilər araşdırılarkən “neft və təbii qazın hasilatı” ilə bağlı göstəricilərin effekti nəzərə alınmadan metal filizlərinin hasilatı, mədənçıxarma sənayesinin digər sahələri və mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi ilə məşğul olan müəssisələrin statistik göstəriciləri gözdən keçirilmişdir.

İlkin göstərici kimi mədənçıxarma sənayesində fəaliyyət göstərən müəssisələrin sayının ümumi sənaye sahələrində fəaliyyət göstərən müəssisələrin sayı ilə müqayisəsi aparılmışdır. Cədvəl 1-də 2009-2020-ci illər ərzində ölkədə bu sahədə fəaliyyət göstərən müəssisələrin sayı və digər sənaye sahələrində fəaliyyət göstərən şirkətlərin sayı verilmişdir.

**Cədvəl 1.**

**Fəaliyyət göstərən sənaye müəssisələrinin iqtisadi fəaliyyət növlərinə görə qruplaşdırılması**

| Sənaye sahələri | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Metal filizlərinin hasilatı | 3 | 3 | 3 | 3 | 3 | 3 | 4 | 5 | 5 | 6 | 6 | 8 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 229 | 227 | 204 | 200 | 208 | 203 | 203 | 173 | 156 | 161 | 164 | 164 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 47 | 54 | 54 | 58 | 78 | 87 | 87 | 88 | 89 | 110 | 130 | 133 |
| **Cəmi mədənçıxarma sənayesi (Xam neft və təbii qazın hasilatından başqa) (A)** | **279** | **284** | **261** | **261** | **289** | **293** | **294** | **266** | **250** | **277** | **300** | **305** |
| Xam neft və təbii qaz hasilatı | 35 | 27 | 28 | 28 | 29 | 29 | 31 | 32 | 31 | 32 | 31 | 32 |
| **Cəmi mədənçıxarma sənayesi** | **314** | **311** | **289** | **289** | **318** | **322** | **325** | **298** | **281** | **309** | **331** | **337** |
| **Emal sənayesi (Qida, tekstil, kimya, avtomabil və s.)** | 2,103 | 1,909 | 1,791 | 1,795 | 1,764 | 1,762 | 1,778 | 1,775 | 1,826 | 2,034 | 2,330 | 2,515 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizat** | 230 | 226 | 216 | 215 | 220 | 223 | 239 | 239 | 228 | 232 | 236 | 249 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | 147 | 204 | 212 | 215 | 225 | 227 | 241 | 249 | 247 | 262 | 272 | 288 |
| **Bütün sənaye (B)** | **2,794** | **2,650** | **2,508** | **2,514** | **2,527** | **2,534** | **2,583** | **2,561** | **2,582** | **2,837** | **3,169** | **3,389** |

Mədənçıxarma sənayesində (Neft və təbii qazın hasilatından başqa) fəaliyyət göstərən şirkətlərin sayının ümumi sənayedə fəaliyyət göstərən sənaye müəssisələrinin sayına olan nisbəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| **Sənaye sahələri** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Metal filizlərinin hasilatı | 0.1% | 0.1% | 0.1% | 0.1% | 0.1% | 0.1% | 0.2% | 0.2% | 0.2% | 0.2% | 0.2% | 0.2% |
| Mədənçıxarma sənayesinin digər sahələri | 8.2% | 8.6% | 8.1% | 8.0% | 8.2% | 8.0% | 7.9% | 6.8% | 6.0% | 5.7% | 5.2% | 4.8% |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 1.7% | 2.0% | 2.2% | 2.3% | 3.1% | 3.4% | 3.4% | 3.4% | 3.4% | 3.9% | 4.1% | 3.9% |
| **Cəmi mədənçıxarma sənayesi (Xam neft və təbii qazın hasilatından başqa) = A/B** | **10.0%** | **10.7%** | **10.4%** | **10.4%** | **11.4%** | **11.6%** | **11.4%** | **10.4%** | **9.7%** | **9.8%** | **9.5%** | **9.0%** |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Dövri statistikanı nəzərdən keçirəndə aydın olur ki, 2009-2020-ci illər ərzində xam neft və təbii qazın hasilatı ilə məşğul olan müəssisələr xaric, mədənçıxarma sənayesində fəaliyyət göstərən müəssisələrin sayının bütün sənayedə fəaliyyət göstərən müəssisələrin sayına nisbətinin orta göstəricisi 10.3 % olmuşdur ki, bu da özlüyündə mədənçıxarma sənayesinin ölkənin sənayesində tutduğu mühüm yerin xəbərçisidir. İqtisadi fəaliyyət növünə görə müəssisələrin sayının müqayisəsini apardıqda, Qrafik 1-də də göründüyü kimi mədənçıxarma sənayesində (xam neft və təbii qazın hasilatı xaric) fəaliyyət göstərən müəssisələrin qıda məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrdən sonra qeyd edilən dövrdə sənayedə ən əhəmiyyətli fəaliyyət növü olduğu üzə çıxır.

Digər bir əhəmiyyətli göstərici kimi isə sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyərini araşdırdıqda aydın olur ki, 2009-2020-ci illərin ərzində mədənçıxarma sənayesinin məhsullarının bütün sənaye məhsullarının dəyərinə olan orta nisbəti 5.21% təşkil etmişdir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə ilk dəfə qiymətli metalların istehsalına 2009-cu ildə başlanılmışdır və bu dövr ərzində hər keçən il bu sektor üzrə məhsulun dəyərinin payı artmışdır. Belə ki, 2009-cu ildə haqqında danışdığımız göstərici 2.12% idi isə, 2020-ci ildə bu göstərici artıq 9.38% olmuşdur. Haqqında danışdığımız göstəricinin təhlili imkan verir ki, sənayenin bu sahəsinin ümumi ölkə sənayesində tutduğu və günü-gündən artan əhəmiyyətini aydın görək. Cədvəl 2-də 2009-2020-ci illər üzrə mədənçıxarma sənayesində istehsal olunan məhsulların dəyəri və müvafiq illər üzrə onların ümumi sənaye məhsulunun dəyərində payı göstərilmişdir.

(X) və (Y) dəyişənləri arasında asılılığı ölçmək, qeyd edilən dövr ərzində mədənçıxarma sənayesində istehsal olunan məhsulun dəyəri ilə bütün sənaye sahələrində istehsal olunan məhsulun dəyərinin korrelyasiyasını tapmaq üçün Pearsonun korrelyasiya əmsalı formulundan istifadə edilmişdir. Korrelyasiya əmsalı (r) aşağıdakı düstur ilə hesablanmış və əmsal 0.779 (və ya 77.9% korrelyasiya) olmuşdur:

$$r = \frac{n(\sum xy) - (\sum x)(\sum y)}{\sqrt{[n\sum x^2 - (\sum x)^2][n\sum y^2 - (\sum y)^2]}} = 0.779$$

Nəzəri olaraq korrelyasiya əmsalının -1 və 1 arasında dəyişdiyini və əgər əmsalın qiyməti 1-ə yaxın olarsa, onda dəyişənlər arasında əlaqənin düz mütənasib güclü əlaqə olmasının ehtimal olunduğunu bildiyimizdən, deyə bilərik ki, qeyd edilən dövr ərzində araşdırdığımız göstəricilər arasında düz mütənasib güclü əlaqə mövcuddur.




| | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft və təbii qazın hasilatından başqa digər mədənçıxarma sənayesi | 279 | 284 | 261 | 261 | 289 | 293 | 294 | 266 | 250 | 277 | 300 | 305 |
| Qida məhsullarının istehsalı | 416 | 409 | 396 | 427 | 439 | 389 | 382 | 391 | 361 | 393 | 449 | 487 |
| İçki istehsalı | 136 | 134 | 127 | 127 | 110 | 118 | 120 | 119 | 110 | 120 | 126 | 131 |
| Toxuculuq sənayesi | 114 | 85 | 77 | 72 | 72 | 66 | 68 | 66 | 67 | 74 | 80 | 89 |
| Poliqrafiya məhsullarının istehsalı | 200 | 156 | 149 | 140 | 142 | 147 | 157 | 140 | 153 | 150 | 172 | 172 |
| Kimya sənayesi | 90 | 77 | 76 | 73 | 70 | 72 | 69 | 75 | 81 | 93 | 99 | 110 |
| Tikinti materiallarının istehsalı | 307 | 280 | 244 | 220 | 209 | 230 | 239 | 224 | 229 | 236 | 254 | 266 |
| Maşın və avadanlıqların istehsalı | 89 | 72 | 64 | 57 | 59 | 61 | 59 | 58 | 58 | 64 | 77 | 82 |
| Mebellərin istehsalı | 94 | 85 | 77 | 72 | 84 | 94 | 97 | 97 | 87 | 92 | 112 | 123 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 35 | 37 | 42 | 72 | 83 | 104 | 120 | 130 | 150 | 174 | 198 | 225 |

**Qrafik 1. İqtisadi fəaliyyət növünə görə müəssisələrin sayının müqayisəsi**

*Mənbə: Qrafik Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Mədənçıxarma sənayesi ölkəyə valyuta ehtiyatlarının cəlb edilməsi baxımından da sənaye sahələri arasında olduqca əhəmiyyətlə mövqeyə malikdir. Xüsusi ilə 2015-ci ildə ölkənin milli valyutasının devalvasiyasından sonrakı statistikaya nəzər saldıqda aydın görmək olur ki, dünya bazarında xüsusi ilə qiymətli metalların birja qiymətlərindəki artım ilə birlikdə onların manat ekvivalentində dəyəri artmışdır. Cədvəl 3-də mədənçıxarma sənayemizin əsas məhsul növlərindən olan qızılın natura ifadəsində istehsal həcmləri və illik orta birja qiymətləri ilə hesablandıqda təkcə bu məhsulun istehsalından və ixracından ölkəyə 2015-2020-ci illər ərzində 83-203 milyon ABŞ dolları vəsait daxil olmuşdur.

**Cədvəl 2.**

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, milyon manat**

| Sənaye sahəsi | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Metal filizlərinin hasilatı | 6 | 63 | 74 | 68 | 51 | 55 | 87 | 128 | 262 | 249 | 314 | 391 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 37 | 59 | 83 | 66 | 65 | 49 | 54 | 38 | 59 | 56 | 72 | 82 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 435 | 542 | 681 | 726 | 881 | 900 | 1,498 | 2,174 | 3,337 | 3,209 | 3,213 | 3,023 |
| **Cəmi mədənçıxarma sənayesi (Xam neft və təbii qazın hasilatından başqa) (X)** | **478** | **664** | **839** | **860** | **998** | **1,004** | **1,639** | **2,339** | **3,659** | **3,514** | **3,599** | **3,495** |
| Xam neft və təbii qaz hasilatı | 15,981 | 20,199 | 26,055 | 24,747 | 23,658 | 20,977 | 14,723 | 18,853 | 24,375 | 31,417 | 29,258 | 19,341 |
| **Cəmi mədənçıxarma sənayesi** | 16,460 | 20,863 | 26,894 | 25,607 | 24,655 | 21,981 | 16,362 | 21,192 | 28,034 | 34,932 | 32,858 | 22,836 |
| **Emal sənayesi (Qida, tekstil, kimya, avtomobil və s.)** | 4,836 | 5,736 | 6,392 | 7,032 | 7,245 | 8,061 | 7,880 | 8,900 | 9,724 | 10,465 | 11,794 | 11,848 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 1,148 | 1,226 | 1,556 | 1,724 | 1,773 | 1,835 | 1,887 | 1,938 | 1,840 | 1,961 | 2,012 | 2,253 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | 120 | 155 | 184 | 202 | 225 | 233 | 240 | 271 | 296 | 319 | 336 | 332 |
| **Bütün sənaye (Y)** | **22,564** | **27,978** | **35,027** | **34,565** | **33,898** | **32,110** | **26,369** | **32,300** | **39,893** | **47,677** | **46,999** | **37,270** |
| **Metal filizlərinin hasilatı** | 0.03% | 0.22% | 0.21% | 0.20% | 0.15% | 0.17% | 0.33% | 0.40% | 0.66% | 0.52% | 0.67% | 1.05% |
| **Mədənçıxarma sənayesinin digər sahələri** | 0.16% | 0.21% | 0.24% | 0.19% | 0.19% | 0.15% | 0.20% | 0.12% | 0.15% | 0.12% | 0.15% | 0.22% |
| **Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi** | 1.93% | 1.94% | 1.95% | 2.10% | 2.60% | 2.80% | 5.68% | 6.73% | 8.37% | 6.73% | 6.84% | 8.11% |
| **Cəmi mədənçıxarma sənayesi (Xam neft və təbii qazın hasilatından başqa) = X/Y** | **2.12%** | **2.37%** | **2.40%** | **2.49%** | **2.94%** | **3.13%** | **6.22%** | **7.24%** | **9.17%** | **7.37%** | **7.66%** | **9.38%** |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

**Cədvəl 3.**

**Qızılın natura ifadəsində istehsal həcmi və orta birja qiymətləri ilə dəyəri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Qızıl, kiloqram | 2,229 | 1,895 | 3,667 | 3,476 | 3,712 | 3,571 |
| Qızıl, unsiya | 71,664 | 60,926 | 117,897 | 111,756 | 119,343 | 114,810 |
| Qızılın orta illik birja qiyməti*, ABŞ dolları | 1,160 | 1,248 | 1,257 | 1,269 | 1,392 | 1,770 |
| İstehsal olunan qızılın orta dəyəri, min ABŞ dolları | 83,155 | 76,050 | 148,254 | 141,869 | 166,175 | 203,211 |
| Orta illik məzənnə** | 1.03 | 1.60 | 1.72 | 1.70 | 1.70 | 1.70 |
| İstehsal olunan qızılın orta dəyəri, min manat | 85,489 | 121,472 | 255,076 | 241,181 | 282,500 | 345,462 |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*
** qızılın orta illik birja qiyməti London Qiymətli Metallar Birjasının göstəriciləri əsasında hesablanmışdır*
***orta illik AZN/ABŞ dolları məzənnəsi Azərbaycan Mərkəzi Bankının dərc etdiyi göstəricilər əsasında hesablanmışdır*

**Dağ-mədən sənayesinin iqtisadi perspektivləri**

Azərbaycanın geoloji potensialı hələ də nisbətən az istifadə olunub. Elə ərazilər var ki, onlar hərtərəfli tədqiq olunmayıb və bu, yeni faydalı qazıntı yataqlarının kəşfi üçün imkanlar yaradır. Sektora bütünlükdə tətbiq edilən sistemli yanaşma və müasir mədən texonologiyaları ölkəmizdə dağ-mədən sənayesinin inkişafı üçün böyük perspektivlər açır. Xüsusi ilə 2020-ci ildə işğal altında olan ərazilərin azad olunması ilə böyük mineral-xammal yataqlarının yenidən Azərbaycanın nəzarətinə qayıtması bu perspektivləri daha da gözəgəlimli edir.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı proqram, Azərbaycanın sosial və iqtisadi inkişafını dəstəkləmək və prioritetləri müəyyən etmək məqsədi ilə tərtib edilmiş bir planlama sənədidir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamından da başa düşüldüyü kimi, ölkə iqtisadiyyatının qarşısında duran ən önəmli məsələlərdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə ölkənin ümumi daxili məhsulunda xam neft və təbii qazdan asılılığı azaltmaqla balanslaşdırılmış və dayanıqlı iqtisadiyyatın inkişafına nail olmaqdır. Bu balanslaşdırılmış iqtisadi inkişaf sosial sabitliyi dəstəkləməli və daha geniş iqtisadi fəaliyyət bazası yaratmaqla bərabərsizlikləri azaltmalıdır.

Növbəti onillikdə dağ-mədən sənayesinin qeyri-neft sektorunda əhəmiyyətli mövqeye malik olmaqla, yeni gəlir mənbələri yaradaraq ölkənin birbaşa ixrac potensialının artırılmasına, əhalinin məşğulluğunun artmasına, beynəlxalq əməkdaşlıq və xarici investisiyaların cəlb edilməsinə, eləcə də əlaqəli sənaye sahələrinin stimullaşdırılmasına səbəb olacaqdır.

Dağ-mədən sənayesinin iqtisadi əhəmiyyəti ölkə rəhbərliyi tərəfindən başa düşülərək, bu sahəyə xüsusi diqqət ayrılır. Belə ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 6 avqust 2020-ci il Sərəncamı ilə Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.64-cü bəndində göstərilmiş məbləğdən “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılması nəzərdə tutulmuşdur [3]. İlkin hesablamalara görə dəmir filizi yataqlarının istismara verilməsinin 2035-ci ilə qədər ölkənin məcmu ÜDM-nə təsiri 6.8 milyard manat olacaqdır.

Dağ-mədən sənayesində iqtisadi islahatların davam etdirilməsi ilə bağlı, 2020-ci il 1 sentyabr tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən ölkədəki dəmir filizi yataqlarının öyrənilməsi, kəşfiyyatı və bu qəbildən olan digər zəruri məsələlərin həlli səlahiyyətləri “AzerGold” QSC -yə verilmişdir. Dağ-mədən hasilat sahəsinin və mədən hasilatı ilə əlaqədar yan sahələrin inkişafının təmin edilməsi məqsədilə “AzerGold” QSC dünyaca nüfuzlu məsləhətçi şirkət olan “Boston Consulting Group” ilə birgə əməkdaşlıq çərçivəsində 2020-2035-ci illəri əhatə

edən dövr üzrə strateji proqram hazırlayıb və qanunvericiliyin tələblərinə uyğun olaraq təsdiq etmişdir. Cəmiyyətin korporativ strategiyası çərçivəsində müəyyən edilmiş layihələrin icrası ilə 2035-ci ilədək ölkənin məcmu ÜDM-nə 8,9 milyard dolları dollaradək həcmində töhfənin verilməsi, Cəmiyyətin səhmdarı olan dövlətə dividendlərin ödənilməsi, habelə, layihələrin icrasının ən fəal mərhələsində 14 min nəfərə qədər işçinin cəlb edilməsi proqnozlaşdırılır [13].

Ötən il böyük investisiya tələb edən və kifayət qədər mürəkkəb olan istehsal zəncirinin yaradılması ilə bağlı görülən işlərə 44 milyon 64 min manat vəsait sərf edilib. Dövlət büdcəsinə əlavə yük olmamaq üçün xarici investorun cəlb edilməsi, o cümlədən müxtəlif maliyyə alətlərindən istifadə imkanlarının araşdırılması istiqamətində fəaliyyət davam etdirilir.

2030-cu ilə qədər ölkəmizdə qarşıya qoyulmuş sosial-iqtisadi inkişafa dair beş mühüm Milli Prioritetlərdən biri də "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış", bu ərazilərin iqtisadi potensialının ölkə iqtisadiyyatına tam inteqrasiyasını da nəzərdə tutur. Azad edilmiş ərazilərimizdə əsas prioritetlərdən biri dağ-mədən sənayesinin inkişafı, eləcə də böyük potensiala malik bir neçə filiz ehtiyatlarının kəşfiyyatı, istismarı və hasilatıdır. Yerli və beynəlxalq mədən şirkətləri, sənaye assosiasiyaları, tədqiqat institutları ilə əməkdaşlıq bu sahədə yeni bilik və texnologiyaların öyrənilməsi, mədənçıxarma sənayesində qabaqcıl təcrübələrin əldə edilməsi baxımından olduqca vacibdir. Birgə müəssisələrdə və tərəfdaşlıqlarda iştirak etmək həm də kapital tutumlu bu sənaye sahəsində maliyyə resurslarına çıxış imkanlarını daha əlçatan edəcəkdir.

Bu sahədə atılan ilkin addımlar onu deməyə əsas verir ki, Azərbaycn Hökuməti beynəlxalq əməkdaşlığa və investisiyalara müsbət yanaşır. Uzun illərdi Azərbaycanda hasilatın pay bölgüsü tipli sazış əsasında fəaliyyət göstərən ABŞ-ın R.V. Investment Group Services, LLC şirkəti ilə bağlanmış müqaviləyə dəyişiklik edilmiş və şirkətə əlavə kontrakt sahələri üzrə hüquqlar verilmişdir.

Bundan başqa 2021-ci ildə Türkiyənin böyük holdinqlərindən biri olan "Cengiz Holding"-in törəmə müəssisələri olan "Eti Bakır A.Ş." və "Artvin Maden A.Ş." şirkətləri ilə Kəlbəcər rayonu ərazisindəki filiz yataqlarının işlənməsi ilə bağlı müqavilələr imzalanmışdır.

Tam əminliklə demək olar ki, Qarabağ bölgəsində dağ-mədən sənayesinin yüksəlişi iqtisadi artıma təkan verə, məşğulluq imkanları yarada, investisiyalar cəlb edə və davamlı və məsuliyyətli mədənçilik təcrübələrini təmin etməklə regionun və bütövlükdə ölkənin ümumi inkişafına töhfə verə bilər.

Ölkə ərazisində zəngin mineral xammal ehtiyatlarının mövcudluğu bu gün ölkədə mədənçıxarma sektorunun böyüməsində, iqtisadi əhəmiyyətinin artımında, daxili və xarici investisiyalardan səmərəli istifadədə əlavə imkanlar yaradır. Ölkəmizin geo-siyasi mövqeyi, zəngin mədənçilik təcrübəsi, uzun illər ərzində formalaşmış insan kapitalı, qanunvericilik bazası və beynəlxalq əməkdaşlıqda etibarlı tərəfdaş kimi tanınması ölkəmizi mədən sənayesi çiçəklənən bir respublikaya çevirmək potensialını ortaya qoyur.

## *Nəticə*

Ölkəmizin zəngin mədənçilik tarixi, qiymətli faydalı qazıntı yataqları, bu sahədə formalaşdırılmış və dayanıqlı siyasət mədənçilik sənayesinin ölkə iqtisadiyyatında əhəmiyyətli yer tutması ilə nəticələnmişdir. Təsadüfi deyil ki, son illər ərzində dağ-mədən sənayesində istehsal olunan məhsulların dəyəri ümumi sənayedə istehsal olunan məhsulların dəyərində 10%-dək paya sahibdir. Bütün sənaye sahələri ilə mədənçilik sənayesinin arasındakı yüksək müsbət düz-mütənasib asılılıq göstəriciləri, gələcəkdə də sənayenin bu sahəsinin milli iqtisadiyyata yüksək töhfələr verə bilər fikrinə riyazi əsas verir.

Respublikamızda iqtisadiyyatımızın tələbatını tamamilə ödəyə biləcək mineral xammal bazası mövcuddur. Mədənçıxarma və metal sənayesi iqlim və sosial problemləri idarə etməklə yanaşı, yeni texnologiyalar tətbiq etməyə başladığı üçün görünməmiş paradiqma dəyişikliyi ilə üzləşir. Bu məsələlər barədə məlumatlılığın artırılması və yeni rəqəmsal həllər, artan maddi tələb və investor təzyiqlərinə diqqət yetirməklə, sənaye sürətlə inkişaf edən ölkə iqtisadiyyatında əsas rolunu daha da gücləndirə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət Statistika Komitəsi – İqtisadi Statistika/Sənaye (https://www.stat.gov.az/source/industry/)
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər (https://president.az/az/articles/view/50474)
3. Daşkəsən dəmir filizi yatağının istismara verilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 avqust 2020 (https://president.az/az/articles/view/40302)
4. “Azərbaycan tarixi. Yeddi cilddə. IV cild” (Bakı, Elm, 2007)
5. “Azərbaycan İqtisadiyyatı”, Prof. Dr. Osman Nuri Aras, Dr. Elçin Süleymanov, Bakı 2016
6. “Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası”, Monoqrafiya. – Bakı: “Şərq-Qərb”, 2019
7. “Dağ-mədən sənayesinin inkişafı, islahatlar və maliyyə mexanizmləri müzakirə olunub” adlı məqalə, Bakı, 14 dekabr 2021-ci il, AZƏRTAC
8. “Yeni Qarabağnamə” – Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarında Post-Konflikt Quruculuğu, Bakı, 2022, “AzPrint” nəşriyyatı.
9. Dorin, I., Diaconescu, C., & Topor, D. I. (2014). The Role of Mining in National Economies. International Journal of Academic Research in Accounting Finance and Management Sciences, 4(3), 211–218.
10. “Role of mining in national economies”, third edition - International Council on Mining & Metals
11. “Mining’s contribution to national economies between 1996 and 2016”, Magnus Ericsson & Olof Löf, 2019
12. “Macroeconomic Management in a Mineral-Rich Economy” Policy Note , International Growth Center, 14/0105, March 2014
13. https://www.azergold.az – **“**AzerGold” QSC-nin rəsmi web səhifəsi
14. http://eco.gov.az/az/tebii-servetlerimiz/faydali-qazintilar



***Элдост Шахмирза оглы Сафарли***
***докторант, Бакинский Государственный Университет***
***ORCID 0000-0003-2068-9987***
***Эл. Адрес: seldost93@gmail.com***


## Роль горнодобывающей промышленности в формировании национальной экономики, ее текушее состояние и перспективы


***Резюме***

**Цель исследования** - проанализировать роль горнодобывающей промышленности в формировании национальной экономики, ее текушее состояние и перспективы.

**Методология исследования** - системный подход, используются сравнительный анализ статистических данных и метод логического обобщения.

**Значимость исследования** - мировой опыт доказывает, что горнодобывающая промышленность сыграла ключевую роль в формировании национальной экономики многих развитых стран. Анализ статистических показателей в этой промышленности и изучение корелляции поможет реализовать высокий экономический потенциал нашей страны в данной сфере.

**Выводы исследования -** Высокая положительная корреляция между показателями общей промышленности и горнодобывающей отрасли дает математическую основу для идеи о том, что горнодобывающая промышленность может внести большой вклад в национальную экономику в будущем. Принимая во внимание минерально-сырьевые ресурсы нашей

страны и международное сотрудничество в этой области, можно сказать, что горнодобывающая промышленность может еще больше укрепить свою роль в динамично развивающейся экономике страны.

**Оригинальность и научная новизна исследования** - Был проведен анализ на основе статистических данных текушего положение горнодобывающей отрасли в экономике страны и обсуждены перспективы в этой отрасли.

***Ключевые слова: горнодобывающая промышленность, добыча полезных ископаемых, народное хозяйство, промышленность, драгоценные металлы.***

***Eldost Shahmirza Safarli***
***doctoral student, Baku State University***
***ORCID 0000-0003-2068-9987***
***Email: seldost93@gmail.com***

## The role of the mining industry in the formation of the national economy, its current situation and prospects

***Summary***

**The purpose of the research** - is to analyze the role of the mining industry in the formation of the national economy, the current situation and prospects.

**The research methodology** - systematic approach, statistical data analysis and logical generalization methods are used.

**Application importance of the research** - international experience proves that the mining industry has played a key role in the formation of the national economy of many developed countries. Analysis of statistical indicators in this industrial field, study of correlations will help to realize the high economic potential of our country in this field.

**The results of the research** - High positive correlation between indicators between overall industry figures and the mining industry figures gives a mathematical/statistical basis for the idea that mining industry can make high contributions to the national economy in the future. Taking into account the mineral resources of our country and international cooperation in this field, it can be said that mining industry can further strengthen its main role in the rapidly developing country's economy.

**Originality and scientific innovation of the research** - based on statistical data, the current position of the mining industry in the country's economy was analyzed, and the prospects of this industry were discussed.

***Key words: mining industry, mining, national economy, industry, precious metals.***

UOT 334.021:35

*Rza Tofiq oğlu MİRZƏYEV*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin magistrantı;*

*Elmi rəhbər: Şəms Teyyub qızı ƏLİYEVA*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti*

# DÖVLƏTİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİNİN REALLAŞDIRILMASI MEXANİZMİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi müxanizminin təkmilləşdirilməsi üçün təklif və tövsiyələrin verilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası -** sistemli yanaşma, ümumiləşdirmə, ekspert metodları.

**Tədqiqatın nəticələri -** dövlətin iqtisadi təhlükəsizliyinə təsir edən amillər tədqiq edilmiş, onların tətbiqinin və istifadəsinin yaxşılaşdırılması üçün müvafiq tövsiyələr verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** - tədqiqatın nəticələri və irəli sürülən təkliflər dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsi üçün istifadə edilə və mövcud resurslarından daha səmərəli istifadə etməyə imkan verə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizminin təkmilləşdirilməsinin zəruriliyi əsaslandırılır və onun konkret yolları göstərilir.

***Açar sözlər: dövlət, iqtisadi təhlükəsizlik, mexanizm, təkmilləşdirmə, reallaşdırma.***

## *Giriş*

“Azərbaycan Respublikasında bazar mühitinin formalaşdığı indiki şəraitdə dövlət quruculuğunun möhkəmləndirilməsinin əsas şərtlərindən biri həm ölkənin, həm də mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir” [1]. İqtisadi təhlükəsizlik kompleks anlayışdır. Dövlətin iqtisadi təhlükəsizliyi ilk növbədə iqtisadiyyatın və onun strukturlarının elə vəziyyətidir ki, bu milli dəyərləri müdafiə etməyə yönəldilən sosial yönümlülüyə, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə təmin olunmasına imkan verir. İqtisadi təhlükəsizlik-milli iqtisadiyyatın müstəqilliyini, onun davamlılığını, sabitliyini və daima yeniləşməsini təmin edən şərtlər və amillərin məcmusudur. Respublikamızda mövcud olan sosial-siyasi sabitlik dövlətimizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün real şərait yaratmış, iqtisadiyyata daxili və xarici təhlükələrin təsir dairəsi əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır. Azərbaycan iqtisadiyyatında baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri göstərir ki, dövlətimiz iqtisadi təhlükəsizliyini təmin etmək iqtidarındadır. Təbiidir ki, heç bir ölkənin, o cümlədən Azərbaycanın, iqtisadi təhlükəsizliyinin tam mənada təmin edilməsi o qədər də asan məsələ deyildir. Korrupsiya, gizli iqtisadiyyat cəmiyyətimizin reallığıdır, xarici təhdidlər həmişə mövcud olmuş və yəqin ki, gələcəkdə olacağı da istisna deyildir. Ona görə də dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi, daxili və xarici təhdidlər nəzərə alınmaqla, daim təkmilləşdirilməlidir.

**İqtisadi təhlükəsizliyin mahiyyəti və anlayışı**

İqtisadi təhlükəsizlik dedikdə dövlətin bütün milli ehtiyatlarına və istehsalına tam nəzarəti və sərbəst iqtisadi qərar qəbul edə bilməsi; milli iqtisadiyyatın dayanıqlığı və sabitliyinin təmin edilməsi, mülkiyyətin bütün formalarının qorunması və fəaliyyətinə şərait yaradılması, vəziyyətin dayanıqlığını poza biləcək addımların qarşısının alınması; iqtisadiyyatını inkişaf etdirmək qabiliyyətinin olması başa düşülür.

İqtisadi təhlükəsizlik sadəcə milli maraqların qorunması deyil, hakimiyyətin hazırlığı, iqtisadi inkişafın təmin edilməsi və qorunması, eləcə də digər aspektləri özündə cəmləşdirir. İqtisadi təhlükəsizliyin obyekti təkcə dövlət deyil, eyni zamanda onun iqtisadi sistemi, təbii sərvətləri, ictimai institutları, təşkilatlar və şəxslərdir. “Hazırda dövlətin, regionların, müəssisə və təşkilatların, ictimai və biznes sektorlarının iqtisadi maraqlarını qoruya bilən üsul və mexanizmlərin formalaşdırıl-

masına yeni konseptual yanaşmaların axtarışı aparılır ki, bu da sosial-iqtisadi strategiyada öz ifadəsini tapır” [3].

“İqtisadi təhlükəsizlik” anlayışı iqtisadi nəzəriyyə və politalogiya elmlərinin sintetik kateqoriyasıdır, iqtisadi cəhətdən müstəqil və iqtisadi inkişaf, iqtisadi suverenlik, iqtisadi dayanıqlılıq, iqtisadi təzyiq və s. kateqoriyalar ilə sıx əlaqədardır.

İnkişaf-iqtisadi təhlükəsizliyin əsas komponentlərindəndir. Əgər iqtisadiyyat inkişaf etmirsə onda dövlətin yaşamaq imkanları aşağı düşəcək, daxili və xarici təhlükələrlə mübarizə aparmaq qabiliyyəti azalacaq. Dayanıqlılıq və təhlükəsizlik iqtisadiyyatın əsas və vahid sistemi kimi onun əsas xüsusiyyətidir.

İqtisadi təhlükəsizlik anlayışı müxtəlif ölkələr üzrə müxtəlif xarakter və məzmuna malik olmaqla yanaşı, dinamik bir anlayışdır. İqtisadi əlaqələrin liberallaşdığı müasir şəraitdə iqtisadi təhlükəsizliyin aşağıdakı səviyyələri fərqləndirilir:

- beynəlxalq iqtisadi təhlükəsizlik (qlobal və regional);
- milli iqtisadi təhlükəsizlik (ölkə və ya ölkədaxili);
- xüsusi iqtisadi təhlükəsizlik (müəssisə, firma, biznes).

Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasına hüquqi zəmanət, sosial, siyasi quruluşundan asılı olmayaraq ölkələrin bərabər hüquqa malik olmalarıdır. Bu zaman dünya birliyinin üzvü olan hər bir dövlət sosial-iqtisadi inkişaf strategiyasını seçməkdə azaddır.

Milli iqtisadi təhlükəsizlik iqtisadiyyatın və institutların elə vəziyyətidir ki, milli maraqların zəmanətli müdafiəsi təmin olunur, ölkə özünün suveren inkişaf yolunu və modelini müstəqil seçmə imkanına malikdir.

Xüsusi iqtisadi təhlükəsizlik-müəssisələr, müxtəlif firma və təşkilatlar üzrə maliyyə, kommersiya, elmi-texniki-texnoloji informasiyanın, kadrların, sosial inkişafın təmin edilməsinə imkan verən maddi-material və intellektual resursların əlaqələrinin və münasibətlərinin hüquqi və iqtisadi vəziyyətidir.

Hər bir dövlətin iqtisadi təhlükəsizliyinin parametrləri müxtəlifdir və bu onun məxsus olduğu bir sıra təbii və qeyri-təbii potensialından asılıdır. Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin təmininə təsir edən amilləri iki qrupa bölmək olar. Birinci təbii amillərdir ki, onlara aşağıdakıları aid etmək olar:

- ölkənin malik olduğu təbii ehtiyatlar;
- ölkənin yerləşdiyi coğrafi mövqe;
- əmək ehtiyatları və s.

İkinci qrup amillər isə bilavasitə mövcud hökumətin yürütdüyü siyasətdən asılıdır:

- tətbiq edilən idarəçilik metodları;
- mövcud iqtisadi qanunvericilik;
- bazar infrastrukturlarının vəziyyəti;
- lazımi iqtisadi biliklər və informasiya sistemi;
- ölkənin beynəlxalq əmək bölgüsündə yeri;
- ölkənin dünya iqtisadiyyatına inteqrasiya səviyyəsi və s.

Hər bir dövlətin iqtisadi təhlükəsizliyi özünəməxsus mürəkkəb daxili struktura malikdir. Onu aşağıdakı üç elementə görə fərqləndirmək olar:

a) iqtisadi müstəqillik mütləq xarakter daşımır. Belə ki, beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları bir-birindən asılı edir. Belə şəraitdə iqtisadi müstəqillik milli resurslar üzərində nəzarəti, elmi-texniki nailiyyətlərdən istifadə etməklə istehsal səviyyəsini, rəqabət qabiliyyətli məhsul istehsalı və mədəniyyətini yüksəltməyi, dünya bazarlarında layiqli yer tutmağı qarşıya qoymalıdır;

b) milli iqtisadiyyatın sabitliyi və dayanıqlığı mülkiyyətin bütün formalarının müdafiə olunmasını, sahibkarların aktivliyi üçün etibarlı şəraitin və zəmanətin yaradılmasını, iqtisadi mühiti gərginləşdirən amillərin qarşısının alınmasını ön plana çəkməlidir;

c) dinamik inkişaf edən müasir dünyada özünün inkişaf və tərəqqi qabiliyyətinin təmin edilməsi. Buna nail olunması investisiya və innovasiyalar üçün əlverişli mühitin yaradılmasına, istehsalın daim yeniləşdirilməsinə, işçilərin peşə, təhsil və ümumi mədəni səviyyəsinin yüksəldilməsinə nail

olmaq lazımdır.

İqtisadi təhlükəsizliyin mahiyyətini iqtisadiyyatın vəziyyəti və hakimiyyət institutları vasitəsilə müəyyən etmək olar, hansı ki, milli maraqların müdafiəsini təmin etməyə zəmanət verir, siyasəti sosial yönümdə istiqamətləndirir.

İqtisadi təhlükəsizlik təkcə milli maraqların qorunması ilə məhdudlaşdırılmamalıdır, həm də, dövlət institutlarının milli maraqlarının reallaşması və müdafiəsi mexanizmini formalaşdırmalı, milli iqtisadiyyatın inkişafına şərait yaratmalı, cəmiyyətdə sosial-siyasi sabitliyə nail olmalıdır. Nəzərə almaq lazımdır ki, bu və ya digər ölkənin iqtisadi inkişaf səviyyəsi iqtisadi təhlükəsizliyin şərtlərinin reallaşması mexanizmini müəyyənləşdirir.

**İqtisadi təhlükəsizliyin reallaşdırılması mexanizmi**

“Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi mexanizmi-iqtisadi təhlükələrin dəf edilməsi üçün iqtisadi-təşkilati və hüquqi tədbirlər sistemidir” [2]. Bu mexanizm özündə aşağıdakı elementləri əks etdirir:

- iqtisadi təhlükəsizliyə təsir edə biləcək amillərin proqnozunu hazırlamaq və onlar üzrə hərtərəfli obyektiv monitorinq tətbiq etmək;
- sosial-iqtisadi göstəricilərin son mümkün olan həddini müəyyən etmək;
- iqtisadi təhlükənin yaranmasına səbəb ola biləcək daxili və xarici amillərin aşkar edilməsi istiqamətində dövlətin fəaliyyətini təşkil etmək.

Bu elementlərin hər birinə ayrı-ayrılıqda nəzər yetirək.

İqtisadi monitorinq inkişaf göstəricilərinin səviyyəsini müşahidə etmək üçün istifadə olunur, belə ki, iqtisadi monitorinqin aparılması ilə aşağıdakı inkişaf göstəricilərinin səviyyəsini müəyyən etmək mümkün olur:

- ümumi milli məhsulun, ümumi daxili məhsulun, milli gəlirin səviyyəsini;
- maddi istehsal sahələrinin inkişaf səviyyəsini;
- idxal və ixracın səviyyəsini;
- işsizliyin səviyyəsini;
- yaşayış minimumu olan əhalinin sayını;
- ölkənin xarici borcunun səviyyəsini;
- büdcə kəsirinin səviyyəsini.

İqtisadi təhlükə yaradan mühitin vaxtında aşkar edilməsi dövlətin funksiyasıdır. Onun səmərəli fəaliyyəti iqtisadi təhlükəsizliyi təmin edir. Bunun üçün dövlət aşağıdakı istiqamətlərdə tədbirləri hazırlayıb həyata keçirməlidir:

- iqtisadi göstəricilərin proqnozu ilə faktiki göstəricilər arasındakı fərqləri müəyyən etməli, mənfi kənarlaşmaların aradan qaldırılması üçün tədbirlər görməlidir;
- iqtisadi təhlükəsizlik baxımından maliyyə və təsərrüfat fəaliyyətinin ekspertizasını həyata keçirməlidir.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək demək olar ki, iqtisadi təhlükəsizlik-iqtisadiyyatın milli və beynəlxalq səviyyədə cəmiyyətin tələbatının səmərəli ödənilmə qabiliyyətidir. Buradan iki nəticə çıxarmaq olar:

a) dövlətin iqtisadi təhlükəsizliyi hər şeydən əvvəl, iqtisadiyyatın özünün səmərəliliyinin təmin olunmasıdır, yəni dövlətin həyata keçirdiyi müdafiə tədbirləri ilə yanaşı, iqtisadiyyat özünü yüksək əmək məhsuldarlığı, keyfiyyətli məhsul istehsalı və s. əsasında qurmalıdır;

b) ölkənin iqtisadi təhlükəsizliyinin təminatı hər hansı bir dövlət orqanının, xidmətinin səlahiyyətində olmamalıdır, bütün dövlət orqanları sistemi ilə iqtisadiyyatın bütün vəsilələri (strukturları) tərəfindən himayə olunmalıdır.

İqtisadi təhlükəsizliyin təmin olunmasının mühüm əsas məsələləri dövlətin sosial-iqtisadi inkişaf proqnozu tərtib edilərkən nəzərə alınmalıdır. İqtisadi təhlükəsizlik strategiyasının səmərəliliyinə nail olmaq üçün dəqiq və etibarlı formalaşdırılmış dövlət sistemi olmalıdır. Bu sistem ölkədə baş verən təhdidlərin qarşısının daha az itkilərlə alınmasına imkan verməlidir. Bu zaman iqtisadiyyata dövlət müdaxiləsinin hədləri və dövlət tənzimləmə metodlarının səmərəli inkişafı təmin olun-

malıdır. Dövlət iqtisadi təhlükəsizlik strategiyasını, məqsədlərini, ölkənin baş verə biləcək iqtisadi böhrandan çıxarılması məsələlərini müəyyənləşdirdikdən sonra konkret tədbirlər sistemi hazırlamalıdır. İqtisadi təhlükəsizliyin təmin olunması tədbirləri dövlətin aktiv struktur, sosial-iqtisadi, institusional dəyişikliklərin aparılması və maliyyə-kredit sabitliyinin təmin olunması siyasəti əsasında həyata keçirilməlidir.

İqtisadi təhlükəsizliyə təsir edən təhdidlər müəyyən zaman ərzində iqtisadi potensialın azalması dərəcəsini əks etdirən inteqral göstərici kimi təyin edilir ki, bu da son nəticədə müəyyən itkilərlə və ziyanlarla ifadə edilir.

İqtisadi təhlükəsizliyə təsir edən təhdidlərin səbəbləri çoxdur və müxtəlif xarakterlidir. Onlara əsasən aşağıdakıları aid etmək olar.

**Daxili təhdidlər:**

- dövlətin məqsədlərinə real nail oluna biləcək sosial-iqtisadi inkişaf konsepsiyasının, strategiyasının və proqramının olmaması;
- iqtisadiyyatın tənzimlənməsinin hüquqi-normativ təminatının sistemli və təkmil işləməməsi;
- hökumətin bank sferasında, fond və valyuta bazarlarında pul-kredit siyasətinin böyük riskli olması;
- vergi sisteminin qeyri-səmərəli olması;
- istehsal potensialının təkrar sisteminin dağılması (ilk növbədə onun aktiv hissəsinin);
- innovasiya-investisiya aktivliyinin aşağı olması;
- dövlət mülkiyyətinin qeyri-səmərəli və ədalətsiz özəlləşdirilməsi;
- iqtisadi strukturun geriləməsi;
- milli iqtisadiyyatın zəifliyi;
- texnologiyanın köhnəlməsi;
- elmi-texniki potensialın pisləşməsi;
- iqtisadiyyatın inhisarlaşması;
- rüvətxorluq, korrupsiya;
- ərazinin işğalı;
- sosial-siyasi gərginliyin artması;
- daxili ekstremizm.

**Xarici təhdidlər:**

- xarici firmaların daxili bazarı tutması;
- idxaldan asılılıq səviyyəsinin yüksək olması;
- milli müəssisələrin xaricilər tərəfindən ələ keçirilməsi;
- müharibə təhlükəsi;
- ekoloji təhlükələr.

Bütün bu qeyd edilənlər dövlətin iqtisadi təhlükəsizliyinin pozulmasına, əhalinin həyat səviyyəsinin pisləşməsinə, maliyyə böhranına, inflyasiyaya və digər xoşagəlməz nəticələrə gətirib çıxara bilər. Bunun qarşısının alınması üçün dövlətin iqtisadi təhlükəsizlik strategiyası və konsepsiyası hazırlanmalı və mütəmadi olaraq həyata keçirilməlidir.

İqtisadi təhlükəsizlik strategiyası dövlətin iqtisadi inkişaf strategiyası ilə qarşılıqlı əlaqədə hazırlanmalıdır. İqtisadi təhlükəsizlik strategiyasında həll edilməsi nəzərdə tutulan təhlükəsizlik problemləri və məsələləri iqtisadi inkişaf strategiyasında məqsədli proqramlar şəklində əks olunmalıdır. Nəzərə almaq lazımdır ki, iqtisadi təhlükəsizlik strategiyasının mahiyyəti və məzmunu gözlənilən (nəzərdə tutulan) və ya qəfildən baş verə biləcək daxili və xarici təhlükələrin aradan qaldırılmasına imkan verən iqtisadi inkişaf səviyyəsinə nail olunmasından ibarətdir. Dövlətin iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi üçün isə aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

- iqtisadiyyatın strukturunun səmərəliləşdirilməsinə;
- ölkədə geniş təkrar istehsalın təmin edilməsinə;
- əhalinin həyat səviyyəsinin yüksəldilməsinə;

- idxaldan asılılığın aradan qaldırılmasına, idxal-ixrac əməliyyatlarında nisbətlərin yaxşılaşdırılmasına;
- ölkənin ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasına (təmin edilməsinə);
- ölkənin enerji təhlükəsizliyinin yaxşılaşdırılmasına (təmin edilməsinə);
- ölkənin ekoloji təhlükəsizliyinin yüksəldilməsinə.

Dövlətin iqtisadi struktur siyasəti makroiqtisadi səviyyədə reallaşdırılmalıdır. Bu zaman məcmu tələbin yüksəlməsi, yığım normasının artırılması, investisiya mühitinin yaxşılaşması üzrə tapşırıqlar yerinə yetirilməlidir ki, ölkədə inkişaf prosesi rəvan getsin.

Makroiqtisadi səviyyədə aparılan struktur siyasəti səmərəli işləyən müəssisələrin dəstəklənməsi, qeyri-səmərəli müəssisələrin ləğv edilməsi və ya yenidən qurulması, bazar iqtisadiyyatı normalarına riayət etmələri fonunda həyata keçirilməlidir.

Dövlətin iqtisadi təhlükəsizlik strategiyasında əsas yer tutan sektorların mahiyyətini qısaca olaraq nəzərdən keçirək.

**İqtisadi strukturun təkmilləşdirilməsi**

Məlumdur ki, iqtisadiyyatın strukturu dedikdə milli iqtisadiyyat çərçivəsində sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyat və rabitənin, eləcə də xidmət sahələrinin xüsusi payı və bunlar arasındakı nisbət başa düşülür. Təbiidir ki, müxtəlif ölkələrdə bu nisbət müxtəlif ola bilər. Dövlətin struktur siyasəti ilk növbədə elə sahələrdə aparılmalıdır ki, həmin sahələrin məhsullarına ölkə daxili istehsal və istehlak sahələrində daha çox tələbat hiss olunur. Ancaq bir qayda olaraq belə hesab edilir ki, ÜDM-də sənayenin payı daha yüksək olan ölkələrdə iqtisadiyyatın strukturu daha səmərəlidir. Ona görə də dövlətin struktur siyasətinin əsasında sənaye sahəsinin daha sürətli inkişafının təmin edilməsi durmalıdır. Hesab edirik ki, Azərbaycan dövlətinin struktur siyasəti neft sektorundan əlavə sənayenin digər aparıcı sahələrinin (kimya, metallurgiya, maşınqayırma və s.) də inkişafına istiqamətləndirilməlidir. Bununla yanaşı, struktur siyasəti ilə investisiya və sürətli amortizasiya siyasətləri arasında qarşılıqlı uzlaşma nəzərə alınmalıdır. Dövlətin struktur siyasəti həm də, ölkədə sahibkarlıq formalarının tarazlı surətdə inkişafına şərait yaratmalıdır.

**Ölkədə geniş təkrar istehsalın təmin edilməsi**

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində daxili bazarın qorunması vacib məsələlərdən biridir. Bu isə yalnız ölkədə geniş təkrar istehsal üçün şəraitin yaradılması sayəsində mümkündür. Fikrimizcə, buna aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi sayəsində nail olmaq olar:
- əlverişli investisiya siyasətinin həyata keçirilməsi;
- yeniləşdirmə və modelləşdirmə, qabaqcıl texnika və texnologiyanın tətbiqi sayəsində xarici məhsullarla rəqabət apara biləcək məhsullar istehsal etmək;
- innovasiya məhsullarının ölkədə istehsalı üçün uzunmüddətli və güzəştli kreditlərin verilməsi;
- düzgün proteksionizm siyasətinin aparılması.

Hesab edirik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan sənayesinin struktur inkişafı aşağıdakı qruplarla həyata keçirilə bilər:
- birinci qrupa sənayenin ixracyönümlü hasilat və emal sahələri (neft və qazın hasilatı, neft emalı və s.) aid edilə bilər;
- ikinci qrupa texnoloji cəhətdən hələ də geridə qalan, lakin daxili bazar üçün mühüm olan sahələri (yüngül və yeyinti sənaye sahələri) aid etmək olar;
- üçüncü qrupa böyük elmi və texniki potensiala malik olan sahələr (maşınqayırma sənayesi sahələri, kimya və neft-kimya sahələri, informasiya texnologiyaları sahəsi) aid edilə bilər.

Bütövlükdə bu qrupların hər biri üçün dövlət yardımı konkret məqsəddən, prioritetlərdən, iqtisadiyyatın inkişaf səviyyəsindən, xarici investisiyaların həcmi və şərtlərindən, həmçinin beynəlxalq standartların tələblərinə uyğun tərtib edilmiş biznes-planlardan asılı olaraq fərqlənməlidir.

Göründüyü kimi, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün iqtisadi struktur daima dəyişdirilməli, onun səmərəliliyi və rəqabət qabiliyyəti yüksəldilməlidir.

**Əhalinin həyat səviyyəsinin yüksəldilməsi**

Məlumdur ki, ölkə əhalisinin həyat səviyyəsi aşağıdakılarla müəyyən edilir:

- əhalinin gəlirlərinin səviyyəsi ilə;
- minimum əməkhaqqının və orta əməkhaqqının səviyyəsi ilə;
- yaşayış minimumu ilə gəlirlərin müqayisəsi ilə;
- əhali arasındakı təbəqələşmə ilə.

Nəzərdən qaçırmaq olmaz ki, dövlətin iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi arasında birbaşa əlaqə vardır və bunlar bir-birindən asılıdır. Ona görə də əhalinin həyat səviyyəsinin yüksəldilməsinə iqtisadi təhlükəsizlik amili kimi baxılmalıdır.

**İdxaldan asılılığın aradan qaldırılması, idxal-ixrac əməliyyatlarında nisbətlərin yaxşılaşdırılması**

Daxili bazarın qorunması dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas amillərindən biridir və daxili bazarın qorunması idxal-ixrac əməliyyatlarının nisbəti ilə müəyyən edilir. İqtisadi nəzəriyyədən məlumdur ki, ixracın idxalı üstələməsi və birincinin son (hazır) məhsul, ikincinin isə xammal bazasında formalaşması ölkə iqtisadiyyatı üçün olduqca vacibdir. Bu proses hələlik Azərbaycanın xeyirinə deyildir. İxracın çox böyük hissəsi enerji daşıyıcılarının və xammal təyinatlı məhsulların payına düşür. İdxalın xeyli hissəsini isə istehlak malları, o cümlədən ərzaq məhsulları təşkil edir. Belə vəziyyət beynəlxalq əmək bölgüsü sistemində Azərbaycanın mövqeyinin çox da yaxşı olmasına dəlalət etmir.

Ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı Azərbaycan dövlətinin yeritdiyi siyasət hazır məhsulların idxalını əvəz edə bilən milli məhsulların istehsalı ilə yanaşı, onların ixrac imkanlarının da artırılması üçün geniş imkanlar açır. Bununla yanaşı milli istehsalı stimullaşdırmaq, onu xarici rəqabətdən qorumaq üçün düşünülmüş proteksionizm siyasəti də yürüdülməlidir. Hazırda proteksionizm siyasəti (xarici iqtisadi əlaqələrin liberallaşdırılması ilə yanaşı) hər bir ölkədə dövlətin iqtisadi təhlükəsizlik strategiyasının tərkibi olaraq tətbiq edilir. Bu baxımdan Azərbaycan özünün gömrük siyasəti vasitəsilə iqtisadiyyatın ayrı-ayrı sahələrində rəqabətin tədricən gücləndirilməsini təmin edən və eyni zamanda onun dağıdıcı prosesə çevrilməsinin qarşısını alan səmərəli rəqabət rejiminin yaradılmasına (daxili bazarın qoruması məqsədi ilə qeyri-mütəşəkkil əmtəə idxalı aktiv surətdə məhdudlaşdırılmalı və sahibkarlıq fəaliyyətinin digər yarım emal formaları aradan qaldırılmalıdır) cəhd göstərilməlidir.

Hesab edirik ki, idxaldan asılılığın aradan qaldırılması, idxal-ixrac əməliyyatlarında nisbətlərin yaxşılaşdırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- milli maraqların gözlənilməsi şərti ilə xarici iqtisadi əlaqələrin (idxal-ixrac əməliyyatlarının) tənzimlənməsi, milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası şəraitində xarici iqtisadi fəaliyyətin iqtisadi səmərəliliyinin yüksəldilməsi;
- hazır məhsulun istehsalının artırılması hesabına ixrac potensialının artırılması;
- milli ixracatçıların dünya əmtəə bazarında mövqelərinin gücləndirilməsi və inkişaf etdirilməsi üçün onların maraqlarının dövlət tərəfindən qorunması;
- yol verilən hədlər daxilində milli istehsalçılara münasibətdə himayəçilik siyasətinin yeridilməsi (inhisarçılığa gətirib çıxarmaması şərtilə);
- manatın sərbəst dəyişilə bilən valyutalara nisbətinin sabitləşdirilməsi;
- ölkəni xarici ölkələrlə birləşdirən nəqliyyat arteriyalarının fasiləsiz işinin təmin edilməsi.

Müasir Azərbaycan dünyanın neft-qaz regionlarından biri, strateji əhəmiyyət kəsb edən dövlətdir. Ona görə də, əlverişli coğrafi mövqedə yerləşən, zəngin təbii sərvətlərə, böyük elmi-istehsal və əmək potensialına malik olan Azərbaycanın iqtisadi təhlükəsizlik konsepsiyasının daim təkmilləşdirilməsinə ehtiyac vardır.

İstənilən dövlətin, o cümlədən Azərbaycanın iqtisadi təhlükəsizliyinin vəziyyətini xarakterizə etmək üçün aşağıdakı göstəriciləri təhlil etmək lazımdır:

- əhalinin hər nəfəri hesabı ilə ÜDM-in həcmi, digər ölkələrlə müqayisədə onun dinamikası;
- ÜDM-in ümumi həcmində emal sənayesi məhsullarının xüsusi çəkisi;
- elmi-tədqiqat və konstruktor işlərinə məsrəflərin ÜDM-ə nisbəti;

- yoxsulluğun beynəlxalq standartlara əsasən müəyyən edilən səviyyəsi;
- illər üzrə ömrün orta uzunluğu;
- işsizliyin səviyyəsi (%-lə);
- illik inflyasiyanın səviyyəsi;
- dövlət borclarının məbləği, bu məbləğin ÜDM-ə və büdcə daxilolmalarına nisbəti (faizlə);
- xarici borcların məbləği, bu məbləğin ÜDM-ə nisbəti (faizlə);
- idxalın məbləği, bu məbləğin ÜDM-ə nisbəti (faizlə);
- ərzaq məhsullarının idxalı – ümumi istehlak məhsullarına nisbətən faizlə;
- maliyyə axınının normal səviyyədə olması;
- valyuta vasitələrinin xaricə axınının limiti aşmaması;
- yerli məhsulların xarici bazarlara daxil olmasına, daxili ehtiyacların idxal hesabına mümkün hədlərdə ödənilməsinə imkan verən xarici ticarət sisteminin mövcudluğu;
- mühüm elmi-praktiki mərkəzlərin fəaliyyətinin intensivləşdirilməsi;
- iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin mövcud iqtisadi sistemə uyğun qurulması və s.

Qeyd edilənlər dövlətin iqtisadi təhlükəsizliyinin meyarlarının və parametrlərinin ümumiləşdirilmiş formasıdır. Bunların əksəri hər bir ölkədə konkret rəqəmlərlə ifadə olunur. Qeyd edilənlərin yüksək səviyyədə mövcudluğu zamanı ölkənin iqtisadi təhlükəsizliyindən danışmaq olar.

**Dövlətin ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması**

Hər bir ölkənin iqtisadi təhlükəsizlik strategiyasının tərkibində ərzaq təhlükəsizliyi xüsusi yer tutur. Dünya təcrübəsində “Ərzaq təhlükəsizliyi” termini ölkənin ərzaq bazarındakı vəziyyətini qiymətləndirmək üçün istifadə edilir. Ərzaq təhlükəsizliyi anlayışı sosial-iqtisadi və siyasi-iqtisadi xarakter daşıyır. “Sosial-iqtisadi” xarakter - ölkənin qəbul edilmiş normalara müvafiq olaraq dövlətin öz vətəndaşlarını əsas ərzaq məhsulları ilə təmin etməyə qadir olmasını, “siyasi-iqtisadi” xarakter isə əhalinin ərzaqla təmin olunmasını təşkil etmək üçün dövlətin daxili resursları və aqrar-iqlim şəraitini səfərbər etmək qabiliyyəti deməkdir.

Ərzaq təhlükəsizliyi problemi bütün dünyada olduğu kimi, Azərbaycan üçün də olduqca aktualdır. Məlum olduğu kimi, istehlak mallarının bir çoxunun xeyli hissəsi xaricdən idxal olunur. Çünki aqrar-sənaye kompleksinin mövcud inkişaf səviyyəsi əhalinin artan tələbatını hələlik kifayət qədər ödəyə bilmir. Ona görə də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün kənd təsərrüfatının inkişafında ciddi dönüşün yaradılması dövlət orqanları qarşısında əsas vəzifələrdən biri kimi durmalıdır.

